Nadir Əhmədov

# TARİXİMİZDƏN BİR VƏRƏQ

Bakı - 2014

Nadir Əhmədov

Vətəni ,milləti sevmək üçün onun tarixini bilmək, gənc nəslə tanıtmaq gərəkdir. Tarix, düşmənləri susdurmaq üçün qüvvətli bir silahdır. Kiril əlifbası ilə yazılaraq təhriflərə yol verilmiş, Azərbaycan tarixinə aid kitabları yeni nəsil oxumaqda müəyyən çətinliklər çəkir.

Bu kitab dünya tarixinə adı qızıl həriflərlə yazılmış, onun inkişafına tövhələr vermiş, türk oğulları haqda qırxdan çox tarixi və bədii ədəbiyyatdan oxuduqlarımın əsasında yazılmışdır.

”Tariximizdən bir vərəq” kitabında fəsillərin biri Şəki xanlığına həsr edilmişdir. Hacı Çələbinin nəslinin və müstəqil Şəki xanlığının şəcərə sxemi verilmişdir.

# GİRİŞ

Vətəni, milləti sevmək üçün onun tarixini bilmək, bu tarixi yaradan şəxsiyyətləri üzə çıxarmaq, gənc nəslə tanıtmaq gərəkdir. Ulusunu tanımayan, şəxsiyyət kimi yetişə bilməz. Hər bir millətin keçmişi onun tarixidir. Xalqın, millətin tarixi olduğu kimi yazılmalıdır. Tarixin sahibi olmaq, torpağın sahibi olmaq deməkdir. Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və qiymətləndirmək lazımdır.

Çox şeyi düzüb-qoşmaq olar, tarixdən başqa. Axı tarix nə ləkə götürür, nə də pas atır.Tarixi saxtalaşdırılan xalqın taleyi fəlakətli olur. Eləcə də tarixi başqaları tərəfindən yazılan xalqın, millətin, dövlətin gələcəyi olmur.

Tarix düşmənləri susdurmaq üçün qüvvətli bir silahdır və bəşəriyyətin min illər topladığı həyat təcrübəsini nəsildən-nəslə keçirən etibarlı bələdçidir.

Keçmişini yaxşı bilməyənlər, adətən gələcəyini də müəyyənləşdirməkdə çətinlik çəkir və təkrar-təkrar bağışlanılmaz səhvlərə yol verirlər.

Vətənini, millətini, dövlətini sevən vətəndaş onun tarixini öyrənməli, öyrəndiklərini öyrətməli və təbliğ etməlidir. Vətənimizin reallığı əks etdirən tarixini yazmaq üçün sənədlər, arxiv materialları dünyanın bütün ölkələrinin arxivlərindən toplanıb cap olunaraq gənc nəsillərə çatdırılmalıdır. Tarixdə hər şey olduğu kimi ( ağı-ağ,qarası-qara) yazılmalıdır və siyasi quruluşun ideologiyasına, kənardan verilən göstərişlərə uyğun olmamalıdır. Milləti bir ağaca bənzətsək, onun kökü tarixi, gövdəsi bu günü, budaqları isə gələcəyidir. Tarix bər-bəzək sevmir, onu olduğu kimi gəbul edərək dərk etməli və qiymətləndirməliyik. Alimlər, tədqiqatçılar tərəfindən yazılmış ki-

tablarda saxtakarlığa yol verilirsə, bu, atılmış bumeranq kimi qayıdıb özümüzə dəyəcək.

Bəşəriyyətin tarixi boyunca çoxlu türk dövlətləri və imperiyaları qurulmuşdur. Bu dövlətlərin bəziləri, hətta dünyaya hökmranlıq etmişlər. Yaxın dövrlərə qədər yazılı mənbələr bizə Türk tarixinin hun türklərindən başladığını bildirirdi. Ancaq belə deyil. Bizim tariximiz bəşəriyyət tarixi qədər qədimdir. Tariximizi dərindən araşdıranda görunur ki, o, Şumerlərin tarixindən də qabağa gedir.

Qədim mənbələri araşdıranda məlum olur ki, tarix boyunca müstəqil türk dövlətlərinin sayı 115-dən çox olmuşdur (bura son vaxtlar yaranan Azərbaycan, Özbəkistan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan dövlətləri də daxildir)

Türk eli böyük imperiyalar, dövlətlər, sərkərdələr, dövlət xadimləri, alimlər, filosoflar, şairlər yetişdirib. Onlar bəşəriyyətin inkişafında və təkamülündə müstəsna rol oynayıblar.

Biz bu böyük insanlarımızın dövlətçilik təcrübəsini,həyat fəlsəfəsini, dünyaya baxışlarını dərindən öyrənməli və müasir vəziyyətə uyğun istifadə etməliyik.

Biz ümumdünya tarixini,onun içində böyük Turanımızın,türklərin tarixini, yaşadığımız dövlətin, bölgənin tarixini dərindən öyrənməklə vətənimizə layiqli vətəndaşlar yetişdirə bilərik.

“Azərbaycan” adı qatı millətçi fars şairi olan Firdovsinin “Şahnamə” əsərində işlədilir.

XX əsrin əvvəllərindən (1925-ci il) Qacarlar sulaləsinin süqutundan sonra hakimiyyəti ələ kecirən farslar ‘Iran’ coğrafi adını qəbul etmişlər (Qədim Şərq tarixi, 1992, səh. 306).

Faciələr onda baş verir ki,biz keçmişimizi unudur və gələcəyimiz haqqında düşünmürük. Məhz buna görə tariximizi bilməli, gələcək üçün özümüzü və nəslimizi hazırlamalıyıq.Tarixi

keçmişimizi bilməli, tanımalı, tanıtdırmalıyıq. Dünyaya özümüz haqda həqiqətləri də çatdırmalıyıq.

Bəşər övladı dünyaya göz açdığı gündən düşüncə tərzini daima inkişaf etdirib,cəmiyyətin yüksəlişi haqqında düşünmüşdür. Tariximizi diqqətlə tədqiq etsək görərik ki, dövlətlər arasında gərgin münasibətlər, müharibələr hakimiyyətdə olan şəxslərin dar düşüncəli olması, vəziyyəti düzgün qiymətləndirməməsi, müdrikliyinin çatışmaması nəticəsində baş verib. Hakimiyyətə gələnlərin bir çoxu qisascılıq, tayfabazlıq, şəxsi mənafelərini güdmək, xalqa xor baxmaq ayrı seçkilik salmaq və sairə qeyri mənəvi, qeyri-əxlaqi hərəkətlərə yol verərək dövlətini, xalqını uçurumlara aparmışlar. Hakimiyyətə sağlam düşüncə, yüksək mənəvi meyarlarla yanaşan, xalqı ilə hesablaşan hökmdarların dövlətləri nüfuzlu, qüdrətli olub, xalq tərəfindən dəstəklənmişdir.

Əyri yollarla hakimiyyətə gələnlər bir qayda olaraq məkrli, hiyləgər siyasət yürüdərək, xalqın içində ayrı seçkilik salırlar. “Parçala və hökm sür” tarixin sınağından çıxmış misaldır.

Müsəlman hökmdarların saraylarında qardaş qətlləri tez-tez təkrar olunurdu. Taxt-taca yiyələnənlər öz qohumlarını, qardaşlarını necə olur-olsun sıradan çıxarırdılar. Bu acı və iyrənc bir hal idi. Belə hallar bir çox millətlərin və dövlətlərin tarixi keçmişində də baş vermişdir. İkinci Yekaterina alman şahzadələrindən idi. Gənç yaşlarında onu Rusiyaya gətirib yarımdəli rus şahzadəsinə ərə vermişdilər. Bu alman qızı ərinin dələduzluğu ucbatından çox əziyyətlər çəkmişdi. Rus imperatoru III Pyotru qardaşlarının əli ilə öldürdükdən sonra, II Yekaterina imperatriçə oldu. Onun həyatda eyş-işrətdən başqa sanki heç bir məqsədi yox idi. Gününü ozundən xeyli cavan məşuqları ilə keçirirdi, demək olar ki, dovlət işlərinə vaxtı çatmırdı. Pavelin anası II Yekaterina 67 yaşında vəfat etdi. Rusiyanın im-

peratoru onun oğlu Pavel oldu. Rusiyanın ağılsız imperatoru Pavel xalqı o qədər incitdi ki, ətrafındakı zadəganlar onu öldürüb oğlu I Aleksandrı imperator elan etdilər. Rusiya çarları da, sarayda hazırlanası sui-qəsdlərin qurbanları olurdular. Tarixdə belə hallar çoxdur.

Hökmdarlar çox vaxt zərurət olmadan bəzən də öz istəyi ilə, bütün dünyanı öz qarşısında diz çökdürmək, qisas almaq və s. məqsədlərlə müharibələrə başlayırdilar.

Nəticələrə baxın. Bu müharibələrdən sonra nəyə nail olurdular? Müharibələr əlillər, dağıdılmış şəhərlər, aclıq, xəstəliklər, tənha insanlar, yoxsulluq, ağlasığmaz psixoloji problemlər və s. yaradırdi. Oxucularda faciə, sarsıntı və həyacan hissləri yaratmaq fikrində deyiləm. Lakin tarixi həqiqətləri bilmək lazımdır.

Çox vaxt hər iki tərəf eyni dildə danışa-danışa,"Allahu-Əkbər" deyərək döyüşlərə atılırdılar.Müharibəyə qardaşlarına qarşı döyüşə göndərilən aldadılmış gənclər nə düşünürdülər?: Onları vicdansızcasına aldatmışlar. Vətən uğrunda ölməyə çağıran anti-milli , anti-islami, anti-insani şüarlar hakimiyyətdə olan şəxslərin istəklərinə qulluq edirdi. Vətəndaş müharibəsi adlanan bəlalara düçar olmuş cəmiyyətin inkişafı haqqında hökmdarların düşünməyə vaxtı və imkanları qalmırdı. Nəticədə tənəzzül, sarsıntılar, xəstəliklər və s. dövləti , xalqı on illərlə geri atırdı. Belə hökmdarların hərəkətində şeytani hisslər irəli çıxırdı. Alicənablıq, mərhəmət, xeyirxahlıq, xilas etmək, elm yaddan çıxırdı. Ağılsız hökmdarları yersiz muharibələrdən çəkindirmək istəyənlər olsa da, onlara qulaq asmırdılar.

Hökmdarları artıq var-dövlət, şan-şöhrət, hakimiyyət hissi idarə edirdi. Milli hisslər məhv olurdu. Bu qardaş qırğınlarında xalqın minlərlə gənclərini, igidlərini ölümə göndərən şahlara, sultanlara nə ad vermək olar? Əhalini qətl etməkdən, şəhərləri

yandırmaqdan, dağıtmaqdansa, sosial sahələri, elmi inkişaf etdirmək olmazdımı?. Dini kitablarda yazılır ki, bir mömini qətl edənin yeri cəhənnəmdir. Bəs görəsən bu hökmdarların yeri haradadır?

Müharbələrdə baş vermiş fəlakətlər nəyin bahasına başa gəldiyi bu hökmdarlara qarşı amansiz ittihamlar kimi səslənir. Nəticədə bu müharibələrdə qələbə çalan, məğlub olan, saysız-hesabsız itkilər verən eyni dinin, dilin daşıyıcısı olan türklər olurdu.

Mürəkkəb bir zamanda yumruq kimi birləşməsinə zərurət olan eyni xalqın parçalanaraq Əmir Teymurla, İldırım Bəyazidin, Şah İsmayılla Sultan Səlimin və başqa şahlarin, sultanların bir-birinə düşmən kəsilməsi bağışlanmaz tarixi cinayət deyilmi? Əziz oxucular, tarixə nəzər salanda görürük ki, XVII əsrdən sonra İslam dünyası mövqelərini itirməyə başladı .

Rus tarixci Qumilyov "Qədim türklər" kitabında yazırdı ki, Türklər Hunların birbaşa törəmələridir.

Əmir Teymur deyib ki, Türkün Türkdən başqa dostu yoxdur. Burada Molla-Cümənin şeirinin bir sətiri yada düşür: "cana yanan ya bir olar, ya iki".

Osmanlı imperiyasının 1-ci dünya müharibəsində məğlub olmasının nəticələrnə görə, Antanta ölkələri tərəfindən türklərə kiçik bir ərazi saxlanılmışdı. Məhdudlaşmış hüquqlarla razılaşmiş sonuncu Sultan təslimçi müqavilə bağlamışdı. Bununla razılaşmayan Mustafa Kamal Atatürk bu ədalətsiz müqaviləyə qarşı çıxdı. Atatürkün başçılığı ilə azadlıq hərakatı başlandı,qanlı doyüşlərdə qələbə çalındı və indiki müasir Türkiyə dövləti yarandı. Bu vaxt Rusiyanın daxilində misli görünməmiş çaxnaşmalar və inqilab çar hökumətinin süqut etməsinə gətirdi. Sovet hökumətinin Türkiyədən çar Rusiyasının ordusunun generallarını geri çağırması indiki Türkiyə dövləti-

nin yaranmasına kömək etdi. Bu dövrlər Azərbaycan da böyük faciələr yaşadı. Xalqımıza qarşı ermənilər tərəfindən soyqırımlar həyata keçirildi. Özünün ağır vəziyyətdə olduğuna baxmayaraq, Türk dövləti Ənvər paşanın sərəncamı ilə qardaşı Nuru Paşanın rəhbərlik etdiyi ordunu Azərbaycana kömək göndərdi. Bu kömək Azərbaycan xalqının erməni-bolşevik soyqırımından və indiki Azərbaycan dövlətini tarixin xəritəsindən silinməkdən xilas etdi.

Tariximizə səyahət etdikdə görürük ki, bəşər övladının dünyaya gəldiyi cənnət bağı Təbriz, həmçinin Gəncə, Şəki və.s şəhərlərimiz işğalcı dövlətlər tərəfindən dəfələrlə dağıdılıb və əhalisi qırğın və talanlara məruz qalmışdır.

Toxtamışın, Əmir Teymurun, rusların Azərbaycanımızın ulu paytaxtı Təbriz şəhərini yerlə-yeksan edərək talaması, vəhşiliklər törətməsi də tarixdən məlumdur.

1804-cü ildən Gəncə şəhəri ruslar tərəfindən mühasirəyə alınaraq qala divarı rus ordusu tərəfindən top atəşinə tutularkən analarımızın fəryadla dediyi bayatı həmin dövrü çox gözəl əks etdirir.

***Rus qapıya dayandı,***
***Körpə balam oyandı.***
***Xəbər verin Türklərə,***
***Gəncə qana boyandı.***

Bu bayatıda Türkə olan güvənə xalqımızın inamı çox gözəl ifadə olunub.Bu güvən həmişə olub,vardır və olacaqdır. Çünki, bizim canımız, qanınız, dinimiz, dilimiz, düşüncələrimiz də birdir.

Türk milləti, Türk dünyasi uzun sürən enişdən sonra sürətlə yüksəlməyə başlayıb. İnşallah, bu yüksəliş əbədi olacaq.

## ÖN SÖZ

Bu kitab Azərbaycanın görkəmli dövlət xadimi, bütün həyatını rabitəmizin inkişafına həsr etmiş, rabitə elektro-montyoru vəzifəsindən Azərbaycan Respublikasının Rabitə Naziri vəzifəsinədək müxtəlif dövlət vəzifələrində şərəfli həyat yolu keçmiş, Nadir Alı oğlu Əhmədovun növbəti kitabıdır. Uzun müddət həyat fəaliyyətini müşahidə etdiyim insan kimi işlədiyi bütün vəzifələrdə məsul olduğu sahələrə yeni nəfəs, dirçəliş gətirməyi bacaran Nadir müəllim bu gün də öz üzərində yorulmadan çalışır. Kamilliyin hüdudu yoxdur. Bu aksiomdur. Müdrik vətəndaş Nadir müəllim hər tərəfli bir insan kimi elmin müxtəlif sahələri ilə daim maraqlanır və öyrənir . Öyrənməklə yanaşı biliklərini ətrafı ilə səxavətlə bölüşür. Neçə-neçə texniki kitabın müəllifi Nadir müəllimin bu kitabı, onun üçün yeni sahəyə, tariximizə həsr olunur. Bu kitab, tariximizə bir yaradıcı mühəndisin baxışı kimi də dəyəndirilə bilinər. Deməliyəm ki, bu gün tarix elmimizdə müəyyən qüsurlar, zidiyyətlər, uyğunsuzluqlar var. Müxtəlif kitablarda tarixi dövrlərə, hadisələrə ikili baxış var. Tarixi hadisələri müsbət və ya mənfi qiymətləndirmək dövrə baxışlarda çaşqınlıq yaradır. Bəzi Tarixçi alimlərimiz millətin soy-kökünü ona yad olan xalqlara bağlamağa çalışırlar. Ancaq birmənalı olaraq bu xalqın genetik kodu, qan yaddaşı, düşüncə tərzi, dili onun türk oğuzu olduğunu göstərir. Tarix boyu xalqımızı əzmək, əritmək, öz soy-kökünə, şanli tarixi keçmişinə kəm baxdırmağa çalışmışlar. Milli kimliyimizi, dilimizi unutdurmağa cəhdlər olmuşdur. Lakin, bu cəhdlər heç bir nəticə verməmişdir.

Sovetlər dövründə xalqın on iki əsrdən artıq yazıb-yaratdığı ərəb əlifbasını latın əlifbasına, 1936-cı ildən isə kiril əlifbasına

dəyişilmişlər. 1936-cı ilə qədər pasportlarda milliyyəti "türk" yazılan vətəndaşlarımız bircə gündə dönüb. "Azərbaycanlı" oldular. Sovet hakimiyyəti dövründə yazılmış bütün tarix kitablarında siyasi sifariş əsasında türk xalqlarını aşağılamaq cəhdləri var idi . Alimlərimizi, ziyalılarımızı repressiyalara uğratdılar. Yeni qondarma xalq - "Sovet xalqı" məhfumunu geniş surətdə işlətməyə başladılar. Hətta 1977-ci il konstitusiyasında "millət" qrafasına "Sovet xalqı" yazmaq təşəbbüsü də oldu.

Xalqımız həmişə tolerant olmuş, milli azlıqların hüqüqlarına, dini etiqadlarına hörmətlə yanaşmış, onların inkişafı üçün bütün şəraiti yaratmışdır. Bu, belə də olmalıdır. Çünki türkçülük bəşəridir. Bütün insanlar qardaşdırlar. Ancaq insanlığa düşmənlər, türkçülüyün düşmənləridir. Millətimizin bəşəriliyini, dünyaviliyini, böyüklüyünü onda görmək olar ki, Sibirdə yaşayan Türklər əski dinlərinə - şamanizmə, Orta Asiya, Çin, Qafqaz türkləri, Azərbaycan, Anadolu türkləri, boşnaklar, tatarlar, başqırdlar və s. islama, bulqarlar, qaqauzlar xristianlığa, kalmıklar buddizim dininə sitayiş edirlər. Tarixdə Musəvi dininə sitayiş edən ən böyük Xəzər Xaqanlığı dövlətini də türklər yaratmışlar.

Özümün iştirakçısı və şahidi olduğum iki hadisəni oxucularla bölüşmək istərdim:

1-ci haşiyə. 1990-cı ildə "Rabitə Evi"ndə Teleqrafın Akt zalında Azərbaycan xalqının böyük oğlu, görkəmli tarixçi alimimiz akademik Ziya Bünyadovla rabitəçilərin görüşü oldu. Görüş çox maraqlı keçdi. Görüşün sonunda Ziya müəllimə yaxınlaşıb məni narahat edən iki sualla ona müraciət etdim. Ziya müəllimdən soruşdum ki, biz kimik, millətimizin adı nədir?

O gülümsəyərək dedi ki, biz Türkük, türk oğuz. Daha sonra soruşdum ki, deyirlər Şah İsmayıl Xətai dövlət dilini Azərbaycan (Türk) dili elan edib, dövlət yazışmaları, saray daxili

danışıqlar bu dildə aparılıb - bu doğrudurmu? Bu suala Ziya müəllim əsəbləşən kimi oldu. Yüksək səslə: "Kim deyir bunu - çox səhv edir. Belə bir sənəd varsa, qoysunlar ortaya.Bir tarixçi kimi bu günə qədər belə sənəd görməmişəm və yoxdur. Bu barədə deyilənlər yalandır..."

2-ci haşiyə. Mən İran İslam Respublikasının böyük Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyar haqında çəkdiyi çox seriyalı filimə baxdım. Filmin bir yerində fars şairi M.Şəhriyara, "Ay türk, öz şerlərindən birini bizə oxu"-dedi.

XX əsrin sonu - XXI əsrin əvvəli İslam dünyası üçün çox ağrılı-acılı keçir. İslamı terrorda, cəhalətdə suçlandıran Qərb dünyası unudur ki, elmi, inkişafı, insani dəyər və davranışları onlara məhz İslam gətirib. (Bax: Qurban Səidin "Sonuncu Peyğəmbər" əsəri və digər yazıçı və tarixçilərin əsərlərinə).

Məğlub olmuş ölkənin uşağına, qocasına, qadınına toxunmamaq, yaralısına yardım etmək, insanların hüquqlarına hörmət etmək HƏZRƏTİ PEYĞƏMBƏRİMİZ MƏHƏMMƏDİN (Ə.S.S.) öz sərkərdələrinə ünvanladığı məktublarında əksını tapıb. Bu məktublar bu günə qədər saxlanılır. Avropalılar İspaniyada yerləşən müsəlman universitetlərində təhsilə, elmə sahib olub inkişaf edirdilər. Qərbin bizə qarşı haqsız və əsassız iddialarına bir neçə misal və sualla cavab vermək istəyirəm.

1.Orta əsrlərdə insanı şeytan elan edib tonqallarda kim yandırırdı?

2.Amerikada hindu tayfalarını, sonralar isə Əlcəzairdə, Vyetnamda, və s. soyqırımları kim edib?

3.XVIII-XX əsrlərdə dünya xalqlarını əsarət altına almaq üçün kolonial müharibələri kim aparıb?

4.Kimyəvi silahı birinci olaraq kim hazırlayıb və insanlığa qarşı tətbiq edib?

5.Nüvə silahı birinci olaraq kim hazırlayıb, onu atmosferdə, suda, quruda sınaqdan keçirib və insanlığa qarşı tətbiq edib?

6.On milyonlarla insan həyatı bahasına başa gəlmiş I və II dünya müharıbələrini kim törədib?

7.Bioloji silahı kim hazırlayıb? - Əlbəttə, Qərb və xristian ölkələri.

Ancaq ədalət naminə onu da demək lazımdır ki, Qərb ölkələri elmə, islahatlara verdikləri önəmə görə XVIII əsrdən sürətli inkişaf yoluna qədəm qoydular. Onlar elmləri ilə bərabər siyasi sistemlərində də islahatlar apardılar. Bunun nəticəsində də bugünkü tərəqqiyə, inkişafa nail oldular.

Biz də bir millət olaraq daimi axtarışda olmalıyıq. Dünyada inkişafa, tərəqqiyə yardım edən yaxşı nə varsa, özümüzdə onu tətbiq etməliyik. Bu bizim gələcək nəsillər qarşısında olan borcumuzdur.

Azərbaycan tarixinin XVIII-XIX əsrləri əhatə edən dövrünün necə keşməkeşli olduğuna baxdıqda xalqın hansı faciələri yaşadığını görürsən. Bölgələrimiz hərəsi özünə feodal dövlətləri yaradaraq bir birinə qarşı amansızlıqla müharibələr aparmış, böyük maddi və mənəvi itkilərə məruz qalmışlar.

XIX əsrdə alman feodal dövlətlərini birləşdirən Otto fon Bismark qüdrətli Alman dövləti yaratdı. Təəssüflər olsun ki, bizdə belə bir dövlət xadimi olmadı. Bu işləri Nadir Şah, Qacar Şah yerinə yetirə bilərdilər. Onlar isə dövlətdə geniş islahatlar apararaq, öz effektliyini itirmiş feodal sistemin əvəzinə kapitalist münasibətlər sistemini tətbiq etmək, elmi və sənayeni ikişaf etdirməkdənsə, bütün diqqətlərini işğalçı müharibələrə yönəltdilər.

Tarixi mənbələrimin çoxunun Türkiyədə, İranda və digər ölkələrdə olması onun öyrənilməsinə çətinliklər yaradır. Azərbaycan böyük Turanın bir parçasıdır. Ona ayrıca tarix yazmaq

da mümkün deyil. Nə qədər yazılsa da, natamam olacaq. Şimali Azərbaycan (86,6 min kv km) ümumi Azərbaycanın (tarixi məlumatlara görə 500 min kv km.) kiçik bir parçası olduğu kimi, bütöv Azərçaycan da böyük Türk elinin çox da böyük olmayan bir hissəsidir. Yuxarıda deyilənlərdən çıxan nəticə odur ki, tariximiz bütün Türk xalqlarının ümumi tarixi kontekstində yazılmalı, öyrənilməli və dərk olunmalıdır.

Nadir müəllimin kitabında ibrətamiz bir ana xətt var. Kitabda Türk xalqının yetişdirdiyi dahi şəxsiyyətlər, onların dünyagörüşü, həyat fəlsəfəsi, gördüyü işlər barədə məlumatlar öz əksini tapıb. Müəllifin kitabında böyük Türk elinə bütöv Azərbaycanın və onun ayrılmaz parçası olan Şəkinin bağlanmasını görürük. Kitabda Şəki xanlığının dövlət kimi təşəkkülü, onu idarə edən xanların nəsil şəcərəsi sxem şəklində göstərilib. Yazılarda tarixi şəxsiyyətlərə müxtəlif bucaq altında baxışlar verilib. Bu da tarixi şəxsiyyətlərin portretinin, xüsusiyyətlərinin ortaya çıxmasında köməklik edir. Kitabın məğzi, məramı, ana xətti də budur. Bu kitabın insanlarımıza millətini, vətəninin tarixini sevməyə kömək edəcəyinə əminəm. Türk xalqlarının şanlı keçmişi olub, mövcüd bu günümüz var və böyük gələcəyimizi qurmaq üçün həqiqəti əks etdirən, təhlil olunmuş, çatışmazlıqlara tənqidi baxışları olan tariximiz, gələcəyə tuşlanmış strategiyamız, milli ideologiyamız işlənilib hazırlanmalıdır.

HƏZRƏTİ PEYĞƏMBƏRİMİZ MƏHƏMMƏD (Ə.S.S.) - insanın insandan üstünlüyünü onun elmində, biliyində görürdü.

Lazım gələrsə, elm dalınca Çinə də getməyi məsləhət görürdü. Biz inkişaf etmək, milli varlığımızı qorumaq üçün daim irəli getmək istəyiriksə, şanlı keçmişimizə uyğun gələcək həyatımızı, dünya xalqları arasında sayılıb-seçilən olmaq istəyiriksə, elimimizi inkişaf etdirməliyik. Saf əqidəli, düzgün

düşünməyi, düzgün yaşamağı, düzgün danışmağı bacaran övladlar yetişdirməliyik. Müqəddəs kitablarda yazıldığı kimi gələcək üçün böyük günahlardan - pozğunluq, xəsislik, paxıllıq, qəzəb, yaltaqlıq, tənbəllik, mənəviyyatsızlıq, təkəbbürlükdən uzaq vətəndaşlar yetişdirməliyik.

Bu işdə müəllimlərimizin və ziyalılarımızın üzərinə böyük məsuliyyət düşür. Uşaqlarımız cavan ağaclara bənzəyir. Əgər ağacı əkərkən yanına onun qamətini saxlamaq üçün dayaq basdırmasaq, küləklər onu əyəcək. Övladlarımız mənəviyyatımıza, milli ideologiyamıza uyğun tərbiyə almalıdılar ki, yandan əsən müxtəlif ideoloji küləklərin təsirinə düşərək əyilib eybəcərləşməsinlər.

Böyük Çin filosofu Konfutsidən soruşanda ki, millətin, dövlətin varlığı üçün üç əsas şərt hansıdır? O cavab vermişdir ki, mənəviyyat, iqtisadiyyat, hərbi qüvvələr.

Əgər üç əsas şərtin birindən imtina etmək lazım gələrsə, hansından imtina edərdin? O cavab vermişdir ki, hərbi qüvvələrdən. Bəs yerdə qalan iki şərtdən birindən imtina etmək lazım gələrsə , hansına üstünlük verərdin? Filosof cavab verib: İqtisadiyyatdan imtina edib mənəviyyatı saxlayardım.

Mənəviyyat bizim varlığımızdır. O yoxsa, millət, xalq, dövlət də yoxdur.

Alman xalqı XX əsrdə iki Dünya müharibəsinin baş vermәsinin səbəbkarı olmuş və hər iki müharibəni uduzmuşdur. II Dünya mühəribəsindən sonra almanlar sənaye potensialının 98%-ni, yaşayış fondunun isə 75%-ni itirmişlər. Sağ qalmış sənaye müəssisələri isə təzminat şəklində qalib dövlətlər tərəfindən sökülüb aparılmışdır. Müharibədə milyonlarla alman ölmüş, şikəst olmuş, yaralanmış və əsr düşmüşlər.

Ölkə qalib dövlətlər tərəfindən (ABŞ, SSRİ, İngiltərə, Fransa) işğala məruz qalmışdır. Belə böyük maddi və mənəvi

(2 Dünya müharibəsi, 1914-1918 , 1939-1945-ci illər) itkilərə baxmayaraq alman xalqı mənəviyyatının gücü ilə dirçəldi, ayağa qalxdı və müharibənin vurduğu yaraları sağaltdı. Düzgün iqtisadi, siyasi nəticələr çıxartdı və gələcəyini müəyyən etdi. Artıq 1955-ci ildə Almaniya iqtisadi gücünə görə ABŞ, SSRİ-dən sonra 3-cü pilləyə qalxdı.

Biz geridə qalmamaq üçün tarixdə yüzlərlə dövləti məhv etmiş və edəcək mənfi cəhətlərdən -rüşvətxorluq, yaltaqlıq, ikiüzlülük, tayfabazlıq, mənəvi aşınma, yalan və s. mənfi xüsusiyyətlərdən dövlətimizi xilas edərək nümunəvi ideologiyamızı yaratmalıyıq.

Tarix keçmişimizdir. Onsuz gələcəyimiz yoxdur. Onu diqqətlə öyrənməliyik. Böyük alman filosofu F.Nişe yazırdı: "Öz tarixini qonşularının gözü ilə qəbul edən xalq məhv olmağa məhkumdur." Xarici ölkələrdə tariximizə aid olan sənədlərin surətləri çıxardılaraq ölkəmizə gətirilməli, Türk dövlətləri ilə birlikdə reallığı əks etdirən Ümumtürk tarixi yazılmalıdır.

Bu kitab məlumat xarakterli olmaqla geniş oxucu kütləsi üçün maraqlı olacağına ümüd edirəm. Tariximizi öyrənməklə biz daha qüdrətli oluruq.

Kitabda Nadir müəllimin müxtəlif mənbələrdən topladığı məlumatlar və sənədlər öz əksini tapıb. Kitabın dili sadə və başa düşüləndir. Müəllifin kitabı yazarkən qarşısına qoyduğu məqsəd dünyanın və ölkəmizin tarixində görkəmli rol oynamış xalqımızın qəhrəman övladlarını bizə tanıtdırmaq və yaxınlaşdırmaqdır. Güman edirəm ki, müəllif kitabında buna nail olub. Kitabı oxuduqca ulu tariximiz, görkəmli dövlət xadimlərimiz göz önünə gəlir. İnsan özünün necə böyük bir xalqa mənsub olduğunu görərək fəxr və qürur hissi keçirir. Məlumatları top layıb, seçib kitab halına salaraq ortaya çıxartmaq çox böyük zəhmət tələb edən işdir. Hesab edirəm ki, Nadir müəllim bu

ağır işin öhdəsindən məharətlə gəlmişdir. Böyük əziyyətlə başa gəlmiş bu kitabın Azərbaycan üçün dəyərli olacağına əminliyimi bildirməklə, hörmətli Nadir müəllimə gələcək yaradıcılığında uğurlar arzu edirəm.

***S.Əhmədov***

# Bilirsinizmi ?

**1.Çin VI əsrə kimi Göytürk İmperatorluğunun himayəsində olub.**

**2.301-ci ildə Qafqazda yaşayan az saylı ermənilər dini ibadətlərini türk dilində edib.**

**3.452-ci ildə ROMA Papası Levl Turk oğlu Attillanın qarşısında dizi üstə durub.**

**4.V əsrdə Kiyev şəhərini türklər tikib.**

**5.Firdovsinin "Şahnamə"əsərində "Azərbaycan" adından istifadə olunub.**

**6.XVI əsrə qədər orta Avropada ünsiyyət türk dilində olub.**

**7.Əmir Teymur Osmanlı turk dovlətini məğlub edəndə Avropa xristian dövlətləri bayram edib.**

**8.Sultan Səlim 1517-ci ildə xəlifə xəlatini Qahirədən Ankaraya gətirib.**

**9. "İran" adı sənədlərdə və xəritələrdə XX əsrdən işlədilməyə başlanib.**

# TÜRK DÖVLƏTLƏRİ

Əziz oxucularım, tariximizə səyahət edək. Türk xalqları onlarla qüdrətli dövlətlər yaradaraq, idarə etmişlər. Bu qüdrətli dövlətlərin sərhədləri 4 okeanın arasında, Şimal buzlu okeandan Hind okeanına, Sakit okeandan Atlantik okeana, cənubdan Çin səddinə qədər uzanmışdır. Tarixdən məlumdur ki, Çin imperiyisı əzəmətli Çin Səddini qəhrəman türklərdən qorunmaq üçün inşa etdirmişdir. Çin imperatoru Kaotini sülh bağlamaq üçün Meteyə Çinin şimal əyalətini vermiş və vergi ödəmək şərtinə razılaşmışdır. Çin I-VI əsrlərdə GÖYTÜRK imperatorluğunun tabeliyində olmuşdur.

Türkün qədim böyük tarixi qəsdən dolaşdırılmış,haqqında elmi həqiqətdən uzaq məlumatlar yayılmışdır. Çox vaxt onların tarixi qəhrəmanlıqları, gördükləri şərəfli işlər, başqa xalqların adına yazılmışdır.Tariximizin başına görünməmiş oyunlar açılmışdır. Məqsəd bu qüdrətli xalqı tarixdən silmək, alçaltmaq, əymək, milli qürur və ləyaqətini öldürmək, ərazi bütövlüyünü inkar edib saxtalaşdırmaq olmuşdur.

Bu baxımdan Azərbaycan tarixi demək olar ki, qaranlıq dumanlar içərisində itib-batmışdır. Onun tarixinin üzərinə çəkilmiş pərdə hələdə qalıb. Artıq bu pərdənin cırılıb atılması vaxtı çoxdan yetişib.

Tarix yaradan türklərin tarixi, türkləri istəməyən düşmənlər tərəfindən öz xeyrlərinə uyğun qələmə alınıb (Rus tarixçisi L.Qumilyovdən başqa).

Tarixi araşdırmalar göstərir ki, Azərbaycanda türklər gəlmə xalq deyil. Aborigen xalq olaraq, onlar bu ərazilərdə min illərdir ki, yaşayırlar.

Tariximizi silib atmaq, kağız üstündə bölmək niyyətində

olan yad, yabançı alimlər, tarixçilər bilməlidirlər ki, torpagın sahibləri gec-tez öz tarixlərinə və ərazilərinə yiyəlik edəcəklər.

*Ağalar bilmədi birdir bu torpaq,*
*Təbriz də, Bakı da Azərbaycandır.*
*Bir elin ruhunu, dilini ancaq*
*Kağızlar üstündə bölmək asandır.*

***Bəxtiyar Vahabzadə.***

Avrasiya qitəsində nəhəng bir əraziyə malik olan qədim türk xalqlarının tarixinin öyrənilməsində müəyyən cətinliklər vardır. Düşmənlər Türk xalqlarını bir-birindən təcrid etmək, onların qədim dövlətə, mədəniyyətə malik olduğunu gizlətmək istəyirdilər. Yeni nəslin dunyagörüşündə bu xalqın şərəfli tarixinin öyrənilməsinə imkan verməmək Sovet milli siyasətinin əsas məqsədlərindən biri idi. Çünki vaxtilə çox böyük ərazilərdə min illər boyu yaşayan türk xalqından qalmış mədəniyyəti və tarixi abidələrinin qalıqları millətin böyüklüyünü, qüdrətini, mənəvi zənginliyini göstərirdi.Bütün bunlar sovet imperiyasının milli siyasətinə qətiyyən uyğun gəlmirdi. Lap yaxın vaxtlara qədər keçmiş SSRİ məkanındakı mütəxəssisləri nəzərə almasaq, əhalinin böyük əksəriyyəti türk xalqlarının qədim tarix və mədəniyyəti, dövlətləri haqda biliyin sahibi deyildi. Sovet dövlətində xeyli türk əsilli, türkdilli xalqların yaşadığını və onlar ilə Azərbaycan türkləri arasında` (bu xalqlar hətta öz aralarinda) tarixi mənəvi yaxınlıq olduğunu çoxları, bilmirdilər.

Məhşur rus tarixçisi .L.Qumilyov yazır: “Bəşəriyyətin tarixi son dərəcədə qeyri bərabər öyrənilib. Türk tarixi tam öyrənilməyib. Hun imperiyasından qabaqki türk tarixinin öyrənilməsinə çox böyük ehtiyac var”.

Tarixə səyahət edəndə aydın olur ki, Türk xalqları dəfə-

lərlə ucalıb, güclü dövlətlər və imperiyalar qurmuşlar. Dünyada mədəniyyət mərkəzi olan şəhərlər ucaltmışlar .

Böyük Hun imperatorluğu dağıldıqdan sonra eramızın IV əsrində Hun tayfalarının qərbə doğru hərəkəti başlandı. Bu hadisə tarixdə "Xalqların böyük köçü" adlanır.Hunların təsiri altında olanlar, qotlar və digər xalqlar da Mərkəzi və Qərbi Avropaya köç etdilər."Xalqların böyük köçü" eramızın IV-VI əsrlərini əhatə etmişdir. Hunlar Böyük Çin Səddindən Fransaya qədər gedib çıxdılar.Hunlar Qərbə doğru hərəkət edərkən 370-ci ildə Don sahilində alanları,371-ci ildə Krımda Ostqot tayfalarını məğlub etdilər.375-ci ildə Ostqot çarı Germanix məğlubiyyətə dözməyərək özünü öldürdü. Hunlar Krımda quldarlıq münasibətlərinə zərbə vurdular. Onlar Dnestr çayını keçərək Vestqot kralı Atanarixi də Qərbə doğru sıxışdırdılar. Vestqotlar Roma imperiyasına sığındılar. Moldova ərazisində Hunlara qarşı "Atanarix sədləri" tikildi.

Türklər Hindistan, Misir, İraq, Suriya kimi qeyri-türk ölkələrini yüz illərlə idarə etmişlər. Axırıncı min ildən çox bir vaxtda indiki İran və Azərbaycan dövlətini Türklər idarə etmişlər. Əsrlərlə bu imperiyanın tərkibinə Orta Asiya, Hindistan, Əfqanıstan, Pakistan və başqaları da daxil olub. Bütün tarixi faktlar göstərir ki, Türk oğlu Türk gündoğandan günbatanadək bütün qarlı-qarsız zirvələrə, düzlərə, çaylara, göllərə, şəhərlərə, ölkələrə sahib olmuş və adlar vermişdir. Dünyada xanlıq, xaqanlıq, sultanlıq etmiş, şahlar şahı kimi tarixlərini yaratmışlar. Tarixdə Asiyanın cənub-qərbini idarə edən Azərbaycanlı şahların sülalələrinə nəzər salaq: 11-ci əsrdən başlayaraq - Səlcuqlar dinastiyası; 13-cü əsrdə - Hülukülər; 15-ci əsrdən - Qaraqoyunlu və Ağqoyunlular; 16-17-ci əsrlər - Səfəvilər, Avşarlar; (yalnız 1747-1795-ci illərdə Fars Zənd sülaləsi indiki İranın bir hissəsini idarə emişdir); nəhayət 1925-

ci ilə qədər türk əsilli Qacarlar hökmranlıq etmişlər. Hindistanı 1206-cı ildən 1858-ci ilədək (Böyük Britaniyanın işğalına qədər) Çingiz xan və Əmir Teymur nəslindən olan moğol türkləri idarə etmişlər.

Dunyanin müxtəlif ölkələrində olan arxivlərdəki VII əsrə aid yazılarda türklərin mədəniyyətinə aid bizim üçün indiyədək məlum olmayan çoxlu məlumatlar vardır. Onların dini, tarixi və coğrafi adlari, dünyagörüşləri, həyat fəlsəfəsi,zövqləri, döyüş taktikasının təşkili haqqında yazılar qədim Çin mənbələrində də çoxdur.

Türklərin hökmdarı, son dərəcə müdrik və ağıllı adam kimi tanınan Əfrasiyabın belə bir kəlamı var: "Türk balıqqulağı içərisindəki mirvarini xatırladır; nə qədər ki, o öz qınındadır, heç bir qiyməti yoxdur. "Lakin balıqqulağının içindən çıxan kimi o, qiymətə minir, hökmdarların taclarını, şahzadə xanımların boyun-boğazlarını və qulaqlarını bəzəyir."

Düz deyiblər:

*Ey türk milləti! Kəndinə (özünə ) dön!*
*Sən kəndinə gələndə daha güclü olursan!*

Böyük ictimai xadim Cavahirləl Nahru demişdir ki, türklər Hindistanı işğal etməmiş, onu idarə etmişlər. Onlar Hindistana yeni mədəniyyət və inkişaf gətirmişlər. Türklərin hakimiyyəti dövrü Hindistanda intibah dövrü kimi qiymətləndirilir. Türklərin inşa etdikləri abidələrdən, «Dünyanın 8-ci möcüzəsi» sayılan Tac-Mahal Türk-Moğol padşahı Cahan şahın əmri ilə türk memarı ustad Məhəmməd İsa əfəndi tərəfindən 17-ci əsrdə tikilmişdir. Misir dövlətinin də bir sıra şahları və sərkərdələri məhz türklər olmuşlar. Tarixə qızıl hərflərlə adlarını yazmış Türklərdən Mete, Atilla, Tomris, Cavanşir, Babək, Osman Qazi, Sultan Mahmud, Qazan xan, Çingiz xan, Alp Arslan, Əmir Teymur, Qara Yusif, Atabəy Şəmsəddin Eldəgiz, Babur

şah, Uzun Həsən, Qızıl Arslan, Sultan Məhmət Fateh, Şah İsmayıl, Təhmasib şah, Şah Abbas, Sultan Süleyman, Nadir Şah, Şah Qacar və s. göstərmək olar

Tarixin inkişafına töhfələr vermiş, onu dəyişmiş türk oğulları : I Osman, I Murad [1362-1389]; İldırım Bəyazid [1389-1402]; II Məhəmməd Fateh [1444 və 1451-1481]; I Səlim Yavuz [1512-1520]; Süleyman I Qanuni [1520-1566]; III Səlim [1789-1807]; II Mahmud [1808-1839]; II Əbdülhəmid [1876-1909]; və digərlərini göstərmək olar. Onlar yüzlərcədir, saymaqla qurtarmaz.

Hun imperatorluğundan bu günə qədər qurulan məlum Türk dövlətlərinin və imperatorluqlarının bəzilərinin adlarini veririk.

**İmperatorluqlar** (Xaqanlıqlar)

1. Asiya Hun imperatorluğu (e.ə. IV yüzillik - b.e. 48-ci il)
2. Avropa Hun imperatorluğu (374-469)
3. Ağ Hun imperatorluğu (IV yüzilliyin sonları - 557-ci il )
4. Göytürk imperatorluğu (552-582)
5. Şərqi Göytürk imperatorluğu (582-630)
6. Qərbi Göytürk imperatorluğu (582-630)
7. II Göytürk imperatorluğu (630-744)
8. Uyğur imperatorluğu (744-840)
9. Avropa avar imperatorluğu (VI yüzillik -805-ci il)
10. Xəzər imperatorluğu (VII yüzillik -965-ci il)
11. Böyük Səlcuq imperatorluğu (1040-1157)
12. Xarəzmşahlar imperatorluğu (1097-1231)
13. Teymur imperatorluğu (1370-1405)
14. Babur hind-türk imperatorluğu (1526-1858)
15. Osmanlı imperatorluğu (1299-1922)

**Dövlətlər**

1. Şimali Hun dövləti (48-156)
2. Cənubi Hun dövləti (48-216)
3. I Çxao Hun dövləti (304-329)
4. II Çxao Hun dövləti (328-352)
5. Xsia Hun dövləti (407-431)
6. Şimali Liang Hun dövləti (401-439)
7. Lou-Lan Hun dövləti (442-460)
8. Tabqaç dövləti (386-557)
9. Şərqi Tabqaç dövləti (534-557)
10. Qərbi Tabqaç dövləti (534-557)
11. Şərqi Türküstan (Turfan) Uyğur dövləti (911-1368)
12. Şato Türk dövləti (907-923)
13. Tanq Şato Türk dövləti (923-936)
14. Tsin Şato Türk dövləti (937-946)
15. Xan-çou Uyğur dövləti (905-1226
16. Turqut dövləti (717-766)
17. Qarqul (766-1215)
18. Qırğız dövləti ( 840-1207)
19. Sabar dövləti (V yüzillik - VII yüzillik arası)
20. 10-oğuz dövləti (V yüzilliyin sonu VI yüzilliyin ortaları)
21. Tuqurqur (9 oqur) dövləti (V yüzilliyin sonu- VI yüzilliyin əvvəlləri)
22. Uturqur (30 oqur) dövləti (V yüzilliyin sonu- VI yüzilliyin sonları)
23. Bessarabiya Türk dövləti (Bessarabiya rumın dövlətinin başlanğıcı 1330)
24. Qaraxanlı dövləti (840-1042)
25. Şərqi Qaraxanlı dövləti (1042-1211)
26. Qərbi Qaraxanlı dövləti (1042-1212)
27. Oğuz Yabqu dövləti (X yüzilliyin başlanğıcı - 1000)

28. Qəznəvi dövləti (1069-1187)
29. Suriya Səlçuqlu dövləti (1092-1117)
30. Kirman Səlçuqlu dövləti (1092-1187)
31. Anadolu Səlcuqlu dövləti (1092-1307)
32. İraq Səlcuqlu dövləti (1157-1194)
33. Əyyubilər dövləti (1171-1348)
34. Hindistan Türk dövləti (türk sultanlığı) (1206-1413)
35. Misir Türk dövləti (1250-1383)
36. Qaraqoyunlu dövləti (1380-1469)
37. Ağqoyunlu dövləti (1350-1502)
38. Teymurlular dövləti (1405-1507)

III-XVI əsrlərdə Avroasiya məkanında ünsiyyət dili türk dili idi. Təəssüflər olsun ki, XVII əsrdən başlayaraq Türklərə qarşı əks təbliğatlar aparılmışdır.Avropa Türklərin Qərbə doğru irəliləməsinin qarşısını almaq üçün müxtəlif dövlətlərlə alyans-birliklər yaratmışlar.Türklərə qarşı müttəfiq cəbhə yaradaraq, onları tarix səhnəsindən silməyə çalışmışlar. Lakin türkün gücü, inamı və imanı hər zaman qəsdlərin qarşısını almişdır. Artıq bu gün aparılan araşdırmalarda, qazıntılar nəticəsində tapilan mədəniyyət abidələri türk xalqının qədimliyi və zənginliyini açıq-aşkar üzə çıxarır. Avrasiya materikində türk toponim adlarına çox yerdə rast gəlinir.


**Pazırıq kurqanından tapılmış xalça**

Dövrünün ən böyük, güclü imperatorluğunu quran və yüz illərcə Qərb dunyasını idarə edən Hun türklərinin, yüksək mədəniyyətləri, özlərinə məxsus adət-ənənələri, sənətləri, şifahi və yazılı ədəbiyyatları vardı. Hun mədəniyyətinin göstəricisi olan neçə-neçə dəyərli mənbələr və muxtəlif əsərlər bu gün Rusiya hüdudları içində qalan

Şərqi Altayda Baykal gölü yaxınındakı Pazırıq vadisində tapılmışdır.

Namanqanda, Sibirin cənubunda və Qazaxıstan çöllərində tunc dövrünə aid abidələr, kurqanlar aşkar edilmişdir.

İssıkul gölü ətrafında-Esikdə qızıl əşyalarla zəngin kurqan açılmışdır. Buradan b.e.ə. V əsrə aid 23 hərfdən ibarət qədim yazı tapılmışdır.

Şərqi Altaydakı Pazırıq vadisində b.e.ə. V-VI əsrlərə aid kurqan tədqiq edilib öyrənilmişdir. B.e.ə. II minilliyin sonu -I minilliyin birinci yarısında türk tayfalarının köçü və yerdəyişmələri baş vermişdir. Türküstandan Şimali Qafqaza, Qara dəniz sahillərinə köç edən Türkləri yunanlar iskit, Mərkəzi Asiya və Yaxın Şərqə axın edənləri farslar sak, assurlar işguz adlandırmışlar. Azərbaycan qədim türklərin ilk yurdlarından biri sayılır.

*Pazırıq vadisində, habelə başqa yerlərdə Hun kurqanlarında tarixi əsərlər var. Buzlar altında qalmıs kurqanlarda çürüməmiş cəsədlər də tapılıb. Kurqanlardan ağacdan,dəridən, bürüncdən və qızıldan düzəldilmiş əşyalar tapılmışdır.*

Çünki türk sözünün arxasında böyük mənəviyyat, mədəniyyət, qəhrəmanlıq, şərəf, ədalət,düzgünlük və haqq dayanır. Onlar dünyanı ilk növbədə bu xüsusiyyətlərilə fəth etmişlər.

Türk sözünün mənası:güclü, möhkəm,uzun boylu deməkdir.

Tarix boyunca qüdrətli, şərəfli Türkün böyük tarixinə, özünə həsəd aparan, onu ləkələmək istəyən mənfur ermənilər və himayədarları bilməlidirlər ki, günəşə palcıq atıb onu ləkələmək olmaz. Palçıq qayıdaraq onların mənəviyyatsız və yalancı sifətlərinə yapışacaq.

**Haşiyə:**

Murad Adjinin "Полынь Половецкого поля" kitabının 190-cı səhifəsində yazır ki, IV əsrdə - 301-ci ildə Qafqazın - indiki Azərbaycanın Gürcüstanın və Ermənistanın sahəsində yaşayan ermənilər ilk dəfə tək Allahlığa müraciəti, yəni dini ibadətlərini türk dilində ediblər.

16.11.2012 tarixdə Ermənistanın Epkpamac-da (internet saytı www.epress.am) getmiş" Rusia və Almaniya yadda saxlamalıdır ki, ermənilər islam dinini qəbul edə bilərlər" yazısından bir parça oxucularımıza təqdim edilir.

1991-ci ildə "həlqə" (кольцо) əməliyyatından sonra Ermənistan nümayəndələri rus həmkarları ilə görüşüblər.

Bu görüşdə Sovet İttifaqının müdafiə və təhlükəsizlik komitəsinin sədri Aleksınis demişdir:

Siz nə edirsiniz? Bu müsəlman dənizində sizin başqa yolunuz yoxdur. Siz bizim ayaqlarımızı öpməlisiz.

Buna erməni nümayəndəsi David Vardanyan cavab verib: "səhv edirsiz biz islamı qəbul edəcəyik". Manuçaryan əlavə etdi: Almaniya və Rusiyanın səfirləri yadda saxlamalıdılar ki, "biz islamı qəbul edə bilərik".

Lev Tolstoy deyib ki, dünyaya yenidən gəlmiş olsaydım, tərəddüd etmədən islam dinini qəbul edərdim. Bu fikirdən yəqin ki, onların xəbəri var imiş.

Bu yazı ermənilərin məsləkini, iç dunyasını çox gözəl açır. Tarix boyunca onlar dövrün güclü dövlətlərinin əlaltısına dönmüşlər və külək əsən tərəfə əyilməyi özlərinə şərəf bilmişlər.

## Oğuz xan



Oğuz sözünün anlamı ilə ilgili çeşidli fikirlər irəli sürülüb. Məlum bilgilərdə yazılıb ki, oğuz-oxlar, boylar, soylar birliyidir. Əski-əntiq çağlarda qonşuları tərəfindən sıxışdırılan ayrı-ayrı boylar birləşib, bir ittifaq yaradıblar. Bu birlik oğuz, doqquz oğuz, on oğuz və sair adlanıb. Türklərin əfsanəvi babası Oğuzun adına çevrilib. Xülasə olaraq (Oğ/Og/Uğ/Ug) kökündən törəmişdir.

Mübarək, müqəddəs, ayrıca qabiliyyətli, bilikli deməkdir. Ruh mənasına da gəlir. Yaxşı xasiyyətlilik də bildirir.

Oğuz Xan, Oğuz Kağan Dastanına görə türklərin atasıdır. Oğur (Ogur, Ugur) Xan olaraq da tələffüz edilir. Türklərin atası olan qəhrəmandır. İlk türk dövlətinin qurucusudur. Bütün həyatı boyunca Göyqurdu  özünə bələdçi etmişdir. Həyatı, doğumundan başlayaraq fövqəladə hadisələrlə doludur. Ağızı atəş kimidir. Çox tez böyümüşdür. Doğular-doğulmaz yemək yemişdir. Bir dəfə süd əmib sonra çiy ət yemişdir.

Xivəli Əbülqazi xanın verdiyi məlumatlara görə, OĞUZ XAN real tarixi şəxsiyyət olub və Məhəmməd Peyğəmbərdən 4000 il əvvəl, yəni eramızdan əvvəlki dövrün IV minilliyinin sonlarında, təxminən e.ə. 3400-3500-ci illərdə yaşayıb. Bütün dünya tarixçiləri tərəfindən tam ciddi alim kimi dəyərləndirilən Rəşidəddin də Oğuz Xandan real tarixi şəxsiyyət kimi söhbət açır. XIX əsrin görkəmli rus şərqşünası, bir çox Asiya xalqlarının tarixinə dair məlumatlar toplamış N.Y.Biçurin isə Oğuz Xanın tarixi şəxsiyyət olmasını birmənalı şəkildə təsdiqləyir və onun eramızdan əvvəlki III- II minilliklərdə yaşadığını göstərir.

XII əsr tarixçisi Bayburtlu Osman isə öz əsərlərində müəllifi

məlum olmayan qədim bir kitab- "Bəhr əl-ənsab" haqqında məlumat verərək bildirir ki, həmin kitabdakı hadisələr Dədə Qorqud dastanları ilə səsləşir və kitabda Bayandur xan elinin eramızdan əvvəlki dövrdəki qəziyyələri öz əksini tapıb.

XIV əsrin oğuz əsilli tarixçisi Əbu Bəkir bin Abdullah bin Aybək əd-Dəvadəri isə özünün "Dürəri tican" əsərində eramızın IV əsrində naməlum müəllif tərəfindən qələmə alınmış "Ulu xan Ata bitikçi" kitabı barədə məlumat verərək yazır ki, "...türkdilli xalqlara böyük sevinc bəxş edən bu kitab oğuzlar arasında çox məşhurdur. Çünki həmin kitabda oğuzların 3000 il öncəki erkən həyatlarından və ilk hökmdarlarından, qəhrəmanlarından danışılır. “Göründüyü kimi, Oğuz xanın real tarixi şəxsiyyət olması, müasir Azərbaycan, indiki İran, İraq, Suriya ərazilərini əhatə edən geniş bir ərazidə hökmdarlıq etməsi təsdiqlənir.

Boz oxlar-Üç oxlar

Artıq elmdə Nuh övladlarının olması fikri əsaslanmaqdadır. Tarixi mənbələrdə göstərilir ki, Nuhun (ə.s.) Ham , Sam və Yafəs adlı 3 oğlu olub. Yafəsin 8 oğlu var imiş. Böyük oğlunun adı Türk imiş. Türkün oğlu Tutuq, Tutuğun oğlu  İlcə xanın isə Dib Yaqub xan , Quyuq xan və Əlican xan adlı üç oğlu olub. Əlican xanın Tatar və Moğol adlı əkiz oğlu və Qaraxan adlı bir nəvəsi olub. Qaraxanın Oğuz adlı bir oğlu, oğuzdan olan altı nəvəsi var imiş: Gün xan, Ay xan, Ulduz xan, Göy xan, Dağ xan və Dəniz xan. Oğuz xan yanına bir nəfər çağırmış, üç qızıl yayı Şərqdə, Üç qızıl oxu Qərbdə gizlətməyi tapşırmışdı. Üç böyük oğlunu (Gün xan, Ay xan, Ulduz xan) boz oxları Şərqə, Üç kiçik oğlunu (Göy xan, Dağ xan, Dəniz xan) Qərbə göndərərək onlara qızıl yayların və oxların tapılmasını tapşırmışdır. Qayıdarkən böyük qardaşlar qızıl yayı, kiçiklər isə qızıl oxu tapıb gətirmişlər. Oğuz xanının bu altı oğlu şərqə, qərbə, şimala və cənuba yürüşlər etmiş və əzəmətli dövlət qurmuşlar.


Həzrəti Adəm (Ə.S.)
Həzrəti İdris (Ə.S.)
Nuh Peyğəmbər (Ə.S.)
oğulları
Sam
Yavəs
Ham
Qərbi Azərbaycan
İndiki İran ərəbləri
Türkistan
Türklərin babaları
Hindistan
Həbəş Afrika
Türk
Tutuğ
İlcə xan
oğulları
Alinca
Dib Yaqub
Quyuq
əkiz oğullar
Tatar
Moğol
Qara xan
OĞUZLAR
Oğuz Xağanın oğulları
Boz ox
Üç ox
Gün xan
Qayı
Bəyat
Alkaevli
Karaevli
Ay xan
Yaşar
Döğer
Dodurga
Yapalı
Ulduz xan
Əfşar
Kızık
Beğdili
Karkan
Göy xan
Bayındır
Peçenek
Çavuldur
Peçni
Dağ xan
Salur
Eymür
Alayuntlu
Yüregir
Dəniz xan
İğdir
Büğdüz
Yiva
Qınıq

# METE



*(E.ə. 174)*
***Böyük Hun – Türk dövlətinin banisi***

Türk millətinin qədim əcdadlarından olan Hunlar eramızdan əvvəlki dövrlərdə Baykal gölü və Monqolustan ərazisində yaşayırdılar. Böyük Hun – Türk dövlətinin əsası e.ə. 220-ci ildə qoyulmuşdur.

Bu, Mərkəzi Asiyada yaranmış ilk böyük türk dövləti idi. Dövlətin başçısı Teoman (b.e.ə. 220-209) Çinə hücum etdi. Çinlilər bu hücumun qarşısını almaq üçün b. e. ə. 214-cü ildə Böyük Çin səddini inşa etməyə başladılar.

Mete xaqanın dövründə (b.e.ə. 209-174) dövlətin ərazisi Sibirdən Himalay dağlarına, Sakit okeandan Xəzər dənizi və Ural daglarına qədər uzanırdı. Mete güclü nizami süvari ordu yaratmışdı.

***Qeyd:***

***Çox təəssüflər olsun, Türkün böyük tarixi tam öyrənilməyib. Hun imperiyasından qabaqki türk tarixinin geniş araşdırmalara və axtarışlara ehtiyacı var.***

Hun dövlətinin ikinci böyük türk xaqanı Metedir. İlk türk xaqanı olan Teoman Metenin atası olub.

Məhz bu vaxtdan etibarən qədim türklərin əsl dirçəlişi, dünyanın siyası və coğrafi xəritəsində tutduqları hakim mövqeləri getdikcə artmağa başlamışdır. Hun – türklərinin bir xalq kimi dünya miqyasında tanınması Metenin adı ilə bağlıdır. Hun – türklərinin, bizim əcdadlarımızın kim olduğunu gələcək nəslə çatdırmaq üçün fəlsəfə elmləri doktoru Vəli Həbiboğlunun

«Hərbi and» qəzetində çap etdirdiyi «Mete» məqaləsindən (1–15; 16–31 mart 2004) bəzi məqamları olduğu kimi veririk:

Hunlar hələ Metedən çox-çox əvvəl özlərini dünya meydanında qəhrəman, döyüşkən, şərəfli, ədalətli bir xalq kimi göstərmişlər. Təsadüfi deyil ki, 300 il Çində, 350 il Orta Asiyada imperiya qurmuş, 700 il bütün türk dünyasında "Şanyu" ("Ulu Xaqan") titulunu yaşatmış Hun imperatorluğu dünyanın ən qüdrətli və böyük dövləti kimi müxtəlif xalqları öz bayrağı altında birləşdirdi. Sakit Okeandan Xəzər dənizinə, Tibetdən, Kəşmirdən Şimali Sibirə qədər olan torpaqlar bu qüdrətli Hun imperatorluğuna–türklərə tabe idi… Böyük Hun – Türk imperatorluğunun yaradılması dünya miqyasında türklərin qüdrətini açıq-aşkar nümayiş etdirdi. Mete təkcə Asiyada 26 dövləti öz imperiyasına qatmışdı. Çin salnaməçisi bu haqda yazmışdır: «Metenin vaxtında Hun imperiyası həddindən artıq möhkəmləndi və yüksəldi. O, şimalda və cənubda bütün köçəri tayfaları özünə tabe etdirdi». Meteni bugünkü oxucuya sevdirən xüsusiyyətlərdən biri də onun vətənpərvərliyidir. O, bir türk övladı kimi vətən torpağının, əcdadlarımız tərəfindən bizə irs qoyulmuş bu torpağın qorunub saxlanmasına əsl qəhrəman, layiqli övlad münasibəti bəsləmişdir. Metenin torpaq ilə əlaqədar əfsanələşmiş rəvayəti min illər boyu nəsildən-nəslə ötürülür, ən müqəddəs ərməğan kimi xalqın qan yaddaşında qorunub saxlanılır,bu rəvayət tarixin dolaylarında saysız-hesabsız igidlər tərbiyələndirmişdir. Ana yurduna dönük çıxanları daim düz yola səsləmişdir. Mete hələ dünyanı fəth etməmiş belə bir hadisə ilə rastlaşmışdır. Atasının ölümündən sonra taxta çıxdığı vaxt qonşu Tunqhu dövləti onun yanına elçi göndərmişdir. Bu dövlət çox güclü idi. Tuman xan (Metenin atası. – ə.m., n.ə.) həmin dövlətə xərac verirdi. Qonşu tayfaların hesabına qüvvətlənən Tunqhular öz iradələrini istədikləri kimi yerinə yetirir, bütün tayfalara sanki meydan oxuyurdular. Metenin gən-

cliyini və təcrübəsizliyini görən Tunqhular onun yanına elçi göndərib yaxşı atını verməyi tələb edirlər. Əgər o, atı verməsə, döyüş olacaq, xalqı düşmən atlarının ayaqları altına salınacaqdı. Mete dövlətin nüfuzlu adamlarını toplayıb onlarla məsləhətləşdi. Ona bildirdilər ki, at Hunlarda ən qiymətli varlıq hesab olunur, at igidin yaraşığı, dostu və qeyrətidir. Tunqhulara at verməyimiz bizə əskiklik gətirər. Mete ağsaqqalları dinləyib öz hökmünü çıxardı: "Biz bir atdan ötrü qonşu dövlətlə vuruşa bilmərik, minlərlə insan qanını axıda bilmərik"…

Aradan bir müddət keçdi, Tunqhuların elçiləri yenə də Hunların sərhədlərini aşaraq xaqanın yanına gəldilər. Elçi bu dəfə daha sərt bir tələb irəli sürdü. Onun hökmdarı Hun xaqanının sevimli kənizlərindən birini tələb edirdi, əks halda müharibə təbilinin çalınacağı ilə qorxudurdu. Mete onları dinləyib öz qərarını çıxardı: "Bir qadından ötrü biz qonşu dövlət ilə münasibəti pozub, müharibə aparıb igidlərimizin qanını tökə bilmərik". O, ən sevimli kənizlərindən birini Tunqhulara göndərdi. Lakin qonşu dövlətin hökmdarı çox təkəbbürlü və həyasız adam idi. O, elçiləri yenidən Metenin yanına göndərdi: "Böyük hökmdar sizin sərhədin yaxınlığındakı çınqıllı, əkilib-becərilməyən ərazini tələb edir. Əgər bu ərazini verməsəniz, müharibə təbili çalınacaqdır". Mete bir cavab verməyib elçilərə gözləməyi tapşırdı. Sonra yenə də dövlətin nüfuzlu şəxslərini, ağsaqallarını məşvərət üçün çağırdı. Düşmən tərəfin tələbini onlara bildirdi. Ağsaqqalların əksəriyyətinin fikri belə oldu: "Xaqan sağ olsun, sən qonşu dövlətin bütün tələblərini yerinə yetirmisən, bizə qulaq asmayıb, ən gözəl, sevimli atını, ən yaraşıqlı kənizini Tunqhulara vermisən. İndi kimsəsiz, çınqıllı, heç nə bitməyən bu torpaq nədir ki, ondan ötrü qonşu dövləti özümüzdən narazı salaq, igidlərimizin qanını tökdürək. Onsuz da Tunqhular bəhanə üçün gəzirlər. Biz həmin torpağın verilməsini təklif edirik". Mete hiddətlənib

ayağa qalxdı və dedi: – torpaq dövlətin təməlidir, onu heç kəsə vermək olmaz. Torpağı əcdadlarımız bizə irs qoyub getmişdir, orada babalarımızın sümükləri uyuyur. Torpaq mənim deyil, xalqındır. Xalqın torpağını verməyə heç kimin ixtiyarı çatmaz. Mən öz atımı, yaraşıqlı kənizimi Tunqhulara ona görə verdim ki, onlar mənim özümün idi. Amma torpağı verə bilmərəm, bu torpaq gələcək nəslə çatdırılmalıdır. Ya xalq məhv olmalı, ya da torpağını öz qanı hesabına qorumalıdır. Mete vətən torpağını Tunqhulara verməyi təklif edən şəxslərin dərhal boynunu vurdurdu… Döyüş əmri verərək bu müharibədə qalib gəldi…

Metenin Çin səfərlərindən ən məhşuru Petenk qalasında Çin imperatoru Kaotini 320000 ordusu ilə mühasirəyə almasıdır. Təhlükənin ağırlığını anlayan Çin imperatoru Kaotin illik vergi verməklə bərabər Şimal əyalətini Türklərə verməklə sülh istədi. Bu mühasirənin fəlakətli günləri Çinlilərin yaddaşında qaldı:"Petenk qalası altındakı fəlakətdə 7 gün çörək tapılmadı ,əsgər yay çəkmədi" . – deyə başlayan Çin xalq mahnısı bu gün belə oxunur.

Türklərin əcdadları sayılan Hunların böyük, qüdrətli sərkərdəsi Mete ilə biz Azərbaycan türkləri də fəxr etməli, onun dövrünü, həyat və fəaliyyətini diqqətlə öyrənib gənc nəslə çatdırmalıyıq. Çox ibrətamiz tarixdir. Türk həmişə torpağı, dövlət bayrağını canından, qanından əziz tutub.

Hun Metedən bir neçə nəsil sonra  Kün Tanhu xaqan olmuşdur. Onun zamanında xaqanlıq dağılmağa başlamışdır.

Künçin (Kün Yabqu ) bir Çin şahzadəsi ilə evlənmiş, Çin sarayına qohum olmuşdur. Çin zabitləri ona hiyləgərliklə yaxınlaşaraq  türk torpaqlarına daha asan girməyə başladılar. Bunlar bir yandan türklərin döyüş taktikasını öyrənir,bir yandan da hun vəliəhdləri arasında nifaq salmaq üçün əllərindən gələni edirdilər. Türklərə vergi verməkdən də boyun qaçırdırlar. Bu , dövlətin iqtisadiyyatını olmazın dərəcədə zəiflətdi.

Künçindən sonra onun oğlu Hoxanyəh yeni eranın 58-ci ilində Tanhu (imperator) oldu. Anası çinli olan Hoxanyəh çinlilərdən yardım diləməklə kifayətlənməyib onların himayəsini də istədi. Bu, bir fəlakətə gətirəcəkdi. Bunu anlayan və anası türk olan Çiçi Hoxanyəhə qarşı çıxdı, onun imperatorluğunu tanımadı. Bu olay Hunları ikiyə böldü və iki qardaş arasında mübarizə başladı. Çiçi tərəfdarlarını toplayaraq dövlətin mərkəzini ələ keçirdi və Tanhu (imperator) oldu. Hoxanyəh isə ona sadiq ordu hissələri ilə Çinin Şimal-Qərb hüdudlarına çəkildi. Beləliklə, Böyük Hun İmperatorluğu ikiyə bölünmüş oldu.

Çin hüdudlarına çəkilənlər Cənub Hunları(daha sonra Şərq Hunları) olaraq adlandırıldı, Cənubi Hun dövlətini qurdular. Beləcə, Qoca hun imperatorluğu parçalanmış iki ayrı dövlət halına gəlmiş oldu.

## Göytürk imperatorluğu

Böyük Asiya imperatorluğunun dağılmasından sonra Juan-juanların əsarəti altında olan 500 ailəlik bir xalq var idi. Bu xalq Juan-juanların dəmirçiliyini edirdi. Yəni Juan-juanlara qılınc, nizə və s. düzəldirdilər. Vaxt keçdikcə bu 500 ailəlik xalq gələn tayfalarla qarışaraq böyüdü və özünü müstəqil bir dövlət elan etdi. Bu dövlətin adı "Göytürk" dövləti idi.

Göytürk dövləti adında "Türk" sözü işlənən ilk türk dövlətidir . Göytürk sözünün mənası "Göy" (Tanrı və rəng mənasına gəlir) "Türk"(qüvvətli) deməkdir.

Göytürk dövlətinin ən önəmli şəxslərindən biri Mukan xan və əmisi İstəmi xan idi. Onlar ikisi də ayr-ayrı tərəflərə yürüyüş edərək, ölkənin ərazisini genişləndirməyə başladılar.Birinci Göytürk dövləti Muğan və İstəminin xaqanlığı dövründə daha da gücləndi.Muğan xanın başlıca siyasəti atasının yaratmış olduğu dövləti möhkəmləndirməyə və onun ərazisini genişləndirməyə

yönəlmişdi. O, jujanları darmadağın etdi. Çin türklərdən asılı vəziyyətə salındı. İstəmi xaqanın başçılığı ilə qərbə hərəkət edən türklər 555-ci ildə Aral gölünə çatdılar. Mukan xan 19 illik hakimiyyətindən sonra 572-ci ildə vəfat etdi. Mukan xan öldüyü zaman Göytürk imperatorluğunun sahəsi 10,5 milyon km2 -ə çatmışdı.

## II Göytürk İmperatorluğu

Parçalandıqdan sonra Çin əsarətinə düşən Göytürk imperatorluğu kiçik tayfalara, ölkələrə bölünmüşdü. Buna görə də Çinin asılılığından qurtulmaq olmurdu. Lakin yenə də azadlıq üçün üsyanlar olurdu. Amma Çin bu üsyanların öhdəsindən asanlıqla gəlirdi. Ta ki Qutluq adlı bir xaqan gizli bir azadlıq təşkilatı yaradana qədər. Bu hadisədən sonra Qutluq xan Oğuzlarla birləşərək Ötükəni tutdu və ölkə yenidən quruldu. 692-ci ildə Qutluq xan vəfat etdi.

## TOMRİS XATUN
### İlk qadın hökmdarımız Tomris Xatun



Haqqında əsas məlumat Herodotun "Tarix" əsərində qalmışdır. Onun doqquz hissədən ibarət "Tarix" əsəri yunan-fars müharibələrinə və bu müharibələrin ətrafında baş verən hadisələrə həsr olunmuşdur. Burada qələmə alınan hadisələr dövrünün tarixçilik ənənələrinə uyğun olaraq, əfsanə, real tarix çərçivəsində yazılsa da, Herodot haqlı olaraq, dünyanın ən görkəmli tarixçilərindən sayılır. Herodotun kitabında yer alan hadisələrdən biri də Əhəməni hökmdarı Kirin e. ə. 529-cu ildə öldürülməsi ilə bağlıdır. Kir müasir Azərbaycan respublikası ərazisində, Araz çayından şimalda yerləşən Massaget(Massaget sözünün mənası ağhun türkləri deməkdir) çarlığına yürüşü zamanı öldürülmüşdü.Bu rəvayətin qəhrəmanı döyüşdə qətlə yetirilmiş massagetlərin şahının dul qadını Tomirisdir. Herodot yazır: "Massagetlər, deyilənə görə, çoxsaylı və cəsur bir tayfa olub. Onlar Araz çayının arxasında yaşayırdılar." Bəziləri onları skif tayfalarından sayır. Döyüşdə massagetlərin şahı ölmüş, tayfanın başına onun dul qadını Tomiris keçmişdi.

Kir öz elçilərini göndərərək, onunla evlənmək istədiyini bildirir. Ancaq Tomiris anlayır ki, Kir onunla evlənmək yox, bu yolla Massaget çarlığını ələ keçirmək istəyir və elə buna görə də həmin təklifi rədd edir. Belə olduqda Kir hiyləgərliklə öz istəyinə nail ola bilmədiyini görüb, massagetlər üzərinə açıq hücuma keçdi. Araz çayından keçmək üçün Kir gəmilərdən körpü qurmaq

haqda əmr verir.Kirin qoşunu bu işlərlə məşğul olarkən Tomiris carçıları çağırıb, onların dili ilə Kirə belə bir müraciət etdi: "Ey Əhəməni hökmdarı! Öz niyyətindən geri çəkil. Axı sən qabaqcadan bilə bilməzsən ki, bu körpülərin qurulması sənə xeyirdir, yoxsa ziyan? Bu işin başını burax, get öz ölkəndə şahlıq elə və bizim öz ölkəmizdə hökmranlıq etməyimizə paxıllığın tutmasın. Ancaq sən əlbət ki, bu məsləhətə qulaq asmayacaq və öz bildiyin kimi hərəkət edəcək, aramızdakı sülhü pozacaqsan. Əgər sən massagetlərin üzərinə hücuma keçməyi belə çox istəyirsənsə, körpü qurulmasını dayandır. Rahatca ölkəmizə gir, biz qoşunlarımızı çaydan üç günlük məsafəyə geri çəkərik. Yox, əgər sən bizi öz torpağına buraxmaq istəyirsənsə, işini davam elətdir." Bu müraciətdən sonra Kir fars əyanlarını öz yanına çağırtdırıb, onlardan məsləhət istəyir. Hamı bir ağızdan məsləhət görür ki, Tomirisin üzərinə hücumu davam etdirmək əvvəlki qaydada məqsədə uyğundur. Müşavirədə iştirak eləyən lidiyalı Krez isə bu qərarın əleyhinə çıxır: "Mənə belə gəlir ki, biz gərək çayı keçərək, ölkənin içərilərinə doğru irəliləyək. Onlar geri çəkildikcə biz irəliləyək. Mən bilən fars həyat tərzinin gözəllikləri və bizim aldığımız böyük həzz və ləzzətlər massagetlərə məlum deyil. Buna görə də mən düşünürəm ki, biz gərək öz düşərgəmizdə onlar üçün qonaqlıq düzəldək, çoxlu qoyun kəsək, masaların üstünə şərab və cürbəcür yeməklər düzək. Bütün bunlardan sonra az miqdarda qoşunu orda saxlayıb, qalanları ilə çaya tərəf geri çəkilək. Əgər mən öz düşüncəmdə yanılmıramsa, düşmən bu tələyə düşərək, özünü nemətlərimizin üstünə atacaq və bizim böyük hünərlər göstərməmiz üçün şərait yaranacaqdır."

Beləliklə, məşvərətçilərin fikirləri haçalanır. Kir özünün əvvəlki fikrindən daşınaraq, Krezin təklifinə tərəfdar çıxır. Şah Tomirisə xəbər göndərir ki, biz sənin ölkənə keçmək istəyirik, geri çəkil. Tomiris də sözünə əməl edərək qoşununu geri çəkir.

Belə olduqda Kir Krezi oğlu Kambizə həvalə edir. Kir Kambizi Əhəməni dövlətinə göndərib, özü qoşunla birgə çayı keçir. Bir günün içində Arazı keçən Kir Krezin dediyinə əməl edir. Düşərgəsində ən zəif dəstəsini qoyaraq, özü güclü qoşunları ilə geri çəkilir. Massaget hissələri düşərgəyə hücum çəkib, zəif farslara qələbə çalır. Krezin dediyi kimi, qələbəni qeyd etmək də yaddan çıxmır. Yeyib-içdikdən sonra massagetləri yuxu tutur. Beləliklə, onlar yuxuda ikən farsların hücumuna məruz qalır, bir çoxları ölür, bir çoxları isə əsir düşürlər. Massagetlərin sərkərdəsi, Tomirisin oğlu Sparqapis də əsir düşənlərin içərisində idi.

Tomiris qoşununun və oğlunun aqibətindən xəbər tutan kimi Kirin yanına çapar göndərir. Çapar deyir: "Qaniçən Kir! Öz hünərinlə öyünmə! Şərab başa vuranda siz farslar bu üzüm suyundan məst olur və ləyaqətsiz sözlər danışarsınız. Bax, elə həmin zəhrimarla da siz mənim oğlumun qoşununa qalib gəlibsiz. Əgər hiylə ilə qələbə çalmasaydınız, şərəfli döyüşdə silah gücünə heç nə eləyə bilməzdiniz. İndi gəl üçüncü dəfə xoşluqla massagetlərin, mənim məsləhətimə qulaq as: oğlumu qaytar və necə gəlmisənsə, eləcə də sağ-salamat çıx get! Əgər bunu etməsən, and olsun bütün massagetlərin pənahı olan Günəş allahına ki, mən doğrudan da səni qan gölündə boğaram."

Kir isə bu sözlərə əhəmiyyət vermədi. Tomirisin oğlu Sparqapis şərabın dumanı başından çəkilən kimi hansı vəziyyətə düşdüyünü anlayır və Kirdən əllərini açdırmasını xahiş edir. Əlləri açılan kimi şahzadə özünü öldürür.

Tomiris Kirin məsləhətə qulaq asmadığını bilən kimi öz qoşunu ilə farslar üzərinə hücuma keçir. Bu, türk tayfalarının düşmənə qarşı keçirdiyi ən böyük və ən qanlı döyüş idi. Döyüşün gedişi haqda məlum olanlar bunlardır: əvvəlcə düşmən qoşunları üz-üzə duraraq, uzaqdan bir-birini oxa tutdular. Sonra nizə və xəncərlə əlbəyaxa döyüşə keçdilər. Döyüş uzanır, heç kim geri

çəkilmək istəmirdi. Nəhayət, massagetlər qələbə çaldılar. Az qala farsların hamısı döyüş meydanında həlak oldu. Kirin özü də öldürüldü. Onun 29 illik hakimiyyətinə, imperiyasına son qoyuldu. Tomiris şərab badəsini insan qanı ilə dolduraraq, Kirin cəsədini tapmağı əmr etdi. Onun başını badənin içinə soxaraq belə söylədi: "Mən sağ qalsam da, sən məni məhv etdin. Sən hiyləgərliklə mənim oğlumu əlimdən aldın. Mən demişdim ki, sənə qan içirdəcəyəm. İndi nə qədər istəyirsən, iç bu insan qanından."

Tomris xatunun rəhbərlik etdiyi Massaget çarlığı isə onun adı bizə bəlli olmayan əri tərəfindən təxminən Əhəmənilər dövləti ilə eyni dövrdə Dərbənddən Şirvana qədər olan Azərbaycan torpaqlarında yaradılmışdı. Özlərinin müstəqil bəyliklərini qurmuşdular.Mərkəzləşdirilmiş Qafqaz Albaniyası yaradıldığı zaman isə massagetlər Qafqaz albanlarının tabeçiliyində olmuşdular.

Robert Qrinin “Hakimiyyətin 48 qanunu “kitabında Persiya imperatoru Kirin məğlubiyyətinin səbəblərini belə izah edir:

“Qalibiyyət qədər cəlbedici və qorxulu heç nə yoxdur.

Kir öz imperyasını köhnə imperiyanın dağıntıları üzərində qurmuşdur. Bu imperiya yaranmamışdan yüz ilə əvvəl isə Assuriya hökmdarlığı mövcüd idi ki, Assuriyanın möhtəşəm Nineva paytaxtından dağıntılar qalmışdır. Bu cür sonluq assuriyalıları gözləyirdi, çünki onlar həddini aşmışdılar. Onlar bir-birinin ardınca torpaqları zəbt etməyə başladılar və bu qalibiyyətin onlara nə üçün lazım olduğunu dərk etməyərək öz yollarına davam edirdilər, bunun nəticəsi olaraq onlar çoxlu düşmən qazanmışdılar. Son nəticədə isə düşmənlər birləşərək assuryalıları məhv etdilər.

Kir assuriyalıların yolunu davam elətdirdi. Çoxsaylı qələbələr onun ağlını başından çıxardı. Onsuz da böyük olan imperiyanı möhkəmləndirmək əvəzinə, o, irəliyə can atmağa başladı.

Vəziyyətin dəyişməsini nəzərə almayaraq fikirləşdi ki, hər yeni müharibə yeni qələbələr gətirəcək və bu müharibələrin hər birində ona məlum olan ancaq  güc və hiyləgərlik üsulundan istifadə etmək olar.

Siz başa düşməlisiniz ki, hakimiyyət aləmində ağıldan istifadə etmək lazımdır. Əgər siz keçici hiss olan emosiyalarınızın sizin üzərinizdə hökmranlıq etməsinə yol versəniz, başladığınız hər hansı bir iş məğlubiyyətlə bitəcəkdir. Qələbə qazandıqdan sonra geri dönməkdən qorxmayın. Ehtiyatlı olun. Qələbə qazandıqdan sonra yenidən yeni bir qələbə üçün həmin metodları istifadə etməyin. Tarixdə çoxlu sayda qələbə qazanmış imperiyalar və elə bu qədər də vaxtında dayana bilməyən və öz qələbəsi üzərində öyrənə bilməyən ölmüş sərkərdələr vardır.

Demək olar ki, hər hansı bir halda, istər yaxşı, istər pis olsun, dayan deməyi və vaxtında dayanmağı bacarmaq lazımdır”.

# ATROPAT



**Atropat (yunan. Ατροπάτης ) – Atropatena dövlətinin ilk hökmdarı.**

Çox güman ki, midiyalı olan Atropat e.ə. IV əsrin 20-ci illərinin sonunda yeni dövlətin müstəqil hökmdarı olur; bu dövlət rəsmən Mada, sonralar isə özünün ilk hökmdarının adı ilə tez-tez antik qaynaqlarda Atropatena adlandırılırdı.

Tarixi mənbələrdə Atropatın adına ilk dəfə eramızdan əvvəl 331-ci ilin 1 oktyabrında Assuriyanın qədim paytaxtı Nineviya yaxınlığındakı Qavqamela adlanan yerdə Makedoniyalı İskəndərlə Əhəmənilər hökmdarı Dara arasında baş vermiş Qavqamel döyüşü ilə əlaqədar yazılarda rast gəlinir. Midiya satrapı (canişini) Atropat bu döyüşdə, qafqaz albanları və sisaklarla ittifaqda vuruşmuş, madayların süvari və piyada dəstələrinə başçılıq etmişdi.

Çağdaş tarixçilər belə hesab edirlər ki, o dövrdə Atropat orta əsrlər Azərbaycanının bütün ərazisini, həmçinin Böyük Midiya torpaqlarının bir hissəsini öz tabeliyində saxlayırdı. Həmin döyüşdən sonra Atropat İskəndərdən asılılığı qəbul etmir və İskəndər də onu taxt-tacdan kənarlaşdıraraq, Midiya satraplığına Oksodat adlı birisini təyin edir. Lakin Oksodat İskəndərin ümidlərini doğrultmadığından e.ə.

***328-ci ildə o, Atropatı öz taxtına qaytarır.***



Atropatın Iskəndərlə görüşü

Atropat İskəndərlə açıq düşmənçilik xəttinin faydasızlığını anlayaraq, diplomatik danışıqlar yolunu seçir. Bu yolla da o, Midiya torpaqlarından bir qismini işğal olunmaqdan qoruyur.

Atropat Urmiya gölü hövzəsində yaranmış və İskəndərin dövründə müstəqil idarə-üsulunu saxlamış Adərbayqan (Bu söz getdikcə dəyişilə-dəyişilə "Azərbaycan" olmuşdur) dövlətinin banisi olmuş və ölkə onun adı ilə Atropatena adlandırılmışdır. Həmin ərazi sonradan Kiçik Midiya, Atropat Midiyası və nəhayət, Atropatena adlanır.

Suzdakı təntənələr zamanı Atropat öz qızını Makedoniya süvarilərinin rəhbəri, İskəndərin ən yaxın silahdaşlarından olan Perdikkaya ərə verir. Bu, onun müstəqil Midiya hökmdarı kimi mövqeyini daha da möhkəmləndirir.

E.ə. 324-cü ilin sonlarında Bariaks adlı bir nəfər özünü Fars və Midiya dövlətlərinin hökmdarı elan edərək,İskəndərə qarşı mübarizəyə qalxır. Atropat öz qüvvələri ilə qiyamı yatırır, Bariaksı əsir alaraq, onu silahdaşları ilə birlikdə Makedoniyalı İskəndərə təhvil verir. İskəndər onları qətlə yetirir.

Makedoniyalı İskəndər tez-tez öz imperiyasını gəzirdi. Belə səfərlərindən birində o, qədim zamanlardan at yetişdirməklə məşhur olan və Atropatena sərhədlərində yerləşən Nisey düzlərinə gəlir. Atropat da buraya gələrək, bir müddət vaxtını İskəndərlə keçirir. İskəndərə burada da təntənəli qonaqlıqlar düzəldir.

E.ə. 323-cü il iyunun 13-də İskəndər öz dövlətinin ehtimal olunan paytaxtı Babildə vəfat edir. Onun cəsədi soyumamış satraplar ölkəni bölüşdürməkdən ötrü Babilistanda toplaşırlar. Kiçik Midiyada öz hakimiyyətinin möhkəmləndiyinə əmin olan Atropat bu müşavirəyə getmir. Dövlətin rəhbərliyi regent (Padşah əvəzinə ali hakimiyyəti həyata keçirən,dövləti müvəqqəti idarə




edən şəxs )qismində Atropatın kürəkəni Perdikkaya keçir. Perdikka dövləti parçalanmadan nə qədər qorusa belə onun bu cəhdləri satrapların müqaviməti ilə üzləşir və nəticədə e.ə. 321-ci ildə regent öz həyatını itirir. Ölkənin ikinci bölüşdürülməsi başlanır. Atropatın satraplığı bölüşdürülmədən kənarda qalır.

Bu vaxtdan etibarən Kiçik Midiyanı müstəqil dövlət hesab etmək mümkündür. Kiçik Midiya bir qədər sonra Atropatena (Aderbadakan), yaxud Azərbaycan adlandırılaraq, müstəqil dövlətə çevrilir və Atropat özünə şah titulu götürür. Midiya dövlətinin süqutundan bir əsr sonra Azərbaycan ərazisində yenidən müstəqil bir dövlət yaranır. Atropatın zamanından başlayaraq, məhz bu ərazilərdə dövləti və etnik varisliyi qoruyub saxlayan yeni-yeni dövlət qurumları mövcud olur. Kiçik Midiya Atropatın müdrik və uzaqgörən siyasəti nəticəsində Şərqdə Makedoniya işğalçılarından xilas olmuş ilk müstəqil dövlət olur.

Qədim yunan coğrafiyaşünası Strabon özünün məşhur "Coğrafiya"sında yazır: "Midiya iki yerə bölünür. Bir hissəni Böyük Midiya adlandırırlar. . . İkinci hissə Atropat Midiyasıdır. Bu yer öz adını sərkərdə Atropatın adından götürmüşdür. Atropat istəmirdi ki, bu torpaqlar da Böyük Midiya kimi makedoniyalıların asılılığında qalsın. Doğrudan da Atropat ölkəsinin müstəqilliyinə özü qərar vermiş, bu qərarını bəyan etmişdi və indi də irsi hakimiyyət onun ailəsinə məxsusdur... Bu, hərbi qüvvə baxımından kifayət qədər əhəmiyyətli bir ölkədir, belə ki, o meydana 10000 süvari və 40000 piyada çıxara bilər".

## ATTİLA




Sovet ittifaqı dövründə çap olunmuş ensiklopediyalarda, həmçinin Azərbaycan sovet Ensiklopediyasında, tarix kitablarında ,dahi şəxsiyyət Attila haqda heç bir məlumat yoxdur. Dərsliklərin müəllifləri, tarixçilərimiz, unutmayın ki, "hər bir türk bilməlidir türk olduğunu". Əziz oxucu, biz Elşən Qasımovun "Attila" (Altun kitab, 2007) kitabından bəzi məlumatları sizin nəzərinizə çatdırmaq istərdik:

«Böyük Hun imperiyası dağıldıqdan sonra 24 Hun tayfası əsrlər boyu yaşadıqları yeri tərk edirlər. Qərbə doğru irəliləyən bu tayfalar 4-cü əsrdə Volqa, Don çayları ərazisində məskunlaşaraq Qərbi Hun və ya Avropa Hun dövləti kimi tanınan güclü dövlət yaradırlar. Hun tayfalarının qərbə doğru hərəkəti dünyada böyük dəyişikliklərə səbəb oldu. Hunların yolu üstündə yaşayan tayfalar onların təzyiqinə davam gətirməyib yaşadıqları əraziləri tərk edir, qərbə, Avropanın içərilərinə doğru çəkilirlər. Tarixdə «xalqların böyük köçü» adlanan bu proses bir neçə əsr çəkdi .

Bu dövrdə Avropanın böyük bir hissəsi Roma imperiyasının tərkibində idi. Əvvəlki gücünü itirən Roma imperiyası 4-cü əsrdə iki hissəyə – qərbi və şərqi imperiyalara parçalanmışdı. Qərb hissəsi paytaxtı Ravenna olsa da, yenə Roma dövləti adlanırdı. Şərq hissəsi isə paytaxtı Konstantinopol olan Bizans dövləti idi. "Qocalmış" Roma onun sərhədlərini pozan tayfaların qarşısını çətinliklə alırdı. Dövləti qoruyub saxlamağa çalışan Romalılar Hun imperiyasının qüdrətini görüb onunla «mehriban» davranmağa başladılar. Onların Hunlarla bağladığı müqaviləyə əsasən Roma hər il ikinci Hun dövlətinə 350 librə qızıl verməli və bunun

müqabilində Hun ordusu Romanın apardığı müharibələrdə ona kömək göstərməli idi. O dövrün qayda-qanunlarına görə müqavilə bağlayan tərəflər bir-birinə girov verməliydi. Girov verilənlər adətən dövlət başçısının yaxın adamları olurdu. Hun hökmdarı kimin girov verilməsini götür-qoy edib, qardaşı oğlu Attilanı seçmişdi. O, Roma dövləti və siyasəti barədə dəqiq məlumat almaq istəyirdi. Belə məlumatı isə dərin müşahidə qabiliyyətinə malik olan Attila verə bilərdi.

447-ci ildə Attila II Balkan səfərinə çıxır. Bu səfərdə Attila İstanbula qədər gəlib çıxdı. Təşvişə düşən İmperator Teodosios Attilaya elçi göndərib İstanbulu tutmaması şərti ilə verəcəyi bütün şərtləri qəbul edəcəyini bildirir. Aşağıda Attilanın şərtləri yazılıb:

1. Bizans hərb təzminatı olaraq 6000 librə qızıl ödəyəcək;
2. Bizans Hun sərhədlərinə yaxın bölgədə ordu saxlamayacaq;
3. İki ölkə arasındakı bazar artıq Hun şəhəri olan Hişdə qurulacaq;
4. Bizans ödəməkdə olduğu vergini üç qat artıracaq, yəni 2100 librə (150 min solidus) qızıl ödəyəcək.

Bu hadisədən sonra Attilanın hədəfi Qərbi Roma idi. Çünki Qərbi Romanı əzdikdən sonra Şərqi Romanı Hunlara məskən etmək asan olacaqdı.

Attilla 406-cı ildə anadan olmuşdu. Atası tez vəfat etdiyindən Attilla əmisinin himayəsində tərbiyə almış, döyüş sənətini və orduya rəhbərliyi də ondan öyrənmişdi… Döyüşlərə adi əsgər kimi başlayan Attila tez bir zamanda 1000 (min) nəfərlik qoşun dəstəsinin başçısı təyin edilmişdi…

Girov kimi Romaya göndərilmiş Attila bir neçə il orada qaldı… Burada Attilaya gələcəkdə Hun dövlətinin hökmdarı ola biləcək bir adam kimi baxırdılar. Attila Roma cəmiyyətində

pozğunluq və riyakarlıq görürdü. Bütün bunlara baxmayaraq, Attilanın Romada keçirdiyi illər onun dünyagörüşünü genişləndirdi və dövlət xadimi kimi formalaşmasında böyük rol oynadı. Nəhayət, əmisi Attillanın geri qaytarılmasını tələb etdi və Roma imperatoru onsuz da ələ ala bilmədiyi bu adamın qayıtmasına etiraz etmədi. Romanı tərk edən Attila dönüb bir daha şəhərə baxdı. O bu riyakarlıq və yalan mənbəyinə ancaq müharibə ilə qayıdacağını özü üçün yəqin etmişdi... Rua Attilanı və onun böyük qardaşı Bledanı Hun ordusuna başçı təyin edib Bizans üzərinə göndərdi. Müharibəyə səbəb Bizansın öhdəsinə götürdüyü vergini vaxtında verməməsi və başqa xalqları Hunlara qarşı qaldırması idi. Attila bu döyüşdə özünü mahir sərkərdə kimi göstərdi. Onun başçılığı altında Hun ordusu Balkan yarımadasından qasırğa kimi keçdi. Bizans az qala yalvararaq sülh istədi. Sülh müqaviləsinin şərtlərini Attila atdan düşmədən diqtə etmişdi. Tarixə «Konstans sazişi» adı ilə daxil olmuş bu müqavilənin şərtlərinə görə, Bizans hər il Hunlara 700 librə qızıl ödəməli, Hun qaçqınlarını qaytarmalı, Hunlarla müharibə aparan tərəfə kömək göstərməməli, Balkan yarımadasının şimal hissəsindən əl çəkməli idi.

434-cü ildə Atillanın əmisi (Hun hökmdarı)vəfat etdi. Hun hökmdarlığına əsas namizəd Bleda Attilanın böyük qardaşı idi. Lakin o, Attilanın orduda böyük nüfuzunu görüb hakimiyyəti qardaşı ilə bölüşməli oldu. Dövləti bərabər idarə etdikləri dövrdə Attila şərq, Bleda isə qərb ərazilərinin hökmdarı sayılırdı. Bu dövrdə Hun dövləti Qara dənizdən Reyn çayına qədər olan əraziləri əhatə edirdi. Buraya cənubi Rusiya, Rumıniya və Yuqoslaviyanın şimalı, Macarıstan, Avstriya, cənubi və orta Almaniya daxil idi…

Bizanslılar bir tərəfdən Hun imperiyasına daxil olan xalqları üsyana təhrik edir, digər tərəfdən isə Hun döyüşçülərini yalançı

vədlərlə şirnikləndirərək öz tərəflərinə çəkməyə çalışırdılar. Xristian rahibləri ölkə daxilində xristianlığı təbliğ edirdilər. Bu da ölkədə dini təfriqə yaradırdı.

Attila bu hadisələri ürək ağrısı ilə müşahidə edirdi. Qardaşına bir neçə dəfə xəbərdarlıq etsə də, başı eyş-işrətə qarışmış Bleda heç bir tədbir görmürdü. Nəhayət, iş o yerə çatdı ki, böyük bir Hun dəstəsi ailələri ilə birlikdə Bizans tərəfə hərbi xidmətə keçdi. Bu,Attilanın səbrini tükəndirdi və o, Bleda ilə görüşüb ciddi danışmağı qərara aldı. Qardaşların söhbəti alınmadı: Bleda qılıncını sıyırıb Attilaya hücum etdi. Hər şey ani olaraq baş verdi. Hücumdan qorunan Attila qardaşının zərbəsini dəf edib cavab zərbəsi endirdi…

Dizi üstə çöküb qardaşının cansız bədənini sinəsinə sıxan Attila göz yaşlarını ürəyinə axıtdı. Ayağa duranda gözlərindəki nifrət və qəzəb ətrafındakıları titrətdi. Onu tanıyanlar Attilanın intiqamının amansız olacağına şübhə etmirdilər. Qardaşını hökm darlara məxsus hörmətlə dəfn edən Attila bu hadisə barədə danışmağı hamıya qadağan etdi.

445-ci ildə bütün Hun imperiyasında hakimiyyəti ələ alan Attila, ilk növbədə, ölkə daxilində vəziyyəti nizama salmağa başladı. Dini təbliğat aparmaq pərdəsi altında təfriqə salan, əslində isə Roma və Bizansın kəşfiyyatçıları olan xristian missionerləri ölkədən qovuldular. Hun dövlətinin tabeliyində 45-ə yaxın xalq yaşayırdı. Attilanın apardığı siyasət nəticəsində onun hakimiyyəti dövründə bir dəfə də olsun üsyan baş verməmişdi. Böyük Hun hökmdarı ordunun möhkəmləndirilməsinə xüsusi diqqət verirdi. O, hərbi taktikanı təkmilləşdirir, qoşunlara bacarıqlı şəxslərdən komandirlər təyin edir, dəmir nizam-intizam yaradırdı. Ölkədə əmin-amanlıq yaradıb, ordunu yenidən təşkil etdikdən sonra Attila müharibəyə başladı. Onun hədəfi qardaşının ölümündə günahkar hesab etdiyi Bizans idi. Konstantinopol

üzərinə yeriyən Attila öz döyüşçülərini qorumaq məqsədilə taktiki manevrlərdən istifadə edirdi. Onun göstərişi ilə Hun ordusu gözlənilmədən düşmənə yaxınlaşır, zərbə endirib geri çəkilir, təkrar hücumla düşməni darmadağın edirdi. Attilanın bu taktikası qarşısında heç bir ordu dayana bilmirdi. Hun ordusu artıq Konstantinopolun qala divarları qarşısında dayanmışdı. Bizans imperatoru başını itirmişdi. Şəhərdən gələn ağlamaq və yalvarış səsləri qala divarından kənarda eşidilirdi. Bizanslılar Attilanın Allah tərəfindən onları günahlarına görə cəzalandırmaq üçün göndərildiyini söyləyirdilər. O gündən bütün xristianlar Attilanı «tanrının qamçısı» adlandırmağa başladılar. Bizanslıların yalvarışları, bir daha Hun dövlətinə qarşı çıxmayacaqları haqda andları Attillanı rəhmə gətirdi. O, Bizansdan xərac kimi 2 ton qızıl alaraq döyüşçülərini səxavətlə mükafatlandırdı və qalib kimi geri döndü. Geri qayıtdıqdan sonra Attila yeni şəhər saldırıb onu paytaxt elan etdi. Bu şəhər bir çox Avropa dillərində indi də Hunqariya adlanan Macarıstanın ərazisində yerləşirdi.

Attila dünyanın müxtəlif dövlətlərindən gəlmiş səfirləri öz sarayında qəbul edirdi. Bu sarayda onunla görüşmüş bir çox avropalılar – qot tarixçisi İordan, Bizans elçisi Priskos öz xaţirələrində Aţtilaņın şəxsiyyətinə olan heyranlıqlarını gizlədə bilməmişlər. Onların yazdığına görə Attila bəstəboy, enlikürək bir adam idi, xırda, qıyıq gözləri, yastı, iri burnu, çal saqqalı var idi. Nadir hallarda gülümsəyir, zarafat edirdi. Dünya malına, ləl-cəvahirata biganə idi – taxta qabda xörək yeyir, adi əsgərlər kimi geyinir, silahına daş-qaş taxmırdı. Ona pənah gətirənlərə həmdərd, etibar etdikləri ilə lütfkar idi.

Attilla hər gün sarayının qarşısında açıq havada məhkəmə qururdu. Kimliyindən asılı olmayaraq, hər adam öz dərdi, şikayəti ilə ona müraciət edə bilərdi. O isə şikayət, yaxud xahişlə gələnləri heç vaxt cavabsız qaytarmır, həmişə ədalətli qərar verirdi.

448-ci ildə Bizans Attiladan canını qurtarmaq üçün ona qarşı sui-qəsd hazırlamışdı. Bizansın baş saray xadimi Attilanın elçisi Edekona böyük pul vəd edərək sui-qəsdi həyata keçirməyə razı salmışdı. Lakin Attila ilə görüşdə onun nəzərləri qarşısında özünü itirən Edekon hər şeyi açıb danışmışdı. Attila Bizansa səfirlərini göndərərək ağır təhdidlərlə bu işin təşkilatçısının başını istəmişdi. Çətin vəziyyətdə qalan Bizans Hun sarayına Bizans əsilzadələrindən ibarət elçi heyəti göndərərək bu məsələni yoluna qoymağa cəhd etmişdi. Gözlənildiyinin əksinə olaraq Attila elçiləri çox hörmətlə qəbul etmişdi. O, hətta əvvəl istədiyi torpaqlardan imtina etdiyini bildirmiş, heç bir haqq istəmədən Bizans əsirlərini qaytarmışdı. Bütün bunların əvəzində Attila yalnız Bizansın baş saray xadiminin başının göndərilməsini israr etmişdi. Çıxılmaz vəziyyətə düşmüş Bizans Attilanın bu istəyini yerinə yetirməli olmuşdu. Bizansdan sonra Hun dövlətinin ən təhlükəli rəqibi Roma idi. Attila bu ölkədə baş verənləri diqqətlə izləyirdi. Roma da öz növbəsində Hun dövlətini və Attilanı məhv etmək üçün yollar axtarırdı. Bu məqsədlə bir neçə Alman tayfası ilə ittifaq yaratmışdı. Attila bütün bunları bilir və Roma ilə müharibəyə başlamaq üçün bəhanə axtarırdı. Gözlənilmədən belə bir bəhanə Romanın özündən gəldi. Roma imperatoru Valentinianın bacısı Honoriya Attilaya məktub və üzüyünü göndərərək ona ərə getməyə hazır olduğunu bildirdi. Attila evli olsa da, bu izdivacın Romaya sahib olmaq imkanı verəcəyini düşünərək Valentinianın yanına elçilərini göndərdi. Lakin Valentinian da Attilanın əsl məqsədini başa düşürdü və buna görə də elçilərə rədd cavabı verdi. Bundan hiddətlənən Attila 451-ci ildə Romaya müharibə elan etdi. Hunlar müharibəyə hazırlaşan vaxt bir çoban skif adəti üzrə tiyəsi yuxarı basdırılmış qədim bir qılınc tapıb onu Attilanın hüzuruna gətirir. Yürüş ərəfəsində qılıncın tapılmasını uğurlu əlamət sayan Attila: «Bu müqəddəs qılınc mənə tanrı

tərəfindən dünyanı fəth etmək üçün göndərilib!» – deyərək onu başı üzərinə qaldırdı. Onu dinləyən on minlərlə Hun döyüşçüsü bir ağızdan «Bizi döyüşə apar!» – deyə hayqırdı. Romada Attilanın qılınc əhvalatı əsl vahimə yaratmışdı. «Tanrının qamçısı» indi əlinə tanrı qılıncı götürmüşdü. Bundan sonra onun qarşısında kim dayana bilərdi! Romalıların inamına görə, bu, müharibə Allahı Aresin, yəni Marsın qılıncı idi və bu qılınca sahib olan dünyaya sahib olacaqdı.

451-ci ildə ordu Attilanın başçılığı altında Reyn çayını keçib Roma imperiyasının ərazisinə daxil oldu. Orduda Hunlara tabe olan Alman tayfalarının da döyüşçüləri iştirak edirdi. Qalliyada qarşısına çıxan şəhərləri tar-mar edən Hun ordusu Orlean şəhəri ətrafında düşərgə saldı. Elə bu zaman Attilanın kəşfiyyatçıları İtaliya tərəfdən böyük bir ordunun onlara tərəf gəldiyini xəbər verdilər. Attila şəhərin mühasirəsini buraxıb ordusunu Şalon düzənliyinə tərəf çəkdi. Burada o, Roma ordusuna kimin başçılıq etdiyini öyrəndi və bu xəbər onu sarsıtdı. Əslən Romalı olan bu şəxs uzun illər Hun sarayında yaşamış Aeti idi. Attila vaxtilə onunla dostluq etmiş, birgə döyüş təlimi keçmişdi. Əslində Aeti məhz Hunların köməyi ilə Romada yüksək mənsəb sahibi olmuşdu. Attilaya təsir edən də uşaqlıq dostunun dönüklüyü idi: «O, əsl Romalı olduğunu sübut etdi».

Aetinin Katalaun düzənliyində mövqe tutduğunu öyrənən Attila ordusunu həmin istiqamətdə apardı. Hələ heç kim Attilanı döyüş ərəfəsində belə qayğılı görməmişdi. O bilirdi ki, Aeti Hunların döyüş taktikasına bələddir. Döyüş meydanını gözdən keçirən Attilanın narahatçılığı bir az da artdı. Aeti döyüş üçün hər tərəfdən açıq, çala-çuxurlu bir yer seçmişdi. Bütün bunlar ordunun əsas zərbə qüvvəsini təşkil edən Hun süvarilərinin üstünlüyünü azaldır, Attilanı sürətli manevr imkanından məhrum edirdi. Döyüş gününün səhəri Attila çox tutqun görünürdü.

Şamanlar ona döyüşün uğursuz olacağını söyləmişdilər. Günortaya yaxın hər iki tərəf bir-birinə doğru hərəkət etdi və dünya tarixində ən qanlı döyüş kimi tanınan Katalaun döyüşü başladı. Bütün meydan boyu amansız əlbəyaxa çarpışma gedirdi. Axşama yaxın Romalılar Hun ordusunu sıxışdırmağa başladılar. Bunu görən Attilla ehtiyatda saxladığı Hunların seçmə dəstəsi qarşısına çıxıb onları hücuma səslədi və bu dəstə ilə irəli atılıb düşməni geri çəkilməyə məcbur etdi. Döyüş bütün günü davam etdi. Ancaq qaranlığın düşməsi hər iki tərəfi döyüşü saxlamağa vadar etdi. Hər iki tərəf ağır itkilər vermişdi. Bu qanlı döyüşdə 165 min nəfərdən çox ölən olmuşdu. Katalaun döyüşü Attilanın qələbə ilə başa vura bilmədiyi ilk və yeganə döyüş idi. Ertəsi gün Attila döyüşü davam etdirməyib geri çəkildi. O, ordusu üçün əlverişli olmayan ərazidə döyüşmək istəmirdi. Onun geri çəkilməsini məğlubiyyət sayan Roma və Bizans bayram edirdi. Lakin Roma ordusu da o qədər itki vermişdi ki, Hunları təqib edə bilmədi.

Attila ordusuna bir neçə ay dinclik verdikdən sonra qüvvəsini cəmləyib yenidən yürüşə başladı. Bu dəfə o, birbaşa İtaliya üzərinə hücum etdi. Şimali İtaliya və Adriatik dənizi sahilində olan şəhərlər tamamilə yandırılıb dağıdıldı. Bu şəhərlərin əhalisi Hun atlarının üzüb keçə bilmədiyi xırda adalara qaçdı. Sonralar burada Venesiya şəhəri meydana gəldi. Şimali İtaliyanı yerləyeksan etmiş Hun ordusu Romaya aparan yolla irəliləyirdi. Romalıların Hunlarla döyüşə girməyə cəsarəti çatmırdı. Roma sərkərdəsi Aeti qoşun toplamaq adı ilə aradan çıxmışdı. Artıq «əbədi şəhərin» Hun süvarilərinin tapdağı altda qalacağına şübhə yox idi. Məhz bu yürüş zamanı Attilanın Roma Papası I Leo ilə görüşü baş verdi…

...Leo əllərini Attilaya doğru uzadıb, onu Romaya rəhm etməyə çağırırdı. Attila cəld atdan düşüb bu ahıl adamı ayağa

qaldırdı. O, Leoya çaşqınlıq və heyrətlə baxırdı. Attilanı heyrətə salan Leonun sözləri yox, cəsarəti idi. Bütün Roma sərkərdələrinin qorxudan qaçıb gizləndiyi bir vaxtda bu zəif qocanın cəsarəti Attilada ona qarşı rəğbət oyatdı. O, din başçısının sözünü yerə salıb, ona təbəələri arasında hörmətsizlik etmək istəmədi. Attila Roma Papasını yola salıb, Hun ordusuna geri dönmək əmrini verdi.

Attila Avropanı yalnız qılınc ilə deyil, həm də alicənablığı ilə fəth etdi. O, mənəvi qələbə qazanmışdı. Öz hərəkəti ilə Attila Romalıların barbar saydıqları Hunların mənən onlardan daha yüksəkdə durduğunu göstərmişdi. Yəqin buna görə Avropanın bir çox xalqları Attilanı öz milli qəhrəmanları hesab edirlər.

453-cü il martın 15-də böyük toy məclisi qurub misilsiz bir alman gözəli ilə evlənən Attila həmin gecə burnundan açılan qanaxma nəticəsində vəfat etdi. Xalq arasında belə bir xəbər də yayılmışdı ki, onu yenicə evləndiyi arvadı  yatdığı yerdə qətlə yetirib…

Attilanın ölümü Hunları yasa qərq etdi. Onun nəşini iç-içə qızıl, gümüş və poladdan düzəldilmiş tabuta qoyaraq dəfn etdilər. Deyirlər, Attilanın qəbrinin tapılmaması üçün Tissa çayının qollarından biri qəbrin üstündən keçirilmiş və bu işin şahidləri öldürülmüşdü.

Oğulları Attilanın yerini tuta bilmədilər.Hələ sağlığında öz yerinə layiqli başçı hazırlamayan Attilanın çox millətli ökəsində hərc-mərclik, hakimiyyət uğrunda müharibələr başladı və Hun dövləti dağıldı. Hunların bir hissəsi əcdadlarının 5 əsr əvvəl gəldiyi yolla geri qayıtdılar, digərləri isə Avropada qalıb yerli tayfalara qarışdılar.

## CAVANŞİR



Cavanşir-dövlət xadimi və sərkərdə. Alban hökmdarı Cavanşir Mehranilər sülaləsindən idi. 642-ci ildə anadan olmuşdu. O, hələ atasının sağlığında ölkənin idarə olunmasında yaxından iştirak etmişdi. Sasani ordusunun tərkibində ərəblərə qarşı vuruşan şahzadə Cavanşir Alban hərbi hissələrinin komandanı kimi döyüşlərdə fərqlənmişdi. Cavanşir göstərdiyi igidliyə görə Sasani şahı ona mirvari ilə bəzədilmiş qızıl kəmər və qızıl dəstəkli qılınc bağışladı. Ərəblərə qarşı vuruşmağın mənasız olduğunu görən Cavanşir 7 illik mübarizədən sonra Albaniyaya qayıtdı. Cavanşir vətənə qayıdandan sonra atası onu hökmdar elan etdi və hökmdarlıq möhürünü ona verdi. Sonralar Cavanşir ərəblərə qarşı Bizans imperatoru ilə birləşmək qərarına gəldi. O, 654-660-cı illərdə 2 dəfə Bizans imperatoru II Konstantinlə görüşmüş, o da Cavanşiri İberiya (indiki Gürcüstan) sərhədlərindən Araz çayına və "Hun qapıları"-na (Dərbəndə) qədər olan ərazini əhatə edən Albaniya ölkəsinin hökmdarı elan etdi.

VII yüzillikdə Ərəb xilafəti qüdrətli bir dövlətə çevrildi.

VII əsrdə islam ordusunun məğlubolunmazlığı haqqında cox yazilib, hətta "İslam əsgərinə ox batmır, təsir göstərmir" kimi inanc yaranmışdı...

**Haşiyə:**

Ərəblərin başına gələn hadisə: VII əsrdə ərəblərin Qafqaza yürüşü zamanı ərəb döyüşçülərindən birisi çayda yuyunmaqda

ikən bir xəzər turk döyüşçüsü ona ox atdı və ərəbi yaralayaraq şəhid etdi. Xəzərlər ərəbin kəlləsini kəsib Xaqanın yanına gətirdi. Kəlləni göstərərək ərəblərin ölməməsi və məğlub edilməməsi haqqındakı deyilənlərin doğru olmadığını söylədi. Bundan sonra xəzərlər ərəblərə dərhal hücum etdi. Ərəblər güclü müqavimət göstərsələr də çoxlu təlefat verdilər. Xəzərlərin böyük ordusuna müqavimət göstərmək mümkün olmadı. Əsgərlər son dərəcədə qəhrəmancasına döyüşərək şəhid oldular. Şəhidlərin qəbri hal-hazırda Dərbənd şəhəri ətrafında olan ”Qırxlar” adı ilə məhşur olan ziyarətgahdadır.

Ziya Bunyadovun Azərbaycan vıı-ıx əsrlərdə kitabinda yazilib:

Xilafətin mərkəzi ilə vilayətlər arasında rabitə yaratmaq üçün bərid adlanan poçt yaradılmışdı. Mənbələrdə göstərilir ki, bərid I Müaviyənin (661-680) hökmranlığı dövründə əmələ gəlmişdi, xəlifə Əbd ül-Malik (685-705) isə bəridin işini yaxşılaşdıran bir sıra tədbir gördü, poçt işində hətta göyərçindən istifadə etməyə başladılar. Əl-Kəlkəşəndinin verdiyi məlumata görə “yeni düzəldilmiş şeylərdən ən yaxşısı Xilafətin hər yerində yaradılan bədir idi. Bədir göndərmələri (pulu) yaxşı qoruyurdu, xəbərləri tez çatdırırdı və vəziyyəti bərpa edirdi”

Xilafətin müəyyən məntəqələrində poçt stansiyaları və əvəzetmə vasitələri var idi, bunların yardımı ilə qasidlər Xilafətin mərkəzi ilə ucqarları arasında nisbətən tez rabitə yarada bilirdilər. Sonralar xəlifənin və vilayət hakimlərinin əmrləri çox böyük sürətlə göndərilirdi və mərkəzi hakimiyyətin yerlərə gedən rəsmi nümayəndələri xəlifə ilə operativ şəkildə rabitə saxlaya bilirdilər. Stansiyalar bir-birindən bir bərid yəni dörd fərsəx (22, 176 kilometr) məsafədə yerləşirdi, bu da qasidin bir mənzil at sürməsinə imkan verirdi, hər bir stansiyada inzibati məqsədlə məmurlar ştatı var idi. Vilayətlərin paytaxtlarında valilərin yanında poçt direk-

torları var idi, lakin bunların vəzifəsi bir tək poçt –inzibati işlər deyil, həmçinin Xilafətin paytaxtına siyasi məlumat göndərmək idi, çünki paytaxda olan divan ülbəridin vəzifəsinə canişinlər, qazılar, hərbi rəislər, amillər və başqalarının fəaliyyəti haqqında məlumat toplamaq, ümumiyyətlə, yerlərdəki hakimiyyət orqanlarının fəaliyyətinə göz qoymaq da daxil idi.

A.Müllər yazır: “Poçt məntəqələri müdirləri daim yeni cari məlumat ehtiyatından istifadə etmək üçün, aydındır ki, hər yerdə casuslar qoymalı idilər. Beləliklə, fəal işləyən əsl gizli polis əmələ gəlmişdi ki, bu da hər cür digər quruluşlardan daha artıq, müstəbir üsulı-idarə üçün zəruri idi”.




Cavanşir Albaniyanı ərəblərin dağıdıcı yürüşlərindən qorumaq üçün xəlifə ilə görüşməyi qərara aldı. Cavanşir Əməvi hökmdarı I Müaviyə [661–680] ilə danışıq aparmaq üçün Dəməşqə getmiş, sülhə nail olmuşdu. Dəməşq sülhünə görə, Albaniya daxili müstəqilliyini saxlaya bilmişdi. Cavanşirin 667-ci ildə Dəməşqdə ilk səfərindən sonrakı ildə Arran əhalisi hər hansı xarici hücumlardan xilas oldu. Bu onun uzaqları görən bir hərəkəti idi, bununla Arranı qarşıdakı labud dağıntılardan, müharibələrdən qurtardı. İstər yazılı mənbələr,istərsə xüsusilə arxeoloji qazıntı materialı VI əsrin axırı və VII əsrin əvvələrində ölkənin mədəni

siması haqqında bizə məlumat verir.Mənbələr göstərir ki,V əsrin əvvəllərində Azərbaycanın şimal hissəsinin (Arran) öz əlifbası olmuşdur və bu əlifbanın gürcu və erməni əlifbaları ilə ümumi oxşar cəhətləri var imiş. Sovet hakimiyyəti dövründə, SSRİ-nin və Azərbaycanın arxivlərində rəhbər vəzifələrdə işləmiş ermənilər, Arran dövlətindən qalmış tarixi məlumatları, mədəniyyət numunələrini itirmiş və ya saxtalaşdiraraq öz adlarına yazmışlar. Belə ehtimal olunur ki, mədəniyyət nümunələri ilə bərabər Arran əlifbasını da ermənilər mənimsəmişlər.

Hələ V əsrdə Arranda zəngin ədəbiyyat var idi, lakin sonralar bu ədəbiyyat yox olmuşdur. Arran (Alban) əlifbası hərflərinin sayı haqqında müxtəlif fikirlər vardır. Məsələn N. Karamyans belə hesab edir ki, hərflərin sayı 21 idi, Ellis Minns belə güman edir ki, hərflərin sayı 32 imiş. Lakin A. Q. Şanidze və digər tədqiqatçılar belə hesab edirlər ki, hərflərin sayı 52 olmuşdur. Bu ibadətgahın yerləşdiyi ərazidə tapılan saxsı qablar üzərində belə yazılar vardır. Bundan başqa üzərində alban yazısının 21 hərfi olan kirəmit parçaları, qırmızı gildən qayırılmış qabın bir tikəsi üzərində, ehtimal, alban yazısı, ölçüsü 67x67 və üzərində 62 hərf olan böyük daş və 49 hərf olan gil şamdan tapılmışdır.

Mingəçevirdəki arxeoloji qazıntılar zamanı tikinti hissələri və saxsı qablar üzərində alban oyma yazılarının bir neçə parçası tapılmışdır. Bunlardan biri Mingəçevirin qədim ibadətgahı üzərində oyulub yazılmışdır. Mingəçevirdəki qazıntı zamanı tapılan alban əlifbası parçaları təsdiq edir ki, V-VII əsrlərdə Arranın öz yerli yazısı var idi və bu yazı ölkədə ərəb hökmranlığı daha qurulmazdan əvvəl mövcud olmuşdur. Belə güman etmək olar ki, Arranda yazılı mənbələr və ədəbiyyat xəlifə Əbu ul-Malikin (685-705) hökmranlığı dövründən başlayaraq məhv edilmiş və ya sıxışdırılıb aradan çıxarılmışdır.

V əsrdə Arranda məktəblər var idi və burada uşaqlar oxuyur-

dular. Məsələn, "Əfqan tarixi"ndə belə bir məlumat vardır: "(padşah) Baçaqan əmr etdi ki, cadugərlərin, sehirbazların, bütpərəst kahinlərin, ağlayanların uşaqlarını yığıb məktəbə göndərsinlər və orada onlara dini ayinləri öyrətsinlər. O, oğlanlara əmr etdi ki, hamı birlikdə onun Rustak kəndinə toplansınlar, onlar üçün təqaüd ayırıb məktəb müdiri təyin etdi və xristianlığı öyrənməyi əmr etdi".

Arran yarımmüstəqil vəziyyətini itirir və tamamilə ərəblərin hakimiyyəti altına keçir.

Təxminən 681-ci ildə knyaz Cavanşir bizanspərəst əhval-ruhiyyəli Arran knyazlarının sui-qəsdi nəticəsində öldürüldü.

Sonralar gəlmə ermənilərin kilsəsi alban rühaniləri tutduqları mövqelərdən sıxışdırıb çıxarmış və ölkədə ərəblərin əlləri çatmayan dağlıq yerlərdə yaşayan albanları qriqoryanlaşdırma təbliğatına başlamışdılar. Erməni ruhaniləri Arran kilsəsinin nüfuzunu yerli əhali arasında tədricən zəiflətmişdir. Ermənilər rüşvət və qeyri vasitələrlə ərəbləri ələ aldılar. Ermənilər ərəb hakimlərinin əli ilə albanların bütün ədəbi abidələrini dağıdıb, Alban mədəniyyətini azacıq xatırlada biləcək hər şeyi məhv etmişlər.

670-ci ildə Cavanşir Xilafət və Bizans arasında danışıqlarda iştirak etmək üçün yenidən Dəməşqə dəvət olunmuşdu. Danışıqlardan sonra Albaniyadan alınan vergi və xəracın miqdarı üçdə bir hissəsi qədər azaldılmışdır. Beləliklə, Cavanşir öz ölkəsinin müstəqilliyini qoruyub saxladı.

Cavanşirin hakimiyyəti dövründə Albaniyada iqtisadi həyat dirçəlmiş, elm və mədəniyyət inkişaf etmişdi. Alban tarixinin tərtibinə də Cavanşirin dövründə başlanmışdı. Cavanşir Azərbaycan tarixinə dahi dövlət xadimi, siyasətçi və sərkərdə kimi daxil olmuşdur.

Davud Nəsib "Cavanşir" əsərində (Bakı, 2000) yazır: "Ca-

vanşir axırıncı dəfə Dəməşqdən qayıtdıqdan sonra Xilafətlə gizli danışığa girən erməni kilsə əyanları onun gizli qəsd əməliyyatını öz öhdələrinə götürmüşdülər. Onlar xəlifəni inandırmışdılar ki, Cavanşir xəzərlərlə birləşib Xilafət əleyhinə müharibəyə hazırlaşır. Bunun qarşısının alınmasınınsa ancaq bircə yolu var: Cavanşiri aradan götürmək. Əgər bu qəsd baş tutarsa, Albaniyada onu əvəz edən ikinci şəxsiyyət, çətin ki, tapıla. Cavanşirin aradan götürülməsi, yəni bu işin həyata keçirilməsi müqabilində Qriqoryan kilsələrinin toxunulmazlığı və Alban kilsələrinin erməni katolikoslarının tam ixtiyarına keçməsinə zəmanət verilirdi. Davud Nəsibin "Cavanşir" əsərində öz əksini tapmış 2 tarixi sənədin və müəllifin "Sənədli epiloq" başlığı altında yazdığı şəxsi fikirlərini olduğu kimi vermək qərarına gəldik: "Alban tarixinə, mədəniyyətinə dair yazıların, ədəbi nümunələrin kütləvi şəkildə məhvi 8-ci əsrin əvvəlinə – Albaniyanın ərəblər tərəfindən tam işğalından sonraya təsadüf edir. Əslinə qalsa, bu, təsadüf deyildi. Alban kilsələrini qriqorianlaşdırmağa çalışan erməni katolikosları Cavanşirin qətlindən sonra niyyətlərini açıq və ardıcıl həyata keçirməyə başladılar. Alban kilsələrinin erməniləşdirilməsinin arxasında başqa gizli hiyləgər məqsədlər dururdu. Gələcəkdə Qafqaz torpaqlarında bərqərar (yerləşmək) olmaq üçün bu, ermənilərin əlində bir vasitə rolunu oynadı. Sonrakı faciəvi hadisələrin baş verməsi dediyimizə sübutdur.

Cavanşir sui-qəsd nəticəsində öldürülmüşdü. Cavanşirin qətli ilə (680/681) Albaniyanın ərəblər tərəfindən müstəmləkəyə çevrilməsi başa çatdı.

8-ci əsrin əvvəlində erməni katolikosu İlyanın xəlifə Əbd-Ül-Malikə göndərdiyi məktub tarixin yazılı yaddaş şahididir:

«Hökmdar Əbd-Ül-Malik, Əmir Mömininə erməni katolikosu İlyadan.

Qadir Allahın iradəsi ilə bizim tabe ölkəmiz sizə qulluq edir.

Biz və Alban kilsəsi bir ilahi İsa dininə etiqad edirik. Partav (Bərdə) taxtında oturan indiki Alban katolikosu Yunan imperatoru ilə sazişə girib, öz ibadətlərində onun adını çəkir və ölkəni məcbur edir ki, hamı dini etiqadda ona qoşulsun və onun himayəsini qəbul etsin. İndi qoy bu sizə məlum olsun, ta bu barədə qərar qəbul edəsiniz, çünki bu bədəfkarlıqda (cinayətkarlıqda) onun bir əyan qadın həmfikri də vardır. Böyük hökmdar, siz öz hakimiyyətinizlə əmr buyurun, onlar Allaha qarşı işlətdikləri günah üstündə müstəhəqq (layiq) olduqları cəzaya çatsınlar». Bu tarixi sənəd qalmasaydı, təsəvvürə gətirin ki, nə baş verərdi? Xalqımız öz soy-kökü, tarixi barədə məlumatsız qalardı. İndiyədək bilmədiklərimiz indən sonra da bilinməzdi. Mənə elə gəlir ki, Albaniyanın (Azərbaycanın) əsrlər boyu ardıcıl faciəsi bu tarixi sənəddən sonra başlayır. Millətin, ölkənin tarixi olmayanda, əfsanələşir. Soy-kökü ancaq əfsanələr üzərində qurmaq tək dünənindən yox, həm də bu günündən ayrılmaqdır. Ermənilər tərəfindən xalqın, məmləkətin tarixi cümlə-cümlə dəyişdirilib. Dəyişdirilə-dəyişdirilə erməniləşdirilib.

Erməni katolikosu ilyanın məktubuna Əbd-Ül-Malik Əmir Mömininin cavabına yaxşı-yaxşı diqqət yetirin:

«Ey Allahın xadimi və erməni xalqının katolikosu İlya, sənin səmimi məktubunu oxudum və sənə mərhəmətim olduğuna görə, öz sədaqətli bəndəmi çoxlu qoşunla göndərdim. Əmr etdik ki, bizim hökmranlığımıza qarşı qiyam edən Albanlarda sizin dininizə uyğun dəyişiklik edilsin. Bizim hökmü, bəndəmiz Partavda (Bərdədə), sənin hüzurunda icra edəcəkdir: Nersesi (Nerses – Alban katolikosunun xristian adıdır, onun əsl adı Bəkirdir) və bədəfkarlıqla (cinayətkarlıqla) onun həmfikri olan qadını bir zəncirlə bağlayacaq və şahanə mühakimə edəcəkdir ki, onlar bütün qiyamçıların yanında rüsvay olsunlar».

Dönə-dönə oxuyun və yaddaşınıza həkk edin tarixdən qalan

bu iki məktubu.

Bərdədə dünyanın nadir kitabları, Alban ədəbi əsərləri, mədəniyyət nümunələri  məhv edildi . Tariximiz dəyişə-dəyişə yadlaşdı. Yadlar "doğmalaşdırmaq" istədi bu tarixi özlərinə. Təki biz özümüz-özümüzə yadlaşmayaq.

Tarixin yaddaşını silmək – xalqı yaddan çıxarmaqdır. Alban xalqının xristianlığı qəbul etməsi də bir tarixdir. Qafqazda xristianlığı ilk dəfə Albanlar qəbul edib. Sonrakı əsrlərdə torpağımızın ərəblər tərəfindən işğal edilməsi, həm də xalqın mənəvi işğalı idi. Bu torpaqda islam qəbul edildikdən sonra istər-istəməz xristianlıq da aradan çıxmalı idi. Xristianlığın məhvi onun dövründə yaranan maddi-mənəviyyat abidələrinin də unudulub, yadlaşması demək idi. Bu yerlərə gəlmiş ermənilər bu dəyişiklikdən istifadə edib xristianlıq dövrünə aid nə var idisə, hamısına sahib olmağa, özünküləşdirməyə çalışırdılar.

Tarixin sahibi, sözsüz ki, torpağın da sahibi olmaq deməkdir. Bunlar ermənilər tərəfindən düşünülüb, həyata keçirmək istədikləri mənfur bir hiyləgərlikdir. Nə yaxşı ki, tarixçilərimiz o dövrü arayıb-araşdıraraq həqiqəti üzə çıxara biliblər. Belə olmazdısa, başqasının tarixi, mədəni abidələrini, dəyərlərini oğurlamağa, özünküləşdirməyə öyrəşmiş ermənilərə Azərbaycandakı kilsələrin Qafqaz albanlarından qalmasını isbat etmək qeyri-mümkün olardı.

Cavanşir xarici və daxili siyasəti ilə Azərbaycan tarixində görkəmli dövlət xadimi olaraq qaldı. Xalqımız onun xatirəsini övladlarına Cavanşir adı qoymaqla yaşadır. Onların Cavanşir kimi qəhrəman və cəsur olmasını istəyirlər.

# BABƏK



***(795 – 838)***

Babək-görkəmli Azərbaycan sərkərdəsi və siyasi xadimi , xalq qəhrəmanı Babək haqda çox yazılıb, yazılır və yazılacaqdır.

O, təqribən 795-ci, başqa məlumata görə 798-ci ildə Ərdəbil yaxınlığındakı Bilalabad kəndində anadan olmuşdur.Uşaq ikən yetim qalmış, 18 yaşınadək kəndin mal-qarasını otarmış, sənətkar yanında şagirdlik etmişdi. Babəkilər hərəkatı təkcə Azərbaycan tarixində böyük yer tutmur. Bu hərəkat qüdrətli Abbasilər dövlətinin ayrı-ayrı dövlətlərə parçalanmasına səbəb olan əsas siyası qüvvələrdən biri olmuşdur. Babəkilər hərəkatı Xilafət tarixində ən möhtəşəm xalq hərəkatlarından biri olmuş və X əsr ərəb müəlliflərindən birinin dediyi kimi "az qala Abbasilər dövlətini yıxmışdır".

Məlum olduğu kimi, Azərbaycanda xürrəmilərin üsyanı öz başlanğıc mərhələsində Cavidan ibn Səhl və ya İbn Suhrak adı ilə bağlı idi. İbn ən-Nədimin qismən sitat gətirdiyi Baqid ibn Əmr ət-Təmininin itirilmiş "Babəkin tarixi" əsərində xürrəmilər hərəkatının meydana gəlməsindən bəhs edilən çox maraqlı və mötəbər sayıla biləcək təfərrüatlar vardır. Hərçənd ki, "Babəkin tarixi "əsəri hadisə və şəxsləri təhrif edən mövqedən yazılmışdır. Kitabda xürrəmilər və Babəkin mənfi insanı xüsusiyyətlərə malik olduğu göstərilir. Xilafət düşmənlərindən bəhs edildikdə tamamilə yalnış məlumatlar verilir.

"Babəkin tarixi"nə görə, Cavidan Ərdəbil mahalinda yaşayırdı, onun böyük qoyun sürüləri var idi və o, qoyunları Zəncan bazarında satırdı. Yağ satan Abdullah adlı bir şəxs Mədaindən

köçüb bu yerlərə, daha doğrusu, Meymad rustakının Bilalabad kəndinə gəlmişdir.O,yağını satarkən bir kənddən digərinə gedərdi, nəhayət, kəndlərdən birində özünə Bərumənd adlı birgözlü məşuqə tapır ki, o da yerli hakim İbn ər-Revvadın qulluqçusu idi. Bir müddətdən sonra onların oğlu dünyaya gəlir, onun da adını Babək qoyurlar. Bir ildən sonra Abdullah ölür,Bərumənd isə oğlu Babək ilə Səraba köçür. Burada Babək əvvəlcə çobanlıq edir, sonra isə Təbrizə gedərək, şəhər hakimi Məhəmməd ibn ər-Rəvvad əl-Əzdinin yanında qulluq etməyə başlayır. Bir müddət orda qaldıqdan sonra o, anasının yanına qayıdır.

Bir dəfə Cavidan Zəncanda bir qədər mal-qara satıb öz yerinə,Bəzzə qayıdanda hava pis olduğuna görə təsadüfən Babəkin anasının evində qonaq qalır.Cavidan ,onun müxtəlif tapşırıqlarını yerinə yetirən Babəkin çox bacarıqlı və zirək olduğunu görür. O, Cavidanın xoşuna gəlir. Bu da gənc Babəkin gələcək müqəddəratını həll edir.Cavidan Babəkin anasına təklif edir ki, oğlunu ona qulluq etməyə versin, o da bunun müqabilində onun anasına hər ay müəyyən məbləğ pul ödəsin. Bərumənd razılaşır, Babək də Bəzzə gedib, Cavidanın malikanəsini idarə etməyə başlayır. Az sonra Cavidan öz daimi rəqibi Əbu İmranla vuruşmada ölümcül yaralanır və üç gündən sonra ölür.Cavidanın Babəkə gözü düşən cavan arvadı, ərinin ölümündən sonra vəziyyəti düzgün qiymətləndirərək Babəkə deyir ki, Cavidanın tərəfdarlarına rəhbərliyi öz öhdəsinə götürsün. Arvad onları ölən rəhbərin yanına toplayıb deyir ki, onların ağası Cavidan ölümündən qabaq ona aşağıdakı vəsiyyəti etmişdir: ”Mən bu gecə öləcəyəm, mənim ruhum bədənimdən çıxıb Babəkin bədəninə keçəcək və onun ruhu ilə birləşəcəkdir... Mən onu öz yerimə öz ardıcıllarıma rəhbər təyin edirəm”.

Cavidanın tərəfdarları onun dul arvadının sözünə inanıb, şərtlərini danışıqsız qəbul etdilər. Bundan sonra isə Babəkin icma

rəhbərliyinə qəbul edilməsi mərasimi başlandı. Arvad əmr etdi bir inək gətirsinlər. Onu kəsdilər, dərisini soyub yerə sərdilər.Sonra dərinin ortasında bir şərab qədəhi qoyuldu, arvad da onun içərisinə çörək doğradı.Bu hazırlıq görüldükdən sonra, arvad Cavidanın hər bir tərəfdarını adı ilə çağırmağa başladı və ona əmr etdi ki, dərinin üstünə çıxsın, qədəhdən bir tikə çörək götürüb yesin və onun ardınca bu sözləri təkrar etsin: “Mən Cavidanın ruhuna inandığım kimi, sənə də inanıram, ey, Babəkin ruhu!” Bundan sonra hər biri Babəkin əlindən tutub öpür və ona baş əyirdi. Sonra kef məclisi quruldu, bu ziyafətdə dul arvad Babəki öz yanında oturtdu və ona bir budaq reyhan verdi, bu isə kəbin mərasiminin simvolu idi. Mənbələrin məlumatına görə, bu əhvalat hicri 201-ci ildə ( b.e.816-ci ilində olmuşdur).

Orta əsr mənbələrində bildirildiyi kimi əvvəlcə Cavidanın, sonra isə iyirmi ildən artıq Babəkin başçılıq etdiyi xürrəmilərin Azərbaycandakı mərkəzi paytaxtı qala şəhəri olan Bəzz idi. Təbəri deyir ki, “Bəzz Babəkin vilayəti və şəhəri idi”. Məsudi yazır ki, ”Babək Azərbaycan ölkəsində olan Bəzzəyn dağlarında üsyan qaldırmışdı“. Onun əsərində deyilir ki, ”Babəkin ölkəsi Bəzzeyn Azərbaycan, Arran və Beyləqandadır”, Bəzzeyn də Arranda, ”Babəkin ölkəsində” olan dağdır.

Babək Bəzzdə xürrəmilər icmasının rəhbərliyini qəbul edən zaman,onun tərəfdarlarının sayı çox deyildi.Bir mənbədə bildirilir ki, Babək onlara qılınc, xəncər payladı və əmr etdi ki, öz kəndlərinə gedib çıxış üçün onun siqnalını gözləsinlər. Siqnal veriləndə Babəkin ardıcılları kəndlərə ərəblərin və onların ətrafındakı adamların üstünə atılaraq hamısını qırdılar. Bundan sonra Babək öz adamlarını Bəzzdən uzaq mahallara göndərdi, orada da bütün ərəblər və onların yerli əhalidən olan tərəfdarları məhv edildi.

Xürrəmilər üsyanının bürüdüyü bütün vilayətlərdə Babək öz ardıcillarına əmr edirdi ki, (ərəblərin) mülk və malikanələrinə

hücum etsinlər və onların əmlakını ələ keçirsinlər. Üsyançıların böyük müvəffəqiyyətləri və xilafətin geniş ərazisini tutmaları xəlifə Məmunu məcbur etdi ki,qarşıda duran təhlukəyə ciddi fikir versin. 819-cu ilədək xəlifə qoşunlarının xürrəmilərlə böyük vuruşmaları olmayıb. Qarşı durmalar yalnız yerli toqquşmalarla məhdud olurdusa, 819-cu ildə xəlifə Yəhya ibn Müaz ibn Müslimin başçılığı altında Babəkə qarşı ilk nizami ordu göndərdi. Baş verən vuruşmada tərəflərdən heç biri məğlub olmadı. Sonrakı vuruşmalarda da gah bu, gah da digər tərəf müvəffəqiyyət qazanırdı.

Cavidan öləndən sonra Azərbaycan xalqının Xilafətə qarşı azadlıq mübarizəsinə Babək başçılıq etmişdi. Bu mübarizə 20 ildən artıq davam edib. Xilafətin yaxşı silahlanmış nizami qoşunlarına başçılıq edən Yəhya ibn Müaz, İsa ibn Məhəmməd, Züreyq ibn Əli, Əhməd ibn Əl-Cüneyd və başqa tanınmış ərəb sərkərdələri Babəkə qarşı müharibədə məğlub olmuşlar. Ərəb ordusunun 6 məşhur sərkərdəsi Babəkin qoşunları tərəfindən öldürülmüşdü.819-cu ildə Babək ərəblər üzərində ilk qələbəsini qazandı.O, IX əsrin 20-ci illərində Süniki,Bərdə,Beyləqan və Qarabağı ərəblərdən azad etdi.

829-cu ildə baş verən I Həşdadsər döyüşündə Babək ərəblər üzərində qələbə qazandı.Xəlifənin sevimli sərkərdəsi Məhəmməd əl-Tusi öldürüldü. Ərəblərin Bəzz qalasını ələ keçirmək niyyəti boşa çıxdı. 830-cu ildə baş vermiş I Həmədan döyüşündə də Babək qalib gəldi. Bu onun nizami ərəb orduları üzərində sayca beşinci qələbəsi idi .

IX əsrin 20-ci illərinin sonu 30-cu illərin əvvəlləri azadlıq mübarizəsinin uğurlu dövrü idi. Babəkin qələbələrinin əsas səbəbi onun xilafətə qarşı milli-azadlıq mübarizəsi aparmasında və xalqın birliyində idi. Xilafətin uğursuzluğunun səbəbi Suriya və Misirdə də üsyanların başlaması, Bizansla aparılan müharibələr idi. Xəlifə əl-Məmun vəfat edərkən öz varisi Mötəsimə Babəkə

çox diqqət etməyi ,ona qarşı amansız  və tədbirli adam göndərməyi vəsiyyət etmişdi. Xəlifə Mötəsimin göndərdiyi ordu 833-cü ildə II Həmədan döyüşündə xürrəmilər üzərində qələbə qazandı. Bu Babəkin ilk məğlubiyyəti idi. Bundan sonra əsas diqqəti Babəkə yönəldən xəlifə Bizansla müharibəni dayandırdı, yolları sahmana saldı, ordunun kadr və ərzaq təchizatına diqqəti daha da artırdı. 835-ci ildə xəlifənin türk mənşəli sərkərdəsi Afşin Babəkə qarşı göndərilən qoşunlara baş komandan təyin edildi. O, ordunun döyüş ruhunu qaldırdı və öz qərargahını Bəzz qalasına yaxın olan Bərzəndə köçürtdü. Əks-kəşfiyyatı gücləndirdi. İsma və Tarxan adlı sərkərdələrin aradan götürülməsi Babəkə çox ağır zərbə oldu. Afşinin tədbirlərindən qorxuya düşən iri feodallar Babəkdən uzaqlaşdılar. Bununla belə Babək II Həşdatsər döyüşündə qələbə qazandı. Lakin, Afşin Bəzz qalasını mühasirəyə almağa nail oldu və Babəkə sülh təklif etdi. Babək bu təklifi rədd etdi. Üsyançıların bir hissəsi öldü, bir hissəsi isə əsir düşdü. Əsir düşənlərin arasında Babəkin oğlu da var idi. Xəlifə və Babəkin oğlu ona məktub yazaraq təslim olmasını istədilər, Babək isə bu təklifi rədd etdi. Cavabında isə oğluna bunları yazdı: “40 il qul olmaqdansa, bir gün azad yaşmaq yaxşıdır”. 837-ci ildə Afşin Bəzz qalasına hücum etdi və qalanı tutdu. Babək isə yenidən ordu qurmaq üçün Bizans imperatorunun yanına getməyi qərara alır. Babəkin ələ keçirilməsi üçün ərəblər onun başını gətirənə 2 milyon dirhəm verəcəklərini vəd etdilər.

İndiki  Ermənistanın Sisyan rayonundakı hakim - erməni əsilli Səhl ibn Sumbatın xəyanəti nəticəsində ərəblər Babəki ələ keçirirlər. 4 yanvar 838-ci ildə Babək və qardaşı Abdulla Samirə şəhərinə aparılır, xəlifə Mütəsim Babəki işgəncə ilə edam etdirir. Yenə də erməni xəyanəti… bu xəyanət tarix boyu davam etmiş və edəcəkdir. Çünki , bu xalq xəyanətdən yoğrulmuş və doğulmuşdur.

# OSMAN QAZI



**1258-1326**

I Osman (1258-1326) - Osmanlı imperiyasının qurucusu və ilk sultanı. 600 il ömür sürmüş Osmanlı imperiyası I Osmanın şərəfinə adlandırılmışdır. 1299-cu ildə Rum Səlcuq dövlətinin tabeliyindən çıxmış və öz müstəqilliyini elan etmişdir. Monqol hücumlarından qaçan türk əhalinin Osman tərəfindən idarə olunan bəyliyin ərazisinə sığınması onun siyasi və hərbi gücünün artmasına səbəb olmuşdur. Daxili böhran vəziyyətində olan Bizans İmperiyası Osmanlı imperiyası ilə aparılan ilk müharibələrdə məğlub olmuş və bununla I Osman yeni yaratdığı dövlətin ərazisini genişləndirə bilmişdir.

I Osmanın oğlu I Orxan hakimiyyətə gələn zaman imperiyanın ərazisi 16.000 km² olmuşdur.

I Osman Qərbi Anadoluda Söyütlü Ovası və Dolmaçı yaylağında yaşayan Qayı boyuna mənsub Ərtoğrul Qazinin oğlu olaraq 1258-ci ildə dünyaya gəlmişdir. 1281-ci ildə hələ 23 yaşında Qayı boyuna mənsub Ömər Bəyin qızı Məlhun Xatunla evlənmişdir. Bu evlilikdən Osmanlı imperiyasının ikinci sultanı I Orxan dünyaya gəlmişdir. Daha sonra Şeyx Ədabalinin qızı Bala Xatunla evlənmişdir. Bu evlilikdən isə şahzadə Ələddin Bəy dünyaya gəlmişdir. 1281-ci ildə atası Ərtoğrul Qazinin vəfatından sonra Osman Qayı boyunun bəyi seçilmişdir. Osman tərəfindən fəth olunan ilk yer, İnəgöl bölgəsində yerləşən Kulaca qalasıdır. Osmanın yüksəlişindən narahat olan yerli xristian bəyləri Osman bəyə qarşı sui-qəsd planı hazırlayırlar.

Plana əsasən Osman bəy Yarhisar bəyinin qızının toy məclis-

inə gəlməli və burada zəhərlənərək öldürülməli idi. Ancaq Osman bəyin dostu olan və Yarhisar bəyi ilə düşmən olan Hermankaya bəyi bu tələ barədə Osmana əvvəlcədən xəbər vermişdir. Bunun-lada Osman bəyə qarşı hazırlanmış sui-qəsd cəhdinin qarşısı alın-mışdır. Osman bəy daha sonra Biləcik ovasına hücum etmiş və buranı fəth etmişdir. Aparılan döyüşlərdən sonra Biləcik bəyi öldürülmüş və Yarhisar bəyinin qızı I Orxan ilə evləndirilmişdir. 1299-cu ildə Osman bəy Anadoluda yerləşən digər türk bəylik və sultanlıqlarına məktub göndərərək Osmanlı imperiyasının yaradıldığını elan etmişdir.

1299-cu il I Osmanın taxta çıxması və Osmanlı dövlətinin yaranması tarixi kimi qəbul edilmişdir.

Bu tarixdən sonra 27 il daha yaşamış I Osman İzmit, Kestel, İmralı, Akhisar, Lekfe, Yeniqala, Mudaniya, Qaramürsəl kimi əraziləri fəth edərək imperiyanın ərazisini xeyli böyütmüşdür.

I Osman vəfat edən zaman imperiyanın daxili və xarici vəziyyəti yaxşı durumda idi. I Osman 1326-cı ildə Bursa şəhərində vəfat etmişdir. Kulaca və Karaca qalalarının alınmasın-dan sonra Rum Səlcuqlu dövlətinin sultanı II Qiyasəddin Məsud I Osmana hədiyyələr göndərmişdi. 1299-cu ildə İnəgölün alın-ması Osmanlı imperiyasının yaranmasının əsas səbəblərindən ol-muşdir. 1302-ci ildə ilk dəfə Bizans İmperiyası ilə ilk müharibə baş verdi. Qoyunhisar adlanan müharibədə Osmanlı imperiyası qalib gəldi. 1315-ci ildə I Osman Bursa şəhər qalasını mühasirəyə aldı. Həmin mühasirə zamanı ağır xəstələnən imperiyanın ilk sul-tanı taxtı 1324-cü ildə I Orxana həvalə etdi. Bursa şəhərinin fəth olunması məsələsi ilə də I Orxan məşğul olmağa başladı. Səh-hətində yaranan problemlər səbəbindən dövləti idarə etməkdə çətinlik çəkən I Osman bütün səlahiyyətləri oğluna vermişdir. Ancaq ölüm ili olan 1326-cı ilə qədər dövlətin sultanı titulunu daşımışdır.Osman Qazı 43 il taxtda olmuşdur. Taxtda ən çox

qalma rekordu Qanuni Sultan Süleymana nəsib olmuşdur Osman Qazi isə hakimiyyətdə ən çox qalan 2-ci Osmanlı padişahı olmuşdur. Taxtdan öz arzusu ilə çəkilmiş ilk padişah olmuşdur.

I Osman atası Ərtoğrul Qazidən hakimiyyəti təhvil alan zaman dövlətin ərazisi 4.800 km² olmuşdur. Oğlu I Orxan hakimiyyəti təhvil verən zaman isə əraziləri 16.000 km² qədər genişləndirmişdir. İlk Osmanlı pulu I Osmanın göstərişi ilə 1324-cü ildə kəsilmişdir. Misdən hazırlanan bu pul sikkə adlanırdı.

Osman (Osman I) Qazi (1258-1324, başqa məlumatlara görə 1326) türk Sultanları sülaləsinin banisidir.Bu sülalə 1299\1300 ildən 1922-ci ilədək davam etmişdir.Təqribən 1281-ci ildə Konya Sultanlığının şimal-qərbində sərhəd ərazisində yerləşən,atası Ərtoğruldan irs qalmış mülkləri sonralar müstəqil əmirliyə çevrilmiş və I Osmanın adı ilə adlanan Osmanlı imperiyasının özəyini təşkil etmişdir.

15-ci əsrin 2-ci yarısından Osmanlı dövləti imperiyaya çevrilməyə başladı. 15-16-cı əsrlərdə Asiya,Avropa və Afrikadakı dövlətlərin türklər tərəfindən fəth olunması nəticəsində Osmanlı türk dövləti dünyanın ən böyük və qüdrətli imperiyalarından birinə çevrildi.

# ATABƏY ŞƏMSƏDDİN ELDƏNİZ



(1136 - 1175)

Milləti:Azərbaycan türkü

Azərbaycanın I böyük Atabəyi

Şəmsəddin Eldəniz mənşəcə qıpçaqlardan olan böyük hökmdar, Azərbaycan Atabəylər, Eldənizlər (Eldəgizlər) dövlətinin yaradıcısı, müdrik siyasi xadim və istedadlı sərkərdə idi. Səlcuq dövlətinin süqutundan sonra isə onun ərazisində hakimiyyəti irsən qazanan səlcuq şahzadələrinin idarə etdikləri və faktiki olaraq müstəqil sayılan sultanlıqlar yaranır. Bir müddət keçdikdən sonra bu sultanlıqların əsasında yaranmış yeni dövlət qurumları səlcuq şahzadələrinin

(məliklərin) hami və tərbiyəçiləri olan Atabəylər tərəfindən idarə olunmağa başlayır. Səlcuqlular dövründə xəlifələr, atabəylərin dövründə isə sultanlar dövlətin və ordunun rəhbərliyindən kənarlaşdırılırlar.

Sultanlıqlardakı bütün siyasi və inzibati hökmranlıq atabəylərin əlində cəmləşir. Xəlifələr kimi Sultanlar da bununla barışmaq istəmir və hakimiyyəti özlərinə qaytarmaq məqsədilə mübarizə aparırlar.Pərdə arxası oyunlar, didişmə və sui-qəsdlər təşkil edirlər. Öz növbəsində Atabəylər də vahid rəhbərliyi əllərində saxlamaq üçün mümkün olan hər şeyi edirlər. Tariximizin yüz ili belə davam edir.

Bu dövlətlərdən birinin , İraq sultanlığının əsasında Azərbaycan Atabəylər dövləti yaranır. Həmin dövlətin tarixi və onun yaradıcısı El-Dənizin tərcümeyi-halı çox sayda orijinal mənbələrin təhlili nəticəsində akademik Ziya Bünyadov tərəfindən

yazılmışdır.

Qədim zamanlarda qıpçaqlar arasında belə bir adət vardı . Bir yerdən 40 qul alanda onlardan biri üçün pul almırdılar. İraq tacirlərindən biri Dərbənd şəhərindəki məhşur qul bazarından 40 qul almışdı . Bu yolla müftə El-Dəniz adlı balaca və cılız bir qula sahib olmuşdu. Tacirin yük və qul karvanı İraq istiqamətinə yollanır. Gündüzlər isti olduğundan karvan yalnız gecələr irəliləyir və El-Dəniz yuxulu olduğu üçün üç dəfə arabadan yıxılır. Onu iki dəfə axtarıb-tapır və yenidən karvana qoşurlar. Üçüncü dəfə eyni şey təkrarlandıqda El-Dənizi yolda qoymaq qərarına gəlirlər. O, axşamüstü karvana çatır və onlara qoşulur. İlk dəfə olaraq burada onun xarakteri özünü göstərir. Beləliklə, hamını heyrətdə qoyur. Mənzil başına yetişəndə tacir qullarını İraq -səlcuq sultanı Mahmudun (1118-1131) vəziri Sumayramiyə satır. Vəzir qulların hamısını alır, bircə El-Dənizdən imtina edir. El -Dəniz ağlaya-ağlaya vəzirə yalvarır ki, onu da götürsün. Vəzir razılıq verir və çox keçmir ki, El-Dəniz öz diribaşlığı və fərasəti sayəsində onun rəqbətini qazanır. Ağası İsmaililər tərəfindən öldürüldükdən sonra El-Dəniz Sultan Mahmudun özünə xidmət göstərir. Sultan əmr edir ki, bu gənc qulun tərbiyəsi ilə məşğul olsunlar. El-Dəniz dilləri, ilahiyyatı və başqa elmləri öyrənir və məmnuniyyətlə at sürməyi, ox atmağı mənimsəyir. Çox keçməmiş onu sultan mətbəxinin başçısı (əl-xivan salar) qoyurlar. Sultan Mahmud öləndə El-Dəniz bu vəzifədə çalışırdı.

Yeni sultan – II Toğrul (1132-1135) El-Dənizi şəxsi mühafizə dəstəsinə məmlük (Misirdə hərbi zadəgan təbəqəsi) keçirir. Sultanın arvadı Möminə xatunun rəğbətini qazanan, onun müdrik məsləhətlərinə əməl eləyən El-Dəniz tezliklə əmir (sultanın qoşunlarından birinin başçısı deməkdir )rütbəsinə yüksəlir. Öz kiçik oğluna Atabəy (“Atabəy” sultanın  oğlunun tərbiyəçisi və gələcək varisi deməkdir)  seçmək vaxtı gələndə isə II Toğrul çox

düşünmədən El-Dənizin namizədliyi üzərində dayanır. Bir müddətdən sonra II Toğrul da Allahın rəhmətinə qovuşur. Onun taxtına sahib olan yeni sultan Məsud (1135-1152) əmir Şams əd-Dini II Toğrulun dul qadını Möminə xatunla evləndirir. Bu nigahdan iki oğlan uşağı – Cahan Pəhləvan, Qızıl Arslan və bir qız övladı doğulur. 1136-cı ildə sultan Məsud atabəy El-Dənizi paytaxtı Bərdədə yerləşən Arran dövlətinin hakimi təyin edir. Bərdəyə köçdükdən sonra El-Dəniz müstəqil siyasət yeritmək və saray çəkişmələrindən mümkün qədər uzaqlaşmaq istəyir. O, yerli əyanlara arxalanaraq, bəzən qələmlə, bəzən isə qılıncla bir çox xırda hakimləri öz tərəfinə çəkir, tədricən ətraf əraziləri özünə tabe etdirir.

Bu zaman Azərbaycanda sultan Məsudun qohumu Davudun atabəyi Qara Sunqur hakimlik edirdi. Məsud Davudu özünün varisi elan etmiş və qızını ona vermişdi. 1140-1141-ci ildə Qara Sunqur qəflətən vəfat edir və Azərbaycanın idarəçiliyi El-Dənizin əlinə keçir. Bu illərdə qiyam qaldırmış feodalların darmadağın edilməsində sultana yardım göstərir. El-Dənizin bir dövlət xadimi və sərkərdə kimi nüfuzu daha da artır. Bütün Azərbaycan, o cümlədən Arran, Gəncə və Ərdəbil onun tabeçiliyinə keçir.

Nəticədə ölkədə iqtisadi və mədəni inkişaf başlayır,ona qazandığı parlaq qələbələrə və ədalətli olduğuna görə "Şəmsəddin", yəni "Dinin Günəşi "adı verildi.

Sultan Məsudun ölümündən sonra onun varisləri arasında hakimiyyət uğrunda mübarizə qızışır. Hakimiyyətə gəlmiş Sultan Məhəmməd müttəfiqlərinin böyük ordusu ilə birgə qəflətən Azərbaycan üzərinə hücuma keçir. Şəmsəddin onu Araz vadisində qarşılayır. Bir neçə gün davam edən döyüş onun məğlubiyyəti ilə başa çatır. O, Azərbaycan hakimliyindən əl çəkib, yalnız Arranla kifayətlənməli olur.

Yalnız bir neçə il sonra, zəif iradəli sultan Süleymanın

dövründə El-Dəniz yenidən Azərbaycana sahib ola bilir. Təşvişə düşmüş Süleyman və onun yaxın əhatəsi II Toğrulun oğlu, El-Dənizin oğulluğu Arslan şahı taxt-taca qanuni varis elan etmək üçün çalışırlar. Sui-qəsd nəticəsində sultan Süleyman öldürüldükdən sonra isə onun təşkilatçıları Arslan şahı taxta çıxarmaq qərarına gəlirlər. 1160-cı ilin noyabrında atabəy El-Dəniz Arslan şahı sultanlığın paytaxtı Həmədan şəhərinə gətirir. Onu 20 minlik ordu müşayiət edirdi. Tacqoyma mərasiminə sultanlığın bütün vilayətlərindən və vassal ölkələrdən hakimlər gəlmişdi. Arslan şah İraq sultanlığının sultanı, Şəmsəddin El-Dəniz "Böyük Atabəy", onun oğlanları- sultanın böyük ögey qardaşı Məhəmməd Cahan Pəhləvan əmir-Hacib, kiçik qardaş Qızıl Arslan isə ordu komandanı elan olunur. El-Dəniz özünün bütün əmirlərini böyük dövlət vəzifələrinə qoydurur. Tacqoyma mərasimində iştirak edən bütün əmirlər sultan Arslan şaha və Böyük Atabəyə sədaqət andı içirlər.  El-Dəniz faktiki olaraq bütün ölkənin hakiminə çevrilir.

Bu da dövlətçilik tarixində görünməz bir hal idi.Adi bir qulun hökmdar səviyyəsinə yüksəlməsi şərqdə hər kəsin öz qabiliyəti və bacarığına görə qiymətləndirilməsini göstərir. Hakimiyyətin bu cür mərkəzləşməsi Bağdad xəlifəsini və iri vilayətlərin hakimlərini qorxuya salır. Onlar öz üstünlüklərini əldən vermək istəmirdilər. Xəlifə Arslan şahı sultan kimi tanımaqdan imtina edir və narazı əmirlərin koalisiyasını yaratmağa başlayır. Bu məqsədlə o, özünə sadiq səlcuq şahzadələrindən birinə söz verir ki, onu sultan taxtına çıxaracaqdır.

El-Dəniz əmirlərin birləşməsini qabaqlayaraq onların öz ərazilərinə yeriyərək, ordularını darmadağın edir. Ən parlaq qələbəsini Həmədan, Rey və Qəzvin yaxınlığında qazanır. Bu qələbələrdən qorxuya düşmüş əmirlərin çoxusu sultandan vassal asılılığında olduğunu etiraf etmək zorunda qalır. Rey hakimi

İnanc hətta məcbur qalıb öz qızını Böyük Atabəyin oğlu Məhəmməd Cahan Pəhləvana verir. Akademik Z. Bünyadovun sözləri ilə desək, "Beləliklə, atabəy Şəms əd-Din El-Dəniz Qafqaz dağlarından Fars körfəzinə qədər geniş bir ərazini öz hakimiyyəti altında cəmləşdirir. El-Dənizin tabeçiliyində olan torpaqlar Tiflis qapılarından Mekrana qədər uzanırdı. Azərbaycan, Arran, Şirvan, Cəbəl, Həmədan, Gilan, Mazandaran, İsfahan və Rey ona tabe idi. Mosul, Kirman, Fars atabəyləri, Şirvan, Xuzistan, Xilat, Ərzən ər-Rum və Marağa hakimləri vassal kimi onun adına pul kəsir, cümə namazında oxunan xütbədə El-Dənizin adını xəlifə və sultanın adından sonra zikr edirdilər."

1175-ci ildə Böyük Atabəyin xanımı, səlcuq sultanı II Toğrulun dul qadını Möminə xatun rəhmətə gedir. Bircə ay keçmir ki, El-Dəniz özü də dünyasını dəyişir. Azərbaycan Atabəylər dövlətinin möhkəmlənməsi naminə müstəsna xidmətlər göstərmiş bu böyük qadının xatirəsini əbədiləşdirmək üçün onun məzarı üzərində dahi Azərbaycan memarı Əbubəkr Əcəminin yaratdığı möhtəşəm məqbərə ucaldılır. Məqbərənin tikintisinə Böyük Atabəyin sağlığında başlanılır və onların oğlanları Cahan Pəhləvanın dövründə, 1186-cı ildə sona çatdırılır.Bu günümüzə qədər gəlib çatmış Möminə Xatun məqbərəsinin tarixi belədir.

Atabəylər dövlətinin ilk paytaxtı Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindən biri idi.

El-Dənizdən sonra hakimiyyətə gəlmiş oğlanları-Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslanın dövründə dövlət daha da qüvvətləndi .Bu zaman Azərbaycan dövləti yaxın şərqin ən güclü dövlətlərindən hesab olunurdu.

Azərbaycan dövlətinin sərhədləri Dərbənddən İran körfəzinə qədər çox geniş əraziləri əhatə edirdi.

# QAZAN XAN



Qazan xan—Kitabi-Dədə Qorqud dastanının qəhrəmanıdır.Oğuz elinin Salur boyundan olduğu bilinir.

Oğuz igidlərinin başında bəylərbəyi Qazan xan dayanır. Bayandur xandan sonra oğuz bəyləri Qazan xanı özlərinə başçı, hökmdar, həm də arxa, pənah sayırlar. Qazan xanın mərdliyi, qəhrəmanlığı, dövlət başçısı, sərkərdə olaraq tədbirliliyi Oğuz elinə əmin-amanlıq, səadət gətirir. Qazan xan anasına böyük ehtiramla yanaşan bir oğul, xanımını ürəkdən sevən ər, oğlunun bir igid olaraq yetişməsinə çalışan, onun qəhrəmanlığı ilə fəxr edən atadır. Düşmənə əyilməyən, ən çətin anlarda belə özünü, xalqını, dinini sındırmayan Qazan xan Oğuz igidlərinin ən müsbət xüsusiyyətlərinin daşıyıcısı kimi tərənnüm olunur.

Bayandur xanın qızı, Salur Qazanın xanımı "boyu uzun Burla xatun" eposun (dastan) ən mükəmməl qadın surətlərindəndir. Burla xatun etibarlı, namuslu həyat yoldaşıdır. "Salur Qazanın evinin yağmalandığı (qarət edildiyi) ” boyda da Burla xatun yeganə oğlunun öldürülməsinə razı olur, təki Qazan xanın, Oğuz elinin namusu tapdalanmasın. Bununla belə, o anadır. Eposda Burla xatunun oğlu Uruza qarşı səmimi analıq hissləri, həyəcanları, sarsıntıları ifadə olunur. Burla xatunun timsalında eposda bir sıra igid, qəhrəman, zəngin mənəviyyatlı qadın obrazları yaradılmışdır. Qadınlar ictimai həyatda kişilər kimi fəaldırlar. Oğuz qızları öz gələcək həyat yoldaşları ilə at çapır, ox atır,sınaqdan çıxardıqdan sonra ailə qurmağa razılıq verirlər. Oğuz qadınları mərd və sədaqətlidirlər.

Yalnız Qazan xanın hakimiyyətə gəlişi ilə Elxanlılar dövlətində müsəlmanların vəziyyəti xeyli yüngülləşdi. O, atası Arqun xanın da vəziri olmuş Fəzlullah Rəşidəddinlə birlikdə dini, torpaq, vergi, məhkəmə, rabitə və ticarət sahələrində islahatlar keçirdi.

Qazan xan islam dinini qəbul edərək, yerli əhalinin dəstəyini qazandı. Mahmud Qazan xan adını almış bu hökmdar pul sikkələrinin üzərinə «Allah, Məhəmməd, Əli» sözlərini zərb etdirdi.

Qazan xan vergi islahatı ilə vergilərin növlərini, toplama üsullarını və vaxtını dəqiqləşdirdi. Vergilərin toplanması mərkəzi divana tapşırıldı,vilayət hakimlərinin bu işə müdaxiləsinə icazə verilmədi. Məhkəmə islahatında əsas məqsəd ölkədə hüquqi özbaşınalıqlara, qanunsuzluqlara son qoymaq, şəriət qanunlarının aliliyini təmin etdirməkdən ibarət idi.

Qazı vəzifələrə layiqli din xadimlərinin təyin olunmasına, məhkəmələrdə həyata keçirilən əmlak alqı-satqısı işində qayda-qanun yaradılmasına xüsusi fikir verilirdi. Qazı vəzifəsinə təyin olunanlardan qanuna əməl edəcəklərinə dair iltizam alınırdı.

Mahmud Qazan xan öz yaxın adamlarından olan Novruz ağa Oyrotu Borçalıya canişin təyin etdi. Lakin tezliklə o, bu vəzifədən kənarlaşdırıldı və edam olundu. Atası Arqun xan tərəfindən boynu vurulmuş Dmitrinin oğlu Davidi yanına çağıraraq, onu Tiflisə canişin təyin etmək istədiyini bildirdi. Lakin David Mahmud Qazan xana qarşı qiyam qaldırmış sultan Orxanın yanına elçilər göndərərək, ona tabe olmaq istədiyini bildirdi. Onun bu hərəkətindən qəzəblənən Mahmud Qazan xan Davidin kiçik qardaşı Georgini canişin təyin etdi. David qorxusundan Araqvi əyalətində gizləndi. Georginin ortancıl qardaşı Vaxtanq Mahmud Qazan xanın yanına gələrək onu hakim təyin etməyi xahiş etdi. Öz fikrini dəyişərək, Vaxtanqı hakim təyin edən Mahmud Qazan xan demişdi: «Doğrudan da böyük qardaşın kiçik qardaşa tabe olması düzgün deyil».

Qazan xanın islahatları: Hulakilər dövlətini iqtisadi və siyasi böhrandan xilas etmək üçün Qazan xan (1295-1304-cü illər) ciddi addımlar atdı. O , hakimiyyətinin ilk illərində rəqiblərinə qarşı kəskin mübarizə apararaq mərkəzi dövləti möhkəmləndirə bildi. Qazan xan yerli oturaq feodalları və müsəlman din xadimlərini öz tərəfinə çəkmək naminə islam dinini qəbul etdi. Qazan xanın islam dininini qəbul etməsilə Azərbaycanda xristianlığın, bütpərəstliyin və digər dinlərin mövqeyi sarsıldı.

Qazan xan vergilərin növü, miqdarı, yığılma zamanı, yığılma forması ilə əlaqəli olaraq dəqiq qayda-qanun tərtib etdi.

## Torpaq islahatı

Qazan xanın torpaq islahatının əsasını monqolların orta təbəqəsinin və dövlətə xidmət edən yerli əyanların mənafeyinin qorunması təşkil edirdi. Qazan xanın torpaq islahatına əsasən: Bayrat torpaqları qeydə alındı və onların sahibkarlığı müəyyənləşdirildi; Sahibsiz torpaqlar divan sərəncamına verildi; Becərilməyən mülklər satın alınaraq dövlət torpaqlarına qatıldı; İqta (icraya verilmiş) torpaqları alınıb-satıla bilməzdi; Sahibi öldükdən sonra iqta hərbi xidməti davam etdirən varisə verilirdi; Becərilməyən torpaqlar yeni sahibkarlara paylandı və onların bu ərazi üzərindəki hüquqları divan sənədləri ilə qanuniləşdirildi; Orduda xidmət edən monqollara incu, bayrat və divan torpaqları hesabına iqta verilirdi; Kəndlilər öz torpaqlarını tərk edə bilməzdi (1303-cü il fərmanına əsasən).

## Məhkəmə islahatı

Qazan xan ölkədəki rüşvətxorluq, özbaşınalıq və məhkəmə sistemindəki problemləri həll etmək məqsədi ilə islahat keçirdi. İslahata əsasən:

30 illik iddia sənədləri öz qüvvəsini itirdi; Mühakimələr üçün

alınan ödənclər dəqiqləşdirildi; Şəhər, kənd və mahal qazılarının səlahiyyətləri müəyyənləşdirildi; Qazı vəzifəsinə təyin olunanlardan qanuna ciddi əməl edəcəkləri barədə iltizam alınırdı. Bu islahat sona qədər davam etmədi.

## Pul islahatı

Qazan xanın pul islahatına əsasən: Vahid pul sistemi yaradıldı; Çəki və ölçü vahidləri sabitləşdirildi; Ayrı-ayrı vilayətlərdə işlədilən pullar ləğv edildi.

## Rabitə islahatı

Qazan xanın rabitə sahəsində həyata keçirdiyi tədbirlər ölkədə vahid rabitə sisteminin yaranmasına səbəb oldu. Qazan xanın fərmanına əsasən, bütün əsas yollarda hər 3 fərsəxdən bir (21km) rabitə dayanacaqları-"yamlar" (Orta əsrlərdə monqol işğalına məruz qalmış ölkələrdə, o cümlədən Azərbaycanda mövcud olmuş nəqliyyat rabitə məntəqəsi) yaradıldı. Yamlara əmirlər təyin olundu və onlar lazımı qədər qulluqçularla və atlarla təmin olundu. Qazan xan mövcud yarlıqları, paydzaları (xüsusi lövhələri) ilə işçilərinin yerli əhalidən vəsait alması qəti qadağan edildi. Hər bir elçi-müşavir ezamiyyət xərclərini divanədən almalı və yam xidmətindən istifadə edərək lazımı məntəqəyə getməliydi. Mühüm dövlət sənədləri və məktublar da bir yamdan digərinə ötürülməklə ünvanına çatdırılırdı. Yollarda Karvansaraylar tikildi və müşavirlərin rəiyyətin evində qalması qadağan olundu. Yol gömrüklərinin toplanması sahəsində də qayda-qanun yaradıldı. Rabitə sahəsində islahatlar 2 il müddətində həyata keçirildi.

Qazan xanın islahatları ilk vaxtlarda təsirli nəticələr verdi, xalq kütlələrinin vəziyyəti nisbətən yaxşılaşdı. Ölkə iqtisadiyyatında canlanma baş verdi və sui-istifadə halları azaldıldı.

# ÇINGIZ XAN



(1155 – 1227)

Uşaqları:Cuçi, Çağatay, Ugedey, Tuluy xan

Böyük Monqol imperiyasının banisi Çingiz Xan görkəmli Türk Monqol hökmdarı və sərkərdəsi. Monqol qəbilələrini bir bayraq altında birləşdirərək, insanlıq tarixində ən böyük dövlət olmuş, Böyük Monqol imperiyasını (1206-1368) yaratmışdır.

XII əsrin ikinci yarısında Dalay-nur və Buar-nur monqol qəbiləsindən olan tatarlar da köçərilik edirdilər. Tatarlardan qərbdə kerait adlı xalq yaşayırdı. Nayman qəbiləsi isə keraitlərdən qərbdə məskən salmışdı. Tatarlardan, keraitlərdən və naymanlardan şimalda monqol adlı qəbilə yaşayırdı. Monqollardan qərbdə Xanqay dağlarının ətəklərində və Baykal gölünün ətraflarında mergetlər, Sayan dağları ilə Baykal gölü arasında oyratlar, Cunqariyada uyğurlar məskunlaşmışdılar. Uyğurların öz mədəniyyəti,yazısı və əlifbası vardı. Şərqi Türküstandan və Balxaş gölü rayonundan ibarət çox böyük ərazidə türk qəbilələrinin məskunlaşdığı Qara-Kitay dövləti yaranmışdı.

Çöl xalqları at belində igidliklər göstərən , düşmənlərlə vuruşa girməkdən çəkinməyən , yaxşı otlaqlara sahib olmaq arzusu ilə yaşayan cəngavərlər idilər. Vəhşi heyvan ovu onların bir döyüşçü kimi formalaşmasında əsas amillərdən biri idi. 1125-ci ildə uzaq Şərqdə güclü Szin – "Qızıl padşahlıq" (monqolca Altan) dövləti yaranmışdı. Bu dövlət yarandığı gündən həmişə qonşu köçəri qəbilələrin hücumlarına məruz qalırdı. Köçərilərə qarşı sınanılmış mübarizə üsulu qəbilələr arasında nifaq salmaq idi. Ayrı-ayrı qə-

bilələrin birləşərək möhtəşəmlik qazanmasının qarşısı bu yolla alınırdı. Bu siyasətə üstünlük verən çinlilər XII əsrdə tatarları monqollara qarşı qaldırmışdılar. Qorxuya düşmüş çinlilər tatarların daha da güclənməsinin qarşısını almaq üçün monqollara kömək etməyə başlamışdılar. Monqolların böyük hörmətini qazanmış bir başçıları vardı. Onun adı Yesugey xan idi. O, Xamaq Monqol konfederasiyasının xanı Xabul'un ölümündən sonra qəyyum olaraq dövləti idarə edirdi. O, Temuçin adlı tatar qəbilə başçısı ilə müharibə etməli olmuşdu. Müharibəni qalibiyyətlə başa çatdıran və tatar qəbilə başçısı Temuçini əsir götürən Yesugey Onon çayının sahilindəki məskəninə qayıdanda baş hərəmi Oelun'un oğul doğduğunu ona xəbər vermişdilər. Sevincək ata oğlunu qucağına alanda körpənin bərk-bərk sıxdığı sağ ovucunda qırmızı daşa bənzər qan laxtası görmüşdü. Mövhumatçı ata tatarlarla müharibədə qələbə qazanmasının əlamətini ilk övladının dünyaya gəlməsində gördüyündən ona sərkərdə Temuçinin adını qoymuşdu. Temuçin 1155-ci ilin fevral ayında Onon çayının sahilindəki Delyun-Boldox adlı yerdə dünyaya gəlmişdi.

Temuçin 9 yaşında olanda atası nişanlı axtarmaqdan ötrü onu uzaqda yaşayan qəbilələrin məskənlərinə aparmışdı. Bunun əsas səbəbi yaxın qohumlarla evlənməklə baş verə biləcək fizioloji fəsadların qarşısını qabaqcadan almaq idi. O zamankı köçərilər yaxın qohumlardan qız almırdılar ki,eyni qan qohumluğu nəslin sağlamlığının pozulması ilə nəticələnər. Onlar yolda Yesugeyi yaxşı tanıyan digər qəbilə başçısı ilə rastlaşmışdılar. Həmin qəbilə başçısı Temuçinin atası Yesugeyin hansı məramla bu yerlərə gəldiyini biləndən sonra demişdi:

"Mənim Borte adlı gözəl bir qızım var, gedək onu sizə göstərim. Əgər bəyənsəniz qohum olarıq. Bir də ki, bu gecə yuxuda sizin nəslinizin bayrağını görmüşəm. Mənə elə gəlir ki, bu,

yaxşı əlamətdir".

Valideynlər övladlarının bir-birinə yaraşdığını bildirəndən sonra onları nişanladılar və qərara gəldilər ki, 14-17 yaşına çatmalarını gözləsinlər. Həmin müddətdə bir-birlərinin xasiyyətlərinə də yaxşı bələd olarlar. Geri qayıdarkən yollarına çıxan tatarlar öz məkrli hərəkətlərini həyata keçirmək üçün hiylə işlədib onları qonaq apardılar. Ziyafət zamanı Yesugeyin yeməyinə tədricən təsir göstərən zəhər qatıb ona verdilər. Yesugey evə qayıdandan bir müddət sonra vəfat etdi. Temuçin anası və qardaşları ilə birlikdə kimsəsiz qaldı. Yesugey bahadurun tabeliyində olan adamlar varis Temuçinin azyaşlı olmasından sui-istifadə edərək ona tabe olmayacaqlarını bildirdilər.

Həmin qəbilə başçıları Temuçinin anasını və uşaqlarını atıb getdilər. Bu az imiş kimi başsız qalmış ailənin mal-qarasını da sürüb apardılar. Ailə üzvləri bir neçə il çöllərdə, meşələrdə sərgərdan həyat sürməli oldular. Quş, balıq, yeraltı yuvalarda yaşayan kiçik gəmirici heyvanlar ovlamaqla birtəhər dolanırdılar. Ət üzünə həsrət qalanda ailələr yeməli bitkilərlə qidalanırdılar. Monqolların evində bişirmək üçün ət olmaması həddindən artıq yoxsulluq sayılırdı. Bu yoxsulluq şəraitində gələcəyin döyüşçüsünün və böyük dövlət xadiminin xarakteri mətinləşirdi. Dözümlülük Temuçinin atadan qalma mirası idi. Temuçin və qardaşları ailənin ehtiyaclarını ödəmək üçün yay otlaqlarından qış otlaqlarına köç edən zaman çaylardan balıq tutur, at üstündə səhərdən axşamadək çölləri dolaşır, ilxıdan ayrı düşmüş atları axtarıb taparaq geri qaytarır, örüşə yararlı otlaqları müəyyənləşdirirdilər. Onlar həm də ərazilərini talançılardan mühafizə etmək üçün gecə-gündüz keşik çəkirdilər. Lazım gəldikdə bir neçə gün at belində qalırdılar. Temuçinin anası Oelun çox ağıllı qadın idi. O, bilirdi ki, uşaqlarının gələcəyi onları öz mənşələrinə hörmət ruhunda tərbiyələndirməkdən çox asılıdır. Ana öz övladlarına qəhrəmanlıq

dastanlarından rəvayətlər söyləyir, sələfləri olan monqol xanlarının qəhrəmanlıqlarından danışırdı. Böyük öğlu Temuçini inandırmağa çalışırdı ki, onun düşdüyü ağır vəziyyət müvəqqətidir, bir qədər böyüyəndən sonra ailəyə əvvəlki şan-şöhrətini qaytara biləcək. Atasının ölümündə günahkar olan tatarlardan və habelə Yesugeyin ölümündən sonra onları tənha qoyub qaçan yaxın adamlardan qisas alacaq. Temuçin anasının sözlərindən ruhlanır və öz böyük gələcəyi barədə düşünürdü. Boy-buxunlu, pəhləvan cüssəli, şücaətli, iti baxışlı gəncə çevrilmiş Temuçin öz düşmənlərini qorxuya salmışdı. Onlar Temuçini aradan götürmək barədə düşünürdülər. Həmin düşmənlərin Tarqultay adlı başçıları vaxtilə Yesuqeyin əlində olan torpaqlara sahib çıxmış, özünü bütün torpaqların hakimi elan etmişdi. O, gənc Temuçini məhv etmək üçün plan hazırladı. Bir dəfə silahlı adamlar Temuçinin köçəbəsinə (daimi olmayan yurduna) hücum etmişdilər . Temuçinin düşmənlərdən yaxa qurtarması cəhdi baş tutmamışdı. Onu tutub əl-ayağına ağır taxtadan kündə keçirmişdilər. Temuçini gözətçiyə tapşırıb ona səhərəcən nəzarət etməsini tapşırmışdılar. Gecənin bir vaxtı gözətçinin diqqətsizliyindən itstifadə edən Temuçin onun başına zərbə endirərək aradan çıxmışdı. Təqibə başlamış silahlıların əlinə keçməməkdən ötrü Onon çayının ətrafında qamışlıqlarda gizlənmişdi. Təqib edənlərdən Sorqan Şira adlı birisi Temuçinin qamışlar arasından çıxan başını görmüş və yaxınlaşaraq belə demişdi:

"Düşmənlərin sənin bu qabiliyyətindən qorxurlar, gözlərinin od saçması, üzünün şəfəqli olması onları vahiməyə salır. Mən səni onlara satmaram, arxayın ol".

Təqib qurtaran kimi həmin adam Temuçinin kündəsini sındırıb onu azad etmişdi.

Yetkinləşmiş Temuçin evlənmək qərarına gəldi. Qardaşları ilə birlikdə atası Yesugeyin vaxtilə onu nişanladığı Börtegilə getdi.

Gənclərin nigahı baş tutdu. Börte Temuçinə toy cehizi olaraq qara samur dərisindən tikilmiş kürk bağışladı. Gəlinin bu cehizi varlı olmayan Temuçin üçün əsl var-dövlət idi. Bundan ruhlanan Temuçin vaxtilə atası Yesugey Bahadurla qardaşlıq etmiş Toğrul xanla dostluq əlaqələri yaratmaq qərarına gəldi. Həmin vaxtlar Toğrul xanın tabeliyində olan qəbilələr böyük torpaq ərazilərinə sahiblik edirdilər. Temuçin qardaşlarının müşayiəti ilə qüdrətli Toğrul xanın iqamətgahına getdi. Mərhum atası Yesugeylə qardaşlıq dövrlərini xanın yadına saldı və xahiş etdi ki, onu oğulluğa götürməsinə razılıq versin. Sonra da xana cavan arvadının cehizini – qara samur dərisindən tikilmiş kürkü bağışladı. Toğrul xan gəncin bu hərəkətindən məmnunluq hissi duyduğunu dilə gətirdi və Temuçini oğulluğa götürməyə razılıq verdi. Həm də bildirdi ki, lazımi anda Temuçinə hər cür yardım göstərməyə hazırdır. Temuçin evlənəndən bir qədər sonra şimalda yaşayan merkit qəbiləsinin qoşun dəstələri onun çadırına basqın etdi. Basqınçılar Yesugey Bahadurun qatı düşmənləri idi. Çünki Yesugey on səkkiz il öncə merkitlərin qəbilə başçısının arvadı Oelunu qaçıraraq özünə baş hərəm etmişdi. Oelun, yuxarıda deyildiyi kimi, bir müddət sonra Temuçini doğmuşdu. Basqın çox gözlənilməz olduğundan Temuçin əsir düşməkdən yaxasını bir təhər qurtara bilmiş, lakin arvadı Börte əsir alınmışdı. Bir müddətdən sonra Temuçin onu oğulluğa götürmüş Toğrul xanın yardımı ilə arvadını geri almağa müvəffəq olmuşdu. Temuçin arvadı Börtenin əsirlikdən sonra doğduğu ilk övladının məhz onun oğlu olmasına şübhə ilə yanaşırdı. Buna görə də Temuçin Cuçi adlı oğluna soyuq münasibət göstərirdi, lakin arvadı Börteni dərin məhəbbətlə sevirdi.

Szin Çin dövləti özünün köçəri qonşularını zəiflətmək üçün aralarında nifaq salır və daxili qarışıqlıq törədirdi. Szin imperatorunun yeritdiyi siyasət nəticəsində şimal-şərqdəki tatarlar

əvvəlki qüdrətini xeyli dərəcədə itirmişdilər. O, onları silahlı müdaxilə yolu ilə darmadağın etmək qərarına gəlmiş, tatarlara arxadan zərbə endirmək üçün Toğrul xanı köməyə çağırmışdı. Temuçin atasının ölümündə günahkar olan tatarlardan qisas almaq üçün yaxşı fürsət düşdüyünü bildiyindən Toğrul xandan çinlilərin təklifinə razılıq verməsini xahiş etmiş və xanın razılığını almışdı. Özü isə Toğrul xanın müttəfiqi kimi müharibədə fəallıq göstərmişdi. Tatarlar darmadağın edilmiş, qəbilə öz müstəqilliyini birdəfəlik itirmişdi. Tatarlar monqolların tabeliyinə keçmişdi.

Tatarlar üzərində qələbənin səbəblərindən biri Temuçinin düşmən torpağında və qoşunlarında vəziyyətin necəliyini aşkara çıxarmaq üçün əvvəlcədən təşkil etdiyi hərbi kəşfiyyat idi. Həmin vaxtdan başlayaraq monqolların apardıqları bütün müharibələrdə hərbi kəşfiyyata xüsusi diqqət yetirilirdi. Tatarlara qarşı müharibədə göstərilən yardıma görə Toğrul xan və Temuçinə fəxri adlar verilmişdi.Toğrul xan Çin imperatorundan "Vanq xan" titulu, Temuçin isə Çinin sərhəd məsələlərinə baxan nazirindən "Sərhəddə səlahiyyətli bozqır sərkərdəsi" adı almışdı. Müstəqilliklərini həmişəlik itirmiş tatarlar monqolların tabeliyində qalmışdılar. Onlar sonralar Çingizin nəvəsi Batının monqol qoşunlarının tərkibində Rusiyayadək gedib çıxmışdılar. Özünün tərəfdaşlarını çoxaltmaq məqsədilə müxtəlif nəsillərdən və qəbilələrdən qulluğa götürdüyü adamlara mal-dövlətindən hədiyyələr verirdi. Beləliklə, Temuçinin ulusu (yurdu) tədricən yaranmaqda idi. Getdikcə aydın olurdu ki, Temuçin bütün Monqolustanda hakimiyyəti əlinə alacaqdır. Bu qələbələrdən sonra bütün Monqolustanda Temuçinin hakimiyyəti bərqərar oldu. Monqol qəbilə başçılarının çoxu öz iclaslarına toplaşaraq Temuçinin xaqan elan edilməsi vaxtının çatdığını bildirdilər. Qanunçuluğa dərindən hörmət edən Temuçin xaqan adının rəs-

miləşdirilməsi üçün 1206-cı ildə bütün monqol aristokratiyası nümayəndələrinin iştirakı ilə Qurultay çağırılmasını lazım bildi. Onon çayının sağ sahilində təntənəli şəraitdə keçən qurultayda Temuçin rəsmi olaraq Çingizxan adı ilə xaqan – yer üzünün hökmdarı elan edildi. (Çingiz sözünün mənası bütün xalqların böyük xaqanı deməkdir.) Beləliklə, başda Çingizxan olmaqla monqol dövləti yarandı.

Hətta Makedonyalı İsgəndər də inperyasını belə sürətlə genişləndirə bilməmişdi, ildırım sürətlə yürüyür, irili-xırdalı bir-birinin ardınca diz çökdürürdü.

Roma papasının Çingiz xanın sarayına göndərdiyi səfir, rahib,alim Plano Karpinin vəzifələrindən biri də, Çingiz xanın ordusunun sirlərini öyrənmək idi.

Hər bir monqol düşmən ordusuna 3-4 ox atırdı, beləcə düşmən əsgərləri üzərinə birdən-birə ox yağışı yağmağa başlayırdı, on minlərlə, yüz minlərlə ox.

XIII əsrdə Çingiz xan bütün türkləri birləşdirməyə çalışıb. Bundan ötrü hətta onun öz qanununu yaratdı.

Çingiz xan hələ Qara İrtışın yuxarılarında dayandığı vaxt,öz səhhətini qorumaq və ömrünü uzatmaq üçün təcrübəli həkimlər axtarırdı. Ona məhşur alim Çan Çun barədə dedilər. Guya o yerin və göyün bütün sirlərinə bələddir və hətta ölməzlik vasitəsini də bilir. Böyük müşavir və munəccim Yelyu Çu-Say onun barəsində dedi: Çan Çun Tszı yüksək məharətə malik bir insandır. Bu pirani qoca artiq çoxdandır ki,durnaların qanadında buludlar aləminə uça bilir və başqa məxluqlara çevrilməyi baçarır.Bu dünyanın nemətlərindən əl çəkərək o,başqa alimlərlə birlikdə dağlarda yaşayır və insana uzun ömür və ölməzlik getirən bir dirilik iksiri axtarır. Öz düşüncələrinə dalaraq o, gah ölü kimi oturur,gah günlərlə agac kimi hərəkətsiz dayanır, gah ildırım kimi danışır,gah da külək kimi sürətlə gəzir. O, çox görüb, çox eşitmişdir və elə

bir kitab yoxdur ki, oxumasın.

Bu qəribə qocanı tapmaq üçün Çingiz xan sınanmış çinli əyanı Lu Cukun-luni təcili yola salmağı əmr etdi.Xaqan ona,üzərində qəzəbli pələng şəkli və "Tam hökmranlıq etməyə ixtiyar verilir və elə bil ki,səyahət edən biz özümüzük"sözləri yazılmış qızıl paytsza verdi.

Savadsız ulu Xaqanın dilindən müşaviri Yelyu Çu-Say tərəfindən alim Çam Çuna yazılmış şəxsi məktubu böyük qiymətli bir şey kimi Lu Çjun-lunun əllərinə tapşırdılar.Məktubda bu sözlər yazılmışdır:

"Həddindən artıq çah-çalalına və dik başlığına görə göylərin Çinə qəzəbi tutdu. Mənim, Şimal torpaqlarının sahibinin isə əxlaqsızlığa meylim yoxdur. Mən sadəliyi və təmiz xasiyyəti sevirəm, cah-cəlalı rədd edirəm və qənaətlə dolanıram. Mənim həmişə eyni kətan paltarım və bir cür yeməyim olur. Əynimdə həmişə, mehtərlərin əynindəki kimi cır-cındır olur, mən inək kimi sadə yeyirəm.

Yeddi ildə böyük işlər görmüşəm,dünyanın bütün ölkələrində hökmranlığımı bərqərar eləmişəm. Bizim əcdadlarımız hun köçəri tayfaları dünyanı fəth etdikləri o qədim zamanlardan sonra belə bir səltənət olmamışdır.

Mənim rütbəm böyük, vəzifələrim mahamdur. Lakin mənə elə gəlir ki, mənim hökmranlığımda nə isə çatmır.Əgər gəmi qayırırlarsa,kurək də hazırlayırlar ki,onun köməyi ilə çayı keçmək mümkün olsun.Bunun kimi,dünyanı fəth etmək və dolandırmaq üçün alimlər dəvət olunur və köməkçilər seçilir.

Müəllim,mən eşitmişəm ki,sən həqiqət ilə qohum olmusan və həmişə də yüksək qayda-qanunlarla hərəkət edirsən.Böyük və təcrübəli alim kimi sən qanunları dərindən öyrənmisən.Çoxdandır ki,sən qayalı dərələrdə yaşayıb özünü dünyadan gizlədirsən.

Ancaq mən nə edim? Bizi ayıran dağların və dərələrin genişliyindən mən səninlə görüşə bilmirəm.Buna görə mən öz yaxın əyanım Lu Cjun-lunu ayırıb, sürətli atlılar və araba hazırlamışam və səndən,hörmətli müəllim, xahiş edirəm ki, bir neçə min li yoldan qorxmayıb mənim yanıma yola düşəsən.

Uzaq yol və qumlu çöllərin genişliyi barədə fikirləşmə,mənim xalqıma rəhm elə. Ya da mənə mərhəmət qıl, ömrü uzatmaq üçün bir carə söylə.

Ümidvaram ki, böyük ”Dao”nun mənasını dərk edib, yaxşılıq edəcəksən və mənim arzuma qarşı getməyəcəksən. Buna görə də mənim fərmanım sənə çox aydın olacaq”.

Lu Çjun-Lu düzlərdən və dağlardan keçərək belə bir məktubla uzaq səfərə yola düşdü.O,xaqanın iradəsini yerinə yetirməyə tələsərək çapır,duracaqlarda atları tez dəyişirdi. Nəhayət o, Çinə gəldi, hündür dağlara qalxaraq kimsəsiz bir dərədə əldən düşmüş və cir-cindir içində olan nürani alimi axtarıb tapdı.Bu məşhur Çan Çun idi.Çingiz xanın məktubunu oxuduqdan sonra o,onun yanına getməkdən tamam imtina etdi.

Çinli alim ulu xaqanın ikinci məktubunu aldıqdan sonra uzaq səfərə yola düşməyə raziliq verdi. O, eyni zamanda Çindən Çingiz xana göndərilən gözəl saray xanəndə qızları və rəqqasələri ilə bir karvanda getməkdən qəti imtina etdi. Buna görə də ona min piyada və üç yüz süvaridən ibarət xüsusi mühafizə dəstəsi verildi.Çan Çun on iki şagirdini də özü ilə götürdü; onlardan biri təfsilatlı gündəlik yazdı və ora müəlliminin kəlam və şerlərini daxil etdi.

Çan Çun tələsmədən gedərək bütün şəhərlərdə dayanırdı.Şəhərlərin monqol rəisləri (darğalar) onun şərəfinə təntənəli ziyafətlər düzəldir və ləziz yeməklər təklif edirdilər, alim isə bunlardan imtina edir,ancaq düyü sıyığı və meyvə ilə dolanırdı.

Çin və monqol dillərini bilən Səmərqənd valisi Axay Tayşinin müşayiəti ilə Çan Çun zəhmli hökmdarın hüzuruna gəldi.Bütün "dao"çular Çin hökmdarının hüzuruna gələrkən onun qarşısında diz çökməkdən və alınlarını yerə vurmaqdan azad olduqları üçün Çan Çun da xaqanın çadırına girəndə ancaq baş əydi və hörmət əlaməti olaraq övuclarını bir-birinə yapışdırdı.

Tutqun sifətli və sarı saqqalı çallaşmış Çingiz xan,üstündə böyük zümrüd olan və çiyinlərinə qədər  üç tülkü quyruğu sallanan girdə qara papaqla qızıl taxtda bardaş qurub oturmuşdu. O, qırpılmayan, pişik kimi yaşıl gözlərini indi ancaq nicat gözlədiyi qoca, zəif və dilənçi alimə zilləmişdi.Çingiz xan da öz qonağı kimi əyninə qara kətan paltar  geymişdi,onun da saqqalının tükləri qocalığın ağ qırovu ilə örtülmüsdü,lakin onların hər birinin yolu ayrı idi.Çin alimi adamlardan uzaqlaşaraq kimsəsiz səhrada tək yaşaya-yaşaya bütün həyatını adamları xəstəlikdən, əzablardan, qocalıqdan və ölümdən xilas etmək üçün elmləri öyrənməyə həsr etmişdi və hər kəs ondan yardım diləmişdisə ,onun köməyinə gəlmişdi.Xaqan isə həmişə böyük orduların rəhbəri olmuşdu,əsgərlərini başqa xalqları qırıb məhv eləməyə göndərmişdi,onun bütün qələbələri on minlərlə adamın ölümü səbəbinə başa gəirdi.İndi onun ömrünün son illəri çatarkən,Çingiz xanın yenidən cavan və güclu olması,yer üzünü ən güclu xaqanını izləyən və onu torpağa və heçliyə çevirmək istəyən ölümün möhkəm caynaqlarından həmişəlik qurtarması, əldən düşmüş bu qocadan asılı idi.

Hər iki qoca xeyli susdu. Sonra Çingiz xan soruşdu.

- Səfərin uğurlumu keçdi? Dayandığın şəhərlərdə bir şeydən çətinlik çəkmədin ki?

- Əvvəlcə məni hər cür yeməklə bolluca təmin edirdilər, - deyə Çan Çun cavab verdi. - Lakin axırda sənin qoşunlarının olduğu torpaqlardan keçərkən hər yerdə doyüşlərin və yangınların

izlərini gördüm. Orada yemək tapmaq çətin idi.

- İndi nə istəsən tapa biləcəksən. Hər gün nahara yanima gəl.

- Yox,mənə belə mərhəmət lazım deyil! Vəhşi dağlı tərki-dünyadır və təklik sevir.

Xidmətçilər qımız gətirdilər, ancaq alim ondan imtina etdi. Xaqan dedi:

- Yanimda qal, necə istəyirsən o cür də dolan. Biz səni xüsusi söhbət üçün çağıracağıq. Getməyə icazə veririk.

Çan Çun yerindən qalxdi, ovuçlarını birləşdirdi, hörmət əlaməti olaraq əllərini tərpətdi və çıxdı.

Bir dəfə dayandığı vaxt Çingiz xan Çan Çuna xəbər göndərdi ki, mühüm söhbət üçün gecədən keçmiş onu gözləyəcək.

Düşərgənin uğultusu sakitləşərək qurbağaların qurultusu qüvvətlənəndə,Axay Tayşi alim Çan Çunu hərəkətsiz dayanmış gözətçilərin yanından ulu xaqanın sarı çadırına apardı.

Qızıl taxtın hər iki tərəfində hündür gümüş şamdanlarda yoğun mum şamlar yanırdı.Çingiz xan bardaş qurub ağ kecənin üstundə oturmuşdu,tülkü quyruqları asılmış girdə parlaq papağı üzünə kölgə salmışdı,ancaq gözləri pələng gözləri kimi yanırdı.Yanında,xalça üstündə monqol və Çin dillərini bilən iki katibə oturmuşdu.

Çan Çun taxtın qabağında xalçanın üstundə əyləşərək dedi:

- Mən dağlar adamıyam və uzun illərdir ki, ən gözəl və böyük elm olan “dao’nu öyrənirəm. Mən ancaq çox kimsəsiz və sakit yerlərdə olmağı sevirəm, səhraları dolaşmaq və ya orada durub düşüncələrə dalmaq istəyirəm. Burada, şah cadırının yanında, əsgərlərin, onların atlarının və arabalarının çoxluğundan həmişə səs olur. Buna görə də ruhi narahatlıq keçirirəm. Bunun üçün də istədiyim kimi, ya qoşunlardan qabaqda, geridə getməyə icazə verilərmi? Vəhşi dağlıdan ötrü böyük mərhəmət olardı.

-Necə istəyirsən,qoy elə də olsun, - deyə xaqan cavab verdi. Sonra soruşdu: - İzah et görüm, ildırım nədir? Cadügərlər və baş şaman Beki mənə deyirlər ki,guya ildırım goydə buludların arxasında yaşayan allahlardır ki,adamlara qəzəblənib nərə çəkirlər.Onlar o vaxt qəzəblənirlər ki,adamlar onlara lazım olduğu kimi qara heyvan yox,başqa rəngdən olan heyvanları qurban verirlər.Bu doğrudurmu?

Çan Çun cavab verdi:

- Göy adamlara heç də qurbanın çoxluğuna və ya azlığına görə qəzəblənmir. Həm də göy qəzəblənmir ki, ona qara yox, sarı, ala və ya ağ qoyun və ya at qurban verirlər. Bir də sənin şamanlarının belə bir səhv sözlərini eşitmişəm ki, guya yay vaxtı çayda çimmək və suda paltar yumaq,keçə hörmək və göbələk yığmaq olmaz,guya buna görə göyün bərk qəzəbi tutur və yerə ildırım ilə tufan göndərir...Adamlarının göylərə hörmətsizliyi təkcə bundan ibarət deyil. Onların çoxlu cinayətlər törətməsindədir...Mən qədim kitablardan oxumuşam ki,adamların üç min müxtəlif cinayətindən ən iyrənci öz valideynlərinə hörmətsizliyidir...Yolda mən tez-tez görürdüm ki,sənin təbəələrin öz valideynlərinə yaxşı hörmət eləmirlər. Özləri ziyafətlərdə yeyir-içir,qoca ata,ana və babalarını isə acından öldürürlər.Qəlbsiz oğullar və qızlar öz valideynlərini təhqir etdiklərindən,müqəddəs göylərin adamlara qəzəbi tutur,onları ildırım ilə cəzalandırır.Hökmdar,çalış xalqın ağıllansın və düzəlsin.

Çingiz xan:

- Alim yaxşı danışır!-dedi və mirzələrə əmr etdi ki,valideynlərə hörmət haqqında qanun vermək üçün Çan Çunun sözlərini monqol,Çin və turk dillərində yazsınlar.

- Bu vaxt qızıl nimçələrdə müxtəlif yeməklər gətirildi və Çan Çun ancaq bişmiş düyü və bir az mövüc götürdü.Xaqan soruşdu:

- Müqəddəs alim! Çoxdan öyrənmək istəyirəm görüm səndə

elə bir dərman yoxdur ki, qocanı cavan eləsin, zəif adama yeni qüvvə versin? Sən elə edə bilməzsən ki ,böyük çayın fasiləsiz axan suları kimi, mənim ömrümün də günləri həmişə davam etsin və dayanmaq bilməsin? Səndə insanı ölməz edən dərman yoxdur ki?

Çan Çun gözlərini aşağı dikdi və dinməzcə barmaqlarının ucunu bir-birinə bənd elədi.

- Əgər səndə indi belə bir dərman yoxdursa,-deyə Çingiz xan davam etdi, - onda bəlkə sən belə bir dərmanı necə düzəltməyi bilirsən ? Ya da sən mənə necə ölməz olmağın sirrinə vaqif olan başqa bir alimi və sehrkarı göstərə bilərsən. Əgər əbədi yaşamaqdan ötrü sən mənim üçün belə bir dərman düzəltsən,mən sənə qeyri-adi,görünməmiş mükafat verərəm: mən səni noyon və böyük bir vilayətin hakimi edərəm ...Mən sənə müxtəlif ölkələrin yüz gözəl qızını bağışlaram !

Çan Çun cavab vermədən və gözlərini qaldırmadan soyuqdan əsirmiş kimi titrəməyə başladı,xaqan isə onu şirnikləndirməkdə davam etdi :

- Mən sən yaşadığın dağın üstündə görünməmiş gözəllikdə bir saray tikərəm ki, beləsi ancaq Çin boqdıxanında ola bilər və sən bu gözəl sarayda oturub yüksək həqiqət haqqında düşüncələrə dalarsan...mənə hec cavanlıq da lazim deyil. Qoy indiki kimi qoca və ağsaqqal qalım,ancaq mən istəyirəm ki, öz əllərimlə qurduğum böyük monqol dövlətini uzun illər,sonsuzluğa gədər öz çiyinlərimdə saxlayım...

Xaqan susaraq alışıb yanan gözlərini alimin üzgün sifətinə zilləmişdi. O, büzüşərək zəhmli xaqana gözaltı baxıb astadan dilləndi:

-Dağları,sakitliyi və düşüncəyə dalmağı sevdiyim halda, qızıl nəyimə lazımdır? Özümü necə dolandırmağı bilmədiyim halda böyük bir vilayəti idarə edə bilərəmmi? Bütün gözəl əsir qızları

yaxşı oğlanlara ərə ver. Mənə saray lazım deyil. Mən daşın üstündə dayana-dayana fikirləşə bilərəm...Ən məhşur Çin alimləri tərəfindən yazılmış bütün müdrik kitabları oxumuşam və indi də mənim üçün heç bir sirr qalmayıb. Mən sənə əsl həqiqəti deyə bilərəm: insanın gücünü artırmaq,onun xəstəliklərini müalicə etmək və həyatını qorumaq üçün çox vasitə var, ancaq ölməz etmək üçün heç bir dərman yoxdur və olmamışdır.

- Çingiz xan başını sallayaraq fikirə getdi və xeyli susdu. Ancaq yanan mum şamların səsi eşidilirdi. Nəhayət, xaqan dedi:

Bizim qoca monqolların belə bir məsəli var: ”Düz danışan adam öz əcəli ilə ölmür”,doğru danışanı acıqdan vurub öldürürlər... Buna görə də bütün adamlar yalan dalınca yalan danışırlar... Sən isə müdrik qoca, məni görmək üçün uzun yol gəlmisən və həqiqəti, ölməzlik üçün olmadığını mənə deməkdən təkcə sən qorxmadın. Sən saf qəlbli və düz adamsan, əgər bir xahişin varsa de!Söz verirəm ki, yerinə yetirəcəm.

Çan Çun ovuclarını bir-birinə yapışdırdı və xaqanın qarşısında baş əydi.

- Mənim ancaq bir xahişim var, qarlı yolları, dağları və səhraları da buna görə keçib gəlmişəm ki, sənə deyim: öz amansız müharibələrini dayandır və hər yerdə xalqlar arasında sülhü bərqərar elə!

Çingiz xanın qaşları dartıldı və çatıldı.Üzü əyildi.Fısıldayaraq elə çığırdı kı , mirzələrin əlindəki qələm atılmağa başladı:

- Hər yerdə sülhü bərqərar etmək üçün müharibə etmək lazımdır! Bizim çöllərdəki qocalar nahaq demirlər: “ancaq öz barışmaz düşmənini öldürəndən sonra uzaqda və yaxında rahatlıq olur... Mən isə hələ düşmənim, Tanqut şahı Burxanı məhv etməmişəm! Bir də dünyanın ikinci yarısı hələ mənim hökmranlığım altında deyil... Mən buna dözə bilərəmmi? Sən alim olsan da sənin xahişin əsassızdır! Belə xahişlərlə bir daha bizə əziyyət

vermə!

Çingiz xan taxtın dəstəsindən tutaraq yerindən azca qalxdı və qəzəbdən titrəyib fısıldadı:

-Getməyə icazə veririk!

Çingiz xan həmin ilin qışını Səmərqəndin yaxınlığında keçirdi.O,şəhərin darısqallığını sevmirdi və monqol düşərgəsində yaşayırdı.

Əvvəlcə o qədər yağış yağdı ki, bütün torpaq palçıq oldu və getmək çətinləşdi. Sonra tez-tez qar yağdı və elə soyuq düşdü ki, çoxlu at və öküz donaraq yollara töküldü.

Alim Çan Çun Xarəzm şahının bağlarla əhatə olunmuş,keçmiş şəhər ətrafı "göy sarayında" yaşayırdı. Qoca orada şeirlər yazırdı. Dəstə-dəstə ac kəndlilər onun yanına gəlirdilər. Çan Çun Çingiz xanın ona verdiyi yeməkləri paylayır və gələnlər üçün sıyıq bişirirdi...

# ƏMİR TEYMUR



***(1336-1404)***

Əmir Teymur 9 aprel 1336-cı ildə Qaşqa-Dərya vilayətinin Xoca İlqar kəndində anadan olmuşdu. Dövlət xadimi, sərkərdə, Əmir Teymurilər imperiyasının banisidir. 1370-ci ildə Səmərqənd və Bəlx hakiminə qalib gələn Teymur «Əmir» titulunu qəbul edərək Çingiz xanın nəsli adından dövləti tək idarə etməyə başlamışdı. Teymur Səmərqəndi dövlətinin paytaxtı etdi. 1386-cı ildə o, Sultaniyyəni tutub, Təbrizə, Naxçıvana, Qarsa, Tiflisə, Şəkiyə, Qəbələyə, Qarabağa hücum etmiş, 1387-ci ildə Salmas, Urmiyə və Marağadan keçib Gilana, oradan isə Səmərqəndə qayıtmışdı.

Əmir Teymur sonralar «Beşillik» (1392-ci ildən) və «Yeddi-illik» (1399-cu ildən) yürüşlər zamanı da Azərbaycana hücum etmişdi. 1398-ci ildə Hindistana hücum edərək Dehlini tutmuşdu.Hindistanı tam işğal edə bilməmişdir.Əmir Teymur 1400–1401-ci illərdə Sivaş, Dəməşq və Bağdadı işğal etmiş, Ankara vuruşmasında (1402-ci il) Türkiyə Sultanı İldırım Bəyazidə qalib gəlmişdi. 1404-cü ildə Səmərqəndə qayıtmış, Çinə hücum ərəfəsində vəfat etmişdi.

**Dost və düşmənə münasibət bəsləmək tüzüyü (Qanunu)**

Turan məmləkətini fəth eləyən gündən paytaxt Səmərqənddə səltənətin taxtına əyləşəndən sonra dost və düşmən ilə münasibətdə hamar bir yol tutdum. Mənə yamanlıq eləyən hiylə-məkr işlədərək döyüş meydanında mənim üstümə qılınc çəkən bəzi əmirlər elədikləri xəyanətkar əməllərinə görə qorxuya

düşmüşdülər, carələri kəsildiyi üçün yalvar-yaxar eləyərək mənim pənahıma sığındıqları zaman onlara o cürə yaxşılıqlar elədim ki, mənim inayətimi və xeyir ehsanımı görəndə utandılar. Kimi incitdimsə, onun qəlbini ehsan və ənam ilə aldim və ona rutbəsinə uygun gələn imtiyazlar verdim.Lakin Sulduz və Cete ulusunun əmirlərinə nifrət eləyirdim,çünki onlar Qabil şah Çingizini əvvəl əmirlik, bir qədər sonra isə xanlıq taxtina qaldırıb ona səmimiyyətlə xidmət eləyəcəklərinə söz vermişdilər. Lakin azca sonra mənim səltənətin taxtına əyləşdiyimi eşidən kimi xoşuma gəlmək üçün öz andlarını ayaqladılar və Qabil şahı qətl elədilər.Mənim paxıllığımı çəkən,məni öldürmək qəsdində olan adamlara o qədər sovqat və ənam verdim,elədiyim yaxşılıqları görəndə xəcalət tərinə batdılar.Həmişə mənim razılığımı alandan sonra iş görən dostlarım pənah diləyərək mənim yanıma gələndə öz dövlətimə şərik bilib heç vaxt onlardan mal-mülkü əsirgəmədim.

Öz başıma gələnlərdən onu da öyrəndim ki,sadiq və vəfalı dost öz dostundan inciyəndə də ondan ayrılmaz,dostunun düşmənini öz düşməni hesab eləyər. Əgər gərək olsa,öz dostundan canını belə əsirgəməz. Belə ki, mənim əmirlərimdən kim mənə candan ürəkdən həmrahlıq elədisə, mən də heç nəyimi onlardan əsirgəmədim.

Öz başıma gələnlərdən sonra onu da öyrəndim ki, cahil dostdan ağıllı düşmən irəlidir. Məsələn, Əmir Qazağanın nəvəsi Əmir Hüseyn nadan dostlardan idi, onun dostluq adı ilə tutduğu əməlləri mənə heç bir düşmən rəva görməzdi.Əmir Xudadat mənə belə demişdi: "Əgər düşmənin baş əyib pənahına sığınsa, ona rəhm eləyib, urvat göstər". Məsələn, mən də Toxdamış xan gəlib mənim pənahıma sığınanda ona urvat və yaxşılıq göstərdim.Əgər düşmənin sənin tərəfindən urvat, xeyir-ehsan görəndən sonra da təzədən sənə qarşı düşmənçilik yolunu tutsa, onu Pərvərdigarın

hökmünə tapşır.

Həqiqi dost öz dostundan heç vaxt inciməz, əgər incisə də onun üzrxaxlığını qəbul eləyər.

**Vəzirlərin xidmət eləmək tüzüyü**

Əmr elədim ki, hər gün divanxanada dörd vəzir olsun.

Birincisi, məmləkət və rəiyyət vəziridir. O, məmləkətdəki mühüm işləri, gündəlik müamilələri, rəiyyətin vəziyyətini, vilayətlərdən gətirilən məhsul, vergi-töyücü və onların bölüşdürülməsi, gəlir-çıxar, məmləkətin abadlığı, əhalinin firavanlığı məsələlərinin və xəzinənin nə yolla nizama salındığını mənə bildirməli idi.

İkincisi,sipah vəziridir.O,hərbçilərin məvaciblərini və tənhalarını (taxt-tac uğrunda göstərdikləri xidmətə görə verilən ənam) yoluna qoymalı,əsgərlərin işi çətinə düşməsin deyə daim onlardan xəbər tutmalı idi və onların vəziyyəti haqqında mənə məlumat verməli idi.

Üçüncü vəzir başsız qalan ailələrə,ölənlərin adamlarına və qaçqınlara çatacaq malları,əhalidən yığılan zəkatı və bac-xəracı,gəlib-gedən sövdəkarlardan alınan malı,məmləkətin mal-qarasını,naxırların örüşlərini,yaylaqlarını,məmləkətdən yığılan gəlirləri əmanət olaraq saxlamalı,yoxa çıxanların və ölənlərin malı-mülkü qalıbsa,onu varislərinə çatdırmalı idi.

Dördüncüsü,səltənətin işlərini aparan vəzirdir.Onun səltənətin bütün idarələrinin gəlirlərindən-çıxarlarından,xəzinədən sərf olunan xərc-xəracatdan,hətta atxanaya və saraydakı başqa canlılara sərf olunana xərclərdən agah olması gərəkdir.

Həmçinin əmr elədim ki,xaricdəki və məmləkət içərisindəki mala-mülkə nəzarət eləmək,oralardakı dövlət əhəmiyyətinə malik olan maliyyə münasibətləri ilə və vilayətlərdən gələn gəlirlərlə məşğul olmaq üçün başqa üç vəzir də təyin olunsun.Bu

yeddi vəzir divanbəyiyə tabe olmalı və onunla birlikdə mühüm maliyyə işlərini həll eləyərək mənə məlumat verməli idilər.

Həmçinin hökm elədim ki,bir nəfəri ərzbəyi təyin etsinlər.O,sipahın,rəiyyətin,ərizə yazıb şikayət eləyənlərin vəziyyətini,məmləkətin abadlığını,viranlığını,mühüm işlərdən hansı birinin görülüb-görülmədiyini mənə çatdırmalı idi.

Əmr elədim ki,sədrlər sədri seyidlərə və başqa ərbablara suyurğal olaraq verilən yerlərin,vəqflərin vəziyyətini,onların öz vəzifələrinin öhdəsindən nə dərəcədə gəldiklərini yoxlayıb mənə ərz eləsinlər.İslam qazisi isə dünyəvi işlərin gedişi haqqında mənə məlumat verməli idi.

Həmçinin əmr elədim ki,səltənət işləri barədə məmləkəti idarə eləmək,məmləkətdəki dəyişmələr,özgələşmələr, sipahların və əmirlərin təyin olunması,hər türlü məşvərətlər, tədbirlər haqqındakı xüsusi məclisdə mənə məlumat versinlər.Həmin məclislərdə məxfi və sirr olaraq gizlədilən işləri saxlamağa qadir olan ayrıca kitab olmalı idi ki,düzgünlük qələmi ilə məxfi məşvərətləri və söhbətləri dəftərə yazsın.

Digər məclis katiblərini təyin eləməyi də buyurdum ki,növbə ilə divan məclisində baxılan və həll edilən mühüm məsələlərin,xüsusi işlərin təvsilatını dəftərə yazıb saxlasınlar.Mənə ərz edilən sözlərdən,çixartdığım hökmlərdən tutmuş,ən cüzi işlərə qədər hər şeyi qələmə alsınlar,başıma gələn olayları dəftərə salsınlar.

Səltənətin hər bir idarəsində gəlir-çıxarların,gündəlik xərclərin hesabını yazmaq üçün də bir katib təyin olunmasını buyurdum.

Əmir Teymurun vəsiyyətlərindən:

Ümumtürk mədəniyyəti xəzinəsində "Tüzüki-Teymuri" ("Teymurun qanun kitabı") adı ilə məhşur olmuşdur.Əsər dünya tarixində ən böyük cahangirlərdən biri kimi şöhrət qazanmış Əmir Teymurun dövlət quruculuğuna və hərb sənətinə dair

mülahizələrini,Xeyir və Şər,Ədalət və Vicdan,Azadliq və Zəfər haqqında təsəvvürlərini əks etdirir.Əmir Teymurun vəsiyyətləri indiyədək dünyanın bir çox dillərində nəşr edilmişdir.

Hansı isə bir işə başlamaq istəyərkən məşvərətdən sonra Qurandan fal açardım və Quranın buyurduğu kimi hərəkət eləyərdim.Tuğluq Teymur xanın yanına getməzdən əvvəl Quranı vərəqləyib fal açanda "Surəyi-Yusif əleyhissəlam"çıxdı və mən Qurani-məcidin hökmünə əməl elədim.

- "Birincisi, öz səltənətimi islam dini əsasında qurdum, xeyiri və ehsanı əskik olmayan şəriətə bağladım, hörmət-izzət bəslənilməsi zəruri olan peyğəmbərin övladlarına və əshabələrinə məhəbbət əsasında qaydaya saldım. Səltənətimin mərtəbələrini qanun-qayda əsasında o cürə saxladım ki, bir kimsənin səltənətin işlərinə qarışmağa, ona ziyan yetirməyə ixtiyarı çatmadı;

- İkincisi, hərbiçiləri və rəiyyəti ümid ilə qorxu arasında saxladım. Dost-düşməni güzəştlə barışıq mərtəbəsində tutdum. Tutduqları əməlləri, dedikləri sözləri bəzən səbirlə, hövsələ ilə, bəzən də bildiyimi bilməməzliyə vurmaqla yola verdim…;

- Üçüncüsü, heç kəsdən intiqam almaq niyyətində olmadım. Çörəyimi yeyib, əvəzində pislik edənləri Pərvərdigari-aləmə tapşırdım. İş bacaran, şücaətliləri,igidləri öz yanımda saxladım. Safürəkli ( ürəyiaçıq ) adamların, seyidlərin, alimlərin və fazillərin üzünə qapım həmişə açıq oldu. Bəd nəfisli xəsisləri, könlüpozuq qorxaqları məclisimdən çıxàrıb qovdum;

-Dördüncüsü, xalqı özümə xoş üzlə, rəhm və şəfqətlə ram elədim. İşimi ədalət ilə yeritdim, cəbirdən ( el tənəsindən ), zülmdən uzaq olmağa can atdım…"

Teymurun qılçasında uşaqlıqdan qüsur olmuş ,başqa yürüyüşlərin birində qolundan və qıçından yaralanmışdır. Məhz elə buna görə də "topal" ləqəbini qazanmışdı.Teymur tatar dilində dəmir deməkdir. Teymur deyərdi : "Dünya nədir ki, iki

hökmdar olsun”.

Heç bir hərbi təhsil görməyən Teymurun “Hərbi nizamnamə” adlı qanunnamə tərtib etməsi Orta əsrlərin şərq hərbi tarixində əlamətdar hadisə idi. Kitab onun diktəsi ilə qədim türk dilində yazmışdır.Məhşur tarixçi C.Vamberi yazır ki: “Teymur insan kəllələrindən piramidalar düzəltdirdi. Lakin o, ruhən sakit olarkən ən adil hökmdar idi”.

Mənim boynumda bir kimsənin haqqı vardısa, o haqqı heç vaxt unutmadım. Bir kimsə ilə tanış oldumsa, o kimsəni heç vaxt diqqətimdən kənara qoymadım…

Teymur, oğlu Miranşahı Azərbaycana hökmdar qoymuşdur.O, da ömrünün son illərini qışlaq kimi Qarabağda keçirmişdir.Onu da qeyd etmək lazımdır ki,Teymurun Avropada yüksək qiymətləndirilməsinə əsas səbəb onun Türkiyə sultanı İldırım Bayazidi sarsıdıcı məğlubiyyətə uğratması idi.Məhz bu məğlubiyyətdən sonra Avropa dövlətinin əli qolu açılmış,özlərini sərbəst hiss etməyə başlamışdılar.

Tarixdə türk dünyasına daha bir ibrət verəsi hadisə: Döyüş meydanlarında zəfərlər qazanan, 14 dövlətin xaç ordusunu məğlub edən türk osmanlı dövləti başqa türk dövləti tərəfindən zəiflədildi. Bu isə gələcəkdə türk dünyasına nə verdi?! Olanlar Türk dünyası üçün bağışlanmaz böyük səhv və faciə idi. Nəticədə Osmanlı dövlətinin məğlubiyyəti ondan qorxan,həyəcan icində yaşayan xacpərəst Avropa xalqlarının sevincinə səbəb oldu. Olanlar bir daha sübut edir ki, tarixin müxtəlif dönəmlərində müsəlman türklər bir-biri ilə müharibələr aparmasaydı, bu gün dünyanın siyasi mənzərəsi başqa cür olardı.

Məhz buna görə də İldırım Bəyazidin məğlub olması xəbərini alan Avropa kilsələrində Teymurun “şərəfinə” dualar oxunmuşdu.

Elə bu vaxtdan da Qərb diplomatiyası qəti olaraq belə bir qənaətə gəlmişdi ki, Osmanlı imperiyasına arxadan zərbə vurmaq,

Şərqin qüdrətli dövlətlərini bir-birinin əlilə vurmaq lazımdır... Şərqə qarşı bu siyasət müxtəlif formalarda indi də davam etməkdədir.

Teymur çoxlu sayda ölkələrin ordularını məğlub etdikdən sonra Misir şahını məğlubiyyətə uğradır və onun qızı gözəl Zenokratanı özünə xanım edir.Əsir düşmüş bu qızı (Zenokratanı) dərin məhəbbətlə sevir. Teymur Zenokratanın ölümündən sonra daha da əsəbləşir və amansızlaşır. Əmir Teymur 1405-ci ildə vəfat etdi, onu Səmərqənddə dəfn etdilər .

Əmir Teymur deyirdi:

- Erməniləri bir millət kimi yer üzündən silmədiyim üçün gələcək xalqlar ya məni alqışlayacaq, ya da ki lənətləyəcəklər.

# FATEH SULTAN MEHMET



**(1432 -1481)**

Milləti -Türk

Fateh Sultan Mehmet ilk dəfə 13 yaşında hakimiyyətə keçmiş və bir müddət sonra qovulmuşdur. Nəhayət, ikinci dəfə taxta çıxan Fateh Mehmet dövləti ailəsinin himayəsi ilə deyil, öz ağlıyla idarə etməyə başlamışdı.

Ana dilindən başqa yunan, italyan, fransız, ərəb və fars dillərini bilən Sultan Mehmet elmi sevmiş və elm adamlarına arxa olmuşdu.

«Sahnı səman» adında tikdirdiyi ilk mədrəsə ilə bu günün universitetinin əsasını qoymuşdu.

2 imperatorluğu, 4 krallığı, 6 prinsliyi, 4 əyaləti tutaraq 17 dövləti dünya xəritəsindən silmiş və torpaqlarını öz imperatorluğuna qatmışdı. Bütün Balkan yarımadasını türk dövlətinə qatmış, qara dənizi bir türk dənizi etmişdi. Boğazlarda hakimiyyətini möhkəmlətmiş, Çanaqqala və İstanbul boğazlarını tutmuşdu.

Həzrəti peyğəmbərimiz Məhəmmədin(əss)800-il əvvəl dediyi sözlər Türk xalqına onun sərkərdəsinə və əsgərinə necə də yaraşır: «Konstantinopol, əlbəttə, fəth ediləcək. Onu fəth edən sərkərdə nə yaxşı sərkərdədir, onun əsgərləri nə yaxşı əsgərlərdir»

Həzrəti Peyğəmbərimizin sözləri ilə 1453-cü ildə Osmanlı sultanı II Mehmet, müəllimi Ağşəmsəddinin təşviqi ilə Konstantinopola hücum etməyə qərar verdi. Əvvəl İldırım Bəyazid tərəfindən inşa edilən Anadolu qalasının (Anadolu hasarı) qarşısında Rumeli qalasını (Rumeli hasarı) tikdirdi. Ədirnədə hazırlanan balyeməz adlı böyük toplarla hücuma hazırlaşdı. 6

aprel 1453-cü ildə Osmanlı ordusu Bizans qala divarlarının qarşısına gəldi. Bizans imperatoru Konstantin Haliç körfəzini zəncirlərlə bağlayaraq Osmanlı donanmasının şəhərə girməsinin qarşısını almağa çalışdı. Ancaq ordu 11 apreldə şəhəri mühasirəyə alaraq top atəşinə tutdu. İyirmi gün davam edən top atəşindən heç bir nəticə alınmadı. Şəhəri dənizdən də mühasirə etməyi düşünən II Mehmet bir gecədə 70 gəmini İstanbul boğazından quru yolu ilə Haliç körfəzinə keçirdi. Səhər oyanan Bizanslılar Haliç körfəzində Osmanlı donanmasını görüb qorxuya və təşvişə düşdülər. Dənizdən və qurudan atılan top atəşləri ilə qala divarlarında oyuqlar açıldı. Bundan sonra 29 mayda ümumi hücuma qərar verildi. Ağşəmsəddin II Mehmetə cəsarət təlqin (beyninə yeridmək) edir, islam peyğəmbərinin (ə.s.) «Konstantinopol, əlbəttə, fəth ediləcək. Onu fəth edən sərkərdə nə yaxşı sərkərdədir, onun əsgərləri nə yaxşı əsgərlərdir» müjdəsinin məhz ona aid olacağını söyləyirdi. Bu inancla 29 mayda sonuncu hücum başladı. Bu qanlı və çətin müharibə nəticəsində islam-türk ordusu çoxlu şəhidlər verdi. Bu şəhidlər arasında Bizans qala divarlarına ilk Osmanlı bayrağını qaldıran ulubatlı Həsən də vardı. Nəhayət, 29 may 1453-cü il çərşənbə axşamı günü Konstantinopol fəth edildi və adı İstanbul oldu.İstanbulun fəth olunması həm türk tarixi, həm də dünya tarixi üçün mühüm hadisədir. Artıq Istanbulun fəth olunması ilə osmanlıların Balkanlarda irəliləməsinə heç bir maneə qalmamışdı. İstanbulun fəth olunması ilə II Mehmet xan «Fateh» titulu aldı və tarixçilər onu fateh Sultan Mehmet xan kimi tanıtdı. İstanbul 29 may 1453-cü ildən 23 aprel 1920-ci ilə qədər (467 il) Osmanlı dövlətinin paytaxtı olub. Türkiyə 29 mayı hər il böyük təntənə ilə qeyd edir.

Osmanlı imperatorluğunu möhkəmlədən bu insan bir dövrü qapayıb, yeni bir dövr açmış, renessans ( intibah dövrü ) dövrünə atalıq etmişdi. Fateh II Mehmət II Muradın oğludur. 20-30 mart

1432-ci ildə dünyaya gəlmişdi. Atasının ölümündən sonra ikinci dəfə taxta çıxması 1451-ci ildə olmuşdu. 300.000 ordusuyla şərqə doğru hücuma çıxdığı zaman xəstələnmiş, həkimlərin verdiyi «Şərabi-fariqi» içərək 3 may 1481-ci ildə ölmüşdü. Fatehin zəhərlənərək öldürülüb-öldürülməməsi barədə bir çox şübhələr,fərziyyələr irəli sürülmüşdür. Lakin dövrün kimyagərlərinin iddialarına görə, Fateh zəhərlənərək öldürülmüşdü. Fateh 49 il, 7 ay, 5 gün yaşamışdı. Səltənəti 30 il sürmüşdü. Fateh II Mehmetin ölüm xəbəri Qərbə yayılınca xristian dünyası geniş nəfəs almış, şadlıq, şənliklər və bayramlar keçirilmişdi.

İstanbulun fəthini görən dahi Azərbaycanlı alim Ağşəmsəddin Həmzəoğlu haqqında məlumat vermək istəyirəm. Bu məlumat, eyni zamanda bir müjdə olacaqdır. Adı dünya tibb ensiklopediyalarına düşən, şərəfinə şeirlər, dastanlar yazılan Həmzəoğlu Ağşəmsəddin adıyla, iftixar etməkdə bütün azərilər haqlı olacaq. O ulu Sultan Mehmet Fatehin ən çox inandığı, ən çox sevdiyi bir insandır. Ağşəmsəddinin Azərbaycan türkü olmasını Türkiyənin bütün tarixçiləri təsdiq edir. Dünyada şöhrət qazanmış məşhur «Türklərin altın kitabı»nın müəllifi, görkəmli türk tarixçisi Rafiq Özdək yazır: «Ağşəmsəddinin atası Həmzə azərbaycanlı filosof Şihabəddin Sührəvərdi soyundandır» («Türklərin altın kitabı», 3-cü cild, səh 472. Tərcüman təsisiləri, İstanbul, 1990). İstanbulu fəth edən Mehmet Fateh Ağşəmsəddin haqqında bu sözləri söyləmişdi: «Zamanımda Ağşəmsəddin kimi bir alimin bulunmasından duyduğum xoşbəxtlik İstanbulun fəthindən duyduğum xoşbəxtlikdən daha az deyildir» (göstərilən mənbə, səh. 469).

Azərbaycanlı dahi alim Həmzəoğlu Ağşəmsəddin 1383-cü ildə Osmancıqda dünyaya göz açmışdı. Mehmet Fatehin atası, Murad dövründə bütün Anadoluda məşhur olan Hacı Bayram Vəlinin [1352–1430] müdiri olmuşdur. Yeri gəlmişkən onu da qeyd edim ki, Hacı Bayram Vəlinin də dədəsi Azərbaycandandır.

Həmzəoğlu Ağşəmsəddinin dünyagörüşünün formalaşmasında bu zatın (nəslin,kökün) böyük xidməti var. Ağşəmsəddin ərəb və fars dillərini mükəmməl bilirdi. Çalışmaqdan zövq alırdı. Gənc yaşlarından tibb elminin bütün sirlərinə dərindən yiyələnmiş Ağşəmsəddin zamanının ən böyük alimi kimi tanınmışdı. Onun ixtiraları, kəşfləri saysızdır. Təkcə bunu demək yetər ki, dahi tibb alimimiz Ağşəmsəddin, mikrobiologiyanın banisi sayılan fransız alimi Lui Pasterdən (1822–1895) neçə yüz il öncə, mikroskopun belə kəşf edilmədiyi bir dövrdə gözəgörünməz canlılar, yəni mikroblar haqda geniş məlumat vermişdi.

Alimin «Maddətül həyat» (həyatın maddəsi) adlı elmi kitabında bu sözləri oxuyuruq: «Xəstəliklər insan vücuduna girən gözəgörünməz bir qisim canlı toxumlar üzündən meydana gəlir və yenə o canlı toxumlarla insandan insana keçir…»

Dünyaya məlum olan bəzi faktları oxucularımıza təqdim etmək yerinə düşəcəkdir. Öncə bunu demək vacibdir ki, Ağşəmsəddin ulu Mehmet Fatehin xocasıdır ( tərbiyəçisi ), müəllimidir. Fatehə «İstanbulu sən fəth edəcəksən!..» sözlərini deyən də bu xocasıdır. Ağşəmsəddin Mehmet Fatehə belə xitab etmişdi: «İş bu sənənin rabiül ulasının iyirminci günü səhər vaxtında sidqü himmətlə filan canibindən yürüyüş etsinlər".

Ağşəmsəddinin dediyi kimi oldu. 53 gün sürən mühasirədən sonra Mehmet Fateh İstanbulu fəth etdi. Aydın məsələdir ki, İstanbulun fəthi asan başa gəlməmişdi. Fəthə yaxın bir zamanda sərkərdələrin bir qismi tərəddüd edərkən, Ağşəmsəddin Mehmet Fatehə hücum etməsini məsləhət görmüşdür.

Bundan başqa Ağşəmsəddin heyrətamiz altıncı duyğuya, telepatiyaya malik bir insandı. Bu gün İstanbulun Xalid səmtində adına yaşıl bir şəhər salınan və orada türbəsi ziyarətgaha çevrilən, Məhəmməd peyğəmbəri görmüş olan Xalid əba Əyyub ənsarinin yeddinci əsrdə İstanbulu fəthə gələnlərlə şəhid olmasından bəri

kimsəyə məlum olmayan məzarını da Ağşəmsəddin tapmışdı. Bu möcüzə İstanbulun fəthi günü olmuşdu. Şahidlər yazırlar ki, o gün Ağşəmsəddin Məhəmməd peyğəmbərin ələmdarı Xalid Əba Əyyub Ənsarinin qəbrini arayırmış. O gün Ağşəmsəddin çox həyəcanlı və əsəbi imiş. Fatehin də, komandanların da, əsgərlərin də gözü ondaymış. Ağşəmsəddin namaz üçün səcdəyə qapılır. Namazdan sonra da xeyli səcdəyə qapınmış vəziyyətdə qalır. Birdən səcdədən başını qaldırmış və ulu Fatehə: «Sultanım, Ulu Tanrım səccadəmizi Xəlid Əba Əyyub Ənsarinin məzarı üzərində döşəmişdir. Əmr edin buranı qazsınlar…» Torpaq qazılmış və Xalid Əyyubun kitabəsi olan bir sənduqə üzə çıxmışdı. Fəth gecəsi Ağşəmsəddin bir dağın başında qoca qartal kimi qanadlarını açıb: «Ya müfəttühül-əbvab!...»–deyə ucadan bağırmışdı. Qələbə çalındıqdan sonra şəhidlərin hamısını Əyyubun müqəddəs məzarı yanında dəfn etmişlər. Xülasə, bugünkü gözəl Əyyub şəhərini türk dünyasına bəxş edən Azərbaycanlı dahi alim Həmzəoğlu Ağşəmsəddindir. İstanbulun mərkəzində salınmış Mehmet Fateh parkında onun əzəmətli bir abidəsi var.

Həzrəti peyğəmbərimiz Məhəmməd (ə.s.s.) insanın insandan üstünlüyünü onun elmində görürdü. Böyük tariximiz də bunu sübut edir. Hansı dövlət başçısı ölkəni idarə etməsində elmə,elm adamlarına, mənəviyyata, bacarığlı insanlara arxalanırsa, onlardan bəhrələnirsə, o, müvəffəqiyyət qazanaraq qarşısına qoyduğu vəzifələrin öhdəsindən müvəffəqiyyətlə gəlir.

# BABUR ŞAH



***(1483-1530)***

Hindistanda-türk dövlətinin qurucusu Babur şah böyük dövlət xadimi və siyasət adamı olmuşdur. Tarixin ən böyük meydan döyüşlərindən birində qələbə çalan ulu sərkərdə, həm gözəl şair, dəyərli bir insan idi.

Şahın atası Ömər şeyx Teymurun, Qutluq Nigar xanım Çingiz xanın nəvəsidir. İki türk hökmdarının qanını daşıyan Babur şah qısa sürən həyatı boyunca bacardığı böyük işlərlə onlara layiq nəvə olduğunu isbat etmişdir.

Atasının bir qəza nəticəsində ölümündən sonra 1494-cü il tarixində Fərqanə taxtına keçdiyi zaman 11 yaşı vardı. Bu yaşda ikən səltənətinə qarşı qohumlarından gələn düşmənçiliklə rastlaşmış və taxtdan salınmışdı. Fəqət təslim olmamış, yanındakı mühafizə əsgərləri ilə 1504-cü ildə Əfqanıstanın paytaxtı Kabulu fəth etmişdi. Hind imperatorluğunun ilk toxumu beləcə atılmışdı. Dehlini aldıqdan sonra özünü hind padişahı elan etmişdi.

Babur hind imperatorluğunda böyük tikinti-təmir işlərinə girişmiş, İstanbuldan texnikadan başı çıxan almanlar gətirərək yollar, körpülər, saraylar, hamamlar, baxçalar tikdirərək yurdunu başdan-başa inşa etdirmişdir.Babur şah bütün yaşantısını gerçəkliyi ilə olduğu kimi verən "Baburnamə" adlı əsər yazmışdır. Əsər bir çox xarici dillərə çevrilmişdir.

Otuz altı illik hökmdarlığından sonra 1530-cu ildə həyatının parlaq yüksəlişi çağında vəfat etmişdir.

Sultan Babur Ömər Şeyx Mirzə oğlu 14 fevral 1483-cü ildə Fərqanədə doğulub. Atası Əmir Teymurun nəvəsi, Fərqanə hök-

mdarı Ömər Şeyx Mirzə Barlas idi. Ömər Şeyx mirzə 1494-cü ildə öldükdən sonra yerinə böyük oğlu Babur keçdi. Səmərqənddə Böyük Xaqanlıq taxtında oturan əmisini rəsmən tanıyırdı. Ancaq Babur gəncdi . Çox keçmədi ki, tax-tac qovğaları başladı. Buna görə həyatını güclə qurtararaq özünə sadiq bəylərlə 1504-cü ildə Kabilə getdi. Dövlətinin paytaxtını da buraya köçürdü.

1507-ci ildə padşah adını alan Babur özünü Əmir Teymurun ən böyük varisi elan etdi. Ələ keçirdiyi yeni torpaqları sadiq bəyləri arasında bölüşdürdü. İdarəetmədə və orduda nizam-intizam yaratdı.1519-cu ildə Sind çayını keçərək Pəncab ətrafında hakimiyyətini qurdu. 1522-ci ildə Sind və Bəlucistan arasındakı bölgəyə də hakim oldu. 1524-cü ildə Dehli sultanı İbrahim Ludinin qüvvələrini məğlub etdikdən sonra Lahora girdi....

Baburun ən böyük qəhrəmanlıqlarından biri 1526-cı ildə Ludinin böyük ordusuna qarşı qələbə çalmasıdır. İbrahim Ludinin 100 min əsgəri və 1000 fildən ibarət böyük bir ordusu vardı. Bu ordu ilə Baburu yox etmək əzmiylə üzərinə yeridi. Baburun əsas gücü isə 13.500 nəfərlik seçmə Türküstan atlılarından ibarətdi. Amma odlu silahlara da sahibdi. Osmanlı türklərindən Mustafa Rumi adlı zabitin başçılıq etdiyi bir topçu birliyi vardı. Babura qələbə qazandıran da bu topçu birliyi və atlı əsgərləri oldu....

Hindlilərin odlu silahları yoxdu. Yarım gün sürən savaşda Ludinin ordusundan 40 min nəfər ölmüş, böyük bir qismi əsir alınmış, qalanları da qaçmışdılar. İbrahim Ludi bu savaşda öldürüldü. Bundan sonra Dehliyə girən Babur 1526-cı ildə Hind-Türk imperatorluğunu qurdu. 1527-ci ildə bütpərəst hindulardan ibarət bir ordunu məğlub etdikdən sonra "Qazi" adını aldı.Babur Hindistanın 5-il hökmdarı olmuşdur...

Babur özünün və əsgərlərinin türk olması ilə fəxr edən, adil, vətəndaşlarını, ətrafındakıları qoruyan bir hökmdar idi. Özünü

bəylərinə və sərkərdələrinə sevdirmişdi. Eyni zamanda çox böyük ədib və şair idi. O,olduqca savadlı, həm də incəsənətin müxtəlif sahələrini dərindən bilirdi.Ərəb əlifbasını götürmüş, Cığatay türkcəsini, Orta Asiya türkcəsini rəsmi dil elan etmişdi. Onun "Baburnamə" əsəri türklərin ən böyük ədəbi fəlsəfi şah əsərlərindən biridir....

Babur Dehlidən sonra Aqranı da almış və buranı paytaxt etmişdi. 1528-ci ildə Luknov və Benqalı da ələ keçirdi. Ancaq 1529-cu ilin sonlarına doğru xəstələndi. Dövlətin qabaqcıl adamlarını hüzuruna çağıraraq onlara oğlu Humayunu vəliəhd seçdiyini bildirdi və qəbul etdirdi. 1530-cu ildə paytaxt Aqrada öldü, ancaq Kabildə dəfn edildi. 1646-cı ildə nəvəsi Şahcahan onun Kabildəki qəbri üzərində möhtəşəm bir türbə tikdirdi.

## QARA YUSİF



***(1355-1420)***

Milliyəti:Azərbaycan türkü

Qara Yusif Qaraqoyunlu tayfa birliyinə başçılıq edən Qara Məhəmmədin oğlu. Azərbaycan Qaraqoyunlu dövlətinin yaradıcısı.

Qara Yusif çoban ikən az bir zaman ərzində bütün çobanların məhəbbətini qazanmışdır. Hər yerdə çobanlar onun adına and içirdilər.Ona Şamdan (indiki Suriya) İsfahana qədər adını hörmətlə yad edirdilər. Qara Yusif çox adil və zəkalı bir hökmdar idi.

Qaraqoyunlu Qara Yusif 1406-cı ildə Naxçıvan və 1408-ci ildə isə Sərdrud döyüşlərində Teymuri Əbu Bəkri məğlub edərək Teymurluların Azərbaycandakı ağalığına son qoydu. 1410-cu ildə Qara Yusif Təbriz yaxınlığında keçmiş müttəfiqi Sultan Əhmədi məğlub edərək Cəlairi dövlətinə son qoydu və mərkəzi Təbriz şəhəri olan Azərbaycan Qaraqoyunlu dövlətini yaratdı. Bu dövlətin tərkibinə Qarabağ, Cənubi Azərbaycan, Şərqi Anadolunun bir hissəsi, Ərəb İraqı və Əcəm İraqa daxil oldu.

Teymurla Qara Yusifin arasında müharibə başlayır. Teymurun ordusu Qara Yusifin ordusunu darmadağın etdikdən sonra Qara Yusif dostu Osmanlı sultanı İldırım Bayazidin yanına qaçır.Teymur İldırım Bayazidə dəfələrlə elçi göndərir ki, Qara Yusifi ona qaytarsın. İldırım Bayazid bu təklifləri rədd edir.Bu da onların arasında müharibənin başlanmasına səbəb olan əsas amillərdən biri olur.

Teymurun 1405-ci ildə vəfatından sonra Qara Yusif Teymurun oğlu Miranşahı öldürtdürür, beləliklə, bütün Azərbaycanada hakimiyyəti ələ alır.

Şirvanşah I İbrahimin 1406-cı ildə qoşunla Qara Yusifin müttəfiqindən rəqibinə çevrilmiş Sultan Əhməd Cəlairiyə yardım göstərməsi, tabe olmaq istəməməsi onunla Qara Yusif arasında düşmənçiliyə gətirib çıxartmışdı.I İbrahim Şəki hakimi Seyid Əhməd və Kaxetiya çarı II Konstantinlə birlikdə Qara Yusiflə mübarizə yolunu tutdu. Ancağ o,böyük çətinliklə qurduğu dövlətinin müstəqilliyini itirmək fikrində deyildi.1412-ci ildə Şirvanşah və onun müttəfiqlərinin birləşmiş qüvvələri ilə Qara Yusifin qoşunu arasında Kür çayı sahilində döyüş oldu. I-ci İbrahim məğlub olub əsir düşdü.O,Təbriz sənətkarları və tacirlərinin 1200 İraq tüməni məbləğində bac ödəməsi müqabilində 1413-cü ildə əsirlikdən azad oldu və Qara Yusifdən vassal asılılığına düşərək Şirvanı idarə etmək hüququnu aldı.

1420-ci ildə Qara Yusifin ölümü Teymurun oğlu Sultan Şahruxun Azərbaycanı işğal etməsinə şərait yaratdı. Aran Qarabağında qışlayan Sultan Şahruxun hüzuruna gəlmiş qonşu hakimlər arasında Qarabağ hakimi Yar Əhməd Qaramanla yanaşı qardaşı Şirzad da olmuşdu . 1421-ci ilin aprelində Sultan Şahruxun Qarabağı tərk etməsi ilə teymurilərə qarşı Gəncə və Bərdədə Yar Əhməd Qaramanlının üsyanı başladı. Teymuri tarixçisi Fəsih Xəvafi yazır ki, bu zaman Qaraköpəktəpədə (hazırda Füzuli şəhərinin şimal-şərqində yerləşir) olan Sultan Şahrux oğlu Baysunqur Bahaduru Yar Əhmədə qarşı göndərdi .

Qara Yusif Əmir Teymurun oğlu Şahruxa qarşı yürüşlərdə Güney Azərbaycanda Uçan şəhəri yaxınlığında vəfat etmişdir.

## UZUN HƏSƏN




***(1423 – 1478)***

Millәti:Azərbaycan türkü

*(Həsən bəy Bayandurun İtaliyalı rəssam tərəfindən çəkilmiş portreti)*

Ağqoyunlu dövlətinin I Sultanı

Uzun Həsən, Həsən bəy Bayandur Ağqoyunlu dövlətinin banisi, mənşəcə Oğuz türklərindən olan sərkərdə və dövlət xadimi.

Uca boylu nəhəng adam olduğuna görə "Uzun Həsən" ləqəbini almış Həsən bəy Bayandur 1423-cü ildə anadan olmuşdur.

Qara Yuluq Osman Bəyin nəvəsidir. Oğuz xanı,Uzun Həsənin 51-ci babasıdır.Uzun Həsən Trabzon imperatoru IV İohanın (1429-1458) qızı Dəspinə xatunla evlənmişdir. Bu izdivaçdan(evlilikdən) 7 oğlu olmuşdur: Uğurlu Məhəmməd, Maqsud bəy, Zeynal bəy, Sultan Xəlil, Mirzə Yaqub, Yusif Mirzə və Məsih Mirzə. Bu oğlanlardan üçü – Uğurlu Məhəmməd, Maqsud bəy və Zeynal bəy hələ Həsən bəyin sağlığında dünyadan köçmüşdülər. Uzun Həsənin başqa məzhəbə və dinlərə etiqad edən əhaliyə qayğısı bu nəhəng və çoxtayfalı ölkədə sabitləşdirici rol oynayır. O, bacısını Şah İsmayıl Xətainin babası Şeyx Cüneydə, qızı Aləmşahbəyimi isə Şeyx Cüneydin oğlu Şeyx Heydərə ərə vermişdi.

Uzun Həsən Osmanlı imperiyası, Venesiya Respublikası, Böyük Moskva Knyazlığı, Qızıl Orda, Polşa, Avstriya, Macarıstan, Çexiya, Almaniya, Papalıq, Burqundiya, Neopolitan Krallığı, Rodos, Kipr, Qaraman bəyliyi, Misir, Hindistan və başqa dövlətlərlə diplomatik münasibətlər saxlamışdır.

Uzun Həsənin sarayında səfir olmuş Venesiya diplomatı Ambrozio Kontarinin yol qeydlərində Azərbaycan və Uzun Həsənin özü barədə bir çox maraqlı məlumatlar var. Uzun Həsən haqqında o yazır: "Uzun Həsən çox yeyir, az qala fasiləsiz olaraq şərab içir və öz qonaqlarına qulluq etməyi sevir. Onun yanında həmişə rəqqasələr və müğənnilər olur. Onlar onun əmri ilə oxuyub-oynayırlar. Ümumiyyətlə, o, şən xasiyyətli, ucaboy, qırmızısifət bir kişidir və üzündə tatar cizgiləri var."

Uzun Həsənin uşaqlıq və gənclik illəri barədə heç nə məlum deyil. Bircə onu ehtimal etmək olar ki, o, yaxşı təhsil almış və yenicə yaranan Ağqoyunlu dövlətinin hərbi təlimlərində iştirak etmişdir.

Uzun Həsən Ağqoyunlu tayfalarını birləşdirib, Dəclə və Fərat çaylarının yuxarı axarı boyunca paytaxtı Diyarbəkirdə yerləşən kiçik bir ərazidə öz hakimiyyətini qurur və o vaxtdan da adı tarixə düşür.

Uzun Həsən öz müşavirləri vasitəsilə bir neçə Avropa ölkəsi ilə ona odlu silah yardımı göstərilməsi barədə danışıqlar aparır. Həmin yardım Qara dəniz və Aralıq dənizi vasitəsilə Uzun Həsənin müttəfiqi, Ağqoyunlu tayfaları ilə qədimdən əməkdaşlıq edən və Qaraman bəyliyinin qərb sərhədlərində yerləşən yunan Trapezund imperiyası üzərindən keçib gəlməli idi.

Osmanlılar bunun qarşısını almaq istəyir və 1453-cü ildə Fateh II Mehmet tərəfindən Konstantinopol işğal olunduqdan sonra Trapezund imperiyasını məhv etmək qərarına gəlirlər. Uzun Həsən buna mane olmaq istəsə də, Osmanlı qoşunlarının Ağqoyunlu ərazisinə müdaxiləsi onu məcbur edir ki, sülh xahişi ilə onlara müraciət etsin. Osmanlıların Yastıçəmən yaylağında yerləşən düşərgəsinə Uzun Həsənin anası Sara xatunun başçılığı ilə elçilər yollanır.

Şərqin bütün türk-müsəlman dünyasının ilk qadın diplomatı




olan Sara xatun Uzun Həsənin anası idi.Sara Xatun dövlət işlərində Uzun Həsənin ən yaxın məsləhətçisi idi.Onu nəinki qonşu ölkələrdə ,hətta Avropa ölkələrində də yaxşı tanıyır,hörmət edirdilər. Xarici ölkələrdən gələn elçilər,dövlət adamları ilk olaraq Sara xatunla danışıq aparırdılar.O,dövrünün ən güclü dövlətlərindən olan Osmanlı dövlətinin hökmdarı sultan Fateh II Mehmetlə danışıqlar aparmışdı.Bu danışıqlarda Sara Xatun məqsədi iki qardaş xalqın arasında müharibənin qarşısını almaq idi. Sara xatun mahir bir diplomat kimi bu dəfə də öz vəzifəsinin öhdəsindən gəlir – sülh bağlanır. Bu sülhün şərtlərinə görə, Uzun Həsən osmanlıların Trapezundu işğal etməsinə mane olmamalı, osmanlılar isə onun dövlətinin ərazisindən çıxmalı idilər.

Uzun Həsəni neytrallaşdırmaq üçün Fateh II Mehmet Trapezund üzərinə hücuma keçərkən Sara xatunu və onun başçılıq etdiyi heyəti də özü ilə götürür. 1461-ci il oktyabrın 26-da Trapezundun mühasirəsi qələbə ilə nəticələnir. Sara xatun sultanı inandıra bilir ki, Trapezund çarlığının xəzinəsindəki sərvətin bir hissəsi onun gəlini Dəspinə xatuna çatmalıdır və həmin iri məbləği də götürüb, özü ilə vətənə aparır.

Ağqoyunlu dövləti Qara dənizdən keçən ənənəvi ticarət yolunu itirmiş olur. Bundan sonra osmanlılar Uzun Həsənin digər bir müttəfiqini – Qaraman bəyliyini də tutub, onu faktiki olaraq Aralıq dənizinə çıxışdan da məhrum edirlər. Osmanlı ilə münasibətlərdə gərginlik artır. Osmanlılar Qaraqoyunlu Cahanşah Həqiqini və teymurilərdən olan Əbu Səidi Uzun Həsənlə mübarizəyə təhrik edirlər. 1467-ci ildə bütün bunların nəticəsində Cahanşah Təbrizdən öz qoşunu ilə Diyarbəkirə tərəf hərəkət edir.

Osmanlı sultanı Fateh II Mehmet oğlu şahzadə Bayazidi ona köməyə göndərəcəyini vəd edir. Düşmənin planlarından xəbər tutan Uzun Həsən gözlənilmədən Muş düzündə onların qarşısına (Muş döyüşü) çıxır. Cahanşah məğlubiyyətə uğrayıb, geri çəkilir. Uzun Həsən onu təqib edərək, gecə düşmənin Ərzincan yaxınlığındakı düşərgəsinə hücum çəkir. Cahanşah Həqiqi öldürülür. Bir müddətdən sonra Uzun Həsən Xoy şəhəri yaxınlığında Cahanşahın Qaraqoyunlu dövlətini bərpa etmək istəyən oğlu Həsənəlini də məğlub edir. Uzun Həsən Cahanşahın başını onun müttəfiqi Əbu Səidə, Həsənəlinin başını isə sultan Fateh II Mehmetə göndərir.

Cahanşahın süqutundan sonra teymuri Əbu Səid öz müttəfiqi Həsənəlini müdafiə etmək pərdəsi altında Azərbaycan üzərinə hücuma keçməyə hazırlaşmışdı. Hətta Sara xatunun sülh şərtləri ilə onun hüzuruna göndərilməsi də Əbu Səidi bu addımı atmaqdan çəkindirmədi. Keçmiş müttəfiqi şirvanşahın köməyinə bel bağlayan Əbu Səid Şirvana doğru hərəkət edir. Lakin Şirvanşah Fərrux Yasar Ərdəbil hakimi Şeyx Heydərlə birlikdə Uzun Həsənin tərəfinə keçir və Əbu Səidin qoşunları tamamilə mühasirəyə alınır. Orduda aclıq başlanır. Uzun Həsən Əbu Səidin danışıq təklifini qəbul etmir və gözlənilmədən düşmən qoşununa hücum çəkib, onu pərən-pərən salır. Bu döyüş tarixə Mahmudabad döyüşü kimi daxil olmuşdur. Əbu Səid qaçmağa cəhd göstərsə də, onu tutub edam edirlər. Həsənəli isə Uzun Həsənin oğlu Uğurlu Məhəmmədin əlində ölür.  Qaraqoyunlular dövləti süqut edir, Teymurilər dövləti isə həddən artıq zəifləyir.

Uzun Həsən özəyi Azərbaycan olmaqla İraqın,indiki İranın,Ermənistanın ərazisində, Kürdüstanın, Diyarbəkirin, Şərqi Gürcüstanın və digər kiçik dövlətlərin də daxil olduğu möhtəşəm bir dövlət qurur. Həmin dövlətin paytaxtı isə Azərbaycanın paytaxtı Təbriz olur.

Ağqoyunlu dövlətinin tarixində yeni bir dönəm başlayır. Artıq onun bir, lakin çox güclü rəqibi qalmışdır. Bu, da Osmanlı dövlətidir. Onunla mübarizə aparmaqdan ötrü isə köhnə üsullar keçmir. Bunun üçün ölkəni iqtisadi cəhətdən möhkəmləndirmək, ordunu yenidən təşkil etmək və güclü müttəfiqlər tapmaq lazım idi.

Uzun Həsən özünəməxsus çeviklik və enerji ilə bu məsələlərin həllinə başlayır. Qeyd etmək lazımdır ki, o, bundan əvvəl də bu istiqamətdə müəyyən işlər görmüşdü. İlk növbədə ölkə iqtisadiyyatının inkişafına təkan vermək üçün Uzun Həsən bir sıra islahatlar aparır ki, bunlar da öz əksini onun "Qanunnamə"sində tapmışdır. Sonralar bu toplu "Padşah Həsənin qanunları" adı ilə məşhurlaşır. Həmin qanunların həyata keçirilməsi nəticəsində vergilərin yığılması qanuniləşir və sistem şəklini alır, sənətkarlıq və ticarət inkişaf edir. Uzun Həsənin xəzinəsi dolur və Azərbaycanda möhtəşəm bir mərkəzləşdirilmiş dövlət yaranır.

Ordusunun təkmilləşdirilməsi haqqında çox düşünən Uzun Həsən bu məqsədlə Avropadan mütəxəssislər çağırır və nizami ordu yaratmaq istəyir. Venesiya və başqa ölkələrdən gəlmiş mütəxəssislər odlu silah istehsal etmək üçün ona köməklik göstərirlər. Ölkədə top istehsalına başlanılır, topçu kadrlar hazırlanmasının əsası qoyulur. Lakin lazımi qədər top istehsal etmək Uzun Həsənə müyəssər olmur, topların qərbdən gətirilməsi işi isə müxtəlif səbəblər üzündən tez-tez pozulur.

Uzun Həsən böyük tikinti işləri də aparır. O, Təbrizdə örtülü Qeysəriyyə bazarını, Nəsriyyə universiteti ilə birlikdə möhtəşəm məscid və digər ictimai binalar tikdirir. Uzun Həsənin sarayında alimlər məclisi fəaliyyət göstərir və zəngin kitabxana yaradılır. Kitabxanada çoxlu alim çalışır, onun nəzdindəki emalatxanalarda isə o dövrün ən görkəmli xəttat və rəssam-miniatürçüləri fəaliyyət göstərirdi. Sonralar, Səfəvi şahlarından İsmayıl və Təhmasibin zamanında həmin kitabxana genişlənərək daha da

zənginləşdirilir. Sarayda saz çalanlar ansamblı yaradılmışdı ki, buraya da 98 aşıq daxil idi.

Uzun Həsənin parlaq qələbələrindən sonra Ağqoyunlu dövlətinin nüfuzu artır. Uzun Həsən və onun mahir sərkərdələri olan Məhəmməd Bağır Mirzə, Mirzə Yusif xan, Uğurlu Məhəmməd, Zeynal bəy və başqalarının adları Azərbaycanın sərhədlərindən də çox-çox uzaqlarda məşhurlaşır. Uzun Həsənin özünü Əmir Teymur və Makedoniyalı İskəndərlə müqayisə edirlər. Uzun Həsənin müasiri Fəzlullah ibn-Ruzbihan Xunci yazırdı: "Xaqan Həsən Bahadır xan Qaraqoyunluların cahan şahlığına son qoydu.Onlar dünyanın hakimiyyət düzündə alaq otları idi. Beləliklə, cəmisi bir neçə il ərzində o, öz hakimiyyətinin sərhədlərini Fəratdan Amu-Dəryaya və Rumdan Ümman adalarına qədər genişləndirdi. Onun atlarının ayaqları altında gürcülərin torpaqları dəfələrlə tapdandı. O, öz bayrağını Ruma və Suriyaya qədər apardı. O, sərhədyanı torpaqlarını və yolları qoruyub müdafiə etdi və bununla da İslamın rəmzlərinə yeni can verdi. O, çox böyük səxavət göstərib, 400-dən artıq dini xeyriyyə idarəsi yaratdı”.

Avropa Uzun Həsənə böyük ümidlər bəsləyirdi.Əmir Teymurun rolunu oynaması üçün əllərindən gələni edirdilər və etməyə hazır idilər.İndi yalnız o, Osmanlı imperiyasının diqqətini yayındıra və onu Avropaya doğru irəliləməkdən saxlaya bilərdi.

Ağqoyunlu dövlətinin Venesiya Respublikası ilə diplomatik münasibətlərinə dair materiallar daha yaxşı qorunmuşdur. Bu ölkə Uzun Həsənin sarayında daim səfirlər saxlamış, müxtəlif vaxtlarda Katerina Zeno, Barbaro və Ambrozio Kontarini burada elçi olmuşlar. Venesiya Senatı öz iclaslarında tez-tez Uzun Həsənin Osmanlı imperiyasına qarşı mübarizəyə cəlb olunması məsələlərini müzakirə edirdi. Onlar öz məktublarında yazırdılar ki ,Uzun Həsən Qara və Aralıq dənizlərinə çıxış qazanmaq

uğrunda mübarizəyə hazırdır, lakin onun şərtləri də var. O, tələb edir ki, odlu silahla tə'min edilsin və hər iki ölkə hərbi əməliyyatlara eyni vaxtda başlasın. Venesiya tərəfi ilə əldə olunmuş razılıq əsasında odlu silah yardımı Qaraman bəyliyi ərazisindən həyata keçirilməlidir. Lakin sultan Fateh II Mehmet hadisələri qabaqlayaraq, Qaraman bəyliyinin qalan yerlərini da işğal edir və Uzun Həsənin Qərbi Avropa ilə əlaqələrini tamamilə kəsir. Uzun Həsən də bunun cavabında 1472-ci ilin baharında öz qoşunlarını Qaramana yeridir. Bir neçə parlaq qələbə qazandıqdan sonra məşhur Ağqoyunlu süvariləri Qaramanı osmanlılardan təmizləyərək, Aralıq dənizinə çıxış əldə edir. Lakin Uzun Həsənin cəhdləri boşa çıxır. Müttəfiqlər nəinki ikinci cəbhəni açmır, hətta razılaşdıqları kimi, onu odlu silahla təmin etmədilər.

Sərkərdə Mirzə Yusif xanın başçılıq etdiyi arxa cəbhədən aralanmış Ağqoyunlu qoşunları sultan Fateh II Mehmetin buraya atdığı yeni və artilleriya ilə təchiz olunmuş güclü Osmanlı ordusu ilə üz-üzə qalır. Bəyşəhər yaxınlığındakı döyüşdə Ağqoyunlu ordusu məğlubiyyətə uğrayır və Qaraman yenidən osmanlıların əlinə keçir. 1473-cü ilin ortalarında Venesiya ilə odlu silah təminatı barədə yeni razılığa gələn Uzun Həsən qoşunlarını təzədən Aralıq dənizi sahillərinə yeridir. Bu dəfə II Mehmet Ağqoyunluları yolda qarşılayır. Uzun Həsən süvariləri üçün daha münasib bir yerə gətirmək məqsədilə ölkənin içərilərinə doğru irəliləyir. Osmanlılar ehtiyatla onu təqib edirlər. Uzun Həsən Fərat çayının sol sahilinə çıxır, osmanlılar isə cənuba dönərək, sağ sahillə hərəkət edirlər. Uzun müddət heç biri çayı keçməyə cürət etmir. Nəhayət, avqustun 1-də Malatya yaxınlığında çoxdan gözlənilən döyüş başlayır. Bu gərgin döyüş üç saata qədər davam edir və Uzun Həsənin tam qələbəsi ilə başa çatır. Təxminən 50 min osmanlı əskəri halak olur, 150 zabit və 35 nəfər yüksək səviyyəli sərkərdə isə əsir düşür. Fateh II Mehmet sülh müqaviləsi bağla-

mağı təklif etsə də, Uzun Həsən hərbi əməliyyatları davam etdirmək qərarına gəlir. Osmanlıların qüvvələri tükənməmiş Fərat çayının sağ sahilləri ilə geri çəkilirlər.

Otluqbeli döyüşündən on gün sonra Uzun Həsənin öz qüvvələrinə arxayın olan sərkərdələri onu inandırıb, çayı keçmək və osmanlıları biryolluq əzmək fikrinə gətirirlər. Əvvəl-əvvəl osmanlıları mühasirəyə alaraq, artilleriyadan istifadə etməyə imkan verməmək onlara müyəssər olur. Türklər mühasirəyə alınıblar və məğlubiyyət ərəfəsindədirlər. Son anda isə onlar hiyləgər bir manevr edərək, mühasirədən çıxır və artilleriyalarını işə salaraq, təqribən 8 saat davam edən döyüşü udurlar. Bu döyüş tarixə Otluqbeli vuruşu kimi daxil olub. Həmin qələbə osmanlılara elə ağır başa gəlir ki, sultan hərbi əməliyyatları davam etdirmədi.

Uzun Həsən yenə də ona vəd olunmuş silahları alıb, ordusunu lazımınca silahlandıra bilmir. Bu problemi heç onun oğlanları və nəvəsi Şah İsmayıl da həll edə bilmir. Şah İsmayılın Çaldıran döyüşündə məğlub olmasının əsas səbəbi də türklərin artilleriyaya sahib olmaları idi.

Uzun Həsən belə kasıbyana texniki təchizatla yaxşı silahlanmış və artilleriyaya sahib olan türklərə qalib gələ bilməyəcəyini anladığı üçün döyüşü həmişə elə qurmağa çalışır ki, həlledici rolu onun cəngavər süvariləri oynasın. Yetərincə odlu silahı olmayan, yeniləşməsi başa çatmayan bir ordunun qazandığı qələbələr Uzun Həsənin sərkərdəlik məharəti və hərbi ehtiyatlardan, üsullardan, manevrlərdən lazımınca istifadə etmək bacarığı sayəsində əldə edilirdi.

Çox təəsüflər olsun ki, məğlub olduqdan sonra da Uzun Həsən türklər əleyhinə yaradılmış koalisiyanın yenidən möhkəmləndirilməsi uğrunda fəal siyasi mübarizəyə qoşulur. Onun sarayında yenə də Avropa ölkələrindən gəlmiş elçiləri tez-tez görmək olardı. Onun müttəfiqləri yenidən türklərə qarşı yeni hərbi

əməliyyatlara başlamağa çağırırdılar.

1477-ci ildə Uzun Həsən özünün son yürüşünü Gürcüstan üzərinə edir. Oradan zəngin qənimət və 5 min nəfərlik əsirlə qayıdır. Əsirləri də öz yaxınlarına paylayır. Elə bu zaman Uzun Həsənin oğlu, istedadlı sərkərdə və qalibiyyətli yürüşlərin iştirakçısı olan Uğurlu Məhəmməd atasına (Uzun Həsənə) qarşı qiyam qaldırır. Qardaşı Uzun Həsənin oğlu Sultan Xəlil tərəfindən təqib olunduqdan sonra isə Uğurlu Məhəmməd Türkiyəyə qaçır. Sultan Fateh II Mehmet onu ədəb-ərkanla qəbul edir və öz qızı Kövhərxan sultanı da ona ərə verir. Uğurlu Məhəmməd atasına qarşı mübarizəsini davam etdirir, lakin onu tezliklə tutub e'dam edirlər.

1478-ci ilin 5 yanvarında Uzun Həsənin özü də həyatla vidalaşır. Onu özünün tikdirdiyi Təbrizdə olan Nəsriyyə məscid kompleksində dəfn edirlər. Bundan sonra həmin məscid "Həsən padşahın məscidi" adlanır.

Təəssüf ki, Uzun Həsənin varisləri onun yaratdığı nəhəng imperiyanın qüdrətini qoruyub saxlaya bilmirlər. Daxili çəkişmələr ölkəni zəiflədir və 1499-cu ildə dövlət iki yerə parçalanır. 1503-cü ildə Ağqoyunlu dövlətinin mövcudluğuna Şah İsmayıl tərəfindən son qoyularaq “Səfəvilər” dövləti yaradılır.

Ağqoyunlular dövləti öz yerini Şah İsmayılın yaratdığı Səfəvilər dövlətinə verir ki, bu da Azərbaycan-türk dövlətləri olan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin birbaşa varisi olur.

## SULTAN SƏLİM



***1470-1520***

Milliyyəti Türk

I Səlim və ya Yavuz Sultan Səlim 9-cu Osmanlı sultanı və 74-cü islam xəlifəsidir.

Atası II Bəyazid, anası Gülbahar Xatundur. Taxt-taca çıxdıqda 2 375 000 km² olan Osmanlı torpaqlarını səkkiz il ərzində 2,5 dəfə böyütmüş və ölümündə dövlət torpaqlarının 1 702 000 km² Avropada, 1 905 000 km² Asiyada, 2905 000 km² Afrikada olmaq üzrə cəmi 6557 000 km²a çıxarmışdır. [3] Sultanlığı dövründə Anadoluda birlik təmin edilmişdir. İslam xəlifəliyi Abbasilərin əlindən Osmanlı sülaləsinə keçmişdir. Bundan başqa dövrün ən əhəmiyyətli iki ticarət yolu olan Böyük ipək yolunu və Ədviyyat yolunu ələ keçirən Osmanlılar bunun sayəsində şərq ticarət yollarını tamamilə nəzarət altına almışdırlar.

Səlim taxt-taca atası II Bəyazidi devirərək sahib olmuşdur. I Səlim taxta çıxmazdan əvvəl Trabzonun qubernatoru olmuşdur. Yavuz Sultan Səlimə qızını verən Krım xanı I Mənqli Gəray, ona hərbi dəstək verib taxta keçməsinə kömək etmişdir. 1512-ci ildə taxta çıxan I Səlim 1520-ci ilin sentyabrında "Aslan pəncəsi" deyilən bir çiban üzündən 50 yaşındaykən vəfat etmişdir.

Sultan Səlim Nurəli Xəlifənin Anadoludakı əməliyyatlarını Şah İsmayılın Osmanlıya savaş açması kimi dəyərləndirirdi. Yazının dili (anadolu türkcəsi) saxlanılıb.Toqatın viran edilməsi Şah İsmayılın Sultan Səlimi rəsmən savaşa çağırması idi.

Qızılbaşların Anadoludakı baş qaldırmaları Osmanlı dövlətini tədbirlər almağa məcbur edirdi . Onlar Osmanlı vətəndaşları ol-

malarına baxmayaraq, başqa bir ölkə sultanının əmrləri üzərinə davranırdılar. Osmanlı dövlətinin tarixdə qalması qızılbaşları yenməklə mümkün olacaqdı, yoxsa Osmanlını zəiflədən bu döyüşlər arxasınca Şah İsmayılla Avropa güclərinin Osmanlıya qarşı ortaq cəbhə yaratmasına gətirib çıxara bilərdi.

Şah İsmayılın Osmanlının iç işlərinə qarışması durmaq bilmirdi. Sultan Səlim bunu durdurmaq üçün savaşdan başqa bir çarə görmürdü. O, Anadoluda qızılbaş təmizləmə işini İsmayıla bildirmək üçün tutuqlu olan Şah İsmayılın xəlifələrindən birini sərbəst buraxıb bir məktubla Şah İsmayılın yanına göndərdi və "Get gördüklərini İsmayıla anlat!" dedi. Səlim İsmayılın bu mesajını aldıqdan sonra onunla savaşa girəcəyini düşünmüşdü. 1514-cü il qışın sonlarına doğru Ədirnədə ordu komutanları ilə bir toplantı düzənlədi. Bu toplantıda uzunca qonuşub Şah İsmayılın təhdid olduğunu anlataraq Təbrizdə və digər şəhərlərdə müsəlmanları qətl etdiyini bildirdi. Ordu komutanlarının razılıqlarını savaşmaq üçün aldı və şeyx-ül islamlardan da cihad fətvası çıxarmalarını istədi.

Şah İsmayılın başqa tutuqlu xəlifələrindən biri olan Qılıç Xəlifəyə bir məktub verib İsmayıla göndərdi. Bu məktubda açıqca savaş elan edirdi. Yazırdı ki, İslam Dünyasının böyük fəqihləri sənin və müridlərinin mürtədliyi haqda fətva vermişlər və qətliniz vacibdir. Təbrizə doğru hərəkətdə və fitnə atəşini söndürməkdə qərarlı olduğunu yazırdı. İsmayıl İsfahanda ovçuluqla məşğulkən Səlimin məktubunu aldı. O, Səlimin savaş elan etməsinə inanmadı. Məktubu gətirən Qılıç Xəlifənin də sünnilərə əsir düşdüyündən və ona savaş elan edən məktub gətirdiyindən dolayı başını kəsdi.

Sultan Səlim 100 minlik ordu və 300 savaş topuyla Təbrizə tərəf yürüşünə davam etdi. Sultan Səlimə qadın paltarı göndərən Nurəli Xəlifə və Xanməhəmməd Ustaclu savaşa girişmədən böl-

gəni tərk edib Azərbaycana qaçdılar. İsmayılın yanına varıb Ərzincanın düşdüyünü söylədilər. Şah İsmayıldan yenə də xəbər çıxmadığı üçün Səlim bu kəz daha sərt bir məktub yazıb onu savaşa dəvət etdi: Ölkə, sultanlar üçün onların namusu kimi bir şeydir. Hər sultan namusunu qorumaqla görəvlidir. Mənim əsgərlərim sənin ölkəndə irəliləməkdə ikən səndən bir xəbər yoxdur. Sənin kimi namussuz birinin mərdlikdən danışma haqqı yoxdur. Sənin kimi biri şahlıq tacını atıb başına ləçək örtməlidir.

İsmayıl həmən Azərbaycana tərəf hərəkət əmri verdi. 12 minlik ordusuyla yola düşdü. Digər orduların da ona qatılması üçün Xoyda bəklədi. Uğur qazanacağına o qədər inanırdı ki, qadınlarını və cəvahiratını da yanında gətirmişdi. Xanməhəmməd Uctacluya, Diyarbəkirə və Azərbaycanda bulunan ordularının da savaş meydanına tərəf hərəkət etmələri əmrini göndərdi.

23 avqust 1524-cü ildə Çaldıran savaşı başladı. Öncə qızılbaşlar hücum etdilər. Osmanlı ordusunun tam ortasına böyük cəsarətlə hücuma keçdilər. Səlimin orudusundan çoxunu öldürüb ordunun düzənini qarışdırdılar. Osmanlı ordusunun tüfənçiləri onları geri oturdub çoxunu öldürdü. Qızılbaş əmirlər bunun üzərinə Şah İsmayılın savaş meydanına girib qızılbaşlara moral ruh yüksəliyi verməsini istədilər. Savaş gedərkən Şah İsmayıl arxada bildirçin ovlamaqda idi. Savaş qızışdıqdan sonra Şah İsmayıl meydana girdi və Osmanlının ən güclü savaşçılarından biri olan Malqoçoğlu ilə qarşılaşdı. Xeyli vuruşmalardan sonra Şah İsmayıl Malqoçoğlunu öldürdü. Savaşın ilk başlanğıcında qızılbaşlar üstünlüyü ələ keçirmişdilər. Osmanlı ordusunun ortasına şığıyıb onlardan öldürərək yenidən geri dönürdülər. Şah İsmayılın bu savaşda göstərdiyi qəhrəmanlıqları bir çox kitablarda yazmışlar. O cümlədən o bir neçə dəfə toplara saldırıb və topların zincirlərini qılıncının sərt vuruşu ilə qırmışdı. Ordular bir-birinə çox yaxınlaşmışdılar. Artıq top atışları ilə qızılbaşları vurmaq

mümkün idi. Top atışları bir neçə dəqiqə içində qızılbaşların düzənini dağıtdı, yüzlərcəsini öldürdü. Çaldıran savaşı bir neçə saat davam etmişdi. Səhər vaxtından günbatana qalmış savaş sürmüşdü. Şah İsmayıl və qızılbaşlar inanılmaz qəhrəmanlıq göstərsələr də, Sultan Səlimin odlu silahlarla donatılmış ordusunu yenə bilmədilər. Qızılbaş əmirlər qanlarına qəltan oldular. Ölümünü kəsin olaraq hiss edən İsmayıl bir çuxurda gizlənərək özünü ölmüşlüyə vurdu ki, kimsə onu görməsin. Diri qalan qızılbaşlar fərar edib dağlara qaçdılar. Şah İsmayılın ordusu talandı və qadınlardan biri də əsir düşdü.

Şah İsmayıl gecəyarısına qədər özünü çuxurda ölmüşlüyə vurmuşdu. Sultan Səlim də yaxalanan saxta Şah İsmayılın soruşdurulmasına əmr verdi. Ortalıq sakitləşdikdən sonra Şah İsmayıl çuxurdan çıxıb bir neçə qızılbaşla bir yerdə atlarını Həmədana tərəf çapdılar. Sultan Səlimdən öyləsinə qorxmuşdu ki, heç bir yerdə dayanmadan sürüb getdilər. Təbrizə dönməyə belə cürət edə bilmədi. Səlimin gəlib Təbrizdə onu yaxalayacağından qorxmuşdu. Paytaxtını də sahibsiz buraxıb Səlimin tapa bilməyəcəyi bir yerdə gizləndi. Ayrıca, Təbriz əhalisi ondan intiqam almaq üçün fürsət axtarırdı. Təbrizə dönsəydi, yenilmiş İsmayılı xalq param-parça edərdi. Azərbaycanın yerli əhalisi içində İsmayılın sevənləri yox idi, tək yavərləri Anadoludan gələn qızılbaşlar idi.

Şah İsmayılın öldürülmə xəbərini duyan Təbriz əhalisi sevinc çığlıqları atmağa başlayaraq bayram etdilər. Təbriz gəncləri direniş dəstləri təşkil edərək gecələr Təbərrayan dəstələrinin evinə saldırıb onları qətl etdilər.

Səlim başbaxan Hərsəkzadə komutanlığında bir taburu Təbrizə göndərdi.Qızılbaşların bir qismi Təbrizlilər tərəfindən öldürülmüş, digər qismi də Təbriz saxlusunda (qarnizonda) savunma durumunda idi. Təbriz əhalisi tərəfindən quşaltılmışdılar. Təbriz əhalisi sevinclə Hərsəkzadənin istiqbalına

qoşdu. Saxluda barınan qızılbaşlar Şah İsmayılın ölüm xəbərindən ümidsizliyə düşüb Hərsəkzadəyə təslim oldular. Bütün bu qızılbaşlar Anadoludan gələn Osmanlı uyruqluları idi. Hərsəkzadə onları iki bölüm şəklində Sultan Səlimə göndərdi.

Çaldıran savaşından iki həftə sonra Səlim Təbrizə uğradı. Təbriz əhalisi yollara xalça döşəyərək Sultan Səlimi qarşıladı. O, Bayındırlıdan miras qalan cənnət saraya daxil oldu. Sabahısı cümə günü idi. Cümə namazını qılmaq üçün Cami məscidinə getdi. Şah İsmayıl Təbrizi işğal etdikdən sonra bu məscid sünni mirası olduğundan tövləyə dönüşdürülmüşdü. Hərsəkzadə iki həftə içində oranı yenidən namaz qılınır hala gətirmişdi. Bu məscidin bir qismi indi də Təbrizdə qalır və Göyməscid olaraq bilinir. Səlim Təbrizdə uçurulmuş digər camilərin də onarılmasına əmr verdi.

Türk millətinin yazqısı açısından Sultan Səlimin qələbəsi və Şah Ismayılın yenilməsi türk millətinin tarixdə qalmasını təmin etmişdir.

Şah İsmayıl Çaldıran savaşından sonra şəxsiyyət dəyişikliyinə uğramışdı. Çaldıran öncəsi şəxsiyyəti ilə ziddiyyətdə olan bir şəxsiyyətə dönüşmüşdü. Özünün yenilməzliyinə olan inancının tam olaraq sarsılması şəxsiyyətini tamam dəyişdirmişdi. Çaldıran savaşında Sultan Səlim ona göstərdi ki, o, nə Allahdır, nə peyğəmbər, nə imam, nə də vəliullah. Canının qorxusundan bir çuxurda gizlənib özünü ölmüşlüyə vuraraq ordusunu başsız buraxan, can qorxusunda olan və başkəndini buraxıb ortalıqlarda görünməz olan zavallının biridir. Sultan Səlimin zərbəsi onu öyləsinə sarsıtmışdı ki, təkrar onun geri dönməsindən qorxurdu.

Sultan Səlim Şah İsmayılı cəzalandırdıqdan sonra Şam və Misirə yönəldi. Başkəndi Qahirə olan Misiri Məmluklər yönətməkdə idi. Məmluklər dövləti indiki Sudan, Misir, Fələstin, İsrail, Suriyə, Ürdün və Livanı içərirdi. Çaldıran Savaşından qısa sürə

sonraya qədər Osmanlı-Məmluklər ilişkiləri yaxşı idi. Səlim və Məmluk Sultanı bir-birinə hörmətli məktublar yazır, bir-birilərini İslamın qoruyucuları olaraq adlandırırdı.

Bu zaman ortalıqda nifaq çıxaran işlər dolaşırdı. İki sultan arasında savaç çıxarmaq istəyənlər var idi. Səlim Güney Avropaya saldırı hazırlıqlarında idi. İstanbulda Məmluk Sultanının Şah Ismayılla birləşib Osmanlıya saldırmaq istədiyi xəbəri dolaşırdı. Qahirədə də xəbər yayıldı ki, Hələb əmiri "Xeyir bəy" Surəyəni Misirdən ayırmaq üçün Səlimlə anlaşmışdır. Məmluk sultanı Xeyir bəyi Hələb əmirliyindən almaq istədi. Xeyir bəy Sultan Səlimdən Məmluk sultanını bu işindən vaz keçirməsini rica etdi. Bu olay Məmlukla-Osmanlı ilişkilərini gərməyə başladı. Sultan Səlim başbaxan Sinan paşa komutanlığında 40 minlik bir ordu Doğu Anadoluya yolladı və yenidən Şah İsmayıla saldırmaq istədiyini duyurdu. Qahirədə Məmluk sultanına bu ordunun xeyir bəyə yardıma getdiyini anlatdılar. Bu zaman Anadoluda bir neçə Məmluk casusu yaxalandı. Onlar Məmluk sultanı ilə Şah İsmayılın Osmanlıya qarşı birlik cəbhəsi oluşdurduqlarını söylədilər.

Səlim savaş elan edən məktublarını genəldə türkçə yazardı. Məmluk sultanına sərt bir məktub yazaraq onun casuslarının Anadoludakı təxribatlarını anlatdı və Məmlukla savaşacağını bildirdi. 24 avqust 1516-cı ildə savaş başladı və Məmluk sulatı Qansuz Qavri yenilərək fərar edərkən yolda ölmüşdü. Məmluk sultanının qardaşı oğlunun Qahirəni savunması da uğursuz oldu. Bu savaşda Sinan paşa öldürülsə də, Sultan Səlim 4 fevral 1517-ci ildə Qahirəyə girdi. Səlim səkkiz ay Qahirədə qaldı. Daha sonra Misirin hakimliyini Xeyir bəyə buraxıb Qahirənin xəzinələrini və kitablarını götürüb İstanbula yola düşdü. Bu dönüşdə yüzlərcə sənətçi və bilim adamlarını da özüylə İstanbula gətirdi. Abbasilərin son xəlifəsi olaraq Misirdə bulunan Əlmütəvəkkili

də İstanbula apardı. "Xilafət xələti", "Peyğəmbərin saqqalı", "Xəttaboğlu Ömərin" qılıcı da gətirdiklərinin içində idi. Əlmütəvəkkil xilafəti Səlimə devr etdi. O gündən sonra Səlim "xəlifə" oldu. Ondan sonra gələn Osmanlı sultanları da xəlifə adlandılar. Sultan Səlim Batıya saldırı fikrindən vaz keçib Şah İsmayılı ortadan qaldıraraq İslam ölkələrini bir tək xilafət çatısı altında birləşdirmək istəyirdi. Ədirnədə bir toplantı düzənləmək üçün yola düşdü. Ancaq yolda xəstələnib 22 sentyabr 1520-ci ildə vəfat etdi. Çaldıran savaşından sonra Şah İsmayıl da artıq ölü kimi bir həyat yaşamış, əski həyəcanları və cahangüşalıq duyquları sönmüşdü. Ölkənin yönətimini Mirzəşah Hüseyn İsfahaniyə tapşırmış, özü də ruhdan düşmüş halını şərab içərək unutmağa çalışırdı. Şah Təhmasib sarayının tarixçəsi Budaq Qəzvini yazır:

Çaldıran savaşından sonra din xosrovu ölkənin önəmli sorunlarından xəbərsiz qalmış, ölkə işlərini vəkillərə və vəzirlərə buraxmışdır. Əhməd Qumi yazır: Mirzəşah Hüseyn İsfahani Şah İsmayılı daha çox içki içməyə və sərxoşluqla gün keçirməyə təşviq edirdi. Öylə ki, ömrünün son on ilini bu şəkildə keçirdi. Çaldıran savaşına qədər sünni adı eşitdiyində ölümünü zəruri sayan Şah İsmayıl indi xanidan düşməni olan Şirvanşaha qızını göndərmək istəmişdi. Nədən əcaba? Çünki Səlimin bir daha saldırması qarşısında Şirvanda sığınacaq bir yer aramağı düşünmüş olmalı idi. Sultan Səlim Misiri fəth etdikdən sonra zəfərlərini içərən geniş bir məktub Şirvanşaha yazmışdı.Məktubunda geri dönər-dönməz Şah İsmayılın işini bitirəcəyini də anlatmışdı. Bu gəlişmələri izləyən Şah İsmayıl təvazökaranə bir məktub yazıb Sultan Səlimin hüzuruna göndərdi. Məktubunda Sultan Səlimi övmüş və "Sizin istəyiniz nə olsa, mən onu yerinə yetirməyə hazıram" söyləmişdi. Şah İsmayılın özünü Sultan Səlim qarşısında bu qədər aşağılamasına baxmayaraq Sultan Səlim

onun məktublarına cavab vermir, onu saymırdı. Səlimlə barışmaq üçün hər yolu denəməyə çalışan İsmayıl, hətta onun anasına da bir məktub yazdığı bilinməkdədir. Səlimin ölümündən və oğlu Süleymanın taxta çıxmasından sonra da Osmanlı qorxusu Şah İsmayılı tərk etməmişdi.

Təhmasib Şirvanşah dövlətini tarixdən sildikdən sonra qardaşı Əlqası oranın hakimi təyin etdi.

Nəticə:

İki qüdrətli türk dövlətlərinin qeyri-sağlam rəqabəti,bir-biri ilə yola getməməsi bütün Türk dünyasına, İslam aləminə çox baha başa gəldi.Yüz minlərlə Türkün ölümü, maddi ehtiyatlarının məhv edilməsi,ailələrin atasız,qadınların dul qalmasına və çox böyük mənəvi itkilərə başa gəldi.Həlak olmuş Türklərin içində tarixi dəyişəcək böyük şəxsiyyətlər,sərkərdələr,alimlər,iqtisadçılar ola bilərdi.

Tarixin gedişatına baxanda hakimiyyətdə olanların çoxunda olan mənəmlik, başqalarını qəbul etməmək sonda onun özünə və xalqına çox başa gəlibdir. Hökmdarların hakimiyyət vaxtı uzandıqca onlarda özünün əvəz edilməz olduğu barədə rəy yaradırdı. Onlar özlərini "fövqəlinsan" hesab edərək təkbaşına səhv qərarlar verirdilər. Onları səhv yoldan vaxtında döndərmək olmurdu.

## ŞAH İSMAYIL XƏTAİ



***1487-1524***

Azərbaycanın və Səfəvilər Dövlətinin 1-ci şahı

Milləti-Azərbaycan türkü

Şah İsmayıl Xətai I İsmayıl Səfəvi, Şah İsmayıl Şeyx Heydər oğlu Şeyx Cüneyd Səfəvi – Səfəvi təriqətinin rəhbəri, Səfəvilər dövlətinin banisi , Şah İsmayıl 1487-ci il 23 iyulda Ərdəbil şəhərində anadan olmuşdur.

Şeyx Səfiəddin nəslindəndir, atası Şeyx Heydər, anası Ağqoyunlu hökmdarı Uzun Həsənin qızı Aləmşah Həlimə bəyimdir.

1488-ci il 9 iyulda atası Şeyx Heydər Tabasaranda Şahdağın ətəyində Şirvanşahın birləşmiş qüvvələri ilə qızılbaşlar arasında baş verən döyüşdə öldürüldükdən sonra, Sultan Yaqub tərəfindən İsmayıl anası və qardaşları — Sultanəli və İbrahim ilə birlikdə Şiraz yaxınlığındakı İstəxr qalasında həbsdə 5 il saxlanılır. Onda İsmayılın hələ iki yaşı tamam olmamışdı. Bir müddətdən sonra Uzun Həsənin nəvəsi Rüstəm Mirzə onları həbsdən azad etdirib müstəqil hakim kimi Sultanəlini Ərdəbilə qaytardı. Baysunqur Mirzəyə qarşı yürüşdə Sultanəli də Rüstəm padşahla birlikdə çıxış etdi. Əhər yaxınlığındakı bu döyüş Rüstəm Mirzə ilə Səfəvilərin birləşmiş qüvvələrinin qələbəsi ilə nəticələnir. Baysunqur öldürüldü. Sultanəli qələbə ilə Təbrizə qayıtdı. Ərdəbildə Səfəvi tərəfdarlarının güclənməsi Rüstəmi qorxuya saldı. Onlara qəsd təşkil edildi. Qəsdin üstü açıldı. Sultanəli qardaşları və yaxın adamları ilə birlikdə Təbrizi tərk edərək Ərdəbilə doğru irəlilədi. Rüstəm onların arxasınca 5 min süvari göndərdi. Döyüş başlanana qədər Sultanəli sufi ( Dindən,dini göstərişlərdən kənara

çıxmayan adam ) əmirlərinin yığıncağında İsmayılı Səfəviyyə ordeninin başçısı kimi xələfi təyin etdi. Qardaşlarını Ərdəbilə yola saldı, özü isə düşmən tərəfə döndü. Şəməsi adlanan yerdə (Şəməsi döyüşü) döyüşdə (1494) qızılbaşlar məğlub oldular. Sultanəli həlak oldu.

1494-1495-ci illərdə Rüstəm yenidən Ərdəbili və Səfəvilərin digər mülklərini zəbt etdi. Ağqoyunlu sərkərdəsi Əbih Sultan Ərdəbilə daxil olan kimi, Səfəvilərin xeyli hissəsini qılıncdan keçirdi. Lakin qızılbaş tərəfdarları şahzadələri, xüsusən İsmayılı xilas edə bildilər. Səfəvi müridləri İsmayılı Lahicana-Gilanın Biyəpiş vilayətinin hakimi, Kərkiyə sülaləsindən olan Mirzə Əlinin sarayına apardılar.

Rüstəm Mirzə dəfələrlə Kərkiyə Mirzə Əliyə hədələyici məktub göndərib İsmayılı tələb etdi. O isə İsmayılı zənbildə sıx yarpaqlı ağacdan asdı və Qurana and içib onun Gilan torpağında olmamasını 300 süvari ilə gəlmiş Qasım bəyə bildirdi.

Gilana gələndə İsmayıl yeddi yaşında olur. Burada o, Həsən xanın himayəsi altında Lələ Hüseyn tərəfindən tərbiyə olunur. İsmayıl təqribən 6 il burada qalır, tanınmış əmir və alimlərdən dünyəvi, hərbi və dini biliklər öyrənir.

1499-cu ilin avqust ayında 12 yaşlı İsmayıl özünün yaxın tərbiyəçisi və məsləhətçisi olan bir neçə qızılbaş tayfa başçısı ilə birlikdə qoşun toplamaq üçün Ərdəbilə yollanır, ancaq şəhər hakimi tərəfindən təqib olunur. O, 1500-cü ilin yazında Şamlı və Rumlu tayfalarından, habelə Qaradağ və Talış əhalisindən ona qoşulmuş 2 minə yaxın qızılbaşla Qarabağ, Çuxursəd, Şuragil, Kağızman, Tircan yolu ilə Ərzincana gəlir.

Ərzincanda keçirilən müşavirəsində Səfəvilərin irsi düşməni Şirvanşah Fərrux Yasarla müharibəyə başlamaq qərara alındı və əmirlərinin Gürcüstana bir neçə basqınından sonra İsmayıl Anadoluda topladığı təqribən 7 min nəfərlik tərəfdarı ilə 1500-

cü ilin axırlarında Şirvana hücum edir. Cabanı döyüşündə Fərrux Yasar məğlub edildi və Şirvanşah öldürüldü. İsmayıl üç gün düşərgəsində qaldıqdan sonra Şamaxıya daxil oldu. Burada öyrəndi ki, Şirvanşahın döyüş meydanından qaçıb canını qurtarmış oğlu II Şeyx İbrahim (Şeyxşah) Xəzər dənizinin sahilindəki Şəhrinou qalasındadır və atasının qoşunlarının salamat qalmış hissələrini ətrafına toplamışdır. İsmayıl sərkərdəsi Hülafə bəyi qoşun hissəsi ilə oraya göndərdi, duruş gətirə bilməyəcəyini görən Şeyxşah yaxın adamları ilə birlikdə qaçdı. Müqavimətə rast gəlməyən Hülafə bəy, Şəhrinouda düşərgə saldı. Ertəsi gün İsmayıl özü buraya gəldi. İsmayıl Şəhrinounu tutduqdan sonra Mahmudabada qışlağa getdi. Burada ona məlum oldu ki, Bakı şəhərinin əhalisi qalalarının möhkəmliyinə bel bağlayaraq xərac verməkdən imtina edir və müqavimət göstərirlər. İsmayıl uzun çəkməyən mühasirədən sonra 1501-ci ilin baharında Bakını aldı.

Şirvanşah qoşunlarının vuruşmadan sonra salamat qalmış hissələri Gülüstan qalasına cəkilmişdi. İsmayıl Bakını aldıqdan sonra Gülüstan qalasını tutmağa getdi. Lakin tezliklə Gülüstanın mühasirəsini buraxaraq, əmirlərinə bunu yuxuda imamdan tapşırıq alması ilə izah etmişdir, Ağqoyunlu Əlvəndlə mübarizəyə yollandı. Rəvayətə görə İsmayıl qızılbaş əmirlərini məşvərətə yığaraq onlardan soruşur: "Siz nə istəyirsiniz, Azərbaycan taxt-tacını, yoxsa "Gülüstan" qalasını?" Onlar yekdilliklə Azərbaycanı üstün tuturlar.

İsmayıl öz qoşunu ilə Naxçıvan istiqamətində hərəkət edir. 1501-ci ilin ortalarında Əlvənd Mirzə onları Şərur düzündə qarşılayır. Şərur döyüşündə Əlvənd Mirzənin 30 minlik ordusu İsmayılın 7 minlik qoşunu tərəfindən darmadağın edilir. Vahiməyə düşüb qaçan döyüşçülərini saxlamaq və rəqibin arxadan zərbələrini dəf etmək məqsədilə bir-birinə zəncirlənmiş dəvələrdən istifadə etmək cəhdi də Əlvənd Mirzəyə kömək etmir.

Əlvənd özü isə döyüş meydanından güclə qaçaraq, canını qurtarmışdır. Beləliklə, İsmayıl xeyli qənimət ələ keçirərək Təbrizə yollandı. Ən əsası isə Təbrizə yol açıqdır.

1501-ci ilin payızında Təbrizə daxil olan İsmayıl özünü şah elan etdi. Bununla da paytaxtı Təbriz olan Azərbaycan Səfəvilər dövlətinin əsası qoyuldu.

I Şah İsmayılın tabe olmaq təklifini rədd edən Ağqoyunlu hökmdarı Sultan Muradla 1503-cü il iyunun 21-də Həmədan yaxınlığında döyüş Şah İsmayılın qələbəsi ilə nəticələndi və Ağqoyunlu dövləti süqut etdi.

Çox qısa müddətdə şah İsmayıl Şeybani xanın özbək dövlətindən tutmuş Osmanlı imperiyasının sərhədlərinə qədər uzanan möhtəşəm bir dövlət yarada bilir.

Özbək Şeybani xan İsmayıl üçün strateji əhəmiyyət daşıyan İsfahanı tutarkən ona göndərdiyi "Mən Azərbaycana gələrək, oranı tutandan sonra İraqi-Ərəbə və Hicaza gedəcəyəm" məktubuna cavab olaraq Şah İsmayıl öz qoşunlarını Xorasana yeridir. Şeybani xan Mərv qalasında gizlənir, lakin İsmayıl aldadıcı manevr edərək,onu qaladan bayıra çıxarır və 1510-cu il 2 dekabrda Mahmudi kəndi yaxınlığında şah İsmayılla Şeybani xanın qoşunları arasındakı Mərv döyüşü şah İsmayılın tam qələbəsi ilə başa çatır. Bütün gün ərzində davam edən bu ağır döyüşdə məğlub olan Şeybani xan qaçmaq istədikdə şah İsmayılın döyüşçüləri və öz mühafizəçiləri tərəfindən qətlə edilir. Şeybani xanın başını şaha gətirirlər. Əmrə əsasən, onun kəlləsini qızıl suyuna çəkib, qədəh düzəldirlər.Bu döyüşdən sonra o, Herat, Mərv və Bəlx şəhərlərini tutur. Bütün Şabran, Xorasan vilayəti şah İsmayılın hakimiyyəti altına keçir. Sonrakı illərdə Şah İsmayıl İraqi-Ərəbi Səfəvilər dövlətinə qatdı. Onun dövründə Səfəvilər dövləti Yaxın Şərqin qüdrətli dövlətlərindən birinə çevrldi.Səfəvi dövləti öz yüksəlişinin zirvə nöqtəsinə çatır. Onun

ərazisinin sahəsi 2 milyon 800 min kvadrat kilometrə çatırdı.

Səfəvi dövləti kimi güclü bir dövlətin yaranması Osmanlı sultanlarını narahat edirdi. Şah İsmayıl da geniş əraziləri əhatə edən şiə dövləti qurmaq istəyirdi.

Beləliklə siyasi səbəbdən yaranan Səfəvi-Osmanlı qarşıdurması gələcəkdə uzun sürəcək və din pərdəsi arxasında aparılan müharibələrin səbəbi idi.

1514-cü ildə Sultan I Səlimin (1512-1520) başçılıq etdiyi Osmanlı ordusu ilə baş vermiş Çaldıran döyüşündə Şah İsmayılın qoşunları məğlub oldu. Bu döyüşdə osmanlılar sayca çox idilər. Bundan başqa onların daha bir üstünlüyü də 300-ə qədər topun olması idi. Bütün bunlar döyüşün gedişinə təsir göstərməyə bilməzdi.

Döyüşün qızğın çağında İsmayıl azsaylı dəstəsi ilə düşmənin artilleriyasına doğru can atır, lakin bu zaman onun atı büdrəyib yıxılır. Şah İsmayıla çox bənzəyən Soltanəli Mirzə Əfşar: "Şah mənəm", deyə qışqırmaqla onu əsir düşməkdən xilas edir və beləliklə yaralanan şah ata qalxaraq döyüş meydanından qaça bilir. I Sultan Səlim Xoy, Mərənd və Təbriz şəhərlərini tutur. Buna baxmayaraq, o, Təbrizdə çox qalmadı, 6 gündən sonra şah İSMAYIL tacı, əlbəsələri ( libas,paltar ) və bəzək əşyaları da içində olmaqla xeyli qənimət götürərək, Təbrizi tərk edir.

Tarixdə belə bir olay olub. Şah İsmayıl Çaldıran döyüşündə topları bir-birinə bağlayan zəncirləri kəsərkən bir anda onun qüvvətli zərbəsi topun lüləsinə tuş gəlir və top iki yerə bölünür. Çaldıran döyüşündən uzun müddət sonra Sultan Səlim Şah İsmayıldan həmin qılıncı ona göndərməsini istəyir. Şah həmin qılıncı Sultana göndərir. Sultan Səlim neçə dəfə cəhd göstərsə də topun lüləsini kəsə bilmir. O Şaha məktubunda deyir : "Sən məni aldadırsan , bu həmin qılınc deyil.". Şah İsmayıl cavab məktubunda ona belə cavab verir : "Qılınc həmin qılıncdı , qol

o qol deyil.".

Sultan Səlim qənimətlə birlikdə özü ilə İstanbula sonradan Türkiyənin incəsənət və sənətkarlıqının inkişafında müstəsna rol oynamış bir çox incəsənət xadimlərini və sənətkarları da aparır. Dünyanın ən zəngin muzeylərindən sayılan İstanbul Topqapı sarayında, Əsgər muzeyində Azərbaycan tətbiqi sənətinin Çaldıran döyüşündən sonra buraya gətirilmiş ən nadir nümunələri nümayiş etdirilməkdədir.

1524-cü ilin baharında – Novruz bayramından az sonra, Şah İsmayıl böyük qoşunla Qarabağ düzündə cərgə üsulu ilə ov edə-edə Şəki hökmdarlığının ərazisinə daxil olur. "Şəki valisi Həsən sultan onu qarşılamağa çıxıb. Əlahəzrət şah ov etmək sevdasına və dağlara tamaşa etmək həvəsinə malik olduğunu bildirdi.Şəki hakimi Həsən sultan hökm verdi ki qazilər və Şəki əyanları Gürcüstanla Şəki arasında yerləşən və Şahdağı (adı) ilə məşhur olan yerdəki cüyürləri və digər vəhşi ov heyvanlarını qovub bir yerə toplasınlar. Belə nəql edirlər ki, keçmiş sultanlar o vilayətdə Şahdağına pənah aparan ovun ardınca getməzdilər və buna görə də o dağda çoxlu cüyür vardı. Heç bir kəs o cüyürlərə dəyib-dolaşa bilmirdi. Çünki onların (Şahdağında) ovlanması uğursuzluq əlaməti hesab olunurdu. Bu məsələni (şaha) ərz etsələr də, o həzrət buna məhəl qoymadı və ovun başlamasını əmr etdi.

Şah İsmayıl ov vaxtı huşunu itirib (müəyyən səbəblərdən) atdan yıxılıb, bu da onun ölümünə səbəb olur. (Bu hadisə ətraflı şəkildə Həsən Sultanda yazılmışdır) Həkimlərin müalicəsi bir fayda vermir. Şah ismayıl 23 may 1524-cü ildə vəfat edir. Nəşini Ərdəbilə gətirib Şeyx Səfi məqbərəsində dəfn edirlər.

**Şah İsmayil haqqinda fərqli yazı**

Güntay Gəncalpın (Cavanşir) Səfəvilər kitabından 1 parça

(kitabın yazı dili saxlanmışdır)

İsmayıl Təbrizi işğal etdikdən sonra birbaşa Cənnət Səltənət Sarayına getdi. Bu saray Qaraqoyunlular zamanında təsis edilmiş, Uzun Həsən və Sultan Yaqub zamanında da daha möhtəşəm artımlar olmuşdu. Təqribən 14 yaşında olan İsmayıl burada başına şahlıq tacı qoydu. Başına tacqoyma mərasimində 12 cümlədən ibarət bir mətn oxudu. Bu mətni 14 yaşında çoçuğun yaza bilməyəcəyi bəllidir. 14 yaşında çocuğun bu qədər tarix bilgisi ola bilməzdi. Gilanda İsmayılın müəllimi olmuş, Təbriz işğal edilər- edilməz İsmayıla qoşulmuş olan Şəmsəddin Lahici bu mətni yaza bilərdi. Çünki bu 12 cümlədən ibarət olan mətn şüubiyənin ideallarını əks etdirən manifestdir. 12 imam, 12 zolaqlı qızıl papaqları kimi. Ancaq bu mətndəki 12 rəqəminin qızılbaşlar yanında önəmi olmuşdur. 12 cümlənin bu rəqəmlərlə hec bir əlaqəsi yoxdur. Bu 12 cümlə şüubiyənin tarixi amacını gerçəkləşdirən sənəddir. Nə idi o tarixi məqsəd? Zaman axışı içində türksüz və ərəbsiz Səfəvi ölkəsi yaratmaq, özəlliklə türkləri fars ölkələri yolunda istifadə və yox etmək. Bu 12 cümləyə baxın:

1.Mən bu gün yerə endim. 2. Sərvər və şahənşah mənəm. 3. Əmin ol ki, Heydərin oğlu mənəm. 4. Mənəm Firidun. 5.Mənəm Xosrov. 6.Mənəm Cəmşid . 7.Mənəm Zəhhak. 8. Mənəm Zaloğlu Rüstəm 9.Mənəm İskəndər. 10. Ənəl-həq sirri mənim bağrımda gizlidir. 11. Çünkü mənəm mütləq həqiqət. 12.Həqiqət mənim sona çatdırdığım işlərdir.

Səfəvilər tərəfindən işğal edilən Azərbaycan sadəcə şiələşməklə qalmamış, həm də sürətli şəkildə öz dilindən, kimliyindən uzaqlaşmışdır. Azərbaycan Cümhuriyyətində İsmayılın türk dilini dövlət dili elan etdiyi əfsanəsi də uydurma yalandan başqa bir şey deyildir. Öylə olmuşsa, nədən bütün tarix kitabları farsca yazılmış?

Ta əski çağlardan bəri bir şəhər özü təslim olduğunda oraya girən fateh qətl törətməzdi. Təbrizin o zamankı əhalisini tarixçilər ümumən 200 min nəfərdən artıq yazmışlar. "Anonim tarixçinin yazdığına görə 16-ci əsrin əvvəllərində əhalisinin sayı 300 minə çatan Təbrizdə ..."200-300 min arasında əhalisi olan Təbriz yeddiminlik qızılbaş ordusu qarşısında özünü savunacaq və hatta qarşı tərəfi yenə biləcək ən az 50 minlik ordu düzənləyə bilərdi. Təbriz əhalisi sadəcə güvənlik istəyirdi. Şəhərdə ticarət həyatı güvənlik tələb edə. Təbrizin Şah İsmayıla dirənməməsinin əsas səbəbi güclü bir dövlət adamının şəhərdə güvənlik yarada biləcəyi ehtiyac idi. Onlar bilirdilər və duymuşdular ki, könüllü təslim olan şəhərlərdə şəhərə girən fateh qətl törətməz.

Ağıllarına gəlməzdi ki, İsmayıl şəhərə girdikdən sonra onların məzhəblərinin dəyişməsinə əmr verəcək və məzhəblərini dəyişməyənləri dəstə-dəstə qətl edəcəkdi.

Özünü müsəlman sayan şüubi Səfəvi, peyğəmbərin namusu olan Hz.Ayişəni əxlaqsız qadın olmaqla suçlayır. Nə var ki, Hz. Ayişə və Hz. Əli arasında savaş olmuşdur. Bu savaşda kimin haqlı olduğunu tək bilən Allahdır. Həm Hz. Əli, həm də Hz.Ayişə İslamın böyükləridir. Hz Ayişə olmasaydı günümüzdəki Quran da olmayacaqdı. Əski mədəniyyət mərkəzi olan Təbriz bir dəlinin əlində əsir olmuşdu. Bu üzdən Təbriz əhalisinin dinlərinə qarışmamasını təklif edən adama Şah İsmayıl belə cavab verdi:

Qızılbaşların Təbrizi işğal etdiyi günün ertəsi cümə günü idi. Cümə günü Şah İsmayıl "Cami" məscidinə gəldi. Camidə bulunan hər iki sünni arasında bir əli qılıncı qızılbaşın hazır durmasını istədi. Şah İsmayıl sünni məzhəbinin mənsux (batil) olduğunu buyurdu. Camidəki qalabalığın şaşqınlıqdan nəfəsləri tutulmuşdu. Sonra Əbubəkirə, Ömərə, Osmana və Ayişəyə

lənət söyləməyib səssiz qalanların başlarının həmən vurulmasına əmr verdi. Minbərə çıxıb orada bulunan qalabalığa dedi: “Sünnilərdən təbərra edin (uzaqlaşın).”,”Əbubəkirə, Ömərə və Osmana lənət söyləyin!” Orada əllərində qılınc duran qızılbaşlar “Çox lənət, daha çox lənət!” deyə bağırdılar. Xalq etiraz etdi və çaxnaşma qopdu. Şah yenidən yüksək səslə “Kim bu sözləri söyləməsə öldürüləcəkdir” dedi. Təbriz əhalisi şaşqın qalmışdı. Bir müsəlman necə ola bilər peyğəmbərin ən yaxın əshabələrinə, peyğəmbərin ən çox sevdiyi eşinə lənət söylər olsun, deyə qara-qara düşünürdülər. İsmayıl isə nə səhabilərin kimliyini, nə də İslam tarixini bilirdi, nə də peyğəmbəri doğru-dürüst tanıyırdı. Onların inancına görə imamlıq görəvi peyğəmbərlik məqamından üstün idi. Sadəcə 12-ci imam kimi davranmaq ona öyrədilmişdi. Əbubəkirin, Ömərin, Osmanın və Ayişənin müsəlman olmadıqları, Əli düşmənləri olduqları çocuğun ruhuna və şüuruna doldurulmuşdu.

Qızılbaşlar Təbrizin küçələrində əllərində balta dolaşır, xəlifələrə lənət göndərirdilər. Evdən dışarı çıxıb “daha çox lənət” söyləməyənlərin evlərinə girib ailəni qətl edib qızlara təcavüz edirdilər. Anadolunun bozqırlarından gəlmiş aqressiv kütlə mədəniyət və ticarət mərkəzi olan Təbrizi məhv edirdi. Sünnilərin dəyəri sadəcə köpək qədər olduğu üçün onların köpəklərini də öldürürdülər. Təbriz heç bir zaman belə bir dəhşətlə qarşılaşmamışdı. Şəhərin öndə gələn adları başqa ölkələrə qaçmaq üçün yol axtarırdılar.Qızılbaşlar çox qısa zaman içində Təbrizin bütün tarixi memarlıqlarını sünni ürünü olduğundan söküb yox etdilər. Səfəvi öncəsi Təbriz memarlığından Ərk qalasından və Göyməsciddən başqa heç bir şey qalmadı. Bunların qalmalarının səbəbi,Sultan  Səlim Təbrizə girdikdən sonra namaz qıldığı və dəyər verdiyi hər yer artiq qorunma altına alındı.Sultan Səlimin təkrar geri dönməsindən

çəkinən Şah İsmayıla artıq Göyməscidin yenidən tövləyə dönməsinə izn verbkmədi. Sultan Səlimdən çəkinməsi bunu önlədi.Göyməscidin ayaqda qalması buna görə oldu.Dörd xəlifənin adları yazılı olan camiləri və başqa yerləri sökdülər. Sünni bayındırlılardan qalan bütün memarlıq miraslarını sökdülər.

Qəbirstanlıqlarda daşlar üzərinə xəlifə adları yazılan məzarları sökdülər.Bayındırlıların və qaraqoyunluların məzarlarını tamam sökdülər.Təbrizdən sonra sıra başqa şəhərlərə gəlirdi.Bütünlüklə sünni olan Ərdəbil əhalisi ilə də Təbrizdəki kimi davrandılar.Ərbəbil fəqihlərini,din müəllimlərini,müəzzinlərini yaxalayıb öldürdülər,qadınlara və qızlara təcavüz etdilər.Şah İsmayıl əhaliyə əmr etdi ki,evlərinin içinə kərmə-təzək doldursunlar.Təbərrayan Ərdəbilin küçələrində dolaşır və "Əbubəkirə,Öməra,Osmana lənət"deyə bağırırdılar.Hansı evdən səs çıxmırdısa,evə qalanmış olan odun yaxılırdı,ev yanıb külə dönürdü.

Şah İsmayıl Təbrizi işğal edər-etməz ölkədə farslaşma başladı. Farsların dövlətin həssas vəzifələrinə yerləşdirilmə sürəci davam etdi.

Şah İsmayıl dönəmində yasaqlanan ədəbi qaynaqlardan biri də Mövlana Cəlaləddin Ruminin əsərləri olmuşdur. İki səbəb üzündən Mövlananın əsərləri yasaqlanmışdır: 1-Sünnü olduğu üçün.

2-"Məsnəvi"sində qülləti-şiənin "aşura" günündəki əməllərini tənqid etdiyi üçün.Mövlana Məsnəvinin 6-cı dəftərində bir hekayə anladar.Bir şair aşura günü Antakyadan keçərkən insanların sürülər şəklində ağlayib-sızladıqlarını görər.Kimin öldüyünü sorduqda ona Əlioğlu Hüseynin bu gün öldürüldüyünü söylərlər.Şair şaşaraq onlara "bu ki,çox uzun zaman öncənin olayıdır,siz indimi eşitmisiniz,"söylər və

deyər.Siz Hüseynə ağlamayın,öz halınıza ağlayın.Hüseyn ağlanası biri olmamışdır.Öz inancı yolunda bədən zindanından qurtulmuşdur.Dərin cəhalət yuxusundasınız,oyanın !

Təbrizdə ticarət həyatını və iqtisadiyatı güvənsizlik sarmışdı.Təbrizlilər İsmayıla yardım ederək bu güvənliyi bərqərar etmək fikrində idilər.Ağıllarına gəlməzdi ki,İsmayıl şəhərə girdikdən sonra onların məzhəblərinin dəyişməsinə əmr veriləcək və məzhəblərinin dəyişməyənləri dəstə-dəstə qətl edəcəkdi.Təbriz tarixində kütlələri inancından və məzhəbindən dolayı qətl edən bir dövlət yönətimi olmamışdı.Şah İsmayılın sünniləri qılıncdan keçirməsi tarixi ilk təcrübəsi idi.Azərbaycan öz tarixində ilk dəfə böylə bir cani və qatillə rastlanmaqda idi.Təbriz,Bakı,Şamaxı Zəncan, Xoy, Urmu, Marağa və Mərənd kimi Azərbaycan şəhərləri sünni məzhəbindəydilər. Qismən də zeydiyyə məzhəbində.Səfəvilərə qədər Azərbaycanda heç bir dövlət toplumun inancı ilə uğraşmamışdı.

Səlcuqlardan Səfəvilərə qədər Azərbaycanda demək olar ki,məzhəb özgürlüyü olmuşdur.Şah İsmayılın sünnilərə qarşı illər boyu içində daşıdığı nifrət təbrizlilərin başında çatlayacaqdı.Təbrizin işğalında İsmayıla yardımçı olmuş Zəkəriyya Keçəci necə bir xəyanət etdiyinin bilincinə varmışdı.Təbriz şüubi planları əlində əsir qalmışdı.İstədikləri cinayətləri törədəcəkdilər.

Bir tərəfdən qətl, digər tərəfdən aşağılama.Bunların hesabına Azərbaycan Qaraqoyunlu və Bayandırlı türk kültürü mədəniyyəti kimliyindən tamamən qoparaq Səfəvi şüubiyinin bir parçası olacaqdı.

**Nəticə:**

Şah İsmayılın Səfəvilər dövlətini yaratması,Cənubi Azərbaycanda farsların mövqeyini gücləndirdi. İslamda iki tirəliyin yaranmasına səbəb oldu.Iki Türk dövlətləri arasında amansız

müharibələrə yol açdı.Məhzəb müharibələri İslam dünyasını zəiflədərək, çox geriyə atdı.O, vaxtı geridə qalan Avropa ölkələri bütün diqqətlərini elmə və onun inkişafına sərf etdiyi halda, Türk dövlətləri arasındakı müharibələr çoxlu insan,maddi və mənəvi itkilərə səbəb olurdu. Aramsız aparılan döyüşlərdə dövlət büdcəsindən böyük vəsaitlər xərcləyirdilər ki, bu da sonda hər iki dövlətin tənəzzülünə səbəb oldu. İslam aləminin xristian ölkələrindən geridə qalmasının əsas səbəblərdən biri də bu idi.

## SULTAN SÜLEYMAN QANUNİ



***(1494-1566)***

Osmanlı dövlətinin 10-cu Sultanı.

Milliyyəti: Türk

Sultan Süleyman Qanuni Osmanlı dövlətinin 10-cu sultanı (1520-1566 taxt-tacda olmuş) və 89-cu İslam xəlifəsi. Sultan I Səlimin oğlu.

Osmanlı ədəbiyyatında, Qərb ölkələrində isə Möhtəşəm Süleyman və ya Qanuni Süleyman adı ilə də tanınmışdır.

Atası, Sultan I Səlimin dövründə sahəsi 6 557 000 km² olan Osmanlı İmperiyası, I Süleymanın 46 illik hakimiyyəti ərzində təqribən 2,5 dəfə sahəsini artıraraq 22.343000 km² olmuşdur. Osmanlı imperiyasının ümumi ərazisi 15.786.000 km2 artmışdır ,(o cümlədən, Avropada 1 998 000 km², Asiyada 4 169 000 km², Afrikada 8 726 000 km² yəni 14.893000 km²).

I Süleymanın dövründə dövlət idarəetməsində çox əhəmiyyətli dəyişikliklər baş verdi. Bu dövrdə çox sayda qanunlar qəbul edilmiş və hüquqi baxımdan Osmanlıda böyük irəliləyişlər olmuşdur. Qəbul etdiyi qanunlar və ədalətə verdiyi önəm nəticəsində I Süleyman sonrakı dövrlərdə tarixçilər tərəfindən "Qanuni" ləqəbinə layiq görülmüşdür.

Sultan I Süleymanın daşıdığı rəsmi titulların siyahısı aşağıdakı kimidir: Sultanlar sultanı, Xanlar xanı, Peyğəmbər ordusunun sərkərdəsi, müqəddəs Məkkə və Mədinə şəhərlərinin hamisi, Üç şəhərin, İstanbul, Ədirnə, Bursa şəhərlərinin, Dəməşqin və Qahirənin, bütün Azərbaycanın, Məğribin, Barkanın, Qeyruvanın, Hələbin, Qüds və bütün Ərəbistanın, İraqi-Əcəm və İraqi-Ərəbin, Bəsrənin, Dilının, Rakkanın, Luristanın, Mosulun,

Diyarbəkrin, Kürdüstanın, Ərzurumun, Sivasın, Adananın, Vanın, Bərbəristanın, Həbəşistanın, Tunisin, Tripolinin, Kiprin, Rodosun, Mora vilayətinin, Aralıq dənizi, Mərmərə dənizi və Qara dənizin, Rumelinin, Anadolunun, Bağdadın, Yunanıstanın,

Tatarıstanın, Gürcüstanın, Kabardanın, qıpçaqların, Kəfənin, Bosniyanın, Serbiya vilayətinin, Almaniyanın, Əflakin, Boqdanın, Belqradın, Krım və macar torpaqlarının padşahı.

Sultan Süleyman Qanuni bəzi mənbələrə görə 1494-cü il noyabrın 6-da, başqalarına görə isə 27 aprel 1495-ci ildə anadan olmuşdur. 1520-ci il sentyabrın 30-da atası Sultan I Səlim vəfat etdikdən sonra, 26 yaşında Osmanlı taxtına çıxmışdır. 1521-ci ildə Belqradı fəth etməklə Mərkəzi Avropanın, 1522-ci ildə Rodosu fəth etməklə isə Aralıq dənizi hövzəsindəki ərazilərin qapılarını Osmanlı İmperiyası üçün açmışdır. 1526-cı ildə böyük qüvvə ilə Mohaç düzənliyində macar ordusunu məğlub edərək Macarıstanın paytaxtı Budanı tutdu. 1529-cı ildə Vyananı mühasirəyə alsa da, qış mövsümünün yaxınlaşması səbəbindən geri çəkildi. 1532-ci ildə alman səfərinə çıxan Qanuni, Vyananı arxada qoyaraq Qrats, Marburq, Quns və daha bir çox alman şəhərlərini zəbt etdi. Yeddi ay Avropada gəzdiyi halda, Avstriya qüvvələri onun qarşısına çıxmağa cəsarət etmədiyi üçün geri qayıtdı.

1534-ci ildə Səfəvilər üzərinə səfərə çıxan sultan, Bağdad və Bəsrəni, 1535-ci ildə Təbrizi zəbt etdi. 1537-ci ildə İtaliya səfərinə çıxaraq, Otrantoya qədər irəlilədi.

Osmanlı hökmdarı Sultan Süleyman Şərqə yürüyüşləri zamanı Bağdadı ələ keçirdi. Süleyman Sultan Bağdadda olduğu zaman onunla görüşən Azərbaycan xalqının böyük şairi Məhəmməd Füzuli "Leyli və Məcnun" poemasını ona təqdim etmişdir.

**Haşiyə:**

Türk dünyasının böyük hökmdarı olan Sultan Süleyman şair-



imiz Məhəmməd Füzuliyə ayda 9 akça (gümüş pul) məbləğində təqaüdə ayırmışdı.Lakin bu məbləği vəqf idarəsindən ala bilməyən şair “Şikayətnamə” əsərini yazır.Bu əsərdə şair “ salam verdim,rüşvət deyildir deyə almadılar “ - yazaraq məmurların süründürməçiliyini, rüşvətxorluluğunu tənqid etmişdir.

“ Meyvələrin söhbəti” əsərində şair hökümət adamlarının lovğalığından, onların bir-biri ilə çəkişməsindən danışır. Bu düşmənçiliyin dövlətin dağılmasına gətirib çıxartdığını göstərir.

Füzuli öz əsərlərində qiymətli fikirlər irəli sürürdü:

Savadlı olmadan xoşbəxt yaşamaq olmaz:

Elmli insan cəmiyyətə daha böyük fayda verə bilər:İbtidai təhsil dövründə şagirdlər savadlı yazmağa , yaxşı nitq mədəniyyətinə və müvafiq bacarıqlara yiyələnməlidir.

Quruda dünya hakimiyyətini əlinə keçirən Sultan Süleyman Qanuni, Barbaros Xeyrəddin Paşa vasitəsi ilə dənizlərdə də Osmanlı dövlətinin gücünü göstərirdi. Bu böyük dəniz komandanı 27 sentyabr 1538-ci ildə Prevezedə Avropa donanmasını məhv edərək, müstəsna bir zəfərlə Aralıq dənizində tam bir türk hakimiyyəti qurdu. Sultan Süleyman Süveyşdə qurduğu donanma ilə də Qırmızı dənizi və Ərəbistan sahillərini təhlükəsizlik altına aldı və avropalıları Hindistan sahillərindən uzaqlaşdırmağa başladı.

Sultan Süleyman din qardaşları ilə döyüşlərdən əl çəkib Avropa dövlətlərinə üz tutdu. Sultan Süleyman Avstriya səfərində ikən Şah Təhmasib Osmanlıya arxadan zərbə vurdu və Naxçıvanı, Vanı ələ keçirtdi.

15 avqustda Vana gələn Süleyman 24 avqust 1548-ci ildə Vanı azad etdi.

1543-cü ildə Esterqon, Nis və İstolni-Belqrad, 1551-ci ildə Tripolitaniya və 1553-cü ildə Naxçıvan azad edildi. Süleyman qoca və xəstə bir halda ikən, 1566-cı ildə Macarıstan üzərinə hərbi yürüş zamanı, Sigetvar qalasının zəbti əsnasında 72 yaşında vəfat etmişdir. Onun daxili orqanları qalanın ətrafında basdırılmış, cəsədi isə İstanbula gətirilərək Süleymaniyyə məscidində dəfn edilmişdir.

Osmanlı ədəbiyyatında, Qərb ölkələrində isə Möhtəşəm Süleyman və ya Qanuni Süleyman adı ilə də tanınmışdır.Dünyada onun Qanuni Süleyman olamasını aşağıda yazılanlar bir daha təsdiqləyir.

ABŞ Nümayəndələr palatası binasının yeniləşdirilməsi üçün 1945-ci ildə komissiya təşkil edilərək qərara alınmışdır ki,nümayəndələr palatasının qalereyasında Dövlət idarəçiliyində qanunları ilə tarixə düşmüş görkəmli şəxsiyyətlərin heykəl portretləri qoyulsun.ABŞ konqresi verilmiş qərarı bəyənmişdir.




Avropada Möhtəşəm Süleyman adı ilə tanınan,Osmanlı imperiyasının onuncu sultanı-Sultan Süleyman Qanuni də dünyanın 23 qanunverici dövlət başçısının siyahısına daxil edilməsi qərara alınmışdır.

Sultan Süleyman Qanuninin barelyefi 1950-ci ildə məşhur heykəltaraş İosif Kisilevsky tərəfindən yaradılmışdır.

**Süleyman ABŞ Nümayəndələr**
Palatasının interyerini bəzəyən barelyefi

# BARBAROS


(1473-1546)

Türk donanmasını yenilməz bir armada (dəniz ordusu) halına gətirən, Ağ dəniz ətrafındakı dövlətləri itaət altına alan və şöhrəti bütün dünyanı bürüyən bir dəniz admiralıdır. Böyük strateg, taktikaçı, təbiət şunas və dənizlər qəhrəmanıdır. 22 gəmisi ilə "müqəddəs ittifaqın" 166 gəmisini məhv edərək dəniz döyüşləri tarixinin görmədiyi möhtəşəm bir qələbənin yaradıcısıdır .

Bir ingilis tarixçisi Barbaros haqqında belə yazıb. "Şarl Ken

Barbarosla qarşılaşmaq üçün uyğun bir fürsət axtarır. Bununla bərabər Şarl Ken Barbarosun İstanbula getdiyini xəbər aldığı zaman Əlcəzairə hücum etmək cəsarətini tapdı. Şarlmaynidən sonra Avropanın ən böyük hakimi olan Şarl Ken kimi bir hökmdarın hücuma keçmək üçün Barbarosun yuvasından ayrılmasını gözləmiş olması Barbarosun şöhrət və qüdrətinin, Barbaros haqqında yazılacaq hər hansı bir kitabdan daha dəyərli olmasının göstəricisidi."

Barbaros adının hansı köktən gəlməsi mübahisələrə səbəb olur. Xızır rəisinin qardaşı Baba Orucla adının qarışdırılmasından sonunda, yəni Barbaros adının meydana gəldiyini deyənlar də var. Bir digər versiyaya görə də Barbaros ləqəbi italyan dilində "Qırmızısaqqal" deməkdir. Əsl adı Xıdır rəisidir. Böyük türk admiralının atası Egeylı Yaqub adında bir sahibkar olub. İsaq, Oruc , İlyas, adında qardaşları olub . Qardaşı İlyasla səfəri zamanı rados quldurlarına əsir düşmüş, sonra da qaçmışdı. Antalyada Şahzadə Qorqudun xidmətinə girmişdir. Daha sonra qardaşı Orucla birləşərək döyüşlərə başlamışdır.

Ağ dənizdə Ceneviz, İtaliya, Fransa və İspaniya gəmilərini hər yerdə məğlub etmiş, beləliklə şöhrəti gündən-günə yüksəlmişdir.

1516-cı ildə Əlcəzair qalasını İspanların əlindən alaraq orada kiçik bir dövlət qurdu.

Barbaros Sultan Səlimə böyük hörmət bəsləyirdi, ona dualar oxudurdu və qiymətli hədiyyələr göndərirdi. Buna qarşılıqlı olaraq Sultan Səlim onu öz himayəsi altına aldı və Əlcəzairin bəylərbəyi təyin edir. Bu münasibət Qanuni Sultan Süleymanın dövründə də davam etdirirdi. Qanuni Sultan Süleyman ona "Hayrettin" adını verir və onu Osmanlı dəniz donanmasının başçısı, yəni Kaptanı dərya elan etdi.

Quruda dünya hakimiyyətini əlinə keçirən Sultan Süleyman Qanuni, Barbaros Xeyrəddin Paşa vasitəsi ilə dənizlərdə də Osmanlı dövlətinin gücünü göstərirdi. Bu böyük dəniz komandanı 27 sentyabr 1538-ci ildə Prevezedə Avropa donanmasını məhv edərək, müstəsna bir zəfərlə Aralıq dənizində tam bir türk hakimiyyəti qurdu. Sultan Süleyman Süveyşdə qurduğu donanma ilə də Qırmızı dənizi və Ərəbistan sahillərini təhlükəsizlik altına aldı və avropalıları Hindistan sahillərindən uzaqlaşdırmağa başladı.

# I TƏHMASİB ŞAH

Səfəvilər Dövlətinin II şahı



***1524 -1576***

Milliyəti: Azərbaycan türkü

Təhmasib Şah , 3 mart 1514-cü ildə İsfahanda doğuldu. Şah I İsmayılın oğlu olan Təhmasib Çaldıran döyüşündən sonra Xorasana göndərildi. Bir müddət Səbzivar və Heratda qaldı. Şiələrin və Səfəvilərin tanınmış alim və şeyxlərindən xüsusi təhsil gördü.

1521-ci ildə Sultaniyyədəki atasının yanına dönən Təhmasib, Şah İsmayılın ölümündən sonra 1524-cü ildə 10 yaşında taxta çıxdı. Təhmasib on yaşında ikən Səfəvi dövlətinin taxt-tacına yiyələnir. Bu isə həmən dövrdə Səfəvi dövlətinin taxt-tacı ciddi şəkildə qızılbaşlar tərəfindən himayə olunurdu. Belə ki, on yaşlı bir uşağın canişin təyin olunması Səfəvilər ölkəsi kimi nəhəng bir dövlətə heç bir çətinlik yaratmırdı.

Məlum məsələ idi ki, on yaşlı Təhmasib dövləti idarə edə bilməzdi; əslində dövləti şahın vəkili adı altında Div Sultan Qumlu idarə edirdi.

Hakimiyətinin ilk illərində Təhmasib şahla Osmanlı dövləti arasında heç bir qarşıdurma baş vermir. Bu vaxt Osmanlı dövləti Avropada geniş miqyaslı müharibələr aparırdı.Osmanlı dövləti Çaldıran döyüşündən və Şərqi Anadolunu tam işğal etdikdən sonra Səfəvi dövlətindən heç bir təhlükə görmür və özlərini tam asudə hiss edirdilər. Əlbəttə, bu sakitliyin Səfəvi dövləti üçün çox davam gətirməyəcəyi də göz qabağında idi.

Təhmasib Şahın hakimiyyəti dövründə 1528-ci ildə özbəklər Xorasana hücum etdilər. Həmin il şah ordusuyla şərqə doğru hərəkət etdi və özbəkləri Herat yaxinlığında darmadağın etdi.

Şahın şərqə səfərindən istifadə edən Luristan bəylərbəyi Zülfüqar xan üsyan qaldırdı və 1528-ci ildə Bağdadı aldı. Bununla əlaqədar şah Bağdadı mühasirəyə aldı və həmin ildə Bağdadı üsyançılardan təmizlədi və Məhəmməd xan Türkməni Bağdad bəylərbəyi təyin etdi. 1531-ci ildə Təbriz bəylərbəyi Üləma xan Təkəli xəyanət edərək öz əsgərləriylə Osmanlıya qaçdı. Daha sonra Üləma xan Sultan I Süleymanı Azərbaycana yürüş etdi.

1533-cu ildə Təhmasib şah Xorasana yola düşür və bundan istifadə edən bəzi qızılbaş üsyançılar 1534-cı ildə Sultan Süleymanı Azərbaycana qoşun yürütməyə sövq edirlər. Bu səbəbdən də Təhmasib şah istiqamətini dəyişib Təbrizə doğru hərəkət etməyə başlayır. Lakin bütün bunlara baxmayaraq qızılbaşlar qorxu və hürkü içində idilər. Çünki, onlar Çaldıranda baş verənləri hələ də xatırlayır və Süleymanın hər an onlara tərəf böyük ordu ilə gələ biləcəyini çox gözəl bilirdilər. Belə də olur, lakin bu dəfə təbiət Səfəvi şahının köməyinə gəlir. Belə ki, səngimək bilməyən qar Sultaniyyəyə qədər irəliləmiş Osmanlı qoşunu üçün böyük çətinlik yaradır. Külli miqdarda canlı qüvvə və minik heyvanları itirən osmanlılar məcburiyyət qarşısında Azərbaycanın işğalından vaz keçib Bağdada doğru hərəkət edirlər.

Sultan 1-ci Süleyman Bağdadı ələ keçirdikdən sonra 1535-ci ildə bir daha Azərbaycanı işğal etmək qərarına gəlir. Baş vermiş ilk toqquşmada azsaylı qızılbaş ordusu osmanlılara güclü zərbə endirir və onların böyük bir hissəsini darmadağın edir. Bundan sonra Osmanlı Süleyman qızılbaşlarla döyüşməmək və geri qayıtmaq qərarına gəlir. Beləliklə, qızılbaşlar az da olsa, öz qərb sərhədlərinə nəzarəti ələ alırlar.

Bundan istifadə edən şah ölkənin birləşdirilməsini davam etdirmək üçün 1538-ci ildə qardaşı Əlqasın rəhbərliyiylə 30 minlik ordunu Şirvanı tabe etmək üçün göndərdi. Əlqas 1538-ci ildə Şir-

vanşahlar dövlətinin bütün qalalarını ələ keçirdi, Şirvan bəylərbəyliyə çevrildi və Əlqas Şirvanın ilk bəylərbəyisi oldu. Lakin, Əlqas 1541-ci ildə qardaşına xəyanət edərək müstəqillik üçün mübarizəyə başladı. Bununla əlaqədar Şah I Təhmasib Şirvana daxil oldu və bütün qalaları tabe etdi. Əlqas isə Krıma, oradan isə İstanbula qaçdı və Üləma paşayla birlikdə öz vətəninə qarşı yürüşlərdə iştirak etdi. 1548-ci ildə Sultan I Süleyman 3-cü dəfə Azərbaycana hücum etdi və Təbrizi aldı, lakin sultan yenə də Azərbaycanda dayanmadı və ölkəni tərk etdi.

**Əlqas Mirzənin qiyamı və Osmanlı hücumları**

Təhmasib şahın Osmanlı dövləti ilə başqa bir çətinliyi qardaşı Əlqas Mirzə tərəfindən yaranır. Belə ki, Təhmasib şah Şirvanşahlar sülaləsini süquta uğratdıqdan sonra qardaşını Şirvana hakim təyin edir. Lakin çox keçmədən o, müstəqillik fikrinə düşür. Təhmasibin hücum xəbərini eşitdikdən sonra anasını və oğlunu onun yanına göndərib üzürxahlıq istəyir və şah da onu bağışlayır. Onun tərəfindən meydana gəlmiş çətinliklər bununla bitmirdi. 1548-ci ildə Osmanlı Süleyman Bəsrəni işğal edir. Elə həmin il Təhmasib şahın qoşunu ilə qardaşı Əlqas arasında ağır qarşıdurma baş verir və bu qarşıdurmada Əlqasın ordusu məğlub olub adamlarının böyük bir hissəsi Təhmasibə qoşulur. Hər şeyi əldən verdiyini görən Əlqas yeganə çıxış yolunu İstanbula qaçmaqda görür. O, buraya gəlib sığınacaq tapır.

Təhmasib şahın oğlu Mirzə İsmayıl Şirvana hakim təyin olunur və az sonra İranla Osmanlılar arasında gedən döyüşdə Şirvan Səfəvilərin əlindən çıxır və yenidən Şirvanşahlar sülaləsinin ixtiyarına keçir.

İndi artıq Osmanlıların Səfəvi dövləti ilə düşmənçilik etməsinə kifayət qədər şərait yaranmışdı. Çünki, şahzadə onların ixtiyarında idi və onlar Təhmasibə qalib gəldikdən sonra onu şah təyin edə bilərdilər və beləliklə, milli və coğrafi hakimiyyət öz

əhəmiyyətini itirmiş olardı. Əlqas Sultan Süleymana söz verir ki, əgər Səfəvi üzərində qalib gələrsə, yerli əhali onu böyük sevinc və həvəslə qarşılayacaqdır. Sultan Süleyman Əlqasdan belə bir mənəvi dayaq aldıqdan sonra 1550-cı ildə Təbrizə qoşun yürüdür.

Təhmasib şah ordusunu səfərbər edib bütün yol və çeşmələri tutan çoxsaylı Osmanlı qoşununa qarşı hərəkət edir. Onlar bütün çeşmələri tutduqlarından qızılbaşlar içməyə belə su tapmayırdılar. Baş verən ilk qarşıdurmada qızılbaşlar sayca qat-qat çox olan Osmanlı qoşununun qarşısında tab gətirə bilməyib kömək gözləmək ümidilə geriyə Əhərə doğru geri çəkilir. Beləliklə, Sultan Süleyman Təbrizi ələ keçirir və bir müddət Çərəndab adlı məntəqədə qalmalı olur.

Lakin hava şəraiti Osmanlılar üçün bir o qədər də münasib deyildi. Bütün bunlarla yanaşı, qızılbaşlar tez-tez onların düşərgələrinə hücum edir və əsgərlərini qətlə yetirirdilər. Gözlənilmədən Osmanlı ordusu geri çəkilmək qərarına gəlir.

Nəhayət, 1554-ci ildən etibarən Səfəvi dövləti ilə Osmanlı dövləti arasında sabit sülhün bünövrəsi qoyulmağa başlanır.

1555-ci ildə Amasyada Osmanlı Azərbaycan sülh müqaviləsi bağlandı. Müqaviləyə görə şərqi Anadolu, İmeretiya, Quriya, Ərəb İraqı Osmanlıya, Kartli, Kaxetya və Mesxiya Səfəvi dövlətinə verildi..

Təhmasib şah Sultan Süleymana göndərdiyi tərif məktubunda bir daha dövlətlərarası sülhün bərqərar olunmasına israr edir. Sonra həcc ziyarətinə toxunaraq Azərbaycanlıların həcc ziyarətini yerinə yetirmələrini yazılı şəkildə Osmanlı dövləti ilə razılaşırdı.

Beləliklə, Osmanlı Sultanı sülh sazişinə razı olur və Amasiyada düşərgə qurduğu zaman Səfəvi dövlətinin səfiri onun yanına gəlib Təhmasib şahın məktubunu təqdim edir.

Osmanlı sultanı göstəriş verir ki, Səfəvilər sülh sazişini pozmayana qədər sərhəd qoşunları hərbi əməliyyat keçirməsinlər.

Mirzə Zəki özünün «Osmanlı tarixi» adlı kitabında yazırdı: «Bu Səfəvi dövləti ilə Bab Ali (Osmanlı dövləti nəzərdə tutulur) arasında yazılan ilk rəsmi sülh sazişi idi. Çünki, əlli ildən bu tərəfə, yəni Şah İsmayılın Səfəvi sülaləsini təsis etdiyi zamandan bu günədək heç bir tərəfin qılıncı qınına girməmişdi».

Beləliklə, Təhmasib şahla Sultan Süleyman arasındakı münasibətlər yaxşılaşıb tərəflərarası yazışmalar başlanır. Münasibətlər o qədər yaxşılığa doğru gedir ki, 1556-cı ildə İstanbulda Süleymaniyyə məscidi inşa olunduqdan sonra Təhmasib şah Sultan Süleymana göndərdiyi məktubda məscid üçün istənilən qədər xalça göndərə biləcəyini bildirir. Məlum olduğu kimi, Təhmasib şahın özü də rəssamlıqda xüsusi bacarığa malik olmuş və o dövrün bir çox məşhur rəssamlarından dərs almışdır. Sonrakı illər Təhmasib şah tərəfindən İstanbula bir neçə heyət göndərilir və onlar Osmanlı Sultanın taxta çıxması münasibətilə bahalı hədiyyələr təqdim edirlər.

1555-ci ildə yazılan sülh sązişindən sonra ortaya çıxan ciddi çətinliklərdən biri də Sultan Süleymanın oğlu Bəyazidin İranda sığınacaq tapması olur. O, az bir müddət Osmanlı dövlətinə hökmranlıq etmiş və özü ilə qardaşı Səlim arasında qarşıdurma yarandıqdan sonra 1558-ci ildə oranı tərk edib İran ərazisində özünə sığınacaq tapır. O, 1560-ci ilin ilk günlərində özünün bir neçə minlik tərəfdarı ilə Qəzvinə daxil olur və orada Təhmasib şah tərəfindən səmimiyyətlə qarşılanır. Bəyazidin də geri qaytarılması Sultan Süleyman üçün böyük əhəmiyyət kəsb edirdi. Bunun üçün də o, bir çox tədbirlərə əl atır və bu dövrdə Təhmasib şahla onun arasında uzun sürən məktub yazışmaları aparılır. Bəyazid İranda da istədiyinə nail ola bilmir. Belə ki, o, özünün qeyri-əxlaqi davranışı ilə şahı zəhərləməkdə ittiham olunub, tərəfdarlarının bir neçəsi ilə birlikdə elə oradaca həbs olunur.

1561-ci ildə Osmanlı dövlətinin yeddi yüz nəfərlik nümayəndəsi Bəyazidi geri aparmaq məqsədilə Qəzvinə gəlir. Hər iki tərəf arasında danışıqlar aparılır və nəhayət 1562-ci ildə Səfəvi dövləti ilə Osmanlı dövləti arasında son sülh sazişi imzalanır və bu sazişə əsasən hər iki tərəf siyasi sığınacaq istəyən şəxslərin geri qaytarılmasına razılıq verir. Beləliklə, Bəyazid Osmanlı dövlətinə təhvil verilir və sultanın əmri ilə edam olunur. Əlbəttə, Bəyazid təhvil verildiyi zaman şah Osmanlılardan ona toxunmayacaqlarına dair söz alır, lakin onlar buna məhəl qoymayıb Bəyazidi öldürürlər. Qeyd etmək lazımdır ki, Bəyazid Səfəvi dövlətində olduğu müddətdə daim Təhmasib şaha qarşı məkrli tədbirlərə əl atmış, bütün bunlara baxmayaraq, şah onunla son dərəcə mülayim davranmışdır. Bundan sonra Səfəvi dövləti ilə Osmanlı dövləti arasındakı əlaqələr daha da güclənir. Vaxtaşırı bir-birlərinin nümayəndələrini qəbul edir və qiymətli hədiyyələr göndərirdilər. 1566-ci ildə Sultan Süleymanın vəfatından sonra II Səlim onun canişini təyin olunur və sülh sazişi olduğu kimi qüvvədə qalır və bu vəziyyət 1566-ci ilədək beləcə davam edir.1576-cı ildə Qəzvində Şah Təhmasib ölür. Onun yerinə oğlu Heydər Mirzə taxta çıxdı.Bir gündən sonra onu öldürürlər ,II Şah İsmayıl taxta çıxır .

# I ABBAS ŞAH



**(1571 – 1629)**

Milliyəti:Azərbaycan türkü

I Abbas Səfəvi və ya Böyük Şah Abbas Mənşəcə Azərbaycan türklərindən olan böyük sərkərdə, dövlət xadimi, 1587 – 1629-cu illərdə Səfəvilər Dövlətinin hökmdarı və Şah İsmayıl Xətaidən sonra Səfəvi sülaləsinin ən məşhur nümayəndəsi. Şah Məhəmməd Xudabəndənin üçüncü oğludur.

XVI əsrin son rübündə böyük Səfəvi dövləti ağır böhran içində idi. Taxt-tac az qala kor, iradəsiz və zəif xarakterli Şah Məhəmməd Xudabəndənin əlində idi. Dövlətə faktiki rəhbərliyi onun arvadı Məhdi Ülya ləqəbli Xeyr ən-Nisə bəyim və oğlu, sərkərdə Həmzə Mirzə edirlər. Onlar demək olar ki, tam müstəqil olan və bir-birləri ilə daima qanlı düşmənçilik yeridən əmirlərin – qızılbaş tayfaları başçılarının üzərində özlərinin mərkəzi idarəçiliklərini qurmaq üçün uğursuz siyasət yeridirlər. Xəzinə talanmış, xalq soyulmuşdu. Ölkənin vəziyyəti ağır idi. Aparıcı qızılbaş əmirləri ilə Məhdi Ülya arasındakı münasibətlərin gərginləşməsi də qüvvələri müdaxiləçilərə qarşı səfərbər etməyə maneçilik törədir. Şahın xanımını türk əmirlərinin hüquqlarını tapdamaqda və rəhbər vəzifələrə fars əyanlarını irəli çəkməkdə ittiham edirlər. Nəhayət, zara gələn əmirlər sui-qəsd təşkil edərək, Məhdi Ülya və onun anasını elə hərəmxanada qətlə yetirir və yenidən ölkənin tamhüquqlu sahiblərinə çevrilirlər.

Həmzə Mirzənin siyasətindən narazı qalan qızılbaş sərkərdələri ona sui-qəsd hazırlayırlar. Xoydan olan bir er-

məninin əli ilə (yenə də iblis xislətli erməni) Həmzəni aradan götürürlər. Bu hadisə 10 dekabr 1586-cı ildə olub.Bundan istifadə edən Abbas Mirzə özbəklərlə döyüşün qızğın çağında Qəzvini tutaraq, özünü şah elan edir. O, ahıl yaşlarında olan atasını da inandırır ki, onun xeyrinə taxt-tacdan imtina etməsi məsləhətdir.

Taxtda möhkəmlənməmiş təzə şah 12 min nəfər müsəlmanlığı qəbul etmiş gürcünü sarayda işə götürür və hərbi və mülki inzibati idarəçiliyin islahatına başlayır.

Yeni hökmdara sədaqət andiçməsi mərasimi bitən kimi I Şah Abbas əmr etdi ki, ertəsi gün bütün xanlar və qoşun başçıları silahsız, mülki geyimdə saraya gəlsinlər. Şah onlarla Divan, yaxud Dövlət şurası təşkil etmək barədə məsləhətləşmələr aparmaq istəyir. Səhəri gün hamı əmrə müntəzir olarkən şah Abbas özünün gürcülərdən ibarət qvardiyasına tapşırır ki, sarayın və onun qarşısındakı meydanın bütün giriş və çıxış qapılarını bağlasınlar. Sonra şah yığışanlara belə bir sualla müraciət edir: "Öz şahzadəsini qətlə yetirən adam hansı cəzaya layiqdir?" hamı bir ağızdan belə rəy söyləyir ki, şahzadəsini qətlə yetirən şəxs öldürülməlidir. Bu hökm çıxarılan kimi, şah Abbasın işarəsi ilə gürcülər tərəfindən bir göz qırpımında içəridə olan qəsdçilərin boğazları kəsilir və nizələrə keçirilib 22 baş sarayın pəncərələrindən çölə çıxarılır ki, xalqa dərs olsun. Bu dəhşətli səhnə ən özündən deyən adamlarda da qorxu və vahimə doğurur." Bundan sonra on beş yaşı təzəcə tamam olmuş hökmdar hökumət naibi vəzifəsinə iddia eləyən Mürşidqulu xan Ustaclını da qətlə yetirərək, ölkədəki bütün hakimiyyəti qətiyyətlə öz əlinə alır.

Ölkənin daxili vilayətləri mərkəzi hakimiyyətin tabeçiliyindən çıxmışdı. Bütün bunların qarşısını almaqdan ötrü şah Abbas ilk növbədə əmr verir ki, qızılbaş əmirlərinin imtiyazları azaldılsın və fars mənşəli mülki bürokratların mövqeləri isə möhkəm-

ləndirilsin. Sonra o, bir sıra hərbi və mülki islahatlar keçirir. Lakin bir çox tarixçilərin rəylərinin əksinə olaraq, güman olunur ki, şah Abbasın dövründə ölkədə aparılan farslaşdırma siyasətinin əhəmiyyətini şişirtməyə dəyməz. Ən əvvəl ona görə ki, bir çox Avropa səyyahlarının da yazdıqları kimi, Azərbaycanda türk (Azərbaycan) dili dövlət dili statusunda qalırdı. Oruc bəy Bayat yazırdı: "İndi bizim ölkədə Fars əyalətlərinin hamısında tanınan, sayılan və bizdə də böyük nüfuza malik olan 32 nəcabətli sülalə var". Lakin adlarını sadalayanda məlum olur ki, bu sülalələrin hamısı (hətta hərbi rütbələrdə olanlar da) Türk-Azərbaycan mənşəlidir. Azərbaycan hələ də ölkənin aparıcı inzibati vahidi sayılır və Azərbaycan hakimi taxt-tacın varisi, eyni zamanda ordunun baş komandanı hesab olunurdu. Demək mümkündür ki, Səfəvilər dövləti Azərbaycan dövləti olmaqdan çıxmaq üzrədir, lakin şah Abbasın yaratdığı Səfəvi dövləti daha artıq bu dərəcədə türk-qızılbaş dövləti (Məmləkəti-qızılbaş) olaraq qalmaqdadır.

Qəzvində möhkəmləndikdən sonra şah Abbas özünün çoxsaylı yürüşlərindən birincisinə çıxır. Qısa bir müddətdə Xorasanı özbəklərdən təmizlədikdən sonra o, doğma Azərbaycanı azad etməyə can atır. Ancaq bunun üçün vaxt lazım idi. 1590-cı ildə həmin məqsədlə şah Abbas Osmanlılarla sülh müqaviləsi imzalayır. Sülh müqaviləsinə əsasən, ölkənin böyük bir hissəsi, o cümlədən, Şirvan, Qarabağ, Təbriz və ona yaxın ərazilər osmanlılarda qalırdı. Şah Abbas öz tabeçiliyində qalmış torpaqları vahid bir inzibati ərazi kimi ümumilikdə "Azərbaycan" adlandırırdı. Azərbaycanın paytaxtı Ərdəbil elan olunur. Nəhayət, bundan sonra şah Abbas özü təntənəli şəkildə Ərdəbilə girir. 1598-ci ildə şah Abbas ölkənin paytaxtını nisbətən mərkəzdə yerləşən İsfahana köçürür.

1603-cü ilin 14 sentyabrında şah Abbas Təbrizin azad edilməsi üçün hərbi kompaniyaya başlayır. On dörd günün içərisində bu

gənc sərkərdə osmanlıların gözləmədiyi bir vaxtda öz qoşunlarını İsfahandan Təbrizə yeridir. Yol boyunca Əmirgunə xan Ağcaqoyunlu-Qacar və Zülfüqar xan Qaramanlının qoşunları da ona qoşulur. Onlar Təbrizə yaxınlaşanda şəhərin əhalisi üsyan edir ki, bu da şah Abbasın şəhəri, bir ay sonra isə qalanı tutmasına şərait yaradır. Osmanlı qoşunlarını Təbrizin qərbinə qovan şah Abbas öz ordusunu Araz çayına doğru yönəldir. Naxçıvan və Culfa döyüşsüz təslim olur. Az sonra üsyana qalxan Ordubad da onlara qoşulur. Şah Abbasın birinci vəziri ordubadlı Hətəm bəyin tövsiyəsi ilə Ordubad bunun müqabilində bütün vergilərdən azad edilir.

Güclü surətdə möhkəmləndirilmiş İrəvanı tutmaq isə heç də asan olmur. Şəhərin mühasirəsi 1603-cü ilin 16 noyabrında başlanır. Şah Abbas məşhur Azərbaycan topçusu Bahadur xan Topçubaşının tökdüyü iri çaplı toplardan ilk dəfə burada istifadə edir. Son yüz il ərzində ilk dəfə Səfəvi ordusu hücum edir, Osmanlılarsa müdafiə olunmağa başlayır. Azərbaycan ordusunun başında öz qarşısına şah İsmayıl Xətainin yaratdığı nəhəng Səfəvi dövlətini bərpa etmək vəzifəsi qoymuş on altı yaşlı gənc, ağıllı, çevik, cəsur və şərəfli bir sərkərdə dururdu. İrəvan qalası yalnız bir ildən sonra alınır. Bu vilayətin idarəsi Əmirgunə xan Ağcaqoyunlu-Qacara, Naxçıvan isə Maqsud sultan Kəngərliyə tapşırılır. Bundan sonra Gürcüstan da I Şah Abbasdan vassal asılılığını qəbul edir.

Tarixçilər əsərlərində Şah Abbasın hakimiyyət dövrünə qiymət verərkən yazırlar: "Müdrik dövlət idarəçiliyi və quruculuq işləri ilə şöhrət qazanan şah Abbas elə mülki və hərbi qayda-qanunlar qoyub gedib ki, Səfəvi şahları sonra da onlardan istifadə edirlər. Hətta hökmdarların ləyaqətinə ciddi yanaşan Avropa tarixçiləri də bir elm və sənət hamisi olaraq, şah Abbası "Böyük" sözü ilə xatırlayırlar. Şah Abbas öz dövründə yaşamış bütün şair və alim-

lərlə dostluq etmişdir.

Şah Abbasın xalq arasında şöhrəti  o qədər yüksək olub ki, o, Azərbaycan nağıl və dastanlarının daimi qəhrəmanına çevrilmişdir. Şah Abbasın vaxtında İsfahan şəhəri yenidən planlaşdırılır. Düz və geniş küçələrdə gözəl saraylar, məscidlər, karvansaralar, yaşayış binaları, parklar salınır. Şəhərin mərkəzində öz əhatəsinə saray, park və şah məscidinin adını alan iri miqyaslı düzbucaqlı formasında "şah meydanı" yaradılmışdı. 1616-cı ildə tikintisi başa çatdırılmış Şah məscidi dünyanın ən yaxşı memarlıq abidələrindən hesab olunur. Məscidin bütün binası müxtəlif rəngli minalı plitələrlə örtülmüşdür. Şah Səfi zamanında məscidə gümüşdən qapılar düzəldilmiş və bina mərmərlə üzlənmişdir. Meydanda hərbi oyun və paradlar keçirilir, habelə müxtəlif yarışları olurdu. Özünün planlaşmasına, binaların yerləşməsinə və hətta tikililərin adlarına görə bu meydan Azərbaycanın digər paytaxt şəhərlərində Təbriz və Qəzvində salınmış "Şah Meydanları"nı təkrar edir. Həmin şəhərlərdəki kimi burada da "Şah məscidi", "Ali Qapı" sarayı, "Həşt behişt" sarayı, "Çehel Sütun " sarayı  vardır.

İsfahanın yenidən qurulmasında əslən Azərbaycan türkü olan Şəmsəddin Məhəmməd Təbrizi, Qasım Təbrizi, Əbdüllətif Təbrizi, Əlirza Təbrizi, Molla Abdulla Təbrizi və başqa memarlar, xəttatlar və inşaat ustaları yaxından iştirak etmişlər. Azərbaycandan köçürülmüş sənətkar və ustaların yaşamasından ötrü şah Abbasın əmri ilə xüsusi məhəllə salınmışdı.

Şah Abbas 1629-cu ilin 19 yanvarında Mazandaran vilayətinin Əşrəf şəhərində 58 yaşında vəfat edir.

## NADİR ŞAH



**(1688 – 1747 )**

Milləti :Azərbaycan türkü

Nadir Şah Hərb və dövlətçilik tariximizin görkəmli nümayəndəsi

Danışıqlarımızda bir ifadəni tez-tez eşidirik: "Tarixi Nadiri yarıya qədər oxumuşam, amma"... Əslində çoxumuz adi bütün yaxın Şərqi, Hindistanı lərzəyə gətirən bu adam haqında çox az bilirik.

Nadir Şahın kimliyini dərk etmək üçün tariximizin ədəbiyyatımızın onun haqda yazıldığı əsərlərin bəzilərinə müraciət edək:

Nəriman Nərimanovun "Nadir Şah" əsərindən bəzi məqamlar:

Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır.

- İnsan gərək vətən və millət yolunda işləyib qeyrət, əhəmiyyət göstərsin… həmişə padşah ilə millətin arasında olan pərdə dövlətin viran olmağına və millətin bədbəxtliyinə ən birinci səbəb olubdur…

- Doğrusu, şiə, sünni adı eşidə bilmirəm. Gərək bu iki məzhəb birləşə. Çünki ədavət götürülər, mədəniyyət artar, millət qüvvələnər…

- Hər padşaha lazım gəlir, qeyri tayfanın dinini bilsin, yəni ki, qeyri tayfa ilə dininə müvafiq rəftar olunsun…

- Xəzinədə pul olmasa, qoşun saxlamaq olmaz. Qoşun olmazsa, vətən saxlamaq olmaz. Vətən gedərsə, məscid də olmaz və bəlkə din də əldən gedər…

- Bir dövlət ki, mollalar ixtiyarında yaşadı, o dövlətdə tərəqqi

olmaz…

-Bir dövlətin ki, fəqiri çox oldu, o dövlətin tez puç olmağına ehtimal var…

-Hər bir padşah iki düşməndən xilas deyil: vətən, millət qeyrəti çəkməyən, gününü eyş-işrətdə keçirib milləti daima zülmətlərə düçar edən padşah əcəlini millətdən gözləsin…» Bütün bu fikirlər türk aləminin ikinci «Əmir Teymur»u Nadir Şahın dili ilə deyilir. Nadir Şah Əvşar (Nadirqulu xan) 1688-ci il oktyabrın 22-də Xorasandakı Dərəgöz adlanan yerdə anadan olmuşdur. O, türk Əvşar boyunun qarxlı qoluna mənsub idi. Atası obada çobanlıq edirdi. O, uşaq yaşlarından atasının yardımçısı olmuş, sonralar isə onu əvəz etmişdi.

Aşağıdakı şərhlər Yunus Oğuzun «Nadir Şah» əsərindən (Bakı, 2008) istifadə edilmişdir.

Nadir 1726-cı ildə şah II Təhmasibin [1722–1732] sərkərdəsi olmuşdu. 1732-ci ildə II Təhmasib kiçik qurultayın qərarı ilə taxtdan salındı, onun azyaşlı oğlu III Abbas şah elan edildi, Nadir isə qəyyum kimi dövləti idarə etməyə başladı. III Abbasın ölümündən sonra 1736-cı il martın 8-də Muğan qurultayında Nadir Şah elan edildi, beləliklə Səfəvilər sülaləsinin hakimiyyətinə son qoyuldu.

Nadir böyük bir qurultay çağırtdırıb ölkənin yeni şahının seçilməsi məsələsini xalqın nümayəndələri ilə müzakirə etmək fikrinə düşür. Bu qurultayın keçirilməsi üçün Şimali Azərbaycanın ərazisində olan Muğanda, yəni Kürlə Araz çayının qovuşduğu yerdə 12 min çadır quraşdırır .

Nadir 1736-cı ilin yanvar ayının 12-sində gəlib çatır , onun ardınca isə dəvət olunan əyanlar ,hakimlər və nümayəndələr gəlməyə başlayır.Bu qurultay Muğan düzündə dörd gün, dörd gecə müzakirə olunur.

Müzakirə aparılan günlər ərzində Nadirin də qurultay nü-

mayəndələri ilə görüşlər keçirilmişdir və görüş zamanı o, qurultay nümayəndələrinə dövlət işindən ayrılmaq haqqında fikirlərini bildirirdi. Onun dövlət işlərindən uzaqlaşması məsələsi daima müzakirə obyektinə çevilmişdi.Görüşdə qurultay nümayəndələri Nadirin dövlət işindən uzaqlaşması ilə razılaşmadıqlarını bildirirdilər.

Aşağıdakılar  Mehman Süleymanovun “ Nadir Şah” kitabındandır:

Məsləhətləşmələr aparılandan, qurultay iştirakçıları arasında fikir formalaşdırılandan sonra Nadir yenə Təhmasibqulu xan Cəlayiri Həsən xanın və Əhməd xanın nümayəndələri ilə görüşməyə göndərdi. Adları çəkilən xanlar əyanlara, xanlara, tayfa başçılarına çatdırmalı idilər ki, Nadirin şah olmasını xahiş edirsinizsə, onun sərt hakimiyyətini qəbul etməli olacaqsınız. Çünki Nadir heç kimin günahlarını bağışlamayacaq, cinayətə yol verənləri dərhal qətlə yetirəcəkdir. Mənbədəki məlumatlara görə, toplantı iştirakçıları bu şərtləri qəbul etdilər və əslində onların başqa bir seçimi də yox idi. Bu bəyanatdan sonra toplantı iştirakçıları yenə də Nadirin şah seçilməsinə razılığın bildirdilər.

Belə olanda Nadir bir daha öz əyanları ilə görüşdü və onların nəzərinə aşağıdakıları çatdırdı. Nadir qeyd etdi ki, islam peyğəmbərindən sonra 4 xəlifə xilafətə başçılıq etmişdir. Hindistan, Rum və Türkistan xilafətin idarəsi altına düşmüşdü.İndiki İranda da əvvəlcə xilafət dövrünün məzhəbinə riayət olunurdu. Şah İsmayıl Səfəvi hakimiyyət gəldikdən sonra əvvəlki məzhəbin yerinə şiə məzhəbi rəvac tapdı. Bu məzhəbin rəvac tapması ilə Səfəvi dövlətinin torpağında qanlar axıdıldı, fintə-fəsadlar genişləndi. Həmin məzhəb qaldıqca fitnə-fəsad da yox olmayacaqdır. Nadir tələb etdi ki, əgər ölkə əhalisi onun şahlığına tərəfdardırsa, onda gərək şiə məzhəbi tərk edilsin və sünni məzhəbi qəbul edilsin. Ölkə əhalisi İmam Cəfər məzhəbi ilə tanışdırlar və bu məzhəb

qəbul edilməlidir. Yəni, Nadir ölkə daxilində İmam Cəfər məzhəbinin yayılmasını və insanların da bu məzhəbi qəbul etməsini qurultay iştirakçılarından tələb edirdi.

Bundan sonra Nadir özünün vəkil etdiyi şəxsləri Təhmasib xan Cəlayirin rəhbərliyi altında yenidən toplantı iştirakçılarının arasına göndərdi. Onlar toplantı iştirakçılarına çatdırdılar ki, əgər siz Nadirin istirahətə yollanmasına əks çıxmaqla onun şah olmasını istəyirsinizsə, Nadir də sizin istəyinizi üç şərt əsasında qəbul etməyə hazırdır. Birinci şərt belə idi ki, heç kim Şah Təhmasibi və onun övladlarını taxt-tac varisləri kimi qəbul etməsin. Səfəvi xanədanından kimsə meydana çıxsa, həmin şəxs zindana atılsın. Toplantı iştirakçıları yazılı şəkildə öz üzərlərinə öhdəlik götürməli idilər ki, bu şərti pozacaqları halda edam oluna bilərlər. Onda edam olunacaq şəxslərin əmlakı da müsadirə edilməli idi.

İkinci şərt ondan ibarət idi ki, şiə məzhəbinin əvəzinə sünni məzhəbinin qəbul edilməsi təklif olunurdu. Bundan sonra xəlifə Əbubəkir, Ömər və Osmana lənətlər oxunması dayandırılmalı idi. Çünki bu məsələ Osmanlı ilə Səfəvilər arasında müharibələrə və qan tökülməsinə səbəb olmuşdu. Baxmayaraq ki, Qurani-Kərimdə bu barədə heç nə yazılmamış və islam peyğəmbəri də ona işarə etməmişdir. Nadirin düşüncəsinə görə, məzhəb bölgüsünü cahil (savadsız,avam) insanlar ortaya atmışdı və bununla da müsəlmanlar arasında qan axıdılmasına zəmin yaradılmışdı. Nadirə görə bundan sonra daha Osmanlı dövləti ilə müharibə aparılmamalı idi. Çünki hər iki ölkənin təbəələri eyni Qurana və peyğəmbərə inanırdılar. Nadir onu da əlavə edirdi ki, əgər namaz qılınan zaman sünnilər əllərini sinələri üzərində çarpazlayırlarsa və şiələr isə əksinə aşağı sallayırsa, bu, düşmənçiliyə səbəb olmamalıdır. Sünni əhali Kəbəyə ziyarətə getmək istəyirsə, onlara mane olunmamalıdır. Onlarla Həcc zəvvarları və qardaş kimi rəftar edilməlidir. Nadirə görə, şiələr də onlara qoşulub Kəbədə 4

rüknə (istinadgah) əsasən qəbul edilmiş 4 mehrabın birində namaz qılmalı idilər.

Üçüncü şərt isə ondan ibarət idi ki, Nadirdən sonra ölkə taxt-tacına onun övladlarından biri və ya Nadir xanədanının nümayəndələrindən biri sahib çıxa bilərdi.

Toplantı iştirakçıları Nadirin şahlığını istədikləri halda bu şərtləri qəbul etməli və bu şərtlərə sadiq qalacaqlarına and içməli idilər. Təhmasib xan Cəlayir bu şərtləri səsləndirəndə toplantı iştirakçıları yenə də öz razılıqlarını bildirdilər və bir daha Nadirin şah seçilməsini istədilər.

Toplantı iştirakçılarının razılıq qərarı bir daha Nadirin diqqətinə çatdırıldı. Bununla Muğan qurultayı yekdil şəkildə Nadirin şah olmasına razılıq bildirdi. 1736-cı il fevral ayının 17-də Nadir toplantı iştirakçıları ilə görüşdü, sonra Nadir tərəfindən təşkil edilmiş ziyafətə bir sıra xanlar, vilayət hakimləri, tayfa başçıları dəvət edildilər. Baxmayaraq ki, toplantı iştirakçılarının Nadirin şah olmasına ümumi razılığı əldə edilmişdi, ziyafət zamanı Nadir yenə başqasının şah seçilməsi barədə fikir söylədi. Onun fikrincə, şahlığa elə bir adam seçilməli idi ki, onu seçənlərə və məmləkətə layiq olmalı idi. O bir daha təkrar etdi ki, sərbəst olmaq, Xorasana qayıtmaq, öz qalasında bir guşəyə çəkilib ibadətlə məşğul olmaq niyyətindədir. Çünki dediyinə görə, onun qoşunlara rəhbərlik etməyə artıq gücü qalmamışdı.

Verilən məlumata görə, xanlar və bəylər bir daha israr etdikdən sonra Nadir məmləkəti və milləti ilə birgə olmağa razılıq verdi.

Nadir Osmanlı dövləti ilə müqavilə bağlanmısını Muğan qurultayının nümayəndələri ilə də müzakirəyə çıxardı. Onun təkidi ilə qərara alındı ki, müqəddəs məkanların xadimi və Osmanlı dövlətinin sultanının yanına elçi göndərilsin. İki dövlət arasındakı ixtilafların həlli məqsədilə beş şərtdən ibarət müqavilə müza-

kirəyə çıxarılsın. Osmanlı səfiri Gəncəli paşanın müşayiəti ilə Nadirin İstanbula yola düşən yeni səfiri Əbdülbaqi xan Osmanlı sarayına aşağıdakı beş şərti çatdırmalı idi:

1.Əhali özlərinin əvvəlki şiə məzhəbindən əl çəkirlər və sünniliyin yeni qolu olan İmam Cəfər qolunu seçirlər;

2.Kəbədə islamın dörd məzhəbinin mehrabı olduğu üçün təklif olunurdu ki, İmam Cəfər məzhəbi üçün də beşinçi mehrab yaradılsın və Cəfəri davamçıları da Məscidi Haramda namaz qıla bilsinlər;

3.Hər il Məkkəyə yollanan İran zəvvarları üçün Həcc karvanlarının əmiri təyin edilsin və iranlı zəvvar karvanlarının əmirinin səlahiyyəti Misir və Şam karvanları əmirlərinin səlahiyyətinə bərabər tutulsun;

4. Hər iki tərəfdə saxlanılan əsirlər azad edilsinlər, həmin əsirlərin satılmasına və alınmasına imkan verilməsin;

5. Hər iki dövlətin digər dövlətin paytaxtında nümayəndə heyəti (vəkilliyi) təsis edilsin.

Qurultay iştirakçılarının bildirdiyinə görə, Osmanlı sarayının elçisi ilə Nadirin yeni səfiri olan Əbdülbaqi xan 1736-cı il mart ayının 6-da İstanbula doğru hərəkətə başladılar. Əbdülbaqi xan təklif edilən müqavilə layihəsinin müzakirəsi ilə bərabər, Osmanlı sultanına Nadirin taxta çıxması xəbərini də çatdırmalı idi. Əbdülbaqi xan müqavilə imzalamağa səlahiyyyətli olduğunu da Osmanlı sarayına bəyan etməli idi. Onu bir necə nəfərdən ibarət numayəndə heyyəti müşayiət edirdi. Bu numayəndə heyətinə Mirzə Əbdülqasim Karşani, yeni baş molla olan Əli Əkbər də daxil idi. Nümayəndə heyəti sultana Nadir şahın məktubunu çatdırandan sonra Cəfəri məzhəbinin mahiyyəti haqqında da ona məlumat verdi. Numayəndə heyətində din xadiminin olması da Cəfər məzhəbi ilə əlaqədar yarana biləcək suallara cavab verilməsi ilə bağlı idi.

Bundan sonra Nadir Şah yoxsul, ancaq inamlı, dözümlü, qorxmaz türk döyüşçüləri ilə ağlasığmaz bir yürüşə – böyük Hindistanı tutmağa yollandı. Heç bir hərbi texnikası, uzun döyüş ənənəsi və təcrübəsi olmayan yeni bir qoşunla min kilometr yollar yürüyüb sonsuz və əski xanədanları tutmaq üçün Tanrının nə qədər böyük vergisinə – dözüm və döyüşçülük bilgilərinə malik olmaq gərəkdir! Nadir Şah ölkələri ala-ala Qəndəhar və Pişəvarı keçib, Attok və Cəlum çaylarını adlayıb 1738-ci ildə Lahoru tutdu, sonra isə Moğol türk xaqanı Məhəmmədi Karnalada ağır məğlubiyyətə uğradıb Dehliyə gəldi. 1739-cu ildə Dehlini aldı. Və beləliklə, İraqdan, Dəmirqapı Dərbənddən, Kəşmir və Dehliyədək ucsuz-bucaqsız bir elin Elxanı oldu. Nə Rusiya, nə Osmanlı, nə də Asiya ölkələri səsini çıxarda bilmirdi. Nadir Şah saysız vardan, karvanla yüklənmiş daş-qaşdan başqa 3 milyard hind gümüş rupisi ilə geri qayıtdı.

1741-ci ildə baş vermiş faciəli hadisə Nadir Şahın insanlara olan inamını tamamilə qırdı. Onun oğlu Rzaqulu yağılarla əlbir olub, atasına qarşı qurulan sui-qəsdə qatıldı. Qəsdin üstü açıldı və Nadir Şah hamısını cəzalandırdı. O vaxtdan onun buyruqları daha sərt oldu.

1741-ci ildə Nadir Şah Dəmirqapı Dərbəndə gəldi. Burada o, Çagila obasında öldürülmüş qardaşının qisasını almaqdan ötrü Qafqaz dağlarının əlçatmaz qayalıqlarında mağaralarda gizli yaşayan dağlı xalqlarını cəzalandırmağı qərara aldı. Nadir Şahın düşərgəsində olan Leon monarxı Daminian öz məktubunda yazırdı: «Şah Qafqaz dağlarının bütün xalqlarını boyun əydirdi. O, keçilməz dağ çaylarında 200 min döyüşçü itirdi, ancaq Qafqaz xalqlarını diz çökdürdü». Nadir Şah qanunlara bağlı idi, satqınlara o andaca ölüm cəzası kəsirdi. Buna görə özbaşınalığa alışmış bəylər çox vaxt cəzalanırdılar. Bəxtiyari boyunun bu cür cəzalandırılması 15 gün çəkdi və qan su yerinə axsa da, Nadir

Şah baş qaldıranlara, üzünə ağ olanlara baş əyməyi öyrətdi. O, ölkəsindəki türklərlə Osmanlı və başqa yerlərdəki türklər arasında olan anlaşılmazlıqları aradan qaldırmaq istədi. Bunun üçün şiələr ilə sünniləri qardaş edəcəyinə söz verdi. Ancaq onu başa düşmürdülər. Belələrindən biri də Seystan vilayətinin bəyi Fətəli xan idi. O, yüz min qoşun toplayıb Nadir Şaha qarşı çıxdı. Fətəli xan öz gücünə o qədər inanırdı ki, özünü Səfi şah adlandırıb adına pul kəsdirdi. Nadir Şah ermənilərin üsyançılarla gizli əlaqəsinə görə qraf Arutyun Şarilyanı tonqalda yandırtdı. Onun dörd yanı satqınlarla dolu idi. Çünki Nadir Şah rüşvətin, özbaşınalığın kökünü kəsmək istəyirdi. Bu isə minlərcə vəzifəli adamın narazılığına səbəb olmuşdu. Ancaq yağılar açıq mübarizənin mənasız olduğunu görüb, niyyətlərini gizli şəkildə gerçəkləşdirməyə başladılar. Bunun üçün satqın da tapıldı. Şahın şəxsi alayının başçısı Saleh bəy Əvşarı ələ aldılar. Nadir Şah Seystanda baş qaldıran iğtişaşı yatırmağa gedərkən, 1747-ci il iyunun 20-də Xorasanın Xabuşan vilayətinin Xoşab obasında yuxuda ikən xaincəsinə öldürüldü və bununla türklərin gələcək uğursuzluqlarının, acılarının özülü qoyuldu. Bu kitabda Yunus Oğuz böyük sərkərdəni unikal şəxsiyyət, hərb sənətinin bilicisi kimi təqdim edərək bildirir ki, 9-11 yaşınadək çobanlıq edən, daha sonra anası ilə bərabər əfqanlara əsir düşən Nadir Şah öz əzmi sayəsində tayfa başçısı vəzifəsinə qədər yüksəlib. Farscanı pis bilən, Azərbaycan türkcəsində danışan Nadir Şah unikal yaddaşa malik olub. Ordusundakı 30 minə yaxın kiçik rütbəli zabiti adları ilə tanıyıb.

**Nadir şahın Hindistana yürüşü**

Nadir Şahın Hindistana 1738-ci ilin mayında yürüşü başladı.

Bu döyüşdə Hind şahı Məhəmməd məğlub olur.

Nadir Şah 1739-cu ilin martın 20-sində,ağ atın belində Dehli şəhərinə daxil oldu və orada 57 gün qaldı.

Nadir şah Məhəmməd şahın sarayına daxil olub Hindistan taxt-tacında oturdu. Nadir şah,Məhəmməd şah öz aralarında çətinlik çəkmədən türk dilində söhbət edirdilər. Nadir Şah özünü ən böyük müharibə qənimətini Hindistan yürüşündə əldə etdi.Nadir şah öz əyanlarına göstəriş verdi ki ,30 min baş dəvə toplanılsın və xəzinə bu dəvələrə yüklənilsin.Eyni zamanda bir neçə etibarlı mirzəyə tapşırıldı ki,xəzinənin hesabı aparılsın və ordakı əşyaların siyahısı tutulsun.M.K.Mərvinin yazdığına görə 4 min dəvəyə ləl-cəvahir və qiymətli şah əşyaları, 2 min baş dəvəyə qızıl-gümüş və qiymətli daşlarla tutulmuş taxtlar, yarım taxtlar və onlara aid əşyalar yükləndilər. 2 min dəvəyə qızıldan və qiymətli daşlardan düzəldilmiş və bəzədilmiş süvari əşyaları yükləndi.Daha 2 min dəvəyə qızıldan və gümüşdən düzəldilmiş və qiymətli əşyalarla bəzədilmiş camlar,şamdanlar və digər qablar yükləndi.6 min dəvəyə isə əşrəfilər və digər kəsilmiş pullar yükləndi.Bundan başqa 24 min qatıra isə ağ zər və gümüş əşyalar yükləndi.Nadir şahın Hindistanda əldə etdiyi qənimətlərdən ən qiymətli əşya "Kuhi-Nur" (Nur-Dağı) adlanan almaz idi. Öz yonuluşu, rəngi, böyüklüyü etibarı ilə misilsiz olan



bu almaz elə indinin özündə də dünyanın ən qiymətli daşlarından biri sayılır.M.K.Mərvi yazır ki,Kuhi-Nurun qiymətini Allahdan başqa kimsə qiymətləndirə bilməz.Bu daş dünyanın ən böyük almazlarından biridir.Bildirilir ki, 1739-cu ilin may ayında hakimiyyətin yenidən Məhəmməd şaha təhvil verilməsi mərasimində Nadir şah qədim ənənəyə uyğun olaraq dostluq əlaməti kimi əyinlərindəki şalvarların dəyişdirilməsini təklif etdi.Seçim imkanı olmayan Məhəmməd şah

öz şalvarını Nadir şaha verməli oldu.Nadir şah öz otağına çəkilib almazı şalvarın cibində tapdı və həmin almazı görəndə heyrətə gəlib onu “Kuhi-Nur” adlandırdı.Nadir şahın bu sözündın sonra almazın adı elə“Kuhi-Nur” qalıb və elə indinin özündə də bu adla tanınır.

1848-ci ildə ingilislərlə sinqlər arasında müharibə başladı.1849-cu ildə ingilislər bu muharibədə qalib gəlib bütün Pəncabı tutdular.İngilislər 11 yaşlı Dulip Sinqi məcbur etdilər ki,Kuhi-Nuru onlara versin.Buna nail olan ingilislər 1849-cu ildə həmin almazı hədiyyə kimi ingilis kraliçası Viktoriyaya göndərdilər.Böyük Britaniya kraliçası Yelizavetanın anasının tacını bəzəyirdi.Hazırda isə Kuhi-Nur almazı ilə bəzədilmiş həmin tac London qəsrindəki muzeydə saxlanılır.Nadir şahın Hindistanda əldə etdiyi qiymətli almazlardan biri də Dəryayi-Nur adlanır.Öz rəngi etibarı ilə Dəryayi-Nur dünyanın nadir alma-



zlarından biridir. Açıq çəhrayı rəngdə olan bu almazın elə də yaxşı yonulmadığı iddia olunur.Yonulmamışdan əvvəl bu almazın böyüklüyü 780 karat olmuşdur.Sonuncu yonuluşdan sonra isə 182 karat olmuşdur.Bu almaz hazırda Tehranda ,İran Milli Bankının muzeyində saxlanılır.Nadir şahın malik olduğu üç böyük almazdan hazırda İranda mühafizə olunanı yalniz bu almazdır.Bu daş Qacarlar xəzinəsindən İran Milli zərgərlik muzeyinə təhvil verildi.Nəhayət,Nadir şahın Hindistan qənimətləri içərisində öz qiyməti ilə seçilən daşlardan biri də sonradan “Orlof” adı almış almazdır.Daşın harada və kim tərəfindən tapılması və kimlərə məxsus olması haqqında da dəqiq məlumat yoxdur.Məlum olan odur ki,Nadir şah Hindistana

hücum edəndə bu almaz hind şahlarının xəzinəsində idi.Tapıldığı vaxt Orlof almazı 300 karatlığında olub.Hazırda isə onun 193 karat olduğu bildirilir.



Azaciq mavi-yaşıl rəngə calan Orlof almazı indi Rusiya muzeylərində saxlanılır.Məlumdur ki,Nadir şahın xəzinəsində olan bu almaz milliyətcə erməni olan Lazar adlı birisi tərəfindən Rusiyaya qaçırılmış və orada Rusiya çariçasına satılmışdır.

Hindistanı aldıqdan sonra Avropada onu Makedoniyalı İsgəndər,Çingiz xan,Əmir Teymur və Napaleonla müqayisə edirdilər. "Mənim paytaxtım yəhəryüyəndir"deyən Nadir Şah Azərbaycan torpaqlarının bölüşdürüldüyü, Azərbaycan dövlətçilik tarixinin təhlükə qarşısında olduğu bir dövrdə hakimiyyətə gələrək bu təhlükələrə qarşı mübarizə aparıb: 1726-cı ildə Şah Təhmasiblə birləşən Nadir Şah 2-3 ilə nizamlı ordu yaradır. 1729-cu ildə İsfahanı əfqanlardan azad edir, qısa müddətdə Həmədan,Təbriz, Tiflis azad olunur. Hindistanı bütünlüklə alan Nadir Şah Çinə yürüşə hazırlaşırdı. Məhz türk olduğuna görə Nadir Şah qəhrəman kimi yox, işğalçı kimi təqdim edilib. Nadir Şahı hərb sənətinin dahisi adlandırırlar. Onun ilk dəfə olaraq dəvə üstündə 360 dərəcə fırlanan top icad etdiyini, hərbi-dəniz donanması üçün gəmi zavodları yaratdığını qeyd edirlər. Onlar tövsiyə edirlər ki, Nadir Şahın hərb sənəti müdafiə nazirliyi tərəfindən öyrənilməlidir. Dəfələrlə İstanbulu almaq imkanı olsa da, Nadir Şah məhz islam-türk birliyi xatirinə bu addımı atmayıb. O uzaq görən addımları ilə ilk dəfə okeana çıxış qazandı.

Nadir Şahın zəif tərəflərini də qeyd edən müəllif bu sırada

mərkəzləşdirilmiş idarəetmənin olmaması və daxili idarəetmənin zəifliyini vurğulayır. Nadir Şah hər şeyi hərbə bağlayan, hərbi millətçilik ideologiyasına malik şəxsiyyət olub. Nadir Şahı oğlunun gözlərini çıxartdırmaqda ittiham edənlərə gəlincə isə, oğlunun 3 dəfə ona sui-qəsd təşkil etməsi böyük sərkərdəni bu addımı atmağa məcbur edib. Halbuki sonralar məhz bu qərarı onun psixi durumuna ciddi təsir göstərib. Bir sözlə, Nadir Şah, Azərbaycan torpaqlarının işğal olunduğu, vətənimizin bölündüyü bir zamanda hakimiyyətə gəlmiş və qısa bir müddət ərzində torpaqları işğaldan azad etməyə, birləşdirməyə nail olmuşdu. Bəzi mənbələri araşdırıb, Nadir Şah kimdir sualına cavab tapmaq istədik. Nadir Şah tarixdə qətiyyətli hökmdar, bacarıqlı hərbiçi və sərkərdə kimi tanınmışdır. Onun hakimiyyətə gəlməsi Azərbaycanın taleyində mühüm rol oynamışdır. Belə ki, ölkə daxilində türk tayfalarının bir dövlət halında birləşməsinə nail olmuş, hərbi sahəni yeniləşdirmiş və möhkəmləndirmişdir, Azərbaycan sərhədlərinin möhkəmlənməsinə nail olmuşdur.

Nadir Şahın birinci məqsədi və arzusu böyük Turan, islam-türk dövləti yaratmaq olmuşdu. O, həmişə Osmanlı türkləri ilə azəri türklərinin eyni bir millət kimi birləşməsinə səy göstərmişdi. İki nəhəng türk dövləti xalqlarının yalnız məzhəbə görə bir-birilə düşmənçilik etməsinin qəti əleyinə olmuşdu. Məhz bu amildən istifadə edən Avropa dövlətləri, Rusiya , Türk xalqlarını tarixi boyu üz-üzə qoymağa çalışmışdır. (Bax: I Pyotrun vəsiyyətlərinə)

Nadir Şahın böyüklüyü ondadır ki, o münaqişələri bəzən müharibəsiz həll etməyi bacarırdı. Məsələn, 1735-ci il martın 21-də Rusiya ilə bağladığı "Gəncə müqaviləsi"nə əsasən ruslar Bakını iki həftə, Dərbəndi müqavilə bağlanan gündən iki ay müddətinə tərk etməyi öhdələrinə götürürlər.

Nadir Şah "Hər şey vətən üçün", "Hər şey Azərbaycan üçün"

kəlamlarını çox işlədərmiş. Azərbaycanda ilk dəfə hərbi dəniz donanmasını Nadir Şah yaratmışdır. O, 1741-ci ildə Xəzərdə gəmiqayırma zavodunu tikmişdi. Onun səyi ilə top istehsal edən zavodlar inşa edilmiş, yeni şəhərlər salınmışdı. Nadir Şahın bilavasitə səyi ilə milli kadrlar hazırlamaq üçün hərbi məktəblər açılmışdı. Məhz bu xüsusiyyətlərinə görə bir çoxları Nadir Şahı ikinci əmir Teymur adlandırırlar.

Erməni hiyləsi Nadir Şahdan da yan keçməmişdir. Onun görüşünə gələn erməni katolikosu Abram, Nadir Şahdan xahiş edir ki, siz (yaltaqcasına) böyük dünyada məhşur şahsınız, bir balaca fərman verin ki, bütün Alban kilsələri ermənilərə tabe olsun. Həmin kilsələrdə erməni kahinləri xidmət etsin,onlar da öz növbəsində bu klsələrdə onun adına dualar oxunsun. Hiyləgər katolikos onu da xahiş edir ki, Qarabağa bir neçə erməni ailəsi köçürülsün. Əlbəttə ki, Nadir Şah kimi dahi dövlət xadimini aldatmaq o qədər də asan deyildi.Nadir şah erməni katolikosunun xahişinə rədd cavab verdi.Çox təssüflər olsun ki, ondan sonra hakimiyyətə gələnlər onun qədər uzaqgorənlik etməmişlər.Bəli, erməni iblisləri hələ 18-ci əsrdə Qarabağda məskunlaşmağa can atmışlar.

# QACAR ŞAH



Milləti: Azərbaycan türkü Ağa Məhəmməd Şah Qacar Azərbaycanın bütövlüyü uğrunda çarpışan dövlət xadimi və hərbi sərkərdə olmuşdur.

Xalqımızın tarixində doğma vətən torpağından güc və qüvvət almış cəsur, qudrətli sərkərdələrimiz, dövlət xadimlərimiz az olmayıb. Onların çoxu əcdadlarımızın kimliyini yaxşı bilib, dədə-babalarının vəsiyyətlərini müqəddəs tutub.Türk əsilli Qacarlar tayfasının nümayəndəsi görkəmli dövlət xadimi Ağa Məhəmməd şah Qacar idi.O,şəxsi həyatında qənaətcil,elmə,kitablara böyük sevgisi olan insan idi.

Ağa Məhəmməd həmişə atası ilə idi,müharibələrdə iştirak edirdi. Anası Ceyranın dediyi kimi, gələcək üçün təcrübə qazanırdı. Ağa Məhəmməd xan kitablardan heç vaxt ayrılmırdı. Müharibələrdə də özü ilə bir neçə kitab götürürdü və gecələr oxuyurdu.Kitaba məhəbbəti də ona anası Ceyran xanım aşılamışdı.Şahlığa çatandan sonra da kitab oxuyanları yatmazdan qabaq ona mütləq kitab oxuyardılar. Hətta ömrünün son gecəsində belə yatmazdan qabaq onun üçün kitab oxumuşlar.

Ağa Məhəmməd şah Qacar xususi rejimlə dolanırdı. Az yeyərdi, ömrünün axırlarında bitki yeməklərinə üstünlük verərdi.Bununla belə səfərə böyük mətbəxlə çıxardı. Saray əyanlarına şəhanə süfrə açdırardı. Mətbəxdən əlavə, şərq padşahlarının, o cümlədən Ağa Məhəmməd şah Qacarın abdarxanası (səyyar təmizlik işləri üçün,təbii ehtiyac üçün ayrılmış yer) var idi ki, qərb ölkələrində tayı tapılmazdı. Səyyar atbarlarda cür-

bəcür şərbətlər, turşular, mürəbbələr, təzə meyvələr saxlanılır, səhər, nahar və şam yeməkləri vaxtında süfrəyə verilirdi. Bundan əlavə şah səfərə çıxanda sandıqxana deyilən bir dəstgah da aparılırdı. Sandıqxanada şahın paltarları və xalat ünvanı ilə adamlara verəcəyi paltarlar saxlanılırdı. Şahın xəzinəsi də sandıqxana əşyalarına daxil idi. Bəzən ondan ayrılıqda da saxlanılırdı.

Mütaliəni sevən Ağa Məhəmməd şah səfərə çıxanda kitabxanasını da özü ilə aparırdı. Kitabların hamısı əlyazması olduğu üçün qiymətli idi. Kitab almağa hamının qüvvəsi çatmırdı, onu yalnız varlılar, əmirlər və şahlar ala bilərdilər. Abdarxanada, sandıqxanada və kitabxanada işləyənlərə xəlvət işçiləri deyərdilər.

O, torpaqşünaslıqda mahir idi və özünün yenilikləri var idi.Həmişə deyirdi ki,hər bir əkinçi öz torpağını ,əkin yerini tanımalıdır.Bilməlidir ki,bu torpaq hansı bitki üçün yararlıdır.Torpağı nazik və xırda deşikli bir qabın içinə doldurub üzərinə yavaş-yavaş su tökürdü,su torpaqdan keçib,bir qabda yığılırdı.Sonra əkinçiyə deyirdi suyu dadsın.Əgər su şorməzə olurdusa,deyirdi,bu torpaqda yaxşı qovun-qarpız yetişər,əgər suyun dadı turş olurdusa,deyirdi bu torpaqda arpa-buğda əkmək üçündür.Suyun dadı acı olanda deyirdi bu torpaqda pambıq yaxşı əmələ gələr.Ağa Məhəmməd heç bir mədrəsədə torpaqşünaslıq dərsi oxumamışdı,hər nə bilirdisə,ancaq öz istedadı və qabiliyyəti sayəsində əldə etmişdi.Bu biliyin nəticəsiydi ki,onun tarlalarından həmişə yaxşı məhsul əldə edilirdi.

1211-ci hicri qəməri ilinin zilhiccə ayının iyirmi biri Ağa Məhəmməd şah Qacarın həyatının axırıncı gecəsiydi. Bu gecə başqa gecələrdən fərqlənmirdi. Həmişəki kimi hava qaranlıqlaşanda çıraq yandırıldı və Ağa Məhəmməd şah namazını qılandan sonra Urumiyə vəzirini qəbul etdi. Bir sıra vilayətlərdə

vəzirlər vergi işlərilə məşğul olurdular. Vəzir Urumiyənin vergi kağızlarını Ağa Məhəmməd şah Qacara təqdim elədi və Urumiyədə sakin olan Əfşar əmirlərinin bir neçəsindən şikayətləndi.

Ağa Məhəmməd şah Qacar ömrünün axırlarında vergi verməyənləri incitmirdi, birdəfəlik verməyə imkanı olmayanlar vergini hissə-hissə ilə ödəyirdilər.

Ağa Məhəmməd şah Qacar Urumiyə vəzirinə dedi:

-Sən onlardan vergini qist ilə alardın.

Vəzir dedi:

-Mən qist ilə alardım, ancaq onlar ödəmədilər, baxmayaraq ki, hamısı varlıdır, vergi vermək istəmədilər.

-Əgər varlıdırlarsa, mən vergini onlardan alacağam, yox, imkanları olmasa  təzyiq etməyəcəyəm.

Haşiyəyə çıxaq: ABŞ prezidenti Franklin Ruzveltin xanımı Eleonor Ruzvelt öz xatirələrində yazır ki,Ağ evdə uşaqlar üçün ziyafət düzəltmişdi.O,ölkənin ilk birinci xanımı idi ki,bütün zümrələrdən olan adamları Ağ evə ziyafətə dəvət edirdi.Məclisə nəzər saldıqda görür ki,bir uşaq əlini yeməklərə vurmur,ona yaxınlaşıb bunun səbəbini soruşduqda uşaq acıqlı-acıqlı cavab verir ki,"mən vergi ödəyənlərin pulu hesabına verilən naharı yemək istəmirəm".Prezidentin xanımı onu sakitləşdirir ki,Ruzveltin öz şəxsi xərcləri hesabına bu ziyafət təşkil edilmişdir.Lakin uşaq öz tələbindən geri çəkilmir və nahar etməyən yeganə adam kimi Ağ evi tərk edir.Bu uşaqların ölkədə vergi ödəyənlərin pulunu hara xərclənməsi ilə necə maraqlandığını göstərir.

Ağa Məhəmməd şah Qacara edilən sui-qəsdin Nadir şaha edilən sui-qəsdə oxşarlığı vardı: sui-qəsdçilər onların yaxın adamları idi. Əgər Nadir şahın ən yaxın adamı, həyatını etibar etdiyi keşik rəisi olmasaydı, o nəhəng adamı kimsə öldürə bilməzdi. Ağa Məhəmməd şahı Şuşada öldürənlər onun həyatının bütün gündəlik gedişatından xəbərdar idilər. Otaqlarının, dəhliz-

lərinin hətta yataq otağının yer-yöndəmini bilirdilər, əks-təqdirdə onu belə asanlıqla öldürə bilməzdilər.

Ağa Məhəmməd şah Qacar öldürüləndə əlli yeddi yaşı vardı. On səkkiz il, bir neçə ay şahlıq etdi. O, İran və şərq tarixində yeganə xacədir ki, şahlıq dərəcəsinə çatmışdır.

Dedik ki, şərq ölkələrində şahların yanında xidmət edən xacələr böyük məqamlara çatırdılar, ancaq heç görünməmişdi ki, xacə səltənət taxtına oturub başına tac qoya və başqaları onun fərmanında olalar, çünki, xacəlik ən böyük nöqsan hesab olunurdu.

Ağa Məhəmməd şah Qacar özünün fövqəladə iradəsi,istedadı və bacarığı ilə İranın padşah taxtına qalxmağa müvəffəq oldu.Onun özündən sonra xələfləri bir əsr yarım İrana şahlıq etdilər.

Nə onun surətinin çirkinliyi, nə xacəliyi, nə də addımbaşı duyduğu rişxənd, tənə ona işlərində mane ola bilmədi. O, çox ciddi adam idi. Bu günün işini sabaha qoymaz, heç vaxt ehtiyatı əldən verməz, öz qərarını və düşüncəsini başqasına deməzdi.

Lakin təqdir və qəzavu-qədər belə gətirdi ki, Ağa Məhəmməd şah Qacar da Nadir şah kimi öz qətlini özü hazırladı. Bu barədə gələcək fəsildə məlumat verəcəyik.

Ağa Məhəmməd şah Qacar çox az yeyər , çox az da yatardı. Yuxusu yüngül idi, hər vaxt istəsəydi yuxudan qalxardı. Az yeməyin təsirindən həmişə özünü yüngül və qıvraq hiss edərdi, başı da yaxşı işlərdi.

Ağa Məhəmməd şah qənaətcil adam idi və bu xususiyyət ona anasından keçmişdi. O xəsis deyildi, israfçılıq da etmirdi. Öz gəlirini və xərcini bildiyi üçün heç zaman borc almağa ehtiyacı olmadı.

Deyirlər köçəri hayat sürdüyü üçün abadlıq işlərinə etinasız olub.Ümumiyyətlə köçərilər abadlaşdırma işlərinə meyl göstər-

mirlər. Boş vaxtlarında ova çıxardı. Onun indiki İranda bir neçə qoruğu var idi. Əgər ov barəsində xatirələrini yazsaydı, maraqlı bir kitab olardı.

Ağa Məhəmməd şah Qacar yalnız öz zəhməti sayəsində, heç kimin köməyi olmadan səltənət taxtında oturub başına taç qoydu. İnsanların həyatında bəzən xoş təsadüflər onların müvəffəqiyyətlərinə səbəb olur. Lakin Ağa Məhəmməd şahın həyatında heç xoş təsadüf də yox idi.

Qacar xan dindar bir adam idi. Heç vaxt namazının vaxtını ötürməmişdi. Başqa məzhəbdə olanlara güzəşt edərdi.Heç kimin haqqı yox idi ki, xristianları və ya yəhudiləri incitsin. Bu qanunu tapdalayanlar ciddi cəzalanırdılar.

Amma, təəssüf ki, belə nəhəng şəxsiyyətlərimizin bəziləri haqqında bizim tam, hərtərəfli və obyektiv təsəvvürlərimiz yoxdur və nədənsə buna cəhd göstərməyə də çalışmamışıq. Dərin düşünsək, bu gün Qarabağda baş verən faciələrin, onun işğalının bir qolu məhz həmin dövrlərə gedib çıxır.

Hörmətli oxucu! bütün deyilənləri nəzərə alaraq professor Vaqif Arzumanlının «Ağa Məhəmməd Şah Qacara işğalçı kimi baxmamalıyıq» («Aydınlıq» qəzeti, 14 fevral 1992) məqaləsindən bəzi məqamları sizin nəzərinizə çatdırmaq qərarına gəldik

«Doğrudan da, nə vaxta qədər biz öz tariximizi, onun ən qiymətli səhifələrini kimlərinsə mənafeyi, bədxah «Qonşularımızın», «Böyük» və «Kiçik» «Qardaşlarımızın», çörəyimizi yeyib, suyumuzu içib, üzümüzə gülüb, arxadan kürəyimizə zərbələr endirmiş və endirən gəlmələrin xətrinə dəyməmək mövqeyi baxımından öyrənəcəyik? Axı, çox şeyi düzüb-qoşmaq olar, tarixdən başqa. Tarix nə ləkə götürür, nə kir atır. Tarixi saxtalaşdırmaq isə, adətən, torpağa, xalqa çox baha başa gəlir.

Ağa Məhəmməd Şah Qacarla bağlı Azərbaycan tarixşünas-

lığında, bədii ədəbiyyatımızda bir sıra əsərlər mövcuddur. Amma onların çoxu dövrün siyasi süzgəcindən keçdiyi üçün, bu və ya başqa təmayülə xidmət etmədiyindən heç də obyektiv şəkildə qələmə alınmayıb. Hər şeydən əvvəl xatırladım ki, 1794-cü ildə çətin və ağır mübarizələr nəticəsində İranda hakimiyyəti ələ alan, 1796-cı ildə isə özünü şah elan edən Ağa Məhəmməd Şah Qacar (1742–1797) azərbaycanlı (daha doğrusu, Qacarlar tayfasından olan Azərbaycan türkü) olmuş, istər xan, istərsə də şahlıq edərkən onun döyüşən ordusunun xeyli hissəsini Azərbaycan türkləri təşkil etmişdir.

1796 - cı ildə Muğanda toplanan qurultayda Ağa Məhəmməd xan Qacar özünü şah elan etdi. Ağa Məhəmməd xan Qacar özündən 160 il əvvəl yenə Muğanda özünü şah elan etmiş Nadirin dörd lələkli tacını qoymaqdan imtina etdi (4 lələk İran, Hindistan, Əfqanıstan və Orta Asiyanı təmsil edirdi). Başına sadə tac qoyan Ağa Məhəmməd şah Qacar Şeyx Səfi türbəsindən gətirtdiyi qılıncı qurşamaqla özünü Səfəvilərin varisi elan etmiş oldu. Səfəvilər dövründə olduğu kimi yenidən hakimiyyət Qacar, Əfşar, Hələc, Bayat və Qaragözlü kimi Azərbaycan - Türk tayfalarının əlinə keçdi. Öz Türk kökünə sayğı ilə yanaşan Ağa Məhəmməd şah Qacar Osmanlı sultanına yazdığı məktubda «onların Oğuz Xaqanın oğlu Gün Xandan törədiklərini (Qayı boyu Gün Xandan törəmişdir) » , Qacarların isə «Oğuz Xaqanın oğlu Ay xanın (Qacarlar Ay xanın törəmələri hesab olunur) övladları olduğunu» qürurla bildirirdi. Ağa Məhəmməd şah Qacar öz xələflərinə ancaq Qacar - Türk qızlarından doğulan övladlarını vəliəhd seçməyi tapşırmışdı. Məhz buna görə də Fətəli şah Qacar əmisinin nəsihətini nəzərə alaraq gürcü qızından doğulan böyük oğlunu deyil, Türk - Qacar qızından doğulan kiçik oğlu Abbas Mirzəni özünə vəliəhd təyin etmişdi.

Həm də unutmamalıyıq ki, Səfəvilər dövründən başlayaraq

bütün Aran və dağ Qarabağa, Gəncədə fasilələrlə üç yüz il Qacarlar sülaləsindən olanlar başçılıq ediblər. Ağa Məhəmməd Şah Qacar da həmin nəslin yetişdirməsi idi. Hakimiyyət başına gələn Qacarı o vaxtlar olan hadisələr xüsusilə narahat edirdi. İlk növbədə Azərbaycanın qədim və tarixi torpaqlarının Rusiya tərəfindən işğal olunması və həmin ərazilərdə yerli əhalinin sıxışdırılması hesabına xristianların məskunlaşdırılması. Qarabağda əhalinin bir hissəsini təşkil edən ermənilər nəyin bahasına olursa-olsun, Qarabağı Rusiyanın tərkibinə daxil etdirib bu yerləri erməniləşdirmək istəyirdilər.

**Haşiyə:**

1695-ci ildə şah Abbas,1723-cü ildə I Pyotr ayrı-ayrı ərazilərdə yaşayan kiçik erməni tayfalarını bir yerə toplamaq haqqında fərman imzalayıb.1768-ci ildə II Yekaterina ermənilərə xüsusi diqqət və qayğının bəslənməsinə dair ,1799-cu ildə I Pavel ermənilərin Qazax rayonu ərazisində sərbəst yaşamasına dair Tbi lisi hakimiyyəti dairələrinə göstəriş vermişdir.1800-cü ilin əvvəllərində isə gürcülərin və ermənilərin bir qrup gənclərinə hərbi təhsil vermək üçün Rusiyanın ayrı-ayrı şəhərlərində oxumağa göndərmişlər.1828-ci ildə bağlanmış Türkmənçay müqaviləsinin bir bəndində ermənilərə sərbəst olaraq Gürcüstan,Azərbaycan və Türkiyə ərazilərində yaşamaq hüququ verilir.1828-ci ilin fevral ayında I Nikolay həmin müqaviləni təsdiq edib və 20 martda belə bir fərman imzalayıb ki,Naxçıvan və digər ərazilərdəki erməniləri indiki Ermənistana cəmlənməklə onlara muxtariyyət verilsin.

Gəlin çox qədimlərə nüfuz etmədən XVIII əsrin birinci yarısında yazılmış I Pyotrun “Vəsiyyətnamə”sindəki bəzi müddəalara diqqət yetirək:

8.Rus sərhədlərini genişləndirmək övladlarımızın vəzifəsidir...

9.Rusiyanı dünya dövləti etmək o vaxt mümkündür ki, İstanbul onun paytaxtı olsun.Ona görə ki,İstanbul Avropa və Asiya

xəzinələrinin açarıdır.Hər vəchlə çalışıb o torpaqları almaq lazımdır.Ona görə ki,İstanbula sahib olan şah dünyada ilahi şah olacaq.

Türkiyə dövləti məhv olmadan Qacar şahlığının canını almağımız məsləhət deyil...Rusiyanın təsəllüt neştəri İranın şah damarına yetişərsə,ürəyinin zəif qanı açılacaq,elə bihal olacaq ki,Əflatun dirilib gəlsə ,sağalda bilməz...”demək yerinə düşər ki,iki nəhəng müsəlman imperiyası olan Türkiyə və Qacar dövlətinə şimaldan açılan qapı Azərbaycan idi.Bunu Rusiyanın imperiya siyasətçiləri və strateqləri yaxşı bilirdi və bu məqsəd üçün ermənilər bir vasitə kimi seçilmişdir.Yaddaşsızların yadına salmaq istəyirəm ki,son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı etnik təmizləmə,deportasiya və soy qırımı siyasəti Rusiyanın Qafqaza gəlişi ilə əsasən 18-ci əsrin 20-ci illərindən başlayaraq 1813-1828,1905-1907,1918-1920,1948-53-cü illərdə və 1988-ci ildən sonra mərhələ-mərhələ həyata keçirilmişdir.1721-ci ildə isveçlilərlə Niştadt sülhündən sonra Rusiya çarı I Pyotr Xəzər dənizinə çıxmağı qərara aldı və bu,Xəzərətrafı şəhərlərin,o cümlədən,Azərbaycanın Dərbənd,Bakı kimi şəhərlərinin işğalı ilə (1723) nəticələndi.Yerli əhalinin kəskin narazılığı və müqavimətini görən I Pyotr öz işğalçı imperiya məqsədlərinə nail olmaq üçün “nəyin bahasına olursa-olsun,Gilanda,Mazandarda,Bakı və Dərbənddə ermənilərin və xristianların yerləşdirilməsi ” zərurəti ilə qarşılaşdı.

Bu məkrli siyasəti sonrakı rus imperatorları davam etdirdi.1768-ci ildə II Yekaterina erməniləri himayə etməsi barədə fərman imzaladı.1802-ci ildə çar I Aleksandr N.Sisianova məktubda yazırdı ”Nəyin bahasına olursa-olsun,ermənilərdən Ruiyanın xeyirinə Azərbaycanın bu və ya digər xanlıqlarında istifadə edilməlidir”.

1828-ci ilin martın 21-də Rusiya imperatoru I Nikolay İrəvan

və Naxçıvan xanlıqlarının ərazisində “Erməni vilayəti”yaradılması haqqında fərman imzalandı.Türkiyədə gətirilən 84 min erməni əsasən bu vilayətdə yerləşdirildi.119 azərbaycanlı kəndi birbaşa “erməniləşdirildi”.Soyqırımına beləcə iri addımlarla başladılar.İrəvan quberniyasında ermənilərin sayı 443 min nəfərə çatdı.Halbuki,1828-ci ildə əhalinin milli tərkibindəki nisbəti İrəvan şəhərində belə idi: müsəlmanlar 1807 ailə, 7331 nəfər,ermənilər 567 ailə -2267 nəfər. Bu vəziyyət Şah Qacarı narahat etməyə bilməzdi.

Gürcüstanın hər yerində müsəlmanları sıxışdıraraq, Rusiyaya baş əyən və bütün Qafqazı Rusiya imperiyasının ayağına verməyə can-başla hazır olan II İrakli mənfur iki başlı siyasət yürüdürdü. Qarabağ hakimi İbrahim xan da nə yolla olursa-olsun, digər Azərbaycan xanlıqlarından uzaqlaşdıraraq , onu öz tərəfinə çəkməyə can atırdı.Bunlardan başqa, qətiyyətlə demək lazımdır ki, Qacar Qafqaza hücum planı hazırlayarkən, vaxtilə mövcud olmuş Səfəvilər dövlətinin sərhədlərini bərpa etmək məqsədini güdürdü. Çox qəribədir ki, Qacarın bu niyyətlərini o vaxtlar Gəncə xanı Cavad xan başa düşürdü, Qarabağ xanı isə bunu anlamırdı. Ona görə də Cavad xan Azərbaycanla, Qafqazla bağlı planlarını həyata keçirərkən Qacara əl tutdu. İbrahim xan isə II İraklinin məkrli caynağından yaxa qurtara bilmədiyi üçün Qacara qarşı düşmənçilik mövqeyində durdu, hətta bir müddət öz taxt-tacından əl çəkib başqa ölkəyə qaçmağa da məcbur oldu. Nəticədə isə Tiflis yandırıldı, Qacar qətlə yetirildi, Cavad xan vətən uğrunda həlak oldu… İbrahim xan isə Rusiyanın mahir siyasəti nəticəsində aldandı. Qarabağ Rusiyanın tərkibinə qatıldıqdan sonra, Qarabağ xanını şirnikləndirmək üçün onun özünə general-leytenant, oğlanları Məmmədhəsənə, Mehdiquluya və Cəfərquluya general-mayor rütbəsi verildi. Az sonra isə Qarabağ ermənilərinin kələyi və Rusiyanın qurduğu plan

əsasında İbrahim xan bütün ailəsi ilə birlikdə (17 nəfər) qanına qəltan edildi. Bu qəsdə başçılıq edən Şuşa şəhərinin komendantı, mayor Lisaneviç general rütbəsi aldı. Düz on altı ildən sonra da Qarabağ xanlığı yerli-dibli ləğv olundu. Nəticədə tədricən ermənipərəstlər və erməni məlikləri Qarabağ torpağında meydan sulamağa başladılar.

Ağa Məhəmməd Şah Qacar isə bütün bunları xeyli əvvəl duymuşdu… Axı, Qarabağı zəbt edib bu torpaqlarda erməniləri yerləşdirmək niyyətləri və bütün müsəlmanların uzaqlaşdırılması ideyası hələ I Pyotrun vəsiyyətlərindən miras qalmışdı.

«Qarabağ» qəzetində– «Ağa Məhəmməd Şah Qacar: biz onu tanıyırıqmı?» (15 fevral 1991) və «Aydınlıq» qəzetində– «Ağa Məhəmməd Şah Qacar kim olub?» (20 dekabr 1991) məqalələri çap edilmişdir. Hər iki yazının müəllifi Mirzağa Həsənalıdır. Müəllif bir incə məsələyə toxunub. O bildirir: «Y.V.Çəmənzəminli..nin «Qan içində» romanını oxuyarkən, əsərdə İbrahim xanın arvadlarının bir neçəsinin erməni, mühafizə dəstəsinin erməni məliklərindən olması məni təəccübləndirir. İnana bilmirəm.

«Hörmətli Mirzağa bəy, həm təəccüblən, həm də inan! inanmaq istəməsən də inan! Əgər tariximizə bir qədər dərindən nəzər salsaq görərik ki, Y.V.Çəmənzəminli bu məsələ ilə bağlı səhv etməyib, olan şeyi, həqiqəti qələmə alıb. Qarabağ xanı İbrahimxəlil xanın ailə şəcərəsinə diqqət yetirmək kifayətdir. Onda Qarabağ xanının kəbinli və siğə arvadları arasında bir neçə erməni olduğunu görərsən. O həmin İbrahim xan idi ki, sonda öz günahlarının və səhvlərinin qurbanı oldu.O vaxt “arvadları” erməni olan İbrahim xan “Böyük Ermənistan” xülyasının, nə də lobbisinin nə olduğunu bilmirdi. O dövrdə nə «Daşnaksutyun» partiyası vardı, nə erməni lobbisi, nə də «Krunk» və «Qarabağ» təşkilatları. Bəs indi? Yazıqlar olsun, tarixdən və həyatdan ibrət

götürə bilməyən bizim günlərin «İbrahim xanları»nın halına. Onlar bir gün nəyin və kimin qurbanı olacaqlarını hələ də dərk edə bilmirlər. Yoxsa indiyədək özlərini tükü-tükdən seçən, nəfəsi böyük «Hayastan» xülyası ilə gedib-gələn «Xanım» və «Məliklər»inin cəngindən birtəhər qoparmaq barədə fikirləşərdilər.

Tarixçilərimiz, həm də ədəbiyyatşünaslarımız Ağa Məhəmməd Şah Qacar kimi görkəmli şəxsiyyətimizin həyat və fəaliyyətinə daha obyektiv münasibət bəsləməli, onun barəsində həqiqəti bugünkü nəslimizə çatdırmağa cəhd göstərilməlidir. Ötən iki yüz il ərzində şimal və qərb qonşularımızın yeritdikləri siyasət, gördükləri işlər, törətdikləri əməllər bizim üçün dərs olmalıdır. Öz keçmişimiz barədə geniş və obyektiv söhbət açmağı bizə yasaq edənlərin özləri də artıq başa düşürlər ki, indi zəmanə dəyişib. Keçmişini yaxşı bilməyənlər isə, adətən, gələcəyini müəyyənləşdirməkdə çətinlik çəkir və çaşbaş qalırlar. Şah Ağa Məhəmməd xanın Gürcü kralı II İrakliyə Ultimatumu:

Bağışlayan, rəhm edən tanrı adına.

Allah hamıdan böyükdür, yüksəkdir,hər şeyi yaradandır.

Bu fərmanı gürcü çarı əlahəzrətə elan edirik.

Bizim mərhəmətimizi gözləyən hökmdarın məlumu olsun ki, yetmiş il bundan əvvəl gürcülərin Kandaqarda törətdikləri əməllər və bizim dövləti nüfuzdan salmaq cəhdləri indi artıq hamıya məlumdur. Zira şah sultan Hüseyn də artıq sağ deyil, o dünyadadır. Yəqin əlahəzrət özü də yaxşı bilir ki, son yüz il ərzində siz bizim itaətimizdə olmusunuz. İndi isə təəccüblə demək istəyirik ki, siz ruslara qoşulmusunuz. O ruslara ki, bizim ölkədə ancaq alver etmək məqsədilə gəzib-dolaşırlar və elə bütün iş-peşələri də yalnız alverlə, ticarətlə məşğul olmaqdır. Sən yaşı doxsanı haqlamış adamsan, amma bağışlanmaz səhvlərə yol verirsən: Kafirləri torpağına buraxmısan, onlarla birləşmisən və onlara istədikləri kimi davranmağa şərait yaradırsan. Sizin və

bizim dinlərimiz müxtəlif olsa da, ancaq siz həmişə bizimlə yaxın əlaqədə olmusunuz. Bizim ölkədə, sənə məlum olduğu kimi, xeyli tatar, gürcü, erməni və digər dinlərə mənsub olanlar yaşayırlar. Ona görə də siz utanıb, xəcalət çəkməlisiniz ki, bu cür işlərə və əməllərə yol verirsiniz. Bu əməllərdən birdəfəlik əl çəkməlisiniz. Ötən il sən məni bir yığın gürcünü məhv etməyə məcbur etdin. Lakin biz öz təbəəliyimizdə olanları öz əlimizlə öldürməyin tərəfdarı deyilik. İndi Allahın köməyi ilə biz böyük uğurlar əldə etmişik, nəhəng və güclü dövlətik. Sən bizə öz sadiqliyini sübut etməlisən. Biz böyük ixtiyar sahibi olduğumuz üçün, əgər ağıllı adamsınızsa, hazırkı niyyət və əməllərinizdən büsbütün əl çəkməlisiniz, ruslarla əlaqələrinizi tamamilə kəsməlisiniz. Bu, yəqin ki, sənin ölkənin də tamamilə ürəyincə olar. Əgər bu göstərişə əməl etməsən, onda çox qısa bir müddətdə Gürcüstanın üzərinə yürüş edəcək, ruslarla bərabər gürcüləri də qılıncdan keçirərək, qanınızdan Kür çayına bərabər bir qan çayı axıdacağıq. Bütün bunları sənə çatdırmaq və xəbərdarlıq etmək məqsədilə bu fərmanı göndəririk. Bu fərmanı yazmışıq ki, bizim dediklərimizi, buyruğumuzu qulaqardına vurmayasan və özünün vəziyyətini dərk edəsən.

**Ağa Məhəmməd Şah Qacar**

Qoy Allah-Təalanın köməyi Türk xalqının başı üstə daim ədalət  və səxavət günəşi parlasın.

**Əziz oxuculara tövsiyə**

Dünya tarixinə adı qızıl hərflərlə yazılmış möhtəşəm türk  sultanların,xaqanların,şahların kim olduğunu bilmək istəyiniz varsa , onların həyatı haqqında yazılanları oxumaqla tariximizi öyrənmiş olarsınız.Bu da bizə kim olduğumuzu özümüzü tanımaqda dərk etməkdə köməklik edər.

# ŞƏKİ XANLARI

## *Bilirsinizmi?*

***1. Şəki hakimi Əli Orlat Əmir Teymur Naxçıvana hücum edərkən köməyə gedib Əlincə qalasında vuruşaraq qəhrəmancasına həlak olub.***

***2.XIV əsrdə Şəki ilk dəfə müstəqil dövlət olub.***

***3. Şah İsmayılın bacısı Şəki xanının xanımı olub.***

***4.Şah İsmayıl Şəkidə ov vaxtı atdan yıxılıb huşunu itirib. Bu da onun ölümünə səbəb olub.***

***5. Şəkinin bayrağı Nadir şahın vasitəsilə Hindistandan gətirilmişdir.***

***6. Çələbi xanın Təbrizə hücumu.***

***7. Çələbi xan hansı beş Azərbaycan xanını gürcü əsirliyindən xilas edib?***

***8. Çələbi xan Qazaxı, Şəmkiri və Borçalını gürcü tabeliyindən azad edib Şəkinin ərazisinə qatıb.***

***9. Rus Çar ordusunu hansı xan Şəkidən qovub?***

# ŞƏKİ

Şəki Azərbaycanın ən qədim şəhərlərindən biridir.Tarixi mənbələrdə iddia olunur ki, şəhərin adı e. ə. VII əsrdə, burada yaşamış saklarla bağlıdır.

Orta əsrlərə dair mənbələrdə onun adı Şəkə, Şaki , Şaka , Şakki,Şəkkan , Şakke , Şekən və Şəkin kimi müxtəlif adlarla göstərilmişdir.

X əsrin ortalarınadək Şəkidə xaçpərəst alban çarları hökmranlıq edirdilər. Bu dövrdə yerli əhalinin bir qismi isə artıq İslamı qəbul etmişdi.

Şəki X əsrdə Azərbaycanın şimalında yenicə yaranmış Şirvanşahlar dövlətindən asılı vəziyyətə düşmüşdü.Ancaq 960-cı illərin əvvəllərində Şəki hakimi Şirvanşahlara tabe olmaqdan imtina etdi.

Sonradan Şəki Şirvanşahlar dövlətinə tabe edilsə də , öz nominal müstəqilliyini saxlaya bilmişdi.

1386-cı ildə Şəki Əmir Teymurun hücumuna məruz qalmışdır. Əmir Teymur Şəkini məğlub və qarət etdikdən sonra Qəbələdə düşərgə salaraq uzun müddət qalmışdır.

Şəki hakimi Seyid Əli Orlat Əmir Teymurun hakimiyyətini qəbul etmirdi. Tez-tez Teymurun qoşununa hücumlar edirdilər.Şəki hakimi seyid Əli Orlat Əmir Teymur Naxçıvana hücüm etdikdə Əlincə qalasının müdafiəsində iştirak edərək döyüşlərdə qəhrəmancasına həlak olmuşdur.Şəkidə hakimiyyətə onun oğlu Seyid Əhməd gəldi .

1402-ci ildə Şəki hakimi Seyid Əhməd Qarabağda düşərgə salmış Əmir Teymurun yanına gedərək onun hakimiyyətini qəbul etdi.

XIV əsrin I yarısında Şəki Şirvanşahlar dövlətindən ayrılaraq tarixində ilk dəfə müstəqil dövlət oldu.

Əmir Teymurun ölümündən sonra Şəki yenə də müstəqillik qazandı. Şəki hakimi Seyid Əhməd, Şirvanşah I İbrahim və gürcü çarı Konstantinlə birlikdə üç dövlətin ittifaqını yaratdılar.

1412-ci ildə Qaraqoyunlu dövlətinin başçısı Qara Yusif Şirvanı ələ keçirərək ittifaqda olan dövlətlərin başçılarının üçünü də əsir götürdü. Onlar(I İbrahim,Gürcü çarı Konstantin,Seyid Əhməd) Qara Yusifin vassallığını qəbul etdikdən və külli miqdarda təzminat ödədikdən sonra əsirlikdən azad oldular.

1441-ci ildən 1551-ci ilə qədər , 110 il müddətində Şəkini qara keşiş oğlu nəsli idarə etdi. Mənbələrin verdiyi məlumatlara görə alban xristian (xaçpərəst) olan Qara keşiş oğlu Şəkini idarə edib. Başqa bir keşiş də Kiş kəndinin başcısı imiş.Qara keşiş Kişdəki keşişin qızını oğluna evləndirmək istəmişdir. Kişdəki keşiş ona xəbər göndərər ki, Mənim qızım ağ su ilə böyüyüb.Qara su olan yerə qızımı verməərəm .Bunu eşidən Qara keşiş deyir ki, Kiş çayından bir arx evimin yanına gətirərəm.

Kişdəki keşiş deyir ki, suyu gətir, sonra qızımı oğluna verim. Qara keşiş dediyi kimi bu sudan bir arx evinin yanına gətirir. Beləliklə, bu izdivac baş tutur. Qara keşişin oğlunun adı Candar olur. Candar bir neçə vaxtdan sonra müsəlman olur və adı Əlican olur.

Əlicanın oğlu Qutul xandır. Qutul xanın oğlunun adı Şəki xandır, onun da oğlunun adı Həsən sultandır.

Həsən sultan 1519-1524-cü illərdə Şəkinin hakimi olmuşdur( 1524-1551-ci illərdə) ondan sonra oğlu Dərviş Məhəmməd xan Şəkinin hakimi olmuşdur.

1551-ci ildə Səfəvi şahı I Təhmasib Şəkiyə hücum edir. Dərviş Məhəmməd xan döyüşlərin birində həlak olur və Şəki əyaləti statusunda Səfəvilər dövlətinə birləşdirilir.

1580-cı ildə Şəki və ətraf ərazilər Osmanlı dövlətinin tabeçiliyinə keçir və sancaqlıq yaradılır. Şəki bu ərazinin san-

caqlığının mərkəzi olur.

1606-cı ildə Şəki yenidən Səfəvilər dövlətinin tərkibinə daxil edildi .

1743-cü ildə Hacı Çələbi Şəkini müstəqil xanlıq elan etdi. Bununla da Azərbaycanda ilk müstəqil xanlıq yarandı.

Şəki və Narın qalaları Hacı Çələbi xanın vaxtında tikilmişdir (1743-1755).

Şəki və Nuxa çox qədimdən, yəni, 1772-ci ilə qədər bir-birindən ayrı yaşayış məntəqələri olmuşlar.

Qədim Şəki Kiş çayının Əyri çaya töküldüyü yerdə, indiki Qaradağlı kəndinin yaxınlığında yerləşdiyi güman olunur.

1772-ci ildə Kiş çayında baş vermiş güclü sel qədim Şəki şəhərini yuyub apardı.Tamamilə məhv olmuş şəhərin əhalisinin bir qismi ölmüşdür.Sağ qalanlar başqa yerlərə köçüb getmişdir.Sağ qalanların digər bir qismi isə indiki Şəki şəhərinin yerləşdiyi ərazidə məskən salmışdır.

1805-ci ildə Şəki xanlığı məcburiyyət qarşısında Çar Rusiyasının himayəsi altına keçdi.

Səlim xan Şəkidə yerləşən rus qarnizonunu 1806-cı ildə Şəkidən qovmağa nail oldu. 1806-cı il oktyabrın 22-sində general-mayor Nebolsin başçılığı ilə rus ordusu Şəkiyə hücum etdi. Döyüşdə Səlim xan məğlub oldu və Şəkinin Çar Rusiyası tərəfindən işğalı başa çatdı.

1819-cu ildə iyulun 31-də Şəkidə xanlıq üsul-idarəsi Rusiya tərəfindən ləğv olundu. Əvəzinə Çar Russiyasının komendant üsul -idarəsi sistemi yarandı.

**1819-cu ildə Şəki xanlığının ərazisi**

1. Şəki mahalı tərkibində (Göynük,Vartaşen,Küngüt,Biləcik, Zəyrit,Kiş)
2. Ağdaş mahalı (Cəlut,Oxut,Daşağıl,Layski)
3. Ərəş mahalı (Xaldan)

4. Alpaut mahalı (Ağcıbalı)
5. Xaçmaz mahalı (Xaçmaz,Xalxal,Fildili)
6. Padar mahal (Qaradağlı,Padar,Ləki)
7. Qutqaşın mahalı (Qutqaşın , Vəndam)
8. Bum mahalı (Nic,Bum , Qənzəli)
9. Nuxa şəhəri

| **İllər** | 1826 | 1856 | 1897 | 1908 | 1916 |
|---|---|---|---|---|---|
| **Əhalinin sayı** | 14000 | 18000 | 26000 | 37003 | 52243 |

Rusiya tərəfindən Şəki işğal edildikdən sonra onun ərazisi Şəki əyaləti adlanır.

1840-cı ildə komendant idarə etmə üsulu ləğv olundu.Yeni yaradılmış Kaspi vilayətinin tərkibində Şəki qəzası (Çar hökuməti vaxtında inzibati-ərazi vahidi )yaradıldı.

1846-cı ildə bu əyalətə Nuxa qəzası,qəzanın mərkəzinə isə Nuxa adı verilərək Şamaxı quberniyasının tərkibinə daxil oldu.

1918-ci ildə Azərbaycan Demokratik respublikası yarandığı dövrdə Nuxa qəzası Gəncə quberniyasının tərkibinə daxil oldu.

1920-cı ilin Mayın 5-də Nuxada bolşevik Sovet hakimiyyəti quruldu. Nuxada Qəza İnqilab Komitəsi (Ş.Q.İ.K.) ilk Sovet hakimiyyət orqanı oldu. 1921-ci ilin yazında Azərbaycanın bütün ərazisindəki qəzalarda İnqilab komitələri, Sovetlərlə əvəz olundu.

1930-cu il Sovetlər dönəmində Nuxada inzibati rayon təşkil olunmuşdur.1963-cü ildə Nuxa respublika əhəmiyyətli şəhər olmuşdur.Onun tabeçiliyində olan kəndlər Vartaşen (indiki Oğuz) rayonuna verildi.

1965-ci ildən kəndlər yenidən Nuxaya qaytarıldı,Nuxa isə respublika əhəmiyyətli şəhər kimi qaldı.

Respublika Nazirlər Kabinetinin 24 noyabr 1967-ci il tarixi

qərarı ilə Şəki şəhərinin “Yuxarı baş”hissəsi Tarix-memarlıq Qoruğu elan edilmişdir.

SSR Ali Sovetinin 15 mart 1968-ci il tarixli fərmanı ilə Nuxa şəhərinin adı dəyişdirilib Şəki adlandırıldı.

Arxeoloji qazıntılar zamanı əldə olunan tapıntılardan belə nəticəyə gəlmək olur ki, Şəkinin əsası e.ə. VII əsrdə, yəni 2700 il bundan əvvəl Saklar tərəfindən qoyulmuşdur.

## ŞƏKİ HÖKMDARLARI

Şəki hökmdarlığının ərazisi bu gün mövcud olan Azərbaycan Respublikasının şimal-qərbində, Gürcüstan Respublikasının şərqi və Rusiya Federasiyası Dağıstan Respublikasının cənub ərazisində 14-cü əsrin 93-cü ilindən 1399-ci ilə qədər müstəqil dövlət olmuş, əvvəl monqol mənşəli Orlat sülaləsi, sonra xristian Alban mənşəli Qara Keşiş oğlu və onun nəslindən islam dinini qəbul etmiş hökmdarlar tərəfindən idarə edilmişdir. Bu dövlətin ərazisi qərbdə Tiflis şəhəri yaxınlığından, şərqə - Qəbələ şəhəri yaxınlığına qədər, cənubda Kür çayından, Böyük Qafqaz sıra dağlarından şimala qədər, hətta bəzi məlumatlara görə Dərbənd şəhərinin yaxınlığına qədər uzanmışdı.

**Orlat sülaləsindən olan hökmdarlar**

Seyid Əli Orlat 1393 — 1399 (Bu dövrdə Şəki müstəqil dövlət oldu)

Seyid Əhməd Orlat 1393 —1423/24 (Seyid Əli Orlatın oğlu)

Sülaləsi dəqiq məlum olmayan hökmdarlar

Əli İnaq -1435 — 1435

Əbdülqafar -1447/1448 — 1468/1469

Şahhüseyn -1497 — 1497

Qara Keşiş nəslindən olan hökmdarlar (1444-1551)

Əlican (Candar) xan Qara keşiş oğlu 1444/45 — 1456/57

Qutul xan (Əlican xanın oğlu) 1456/1457 — ?

Şəki xan (Qutul xanın oğlu) - ?

Həsən sultan -1519 — May,1524 (Şəki xanın oğlu)

Dərviş Məhəmməd xan (Həsən sultanın oğlu) May,1524 — May, 1551

**Şəki hakimləri**

1551 — 1555 Toygün bəy Qacar

1555 — 1578 Şamxal Sultan Çərkəz

1578 -1580 İsa xan (Şah ismayılın oğlu Sam Mirzənin qızının əri)

1580 — 1591 Əli sultan Osmanlı dövlətinin fərmanı ilə paşa ləqəbi ilə Şəki məmləkətinin və onun əlavə edilən ərazisinin sancağının bəylər bəyi təyin olundu.

1591 — Əmir Osman

______ Məhəmməd sultan

______ 1648 Aslan sultan

1648 — Abbasqulu sultan

— Şahmir xan (Şəkinin valiləri nəslindən olub, bir müddət İran şahının hüzurunda olub.

Şəki məlikləri

1642 — Məlik Səfiqulu

1690-cı il də Allahqulu sultan oldu.

1691 — Məlik Həsən

1691 — Məlik Səfərqulu (Məlik Səfiqulunun oğlu)

1734 — 1737 Əlimərdan bəy (ibn Məhəmməd xan sultan, ibn Məlik Səfiqulu)

1737 — 1739 Məlik Nəcəfqulu (Məlik Səfərqulunun oğlu)

1739-1747 Nadir şah Hacı Çələbini Şəkiyə ikinci hakim təyin etdi

1739— 1747 Məlik Cəfər (Məlik Nəcəfqulunun qardaşı oğlu)

Müstəqil Şəki xanları

1747-1755 Hacı Çələbi xan

1755-1759 Ağa kişi bəy (Hacı Çələbi xanın oğlu)

1759-1780 Hüseyn xan (Həsən xanın oğlu,Hacı Çələbi xanın nəvəsi)

1780-1783 Hacı Əbdülqadir xan (Hacı Çələbi xanın oğlu)

1783-1795 Məhəmmədhəsən xan (Hüseyn xanın oğlu,Hacı Çələbi xanın nəticəsi)

1795-1797 Səlim xan(Hüseyn xanın oğlu, Hacı Çələbi xanın nəticəsi)

1797-1805 Məhəmmədhəsən xan (Hüseyn xanın oğlu )-2-ci dəfə

1805 Fətəli xan (Hüseyn xanın oğlu, Hacı Çələbi xanın nəticəsi)

1805-1806 Səlim xan (Hüseyn xanın oğlu)-2-ci dəfə

1806-1814 Cəfərqulu xan Xoyski

1814-1819 İsmayıl xan (Cəfərqulu xanın oğlu)

1819-1826 Şəki əyaləti Çar Rusiyasının komendantlıq idarə etmə üsulu

1826 Hüseyn xan (Səlim xanın oğlu)

Kiş Nuxa və Şəkərqənd kəndlərinin titul verilməsi haqqında Şirvan bəyləri Xosrov xanın hökmü (Yazının dili saxlanılıb).

1646-cı ilin iyun ayında verilmişdir. Azərbaycan SSR EA Respublika Əlyazmaları fondu.

Yüksək hökm verildi o haqda ki, günəş qədər yüksək olan (şahın) 1043-cü ilin səfər ayı tarixli dünya itaət etməli hökmünə əsasən ötən txaquyilin 8-ci ayının başlanğıcından etibarən aşağıda adları qeyd olunan mahalın:

Kiş kəndi , Nuxu kəndi, Şəkərqənd kəndi.

3 tumən Təbriz pulu məbləğindən ibarət vergilər məcmuu, istər çox və istərsə də azlığından bağlı olmadan, nəsildən-nəsilə və arxadan-arxaya keçmək şərti ilə Şəki mahalı tiuldarlarının tiulundan dəyişdirilərək azad edilmiş, uca və yüksək rütbəli Məlik

Səfərquliyə və onun əmisioğlu  Baydar bəyə tapşırılmış və mehribanlıqla mərhəmət olunmuşdur.İndi isə qeyd olunan mahalın məliki uca və yüksək rütbəli Məlik Səfiqulu  ali divana gələrək yüksək qol çəkilməsini xahiş etmişdir. Buna əsasən qərar verdik ki, oranın hakim və tiuldarı günəş qədər yüksək (şahın) dünya itaət etməli hökmündə göstərildiyi qərar üzrə tədbirlər görüb qeyd olunan mahala qarışmasınlar. Yuxarıda yazılmış məbləğin əvəzini günəş şualı (Şahın) dünya itaət etməli hökmünə uyğun olaraq əzəmətli divan işçilərindən tələb etsinlər.Bu haqda göstəriş verildiyini bilsinlər.

Yazıldı 1056-cı ilin cümadiul- əvvəl ayında (Möhür izi):”allahın lütfü səninlə olarsa , Xosrov dərgahın bəyənilmişlərindən olar.” 1056

# HƏSƏN SULTAN

Tarixi mənbələrdə (1519) Həsən sultanın adı ilk dəfə çəkilir. Bu dövrdə Kaxet hakimi Leva Şəkiyə hücum edir.Həsən sultan yardım üçün Şah İsmayıla müraciət edir.Şah İsmayıl müraciətə müsbət cavab verir.Təcavüzkarın cəzalandırılması 1521-ci ilə təsadüf edir.

Həsən sultan Şah İsmayılı  Şəkiyə dəvət edir. 1524-cü ildə Şah İsmayıl Şəkiyə gəlir və onu təntənə ilə qəbul edirlər. Şah İsmayıl Şəkidə ova getmək arzusunu bildirir. Yerli ağsaqqallar ona istədiyi müqəddəs yerdə ov etməyi məsləhət görmürlər.  Xəbərdarlıqlara məhəl qoymayan Şah İsmayıl Həsən sultanla birlikdə müqəddəs yerlərdə ov edirlər. Ov zamanı Şah İsmayıl huşunu itirir, atdan yıxılır və 3 gündən sonra vəfat edir.

Şah İsmayıl öləndən sonra Kaxeti hakimi Levon yenidən Şəkiyə basqın etdi . Döyüşdə Həsən sultan məğlub oldu və onu döyüşdə öldürdülər.

Həsən sultanın ölümündən sonra Şəki vilayətinin böyükləri Həsən sultanın oğlu Dərviş Məhəmməd xanı özlərinə hakim elədilər.

19-cu əsr yerli Şəki tarixçisi H.S.Əbdülhəmidə görə Həsən sultanın meyidini  gətirib "Daş-yüz" adı ilə məşhur olan yerdə torpağa tapşırmışlar. 19-cu əsrin sonu, yaxud 20-ci əsrin əvvəllərinə aid anonim digər bir yerli Şəki mənbəsində isə göstərilir ki, həmin vaxt Həsən sultanın qəbri Cəfərabad kəndinin yaxınlığında, "Arvatan" deyilən yerdə, yolun kənarında dəfn edilmişdir. Hal-hazırda Cəfərabad kəndinin sakinləri kəndin şimal-şərq hissəsindəki ərazini "Həsən soltan" adlandırmaqdadırlar.

Bu hadisə Yunus Oğuzun "Təhmasib Şah" kitabında (səhifə 156) Şah İsmayılın Şəkiyə sonuncu səfəri belə təsəvvür olunur.

Şah Ismayılın sonuncu səfəri 1524-cü ildə Şəki mahalına olub,Həsən sultanın vaxtında onlar müqəddəs yerdə ceyran ovuna çıxmışdı. Və bu səfəri, o ürkək ceyranın baxışlarını böyük şah güzgü kimi xatırlayırdı. Ceyran bulaqdan su içir, o isə gözləyirdi, ceyran başını qaldıran kimi oxunu atacaqdı. Birdən...ceyran ağzını sudan ayırdı və... düz ona sarı baxdı. Göz-gözə qaldıqları anda bədəni üşəndi, qolları boşaldı, yay əlindən düşdü. Aman, Allah! Sanki Bəhruzə xanımın(Çaldıran döyüşündə osmanlılara əsir düşmüş xanımı) baxışları önündə durmuşdu. Bu baxışlar onu elə sarsıtdı ki, bircə addım da ata bilmədi. Heç ayaqları da boşalmadı və birdən ildırım vurmuş palıd ağacı kimi sağ tərəfə aşdı. Sonra nə baş verdiyini xatırlamırdı. Onun hansı tərəfdənsə atılan ox və ya güllə ilə vurulduğunu zənn edən qızılbaşlar elə çaşmışdılar ki, şahın bədənini yoxlamaqdan qorxaraq dəli kimi ətrafı ələk-vələk etməklə məşğul olmuşdular. Əgər qarşılarına çıxan meşəbəyini vurub öldürərdilərsə, onda Şah İsmayılın başına gələnləri bilmək mümkün olmayacaq idi. Meşəbəyi onun yerə sərilmiş bədəninə baxan kimi məsələni anlamış və onları duyuq salmışdı. Böyük şahın beyninə qan sızmışdı... Ehtiyatla arabaya uzadıb Təbrizə gətirdilər. Yolboyu həkimlər çağrıldı, min cür ilac düzəltdilər, ovsunlar, dualar oxundu. Çox çətinliklə onu ayıldıb özünə gətirə bildilər. Amma,daha nə qalxmağa, nə də hərəkət etməyə taqəti qalmamış, sanki ayaqları, qolları özündən əvvəl ölmüşdü.

Böyük şahın tavana zillənmiş baxışlarının arxasından min bir fikir keçirdi. Ancaq , bu məqamda daha Bəhruzə xanım barəsində düşünə bilmirdi. Ağlı başında olsa da ömrünün son anları olduğunu hiss edirdi. Hətta bu gün dünyasını dəyişəcəyini də yəqin etmişdi. Bu dəqiqələrdə onun içini bir sual yeyirdi. Bu sualı özündən başqa heç kimə verə bilmirdi. Allahın dərgahına necə getdiyini düşünürdü. Oraya hansı əməllərlə gedirdi?

Görünür, günahı az olmamışdı. Bəs Tanrı qarşısında hansı böyük günahları işlətmişdi? O hansı böyük günah idi ki, bu cavan vaxtında onu dünyadan aparırdı. Özü də belə. Şah İsmayıl "bəlkə"lər və "güman"lar girdabına düşmüşdü. Fikirlərində dəqiq bir nəticə əldə edə bilmədiyi üçün daha çox üzülürdü. Bəlkə də özünü on ikinci imam Mehdi sahibəzzaman elan etməsinə görə cəzalanırdı? Atası Şeyx Heydərə, babası Şeyx Cüneyidə qarşı törədilmiş cinayətə görə şirvanlıları və ləzgiləri çox amansızlıqla cəzalandırması da yadına düşürdü. Bəzən sünnilərə qarşı amansızlıq göstərməsi də səbəb ola bilərdi. Amma bütün bunlar səltənətin qüvvətlənməsi,şiəliyin yayılması və başqalarının qarşısını alacaq ibrət dərsi olsun deyə baş vermişdi. Beləcə haldan düşənə qədər fikirləşir, bu fikirlər içərisində yatırdı. İndi onunla Tanrı arasında heç kim yox idi, heç kim ona kömək edə bilməzdi. Tanrı dərgahına hər kəs etdiyi əməllə gedirdi, heç kim başqasının əməlinə görə o dünyada cavab verməyəcəkdi. Şah İsmayıl ölüm ayağında bunu gözəl başa düşür, əməllərini saf-çürük edir, özünü o dünyaya hazırlayırdı.

Şah İsmayıl oğlunu və Şeyxi yanına gətirilməsini əmr etdi , onlar gəldikdən sonra dedi :

- Oğlum Təhmasib, diqqətlə qulaq as və dediklərimi yadında möhkəm saxla. Bilirəm, yaşın azdır. İndi deyəcəyim sözləri başa düşməyəcəksən. Amma yadında saxla və anlamağa çalış. İndi başa düşməsən də bir azdan hər şey sənə agah olacaq. Şeyx də bu işdə sənə kömək edəcək. Səltənətini qorumaq üçün sufilərdən, əxilərdən (əxilər orta əsrlərdə kiçik Asiyada və qismən Azərbaycanda meydana gəlmiş zəhmət qardaşlığı deyilən cəmiyyətin üzvləri) möhkəm yapış. Onları heç vaxt incitmə. Onlar səltənətin canı, gücü, qoruyucularıdır! –gözlərini yumdu və bir qədər susdu. Yenidən qüvvə toplamağa çalışdı. Bir qədər keçdikdən sonra gözlərini açdı.

-Yadında saxla! Biz  Ağqoyunlular dövlətinin birbaşa varisləriyik. Sən şah övladısan. Babaların da əslində həmişə şah olub. Dərvişlik bizim dini əqidəmizdir. Osmanlılar bizim əcdadlarımızı Bayanduri adlandırırdılar. Bayandur xan Həsən şahin əlli ikinci babası olub, həmişə də bu yerlərdə yaşayıblar. Biz yalnız dövlətin adını dəyişib  Səfəvilər qoymuşuq. Qalan heç nə dəyişməyib. Ölkə də həmin ölkədir, millət də, xalq da. Biz onu birləşdirməyə və qüdrətli etməyə çalışmışıq. Səhvlərimiz də olub, ugurlarımiz da. Təəssüf ki, bütün türklər bizi anlamadı, sevmədi, bizləri məzhəb ədavətinə çəkdilər. Biz də buna getdik. Getməsəydik onda da daxildəki qüvvələrin rəğbətini qazana bilməyəcəkdik. Əvvəlcə xalqı birləşdirmək lazim idi. Buna nail olsaq da, ətrafdakı qardaş xalqları birləşdirməyə çatmadıq. Kafir avropalılar, bir yandan da müsəlman dünyası bizi çox qisqandı, çox fəsadlar törətdilər.

Vəliəhd Təhmasib Səfəvi ayaq üstə durub atasına diqqətlə qulaq asırdı. Bir çox şeyləri başa düşməsə də, atasının bu həssas, amma, daha qüdrətli, daha böyük məqamında dediklərini yaddaşına həkk etməyə çalişırdı.

Ölüm ayağında olan Böyük Şah İsmayıl Səfəvi isə öz vəsiyyətini edirdi:

-Oğlum, osmanlılarla açıq savaşa girmə. Onlar bizdən daha güclü olduqlarına əmin olmasalar, torpaqlarımıza basqın etməzlər. Sultanın canişinləri bizim torpaqlara soxulmasa, sən öz başından onların sərhədlərini pozma. Aramızdakı sünni-şiə fərqinə baxma, osmanlılar qızılbaşlarla qan qohumlarıdır. Onlar da Oğuzlardandır. Çaldıran müharibəsi olmasaydı,hər şey tamam başqa cür olacaqdı... tamam. Təəssüf! Sultan Səlim bunu anlamadı. O ...Axı niyə... Mən... Bu...

Böyük Şah İsmayıl yenidən nəfəsini dərdi. Danışmağa taqəti qalmamışdı. Son nəfəsinin çatdığını hiss elədi. Amma vəsiyyətini

bitirməmişdi. Kaş ki, vaxtında bütün fikirlərini qələmə alaydı.

-Oğlum!- Böyük Şahın səsi sanki qeybdən gəlirdi.

Təhmasib atasının yanına gələni bayaqdan bir kəlmə də danışmamışdı.

-Bəli, şahım!

-Mən Azərbaycanımı tam birləşdirə bilmədim. Şirvanı və Şəkini nəzərdə tuturam. İndi bu şərəfli iş sənin öhdənə düşür. İnanıram ki, sən özün bunu edəcəksən. Bunu etmək üçün yeddi Oğuz tayfasını öz ətrafında cəmlə. Çalış ki, heç zaman səndən uzaqlaşmasınlar, onları incitmə. Mən Rumlu, Qacar, Avşar, Zülqədər, Təkəri, Ustaclı, Şamlı tayfalarını deyirəm. Onlar sənin döyüşən qolların, səltənətin isə dirəklərindir. Əməllərinə və bacarığına görə onlara vəzifə ver, torpaqlar bağışla... Bu tayfalardan birini o birilərindən üstün tutma! Elmdən və ədalətdən kənar olma! Hər şeyi Allahin qoydugu qaydalarla həll et! Onda sənin hakimiyyətin uzun ömürlü və möhkəm olacaq. – Şah İsmayıl baxışlarını Şeyxə sarı yönəltdi. Deyəsən, çatdıra bildim. Daha vaxtdır. Tanrı məni öz dərgahına çağırır.

# DƏRVIŞ MƏHƏMMƏD XAN



(1524-1551)

Şah İsmayıl ölümündən (23 may 1524) sonra "Gürcüstanın Kaxet hakimi Ləvənd xanın Şəkiyə hücüm etməsi və Şəki valisi Həsən bəyin öldürülməsindən sonra Şəki camaatı ondan (yəni Həsən bəydən) sonra Dərviş Məhəmməd bəyi hökumət taxtına əyləşdirdi..."

Sultan Süleyman Azərbaycandan çəkildikdən sonra Təhmasib şah atası Şah İsmayılın vəsiyyətini yerinə yetirmək üçün məqamın yetişdiyini duydu. İyirmi yeddi il idi ki, vəsiyyəti ürəyində gəzdirən şah oğlu şah Şəki hakimliyinin fəaliyyətinə son qoymaq qərarına gəldi. Bu bədii əsərdə öz əksini belə tapıb.

Dərviş Məhəmməd Ərəşdən gəlmiş məktubun müzakirəsi üçün əyanları xan sarayına məsləhət-məşvərətə yığmışdı. O öz əyanlarının fikrini bilmək istəyirdi.

-Ağalar, Təhmasib şah bizi Ərəşə çağırır. Nə təklif edirsiniz? Təklifi qəbul edəkmi, etməyəkmi?

Əyanlardan biri irəli yeridi.

- Xan həzrətləri! Qarabağdan Sevindik bəy Avşar keçən il Şəkini viran qoyub,yağmalayıb getdi.Onlar buralarda qalmadılar ki? Yox, gəldilər, çıxıb getdilər. Sevindik bəy Şəkidə olan ərəfədə bizlər “Sıqnaxa”, “Kişi” və “Gələrsən –Görərsən” qalalarına çəkildik. Onlar getdikdən sonra təzədən Şəkiyə döndük və xan həzrətlərinin rəhbərliyi altında ölkəni bərpa və idarə etməyə başladıq.

Məhəmməd Dərviş xan əyanın üzünə baxmadan və sanki

məchul nöqtələrdən soruşurmuş kimi:

-Təklif edirsən ki, əvvəlki üsuldan istifadə edək?-dedi.

Əyan başını yelləyə-yelləyə dilinə də aram vermədi:

-Bəli, xan həzrətləri! Əgər Ərəşə getsəniz, şah sizi müxtəlif məsələlərdə günahlandıracaq, boynunuza minnət qoyacaq. Hətta Nuh əyyamından qalma şeyləri də sizə xatırladıb ittiham edə bilər. Son nəticədə isə üzərinizə elə vergi qoyacaq ki, olub qalanımızı yığıb versək də, yenə bəs olmayacaq.

Bir müddət kimsə dillənmədi. Hamı fikirləşir, daha münasib bir yol arayırdı. Amma, deyəsən başqa cür düşünə bilmədilər.

1551-ci ilin yazında Şah Təhmasib Şəkiyə yürüşə başladı və böyük bir ordu ilə gəlib Ərəşə düşdü. Burada Kaxetiya hakimi Levan da oz dəstəsi ilə qızılbaşlarla birləşdi. İlk toqquşma çox güman ki Şəki ölkəsinin sərhəddində baş verdi və Bədr xan ilə Şahqulu sultan Ustaclının başçılıq etdiyi qızılbaş dəstələri "Dərviş Məhəmməd xanın qarovullarını" məğlub edərək "Əmir Yusif", yaxud "Əmir Cövşən" adlı Şəki sərkərdəsini əsir götürdülər və onu Şah Təhmasibin yanına göndərdilər.

Dərviş Məhəmməd xan Kiş qalasının mühafizəsini əsir düşmüş Şəki sərkərdəsinin qardaşı Mahmud bəyə tapşırıb, özü "Gələrsən-Görərsən" qalasına qalxdı. Şəki əhalisinin bir qismi isə dağın başında – "Sığnaq" deyilən yerdə qərar tutdu. Sunduk bəy, Bədr xan və Şahqulu sultanının başçılıq etdiyi qızılbaş dəstələri Kiş qalasına, Şahqulu Xəlifə möhrdarla bəzi qızılbaş əmirlərin başçılıq etdiyi dəstələr Sığnağa və Abdulla xan ilə Kaxet hakimi Levan xanın tabeliyində olan dəstələr isə “Gələrsən-Görərsən” qalasına hücum etdilər.

Şəkililər inadla müqavimət göstərirdilər.Şahqulu xəlifə Zülqədər öz dəstəsi ilə Sığnağın yerləşdiyi dağa qalxmaq istəyərkən, əks tərəfdən açılan tüfəng atəşləri ilə geri otuzduruldu.

Qızılbaşlar döyüşə-döyüşə "Gələsən-Görəsən" qalasına yaxınlaşdılar, qala divarları yanında "sib"lər (barrikadalar) qurdular, qala divarlarına yaxından atəş aşmaq üçün bir "firəng topu"nu bir dəstə ilə qala divarlarının lap yaxınlığına – dağa, qaldırdılar. Lakin birdən, gözləmədikləri halda qalanın qapısı açıldı, müdafiəçiələrdən bir dəstə bayıra çıxıb topu yuxarı qaldıran qızılbaş dəstəsinə hücüm etdi və onlardan bir neçəsini qətlə yetirib, "firəng topu"nu da özləri ilə götürərək tez-tələsik qalaya çəkildi. Nəticədə "Gələsən-Görəsən" qalasının müdafiəsi daha da gücləndi və oradan qızılbaşlara "firəng topu" ilə atəşlər açılmağa başladı.



Kiş qalası da ciddi müqavimət göstərirdi. Həsən bəy Pənk oğlunun 1000 nəfərlik tüfəngçi dəstəsi 20 gün ərzində qalanın qərb tərəfində mövqe tutaraq qalaya atəş açırdı. Qalanın bürcünün hansısa bir dişində bir qaraltı görünən kimi, ora yüz tüfəngdən güllə atılırdı.

Gələrsən-Görərsən qalası

Qalaya doğru atılan topların zərbəsindən və qala divarlarına tətbiq olunan badlicin (partlayıcının) təsirindən qalanın bir bürcünün divarının aşağısında böyük bir oyuq əmələ gəlmişdi və qızılbaşlar ora çur-çubuq yığıb od vurdular. Nəticədə bürc uçdu və (bundan sonra – 16 may tarixdə) qalabəyi Mahmud bəy qaladan bayıra çıxıb qalanın qapılarının açarlarını Şah Təhmasibin vəkillərinə təqdim etdi. Şah Təhmasibin əmri ilə bu "istehkamın bürc və barıları yerlə yeksan edildi".

Kiş qalasının təslim olması nəticəsində Şah Təhmasibin daha böyük qüvvə ilə Sığnağa hücum etməsi üçün şərait yarandı və o,

doğrudan da daha çox qoşunla Sığnaq tərəfə hərəkət etdi. Səfəvi tarixçisinin təbirincə, "Sığnaq adamları Kiş qalasının fəthindən xəbərdar olan kimi, dəstə-dəstə Şah aləm pənahın dərgahına gəldilər." Sözsüz ki Sığnaq müdafiəçilərinin təslim olmasının əsas səbəblərindən biri də Şah Təhmasibin sabiq qalabəyi Mahmud bəyi öz yanında saxlaması idi. Yəni Şah Təhmasib Sığnaq müdafiəçilərinə əyani surətdə göstərirdi ki, "baxın, sizin hörmətli sərkərdəniz – Mahmud bəy, o, indi mənim yanımdadır və mən onu əfv eləmişəm, siz də təslim olun, sizi də əfv edəcəyəm!".

Kiş qalası ilə Sığnaq müdafiəçiləri təslim olandan sonra isə Dərviş Məhəmməd xan gecə 400 nəfərlə "Gələsən-Görəsən" qalasından çıxıb qalanı mühasirə edənlərlə vuruşmağa başladı. Bu "Gələsən-Görəsən" qalasından edilən növbəti şəbxun idimi (gecə vaxtı düşmən üzərinə edilmiş basqın) ? Ya Dərviş Məhəmməd xan qızılbaşların tezliklə daha böyük qüvvə ilə "Gələsən-Görəsən"ə hücum edəcəyini və bu halda da qalanın müdafiəsinin daha da çətin olacağını nəzərə alıb, gecəliklə mühasirəni yararaq qalanı vaxtında tərk etmək istəmişdi? Qızılbaş mənbəsində birmənalı olaraq Dərviş Məhəmməd xanın 400 nəfərlə qaladan qaçmağa cəhd etməsi vurğulanır və həm də qeyd edilir ki, həmin 400 nəfərdən 250-si qızılbaşlar tərəfindən qətlə yetirilmiş, o cümlədən, Çərəndab sultanın mülazimi Kosa Pirqulu Dərviş Məhəmməd xanı öldürərək, başını kəsib Şah Təhmasibin yanına gətirmişdir. Eyni mənbədə Şah Təhmasibin öz yanında saxladığı Kiş qalasının sabiq qalabəyi Məhmud bəyin "əsassız şübhəyə düşərək" qaçması da göstərilir və mümkündür ki, "Gələsən-Görəsən"dən edilən son hücum zamanı qızılbaş ordusunda qarma-qarışıqlıq yaranmış, məhz bu zaman isə Mahmud bəy fürsətdən istifadə edərək aradan çıxa bilmişdir.

Dərviş Məhəmməd xanın öldürülməsindən sonra Şah Təhmasib Şəkidə öz adına sikkə vurdurub xütbə oxutdurdu, Şəki ölkəsi Səfəvilər dövlətinin bir subyekti oldu və buranın idarə edilməsi Toygün bəy Qacara tapşırıldı.

# HACI ÇƏLƏBI XAN



Hacı Çələbi xanın doğum tarixi məlum deyil. O qədim Azərbaycan şəhəri Şəkidə zadəgan ailəsində anadan olmuşdur. Atası Qurbanxan əslən ortlaq türk tayfasından imiş.Tarixi mənbələrə görə, bu tayfanın başçıları XIV əsrin sonu-XV əsrdən başlayaraq Şəki feodal qurumunun hakimləri Dərviş Məhəm-məd xanın uzaq xəlifəsi olmuşdur.

Hacı Çələbi xanın 4 oğlu olub: Həsən ağa, Ağakişi xan, Əbdülqadir xan, Cəfərağa. Həsən ağa onun sağlığında Əfşar dövlətinin əmiri Aslanla döyüşdə öldürülüb.

Hacı Çələbi xanın uşaqlıq və gənclik illəri haqqında məlumat çox azdır. Məlum olan odur ki, silah işlətmək, tarix, ədəbiyyat, digər elmlər barədə müfəssəl təhsil almışdı. Şəxsi mütailəsi sayəsində biliklərini artıran Hacı Çələbi xan xalq arasında böyük hörmət və nüfuz qazanmışdı.

Şəkinin idarə edilməsi Nadir şah Məlik Nəcəf adlı birisinə hə-valə edilmişdi.Bu şəxs əhalini talayır, var-dövlətini əlindən alırdı.Əlacsız qalan xalq Hacı Çələbiyə müraciət edib, ondan məsələni həll etməyi xahiş edir.Hacı Çələbi Məlik Nəcəflə danışsa da, bu bir nəticə vermir.Vəziyyətin kəskinləşdiyini və xalqın üsyana hazırlaşdığını görən Məlik Nəcəf Nadir şaha mək-tub yazaraq, özünün ədalətli hakim olduğunu, Hacı Çələbinin isə xalqı üsyana qaldırdığını bildirir. Nadir şah hər ikisini sarayına çağırır. Şah onların heç birinə  qulaq asmadan Hacı Çələbinin boynuna kəndir keçirtdirir.Çələbi Şahın onu dinləməsini xahiş edir.O, Məlik Nəcəfin bütün nöqsanlarını şahın üzünə deyir. Şah

Məlik Nəcəfi cəzalandırmır və yenidən Şəki hakimliyi vəzifəsinə təsdiq olunur. Bağışlanmış Hacı Çələbi isə şahın vəkili təyin edilir. Uzaqgörən Nadir şah əyanlara deyir:"Mənim hüzurumda heç kim səsini çıxarmağa cürət etmədiyi halda, bu şəkili boynuna ip keçirilməsinə baxmayaraq cəsarətlə şikayətlərini çatdırdı.Görərsiniz, o nəsə törədəcək".

1743-cü ildə Şəkiyə qayıtdıqdan sonra daha da azğınlaşan Məlik Nəcəf ondan şikayət edənlərə divan tutmağa başlayır və belə şəraitdə xalq silaha sarılır.Kortəbii halda başlanan üsyan nəticəsində Məlik Nəcəf və onun adamları öldürülür, Hacı Çələbi üsyana başçılığı öz üzərinə götürür.O, baş verənlər barədə Nadir şaha xəbər göndərir və bütün günahın şahın təyin etdiyi hakimlərdə olduğunu bildirir. Hacı Çələbi xan Şəkini müstəqil xanlıq, özünü isə onun başçısı elan edir.

1743-cü ildə Hacı Çələbi müstəqil Şəki xanlığının əsasını qoydu.

Aşağıdakılar Mehman Süleymanovun " Nadir Şah" kitabındandır

Yuxarıda qeyd edildiyi kimi, 1743-45-ci illərin qiyami və iğtişaşları Nadir şahın Osmanlı dövləti ilə müharibə apardığı bir vaxta təsadüf edir. Müharibəyə başı qarışması onun qiyamların yatırılmasında şəxsən iştirakını qeyri-mümkün edirdi. Osmanlı dövləti ilə müharibədə fasilə yaranan kimi Nadir şah Şəki üsyanının yatırılmasına yollandı. Baxmayaraq ki, həmin vaxt ölkənin daxilindəki digər qiyamlar hələ yatırılmamışdı.

Nadir şah bütünlükdə Şirvanda və Dağıstanda baş verən hərəkatlara daha həssaslıqla yanaşırdı. Görünür, bu da səbəbsiz deyildi. Şirvanda və Dağıstanda yerli hakimlərin möhkəmlənməsi və güclənməsi son nəticədə Qafqazın yenidən itirilməsi ilə nəticələnə bilərdi.

Nadir şahın Şəkiyə yürüşü "Tarix-e Cahanqoşa-ye Naderi"də

və "Aləm Ara-ye Naderi"də çox müxtəsər şəkildə xatırlanır. Amma bu məlumat da həmin yürüş haqqında geniş təsəvvür əldə etməyə imkan vermir. Bu mənbələrə görə, Nadir şahın Şəkiyə yürüşünü təsadüfi və ya Nadir şah üçün elə bir əhəmiyyət kəsb etməyən, yürüş kimi dəyərləndirmək mümkündür. Əslində bu bölgədə də Nadir şah hakimiyyətinə qarşı çox ciddi bir üsyan təşkil edilmişdi.

İlk baxışdan Şəkidə də üsyanın qalxmasına səbəb Nadir şahın təyin etdiyi hakimlərin dözülməz idarəçiliyi və vergilərin ağırlığı idi. Hələ 1741-ci ildə Nadir şah Dağıstanda olarkən Şəkinin nümayəndələri şahın qəbuluna gəlib Şəki hakimi Məlik Nəcəfdən ona şikayət etdilər. Şikayətlərə görə, həmin hakim əhalidən təyin olunandan xeyli artıq vergi toplamağa cəhd göstərirdi. Nadir şah Şəki əhalisinin nümayəndələrini kifayət qədər təmkinlə dinləyib şikayətlərinə diqqətlə yanaşdı. Özü təyin etdiyi hakimi azad etməsə də Şəki əhalisinə özlərinin vəkilini seçməsinə içazə verdi. Nadir şahın razılığına əsasən yerli əhali tərəfindən vəkil seçilən şəxs Şəki hakiminin qanunsuz fəaliyyətinə müəyyən nəzarəti həyata keçirə bilərdi. Şəki əhalisi də camaat arasında hörmət və nüfuza malik olan Hacı Çələbinin vəkil seçilməsini istədi. Hacı Çələbinin Şəki mahalının vəkili seçilməsi haqqında fərman imzaladı və ona müəyyən səlahiyyətlər verdi. Həmin səlahiyyətlərə əsasən Şəki hakimi Hacı Çələbinin razılığı olmadan əhaliyə hər hansı bir mükəlləfiyyət (dövlət tərəfindən qoyulan borc,vergi) təyin edə bilməzdi.

Az sonra Şəki hakimi Məlik Nəcəflə Hacı Çələbi arasında ixtilaflar yaranmağa başladı. Məlik Nəcəf onun fəaliyyətinə nəzarət edilməsi ilə barışmaq istəmirdi və buna görə də müəyyən bəhanə edib Hacı Çələbini onun işlərinə qarışması, xüsusilə vergilərin toplanmasına mane olması barədə Nadir şaha şikayət etdi.

Azərbaycan mənbələrində də Nadir şahın Məlik Nəcəflə və

Hacı Çələbi ilə yenidən görüşməsi haqqında məlumat vardır.Çox güman ki, bu görüş Nadir şahın Dağıstandakı və ya Şirvandakı düşərgələrindən birində baş vermişdi. Mövcud olan məlumatlardan belə məlum olur ki, Məlik Nəcəf Hacı Çələbiyə ciddi cəza veriləcəyinə əmin idi. O, Nadir şaha bildirdi ki, Hacı Çələbi şah əmrlərini rəiyyət tərəfindən icra olunmasına imkan vermir, şahın əmrlərinə kimsə qulaq asmaq istəmir.

Nadir şah bu məlumatdan doğrudan da qəzəbləndi və onun təyin etdiyi vergilərin toplanmasına mane olduğu üçün Hacı Çələbini asmaq üçün göstəriş verdi. Amma Hacı Çələbi şaha məlumat verdi ki, onun məqsədi şahın təyin etdiyi vergilərin toplanmasına mane olmaq deyil.Əksinə, buna şərait yaratmaqdir.Şəki hakimi isə əhalidən təyin olunandan daha çox vergi tələb edir .Nəticədə əhali nə şah vergilərini verə bilir,nə də əlavə vergiləri.

Nadir şah Hacı Çələbinin söylədiklərinin məntiqini qəbul etdi və onu verilən cəzanı ləğv etdi.Hacı Çələbi əvvəlki vəzifəsində saxlanmaqla səlahiyyətləri bir qədər də genişləndi.Belə bir düşüncə sahibinin nə vaxtsa ona qarşı müxalifətə keçəcəyini ehtimal etsə də, Nadir şah onun ağlını və zəkasını yüksək qiymətləndirib həyatına toxunmadı. Öz əyanlarına isə onun haqqında olan fikirlərini belə çatdırdı: ”Mənim hüzurumda heç kəs danışmağa belə cəsarət etmədiyi halda, bu şəkili Çələbi kəndir boğazında özünü itirmədən fikirlərini mənə söyləməyə cəsarət tapdı. Görərsiniz, o bir xəta törədəcəkdir, mən öz zənnimdə heç vaxt yanılmıram”.

Nadir şah etimad göstərib Hacı Çələbini ölümdən azad etdi .Etimadı itirənlərə qarşı isə Nadir şah barışmazlıq nümayiş etdirirdi. Hacı Çələbi sağ qalmasından və öz vəzifəsində saxlanılmasından istifadə edib Məlik Nəcəfi daha çox sıxışdırmağa başladı. Bununla da əslində mahalda iki hakimiyyətlilik

yarandı.Nadir şah bir müddətdən sonra Şirvanı tərk etsə də, Məlik Nəcəf mahalın idarəçiliyində mövcud olan çətinlikləri onun xidmətinə çatdırdı .

Nadir şah bu dəfə artıq Hacı Çələbiyə sərt münasibətini göstərdi. Nadir şah şübhə etmirdi ki, Məlik Nəcəfin qarşısında Hacı Çələbinin nfuzunun genişlənməsi mahalda itaətsizliyin yaranmasına bir zəmindir .Ona görə ona 100 tümən cərimə kəsib hüzuruna çağırdı. Hacı Çələbi bu cərimənі verməkdən imtina etdi. Nadir şahın kəsdiyi cərimənі ödəməkdən imtina edilməsi Nadir şahın üzünə ağ olması demək idi. Nadir şah hakimlərin və əyanların itaətsizliyinin və iddialığının qarşısını çox qətiyyətlə alırdı. Hacı Çələbini hüzuruna çağırmaqda da ona sərt cəza verəcəyi şübhə doğurmurdu. Hacı Çələbi bunu yaxşı başa düşüb Nadir şahın hüzuruna gəlməkdən imtina etməklə bərabər ,hətta onun mahala hakim təyin etdiyi Məlik Nəcəfi də qətlə yetirdi.Sonra isə özünü Şəki mahalının hakimi elan etdi.

Hacı Çələbinin qiyam qaldırması Nadir şahın Osmanlı dövləti ilə müharibə illərinə və ölkə daxilində iğtişaş və qiyamların genişlənməsi illərinə təsadüf edir. Hacı Çələbi tarixi şəraiti incəliklə dəyərləndirərək Nadir şahın durumunun xeyli həssas olduğu vaxt Şəki hakimin qətlə yetirdi, mahalı isə müstəqil xanlıq elan etdi. Yəni, Hacı Çələbi Nadir şahın təyin etdiyi hakimi qətlə yetirməklə bərabər, Nadir şah dövlətinin ərazi bütövlüyünün parçalanmasına cəhd göstərmək kimi bir cəsarət etdi. Nadir şahın özünün Şəki qiyamının yatırılmasına yollanmasının səbəbini də bu məqamda axtarmaq lazımdır.

Bununla belə, Hacı Çələbi şübhə etmirdi ki,onun qiyamı Nadir şahın diqqətindən kənarda qalmayacaqdır. Fürsət yaranan kimi Nadir şah Şəki əhalisinə öz gücünü və qəzəbini göstərə bilərdi. Ona görə Nadir şahın başı Osmanlı dövləti ilə müharibəyə qarışdığı vaxt müdafiə tədbirlərini gücləndirdi. Əhalini sonradan

“Gələsən-Görəsən” adı almış qalaya köçürdü. Orada ərzaq ehtiyatını artırdı, qalanın divarlarını və ətrafının etbarlı müdafiəsi üçün əlavə tədbirlər gördü.

”Gələsən-Görəsən” adlanan qala Şəkinin 8 kilometrliyində sıldırım qayalı dağların yüksəkliyində tikilmişdi. Qalanın ətrafı sıx meşəlik idi.Bu xüsusiyyətlər qalanın müdafiə imkanlarını daha da artırırdı.

1744-cü ildə Nadir şah güclü qoşunla Şəkiyə hücum edir.

Rus mənbələri əsasında Şəki üsyanının tarixini araşdıran sovet və Azərbaycan tarixçilərinin qənaətinə görə ,Nadir Şah həm 1744-cü ilin sonlarında, həm də 1745-ci ilin əvvəllərində Şəkidə olmuş və Hacı Çələbi xanın rəhbərliyi altında olan hərəkatı yatırmağa cəhd göstərmişdi.

Amma Nadir şahla birgə olan rus rezidenti Bratişev öz raportlarında şahın da qoşun dəstəsi ilə 1744-cü il noyabrın sonunda Şəkiyə gəlməsindən xəbər verir. Bratişev Nadir şahın Şəki üsyançıları üzərinə noyabr (1744) hücumundan sonra təhqir olunmuş şəkildə yenidən Bərdəyə qayıtmasını yazır. O eyni zamanda döyüş zamanı Nadir şahın az qala qətlə yetiriləcəyindən xəbər verir. ”Aləm Ara-ye Naderi” də Şəkiyə hücum zamanı Nadir şahın qətl təhlükəsini təsvir edir. Amma mənbəyə görə, bu hadisə Şəki üzərinə 1745-ci ilin fevral ayında təşkil edilən hücum zamanı baş vermişdi .

Bununla belə, qeyd etmək lazımdır ki, 1744-cü ilin noyabr ayının sonunda Şəkiyə gələn Nadir şah qoşunlarına qarşı təşkil olunan müqavimət kütləvi hal daşımırdı. Rus mənbələri xəbər verirlər ki, qoşunlar Şəkiyə yetişəndə mahalın bir sıra əyanları və nüfuzlu adamları Nadir şaha itaətini bəyan etdilər və onlar Nadir şahın bahalı hədiyyələrinə layiq görüldülər. Amma şəkililərin heç də hamısı Nadir şaha itaət etməyə razı olmadı və ona qarşı müqavimət təşkil olundu. Müqavimətin mərkəzi isə təbii

xüsusiyyətləri baxımından etibarlı müdafiə imkanlarına malik olan ”Gələsən-Görəsən” qalası oldu. Rus mənbələrinə görə, Nadir şah qoşunları 15 min nəfərdən ibarət idi. Bu qoşun dəstəsi “Gələsən-Görəsən” qalasını mühasirəyə aldı və müqavimətə əl atan şəkililərin itaət altına gətirilməsinə cəhd göstərdi. Nadir şah döyüşçülərinin irəliləmək istəyi yüksəklikdə qərar tutmuş qalanın müdafiəçilərinin atəşləri ilə qarşılandı, həm qalanın sərt qayalıqlar üzərində yerləşməsi və onun hərtərəfli mühasirəyə alına bilməməsi, digər tərəfdən ətrafın sıx meşəliklərlə örtülməsi şəkililərin daha yaxşı vuruşmasına imkan yaradırdı. Nadir şahın döyüşçüləri də bütün bacarıq və şücaətini ortaya qoydu. Azərbaycan mənbələri təsdiq edirlər ki, tərəflər arasında döyüş həm uzun çəkdi, həm də hər iki tərəf çoxlu sayda itki verdi.

Mövcud olan məlumata görə, Nadir şahın qoşunlarının heç də hamısı döyüşə cəlb edilmədi. Qalaya aparan yolun ensizliyi və qeyri-münasibliyi üzündən qoşunların əsas hissəsi, artilleriya və yüklər Daşbulaq kəndi yaxınlığında, Kotan düzü deyilən ərazidə qaldı. İrəliyə atılan qüvvələr isə ağır döyüş şəraitinə düşdü. Gecələr şəkililər meşələrə çəkilib ağaclar arxasından Nadir şah döyüşçülərini atəşə tuturdular. Yəni, şəkililər yerli şəraitə bələd olmalarından məharətlə istifadə edirdilər. Car-Balakəndən (XIX-cu yüzilliyin əvvəlində şimal-qərbi Azərbaycanda mövcud olan dövlət təsisatlarıdan biri Car-Balakən camaatlığlı idi.”Camaat” ərəb sözü olub ayrıca icmanı bildirir.Şimal qərb və qərbdən Kaxetiya,cənubdan Şirək düzü,şərqdən Şəki xanlığı ilə həmsərhəd olan bu feodal təsisatı əsasən Alazanın aşağı axarında yerləşirdi.Ərazinin tərkibində Baş Qafqaz silsiləsinin şimal yamacında yerləşən torpaqlar da daxil idi.Qədim Azərbaycan torpaqlarında yaranan Car-Balakən camaatları özündə altı camaatı - Car,Balakən Tala,Katex,Muxax və Canıxı birləşdirirdi.) gələn hərbi qüvvə isə şəkililərin gücünü bir qədər artırdı. Onlar

qalanın toxunulmazlığını saxlaya bildilər. ”Gələsən-Görəsən” qalası ətrafında  döyüş 3 gün davam etdi. 3 gün dən sonra Nadir şah qoşunlarının  geri çəkilməsi haqqında qərar verildi . Rus mənbələri Nadir şah  qoşunlarının çox  böyük itkilər verdiyini və həmin itkilərin 500 nəfər  olduğunu yazırlar.

Nadir  şahın qışın sərt çağında Şəkiyə hücum çəkməsi maraq doğuran bir məsələdir .Ona belə bir vaxtda hücum qərarı qəbul etməsinə səbəb çox ehtimal ki, şəkililərin müqaviməti dayandırmamasından narahatçılıq keçirməsi idi.

Çox güman ki, Şəkidə olduğu üç ay ərzində Nadir şah “Gələsən –Görəsən”qalası ətrafında mühasirə işlərinə rəhbərlik edirdi. Həmin üç ay ərzində göstərilən bütün cəhdlər hər hansı bir nəticə vermədi.Rus mənbələrinə görə, qalaya yaxınlaşmağa meşənin sıxlığı mane olduğu üçün Nadir şah irəliyə baltaçılar dəstəsi göndərdi.Bu dəstələr ağacları və kolluqları qıraraq qoşunların  irəlilənməsinə yol açmalı idi. Qalanın mühasirəsinə başlananda yenə bir sıra əyanlar və nüfuzlu adamlar Nadir şahın yanına gəlib itaətlərini bildirdilər.Nadir şah da onlara qiymətli hədiyyələr verdi və onlara Hacı Çələbini də itaətə sövq etməyə çağırdı. Hacı Çələbi isə bu çağırışlara əhəmiyyət vermədi. O,qala böyük ərzaq ehtiyatı yaratdığından hələ uzun müddət müqavimət göstərməyə gücü  çatacağını bilirdi.

“Gələsən-Görəsən “qalasının  mühasirəsinin davam etdiyi vaxt Nadir şah dəstələri ətraf yaşayış məntəqələrinə yürüşlər etdilər və Şəkiyə od vurdular. Qalanı tutmaq isə müyəssər olmadı. Belə olanda 1745-ci ilin mayında Nadir şah Şəkidən  geri çəkiməli oldu. Onun Şəkidən geri çəkilməsi heç şübhəsiz ki, Yegən Məhəmməd paşa ilə döyüşün yaxınlaşması ilə bağlı idi. Nadir şah Xaçından Göyçə yaylağına, oradan da İrəvan ətrafına doğru hərəkət etdi. “Gələsən-Görəsən” qalasının mühasirəsini Nadir şah dayandırmadı. Qala ətrafında dayanan bir dəstə gediş-

gəliş yollarını kəsərək üsyançıları ətraf aləmdən məhrum etdi. Yalnız bu yolla qala əhlini itaət altına gətirmək oldu. 1746-cı ilin martında üsyançılar ərzaq çatışmamazlığından müqaviməti dayandırmağı qərara aldılar. Nadir şahın fərmanı ilə Məlik Cəfər adlı birisi mahalın hakimi təyin edildi. Hacı Çələbi isə yenə də mahal vəkili vəzifəsində saxlandı.

Asiyanın ən möhtəşəm sərkərdələrindən biri sayılan Nadir şahın Şəki üsyanını yatırda bilməməsi bütün Şərqdə böyük rezonans doğurmuşdu. Nadir şah yeni qoşun təşkil edərkən ona qarşı sui-qəsd təşkil olunur: o öldürülür. Nadir şahın ölüm xəbəri Şəki xanlığının təhlükədən qurtarması demək idi.

Bu hadisə Yunus Oğuzun TarixiTəhmasib şah kitabında aşağıdakı kimi təsvir olunmuşdur:

Dövlət aparatının qurulması ilə bərabər, iqtisadi tədbirlər həyata keçirən Hacı Çələbi xan vergi sistemini nizama salır, xanlıqda sənətkarlığın və ticarətin inkişafı üçün zəmin yaradır.Qısa müddət ərzində Şəkinin iqtisadiyyatını möhkəmləndirən xan Şəkidə çoxlu ictimai binalar tikdirir.

Silahlı qüvvələrini günü-gündən möhkəmləndirən Hacı Çələbi xan vahid Azərbaycan yaratmaq qərarını alır. O dövrdə Azərbaycan ərazisində ümumilikdə 18 xanlıq, 5 məliklik, 5 sultanlıq var idi. Belə pərakəndəlik ölkənin iqtisadi və müdafiə qüdrətini zəiflədirdi.Bəzi xanlar vahid dövlət yaratmağa cəhd etmişdilər.Lakin onlar bunu güc yolu ilə həyata keçirmək istəyirdilər.Nəticədə feodal ara müharibələri daha da güclənir, ölkəyə böyük ziyan vurulurdu.

Hacı Çələbi xan öz hakimiyyətini möhkəmləndirmək üçün ənənəvi «nikah diplomatiyası»na da əl atır. Bu üsulla o, Qazıqumuq hakimi Məhəmmədhəsən xanın qızını oğlu Ağakişi bəyə alır. Qohumluq və müttəfiqlikdən istifadə edən Hacı Çələbi xan Qəbələ və Ərəş sultanlıqlarını da özündən asılı vəziyyətə

salır.

Hacı Çələbinin yürüşləri nəticəsində Qəbələ, Ərəş, Qutqaşen sultanlıqları və Car-Balakən caamatları Şəki xanlığına birləşdirilir.Daha sonra o, Qarabağ xanlığına hücum edir, Bayat qalasını bir ay mühasirədə saxlayır.O, Qarabağı vassalına çevirmək istəyir, lakin Qarabağ, Naxçıvan, Qaradağ və Gəncə xanlarının birləşmiş qüvvələri qarşısında geri çəkilməli olur.

Bu zaman Azərbaycanın Borçalı, Qazax, Şəmkir ərazilərinə gürcülərin Kartli çarlığının başçısı Teymuraz və Kaxeti çarlığının başçısı II İraklı hücumlar edir.Lakin Hacı Çələbi bu istiqamətə qoşun yeridərək onları məğlub etməyə müvəffəq olur. Buna baxmayaraq çarlar məqsədlərindən əl çəkmirlər.

1752-ci ildə gürcü çarları Teymuraz və Kaxeti çarı II İrakli, guya Hacı Çələbiyə qarşı mübarizə aparmaq məqsədi ilə yenidən Çələbixana  rəqib olan Azərbaycan xanlarına itiffaq təklif edirlər. Əslində isə onlar bu yolla xanları bir-biriləri ilə toqquşdurub, son nəticədə Azərbaycan torpaqlarını zəbt etmək istəyirdilər. Gəncə yaxınlığında Qızılqaya adlı yerdə görüşə gələn Pənahəli xan Qarabağlı, Hüseynəli xan İrəvanlı, Heydərqulu xan Naxçıvanlı, Qasım xan Qaradağlı, Şahverdi xan Gəncəli gürcü çarlarına həddindən artıq inanıb qoşun gətirməmişdilər. Nəticədə onlar Gürcü çarı tərəfindən xaincəsinə əsir alınırlar.Əsirləri götürüb Gürcüstana qayıdan çar onları ağır şərtlər, ilk növbədə Azərbaycan torpaqları müqabilində buraxmaq fikrindəydilər.Lakin Hacı Çələbi xan bunun qarşısını alır.Belə ki, Qızılqaya müşavirəsi haqqında eşidibmiş və düşmənlərin birləşmiş qoşunlarının yürüşünü gözlədiyinə görə qoşunları ilə bərabər döyüşə hazırlaşıbmış.Baş vermiş hadisədən xəbər tutan Çələbi xan şəxsi münasibətlərini bir kənara qoyub Azərbaycan naminə onları xilas etmək qərarına gəlir.Bəzi məsləhətçiləri hər şeyi götür-qoy edib, məsləhətləşmələr aparmaq təklifi ilə çıxış etdikdə isə xan deyir: “Nə

məsləhət görürsünüz-görün, təki bu məsləhət Kürü keçməklə bağlı olsun".Bununla o işarə edirdi ki,xanları azad etmək üçün Kür çayını keçmək lazımdır və bunu vaxt itirmədən eləmək lazımdır. Beləliklə, Gəncə yaxınlığında şiddətli döyüş olur.Hacı Çələbi xan 2-ci İraklinin qüvvələrini məğlub edərək gürcüləri Tiflisin 3 kilometrliyinədək təqib etdi.Bununla gürcü çarlarının Azərbaycan torpaqlarına yürüşlərinə son qoyulur.

Oğlu Ağakişi bəyi azad edilmiş bütün ərazilərin-Şəmkir, Qazax və Borçalının hakimi təyin edir. Bu, artıq Hacı Çələbinin gürcülərlə ikinci toqquşması idi. Əvvəlcə də II İrakli və III Teymurazın başçılıq etdiyi birləşmiş gürcü-kaxet qoşunları az vaxtda çoxlu güc toplamış Şəki xanına dərs vermək istəmişdilər. Əvvəl-əvvəl şəkililər gürcü qoşununun qabağından çəkilmişdi. Ancaq bu, hərbi fənddən başqa bir şey deyildi. Gürcülərin sayıqlığı itirməsindən istifadə eləyən Çələbi xan az sonra özü onlara hücum etmiş və düşmən canlı qüvvəsini və xeyli hərbi yükünü itirərək, qaçmağa üz qoymuşdu. 1755-ci ildə Hacı Çələbi böyük bir qoşunla Şirvan üzərinə yeriyir və Ağsunu mühasirəyə alır. Qubalı Hüseynəli xan şirvanlıların köməyinə gəlir. Çələbi xan məğlubiyyətə uğrayır və geri çəkilir.

Şəki xanı Hacı Çələbi dövlətin ərazisini genişləndirmək və istiqlaliyyətini möhkəmləndirmək üçün Təbriz üzərinə yürüş edir. Lakin Təbriz hakimi Əmiraslan xan bu yürüşün qarşısını alır. Hacı Çələbi xan geri qayıtmalı olur. Sonra isə Qarabağa hücum edir.  Qarabağın bir hissəsini ələ keçirsə də, Hacı Çələbi xan geniş Qarabağ ərazisini tuta bilmir və Qarabağı Şəki xanlığına qatmaq istəyi baş tutmur. Qarabağ xanı Pənahəli xanın ciddi müqaviməti bu arzunu reallaşdırmağa imkan vermir. Lakin Hacı Çələbi və müttəfiqi olan Şamaxı xanının birləşmiş qüvvələri xanlığın mərkəzi olan Bayat qalasını mühasirəyə ala bilirlər. Tarixə «Bayat savaşı» adı ilə daxil olan və bir aydan artıq davam edən

döyüşlər Pənahəli xanın qələbəsi ilə nəticələnir, müttəfiqlər heç bir uğur qazana bilməyib, geri çəkilməyə məcbur olurlar. Axırda Hacı Çələbi məqsədinə çatmadan küllü miqdarda zərərlə geri qayıtmaq «təbilini vurdurdu». Məğlub olandan sonra Kürün sol sahilinə çıxan Hacı Çələbi məyusluqla deyir: «Pənahəli xan bu günəcən bir sikkəsiz gümüş idi, biz gəldik, ona sikkə vurduq və qayıtdıq».

Azərbaycanın bütövlüyü uğrunda mübarizə aparan digər dövlət xadimləri kimi Hacı Çələbi xan da Şəki xanlığının ərazisini genişləndirmək siyasətini istədiyi şəkildə həyata keçirə bilmir.

Şəki xanlığının ən möhtəşəm və inkişaf etmiş Azərbaycan xanlığına çevrilməsi onun müstəsna xidməti olmuşdur. Hacı Çələbi xanlığının paytaxtı olan Şəki şəhərinin abadlaşdırılması üçün çox işlər görmüşdür. Burada mədrəsələr, məscidlər, karvansaralar, hamamlar, məktəblər tikilir. O vaxtdan indiyəcən Şəki özünün təkrarolunmaz gözəlliyi ilə insanları heyran edir.

Hacı Çələbi xan aşağıdakı uğurlu və uğursuz siyasəti ilə yadda qalıb:

Nadir şah Əfşara müqavimət göstərmək məqsədi ilə "Gələsən-Görəsən" qalasında möhkəmlənməsi;

Nadir şah Əfşara ilk müqavimət göstərməsi (1744-cü il);

Nadir şah Əfşara tabe olması (1746-cı ildə);

Müstəqil Şəki xanlığı yaratdı.

Qarabağa hücum edərək "Bayat müharibəsi"ndə məğlub olması (1748-ci il);

Şəki xanlığının ərazisinin genişləndirilməsi siyasətini aparması;

Təbrizə uğursuz yürüşün edilməsi;

Azərbaycan torpaqlarının birləşdirilmə siyasətinin aparılması;

II İraklinin məğlub edilməsi (1751-ci il);

"Qızılqaya xəyanətinə" son qoyması (1752-ci ildə II İraklinin təklifi ilə Gəncə, Qarabağ, Naxçıvan və İrəvan xanlıqları Hacı Çələbiyə qarşı ittifaq qurdular. Lakin II İrakli müttəfiqləri əsir aldı. Hacı Çələbi 1752-ci ildə "Qızılqaya xəyanəti"nə son qoyaraq Qazax,Şəmkir və Borçalını geri qaytardı);

Şirvanı tutmaq siyasətinin iflasa uğraması (1755-ci il);

Car-Balakən, Qazax, Şəmşəddil, Qəbələ və Ərəş sultanlıqlarının asılı hala salınması (XVIII əsrin 50-ci illərində).

Hacı Çələbi xan 1755-ci ildə Şəkidə vəfat edib və orada dəfn olunub.

Şəki ölkəsinin məlikliyi vəzifəsi haqqında Nadir şahın fərmanı(Yazının dili saxlanılıb)

Fərman 1739-cu ilin may ayında verilmişdir. Azərbaycan SSR EA Tarix İnstitutunun kitabxanası .

Adların yaxşısı olan Allahın adı ilə

(Ortasında şir və günəş həkk olunmuş möhür izi )

Hakimiyyət Allaha məxsusdur. Mübarək fərman verildi. O haqda ki,Məlik Nəcəfqulunun qardaşı oğlu uca və yüksək pənahlı Məlik Cəfər Şahənşah mehribanlığı ilə başı uca olaraq bilsin ki, Hacı Çələbi və S. Şəki camaatı keçmişdə onlardan baş vermiş təqsir və üzü qaralıq üzündən üzür istəyib yalvarmaq üçün bu bəraət nişanlı asitanəyə gəlmiş , etdiklərindən şərməndə və peşiman olmuşlar. Buna əsasən onların təqsirlərindən keçdik və göz yumduq. Pars  ilinin əvvəlindən etibarən Şəkinin məlikliyini o uca və yüksək pənahlıya müraciət edib tapşırdıq ki, keçmişin digər məlikləri kimi məliklik işinə başlasın . Lazımdır qeyd olunan Hacı Çələbi və Şəki rəiyyətləri ilə birlikdə işlərini səhmana salmaqdan ötrü Şirvana getsin. Oranın (Şəkinin ) rəiyyətlərini ziraət və əkinçiliyə toplamaq və kömək edib birləşdirmək sahələrində lazımınca səy və ciddiyyət edərək məliklik işində yaxşı xidmətləri və xoş hərəkətləri ilə özünü şahlıq qayğısına

şamil etsin. Şəkinin kənd xudaları və rəiyyətləri onu özlərinin məliki edərək onun sözündən və məsləhətindən kənara çıxmasınlar, özlərini vəzifədar bilsinlər.

Yazılmışdı 1739-cu ilin səfərəl müzəffər ayında.

Hacı Çələbinin qaldırdığı üsyan feodal-şah rejiminə qarşı idi. Elə buna görədə xalqın böyük əksəriyyəti tərəfindən müdafiə olunurdu.

Hacı Çələbi- XVIII əsrin görkəmli Azərbaycan dövlət xadimi, Nadir şahın vaxtında azad xanlıq qurmaq istəyənlərdən biri idi.

Fərmanın verilməsi Hindistan yürüyüşündən sonra Dehlidən Cənubi Azərbaycana (İndiki İrana) qayıdan Nadir Şahın üsyan bürümüş Azərbaycanı bir təhər sakitləşdirmək istəməsi ilə bağlı idi.

Bilindiyi kimi, 1738-ci ildə Nadir şah bütün Azərbaycana Bəylərbəyi vəzifəsinə qoyduğu qardaşı İbrahim xan Əfşarın Şimalı Azərbaycana Cəza yürüşü uğursuzluqla sona yetmiş və onun qoşunları darmadağın edilmiş, özü isə öldürülmüşdür. Fərmandan aydın olur ki, 1737-ci ildə Şəkiyə göndərilən Şah hökümətinin məmuru Məlik Nəcəfqulu artıq 1739-cu ildə vəzifəsindən götürülmüşdür, Yerinə isə onun qardaşı Cəfər təyin olunmuşdur.

## Hacı Çələbinin nəsli



# AĞAKIŞI XAN

Ağakişi xan Hacı Çələbi xanın ikinci oğludur.Hacı Çələbi xanın birinci oğlu Əfşar dövlətinin Əmir Aslan Sərdərin qoşunu ilə döyüşdə həlak olub,buna baxmayaraq Hacı Çələbi xan bu döyüşdə qalib gəlmişdi.

XVII əsrə aid Azərbaycanın,Gürcüstanın və başqa dövlətlərin xronikasında Qızılqaya xəyanəti hadisəsi öz əksini tapmışdır.

Beləliklə, Çələbi xan Gürcü çarına qalib gələrək, məlum Qızılqaya xəyanətindən sonra oğlu Ağakişi bəyi azad edilmiş bütün ərazilərin - Şəmkirin,Qazaxın və Borçalının hakimi təyin etdi.

Hacı Çələbi xandan sonra ikinci oğlu Ağakişi bəy Şəki xanı olur. Hacı Çələbi xan Məhəmməd xanla arasında olan ədavəti aradan qaldırmaq məqsədi ilə Ağakişi xanı Qumuq xanı Məhəmməd xanın qızı ilə evləndirmişdir.

Çələbi xanın ölümündən bir neçə il sonra Məhəmməd xan Ərəş mahalına gəlib , Şəki xanı Ağakişi xanı görüşə dəvət etmiş və xaincəsinə qətlə yetirmişdi. Qumuq xanı Məhəmməd xan bu yolla Şəkini zəbt edib Hacı Çələbi xanın var-dövlətini, xəzinəsini talan etdi.

Bu vaxt Ağakişi xanın qardaşı Əbdülqadir Həccə getmişdi.

Məhəmməd xanın özbaşınalığından cana gəlmiş Şəki camaatı ona qarşı üsyan etdi. Bu üsyana başçılıq edən Hüseyn xan (Çələbi xanın nəvəsi) Qarabağ xanı Pənahəli xana müraciət edərək ondan kömək istədi.

Qarabağ xanı Hüseyn xanın müraciətinə müsbət cavab verdi. Beləliklə, Qumuq xanı Məhəmməd xan 40 gün bitməmiş Şəkidən qovuldu. Hüseyn xan Şəki xanı oldu.

# HÜSEYN XAN



1759-cu ildə Qazıqumuq hakimi Məhəmməd xan qızının əri Şəki xanı Ağakişi xanı öldürərək özünü xan elan etdi. Hacı Çələbi xanın nəvəsi, Həsən ağanın oğlu Hüseyn xan Məhəmməd xana qarşı üsyan qaldırır. Qarabağ hakimi Pənahəli xan Hüseyn xanın yardım xahişinə müsbət cavab verərək qoşunla Şəkiyə daxil oldu. Məhəmməd xan ilk toqquşmada məğlub olub Dağıstana qaçdı.

Bu vaxt Qacar dövlətində hakimiyyəti ələ keçirmiş Fətəli xan Azərbaycana soxularaq Qarabağı tutdu. Şəki xanı Hüseyn xan da yaranmış vəziyyəti düzgün qiymətləndirə bildi. Fətəli xan Əfşara müqavimətin mənasız olduğunu nəzərə alan Hüseyn xan, şahın hüzuruna gəlib ona tabe olduğunu bildirdi . Fətəli xan Əfşar Hüseyn xanın Şəki xanı kimi qalmasına razılıq verdi.

Hadisələrin belə gedişatı Hüseyn xanı Şamaxı xanı ilə əlaqələri kəsib, Quba xanı Fətəli xanla yaxınlaşmağa məcbur etdi. Şəki xanı belə hesab edirdi ki,Qulu xan Fətəli xanla ittifaqda Şamaxı xanı üzərində qələbə çalacağı təqdirdə, Quba xanı Şamaxını ələ keçirməkdə ona kömək etdiyinə görə xanlıq ərazisinin bir hissəsini ona güzəştə gedəcəkdir. Hüseyn xan 700 nəfərlik alayını qubalı Fətəli xanın 7000 nəfərlik qoşununa köməyə göndərdi. Vəziyyəti çıxılmaz görən Şamaxı xanı Məhəmməd Səid xan müttəfiqlərə təslim olmağa məcbur oldu.

Şamaxı xanı məğlub edildikdən sonra Şamaxı xanlığının Sədərə və Qəsai mahalları Yeni Şamaxı ilə birlikdə Şəki xanına çatdı. Şamaxı xanlığının mərkəzi Köhnə Şamaxı və xanlığın

qalan ərazisi qubalı Fətəli xanın ixtiyarına keçdi. Şəki və Quba xanları yeni ələ keçirilmiş torpaqları idarə etmək üçün naiblər(nümayəndə) təyin etdilər. Şəki xanının sərəncamına keçmiş 2 mahala və Yeni Şamaxıya Manaf bəy başçı təyin olundu.

1768-ci ilin avqustunda Şamaxıda Quba xanlığına qarşı qəsd aşkar edildi. Bu qəsdi Manaf bəyin başçılığı altında Şəki meyilli bəylər təşkil etdilər.Bu qrup köhnə Şamaxı ümumiyyətlə qubalı Fətəli xanın nəzarəti altında olan ərazilərdə yaşayan Şamaxı feodallarına müraciət etdi,onlardan kömək istədi.Sui-qəsdçilər öz planlarını qabaqcadan Şəki xanlığına xəbər vermişdilər. Sui-Qəsddə məqsəd Quba xanını Şamaxıdan sıxışdırıb çıxartmaq idi. Şamaxı xanlığını bütövlüklə ələ keçirməyə çalışan Şəki xanı Hüseyn xan sui-qəsdçiləri hər vəchlə (nə cür olur olsun) müdafiə edirdi. Lakin sui-qəsdçilərin planları həyata keçmədi.1768-ci ildə Şamaxıya görə Şəki xanı Hüseyn xanla Quba xanı Fətəli xan arasında döyüş başladı.Bu döyüşdə Fətəli xan qalib gəldi.Bundan sonra Fətəli xan Şəki xanlığının vergi yığan və başqa məmurlarını Şamaxıdan qovdu,Şəki xanlığının idarəsində olan əraziləri öz hakimiyyəti altına aldı.

Bundan sonra Şəki xanı Fətəli xanla ikinci döyüşdə də məğlub oldu. 1769-cu ilin iyulunda Hüseyn xanla Fətəli xan arasında sülh müqavilə bağlandı, bu müqaviləyə görə Hüseyn xan Fətəli xana hərbi qüvvə verməyi və Şamaxının işinə qarışmamağı öhdəçiliyinə götürdü.

Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin hakimiyyətinin ilk illərində Hüseyn xanla dostluğu vardı. Onun qızı Tubu bəyimi almışdı. Baş vəziri Molla Pənah Vaqif onun şairliyindən istifadə edib yazışırdı. Hətta ondan tüfəng də istəmişdi. Saray ərkanı olan şair Rəfe-Kəleybəri-Qaradağlını Hüseyn xanın sarayına göndərmişdi.

İbrahimxəlil xanla Hüseyn xan arasına ədavət düşdü. Şəki

xanı ilə dostluq edən baş vəzir Molla Pənah Vaqif bu nifağı aradan qaldıra bilmədi.

Hüseyn xanın əmisi Cəfər ağa xan olma iddiasına düşür. Hüseyn xan Cəfər ağanın bu fikirdən çəkinməsini bir neçə dəfə təklif etdi.Lakin Cəfər ağa da bunların heç birinə əhəmiyyət vermədi və nəticədə Hüseyn xan məcbur olaraq Cəfər ağanı öldürdü.

Hüseyn xanın ikinci əmisi Hacı Əbdülqadir Məkkədən qayıdıb Şəkidəki vəziyyətlə tanış olduqdan sonra üç nəfər bəylə Şəkini tərk edib,Kür çayında "Dardoqqaz" deyilən sakit yerdə uzun müddət yaşayır. Ətrafına ucqar yerlərdən xeyli adamların gəlməsi onun tərəfdarlarının sayını artırır.Tərəfdarları çoxalmış Hacı Əbdülqadir Şəki xanı olmaq istəyir.

Hüseyn xan oğlu Məhəmmədhəsəni barışmaq üçün əmisi Hacı Əbdülqadirin yanına göndərir. Hacı Əbdülqadir də onu tutub Qarabağ xanı İbrahim xana göndərir.İbrahim xan Məhəmmədhəsəni Şuşa qalasında həbs etdirir. İbrahim xan Məhəmmədhəsənin köynəyini qana bulayaraq Hacı Əbdülqadirə göndərərək onu qətlə yetirdiyi barədə məlumat verir.

Qubalı Fətəli xan və Şəkili Hüseyn xanın Qarabağlı İbrahimxəlil xan arasında ədavət olduğundan, Fətəli xan Hüseyn xanla birgə İbrahim xanın üzərinə yürüşə hazırlaşarkən öz əmisi Hacı Əbdülqadir xan 60 nəfərlə gecə gəlib Nuxa dağlarında gizlənmiş və günortadan sonra, qəflətən basqın edib qalaya girdi. Qurğuşunlu otaqda Hüseyn xan oğlu Fətəli xanla birlikdə basqınçılara müqavimət göstərsələr də, sonda, Hüseyn xan yaralanaraq təslim oldu.Onu bir həftə saxlayıb (1780-cı il avqust ayının 22-29-u arasında) boğaraq edam etdirdilər. Hacı Əbdülqadir hakimiyyətə gəldi.

# HACI ƏBDÜLQADIR XAN

Ağakişi xan Şəki xanı olduğu vaxt Hacı Çələbi xanın sonuncu oğlu Əbdülqadir Məkkəyə həccə getmişdi. Hacı Əbdülqadir həcdən qayıdanda Şəki xanı Ağakişi xanı öldürmüşdülər. Onun yerinə qardaşı Həsən ağanın oğlu Hüseyn xan Şəki xanı seçilmişdir. Hüseyn xan əmisi Cəfər ağanı tabe olmadığına görə öldürmüşdü. Vəziyyətin belə olmasını görən Hacı Əbdülqadir başına bir dəstə yığaraq Qanıx çayının Kür çayına qovuşduğu yerdə - "Dardoqqaz" adlanan yarımadada, məskən salaraq Hüseyn xana qarşı silahlı mübarizəyə başlamışdı. Qarabağ xanı İbrahim xan və Gürcüstan hakimi Irakli onun Hüseyn xana qarşı silahlı mübarizəsini dəstəkləyirdilər.

Hüseyn xan Hacı Əbdülqadirin digər qardaşı Həsənin oğlu idi, Hacı Əbdülqadir Hüseyn xanın doğma əmisi idi.

Hüseyn xan öz oğlu Məhəmmədhəsən ağanı sülh və barışıq üçün əmisi Hacı Əbdülqadirin yanına göndərir. Hacı Əbdülqadir Məhəmmədhəsən ağanı tutub, Hüseyn xanın düşməni olan Qarabağ xanı İbrahim xana göndərir ki, onu öldürsün. İbrahim xan Məhəmmədhəsən ağanı öldürmür, Şuşa qalasında saxlayır, Hacı Əbdülqadirə də xəbər göndərir ki, o artıq qətlə yetirilmişdir.

1780-cı ilin avqust ayında isə gecə vaxtı Hacı Əbdülqadirin göndərdiyi 60 nəfərlik bir dəstə Şəki şəhərinə xəlvəti yaxınlaşıb dağlarda mövqe tuturlar.

"Səhərdən, adamlar divandan dağılandan sonra qala ki boşalır və o vaxt da qarovul və ya müstəhfiz (yəni: mühafizəçi) bərqərar olmayır imiş (yazının dili saxlanılıb). Əminlik cəhətinə, qalanın yuxarı qapısından daxil olub, qapıları içəridən bağlayırlar. İçəridən qapıları bağladıqdan sonra bunlar ilə atışma başlayır. Ancaq yanında ikinci oğlu Fətəli xan uşaq, tüfəng doldurub verir imiş. Bir neçə saat atışmadan və bir neçəsini qətlə yetirəndən

sonra yaralanıb, ixtiyardan düşür".

Hüseyn xan silahı yerə qoyub təslim olur, onu 1 həftə saxlayıb, sonra edam edirlər. Şəki xanlığı Hacı Əbdülqadirin əlinə keçir.

Hüseyn xandan fərqli olaraq Əbdülqadir xan qubalı Fətəli xanla dostluq siyasəti yürütdü. Məsələn, 1784-cü ildə qubalı Fətəli xan Qarabağ xanı İbrahimxəlil xanla müharibəyə başlayanda, Şəki xanı Hacı Əbdülqadir öz qoşunu ilə ona köməyə gəldi. Bu isə Fətəli xanla mübarizə aparan Qarabağlı İbrahimxəlil xanın planlarına uyğun gəlmirdi.İbrahimxəlil xan, Hüseyn xanın Qarabağda həbsdəki oğlu Məhəmmədhəsən ağanı azad edib Cara (indiki Balakən ərazisi) göndərdi ki, öz ətrafına qüvvə toplayıb Şəki xanlığı uğrunda mübarizə aparsın. O, ləzgilərdən ibarət qoşunla Şəkiyə basqın edib şəhəri tutdu. Hacı Əbdülqadir xan Ağası xanın yanına qaçdı. Lakin o, Əbdülqadir xanı Məhəmməd-həsən xana təhvil verdi . Əbdülqadir xan və oğulları qətlə yetirildi. Məhəmmədhəsən xan özünü Şəki xanı elan etdi.

## MƏHƏMMƏDHƏSƏN XAN

Hacı Əbdül xana aid yazıda qeyd olunduğu kimi, bir neçə il sonra Hüseyn xanın əvvəllər ölmüş hesab edilən oğlu Məmmədhəsən ağa Şuşa həbsxanasından azad olduqdan sonra özünə qoşun toplayaraq tezliklə Şəkini ələ keçirir. O Hacı Əbdülqadir xanı öldürtdürür və Şəki xanı olur.

Rus Generalı A.P.Yermolov Məhəmmədhəsən haqqında demişdi ki, o həm öz ağlı, həm də xanlığının quruluşuna görə başqalarından fərqlənir.Məhəmmədhəsən xan şöhrətpərəst hakimiyyət düşgünü və qəddar adam olmuşdur.

1765-ci ilə qədər digər orta əsr şəhərləri kimi qala divarları ilə əhatə olunmayan Şəkinin əhalisi düşmən hücumu zamanı "Gələsən-görəsən" qalasına çəkilməyə məcbur olurdu. 1765-ci ildə köhnə Şəki şəhəri qala divarları ilə əhatə edilir. Bununla yanaşı, şəhərdən kənarda istehkam-qala və şəhərin içərisində Məhəmmədhəsən qalası tikilir və müdafiə vəzifəsini daşıyır. Həmin qalaya saxsı borularla su çəkilir, iki su quyusu qazılmaqla qalanın suya tələbatı ödənilir. Düşmənin gəlməsini od yandırmaqla xəbər vermək məqsədi ilə şəhərdən aralıda iki keşikçi qülləsi də bu dövrdə tikilir.

Məhəmmədhəsən xan Şəki qalasını tikdirmiş, xanlıq üçün "Dəstur ul-əməl" xüsusi qanunnamə yazmışdı. Bu qanunla vergi sistemi , qiymətlər, feodal asılılıq münasibətləri, istismar edən və istismar olunan siniflərin vəzifələri nizama salınmışdı.

Məhəmmədhəsən xan 1788-ci ildə güclü qoşun topladı və avar hakimi ilə birlikdə Şamaxı üzərinə hərəkət etdi . Uzun sürən şiddətli toqquşmalardan sonra Fətəli xan onları köhnə Şamaxının yaxınlığında qarşıladı. Bu toqquşmalarda Məhəmmədhəsən xanın qoşunları həmişə üstünlük qazanırdılar, qələbə onun tərəfində idi . Qoşunların bir hissəsi Şamaxıya da girmişdi. Fətəli xanla birlikdə gəlmiş Şamxalın oğlu Mehdi bəy Məhəmməd-

həsən xanla bağladığı gizli sazişə sadiq olaraq döyüşə girmirdi . Fətəli xanın qoşun başçıları bunu başa düşərək geri çəkilərək onun qoşunları olan sahəyə zərbə endirib , onu döyüşə vadar etsinlər. Buna nail oldular. Onun qoşunları hücuma keçdi. Döyüşün taleyi Fətəli xanın xeyrinə oldu . Məhəmmədhəsən xan Şəkiyə qayıtdı .

1789-ci ildə Fətəli xan öldükdən bir il sonra Məhəmmədhəsən xan köhnə ədavətə görə onun əleyhinə Şirvanlılarla ittifaq bağladı və müəyyən vaxtdan sonra Şamaxı üzərinə hərəkət etdi. Əhməd müqavimət göstərə bilməyib Qubaya qaçdı .

Məhəmmədhəsən xan Şamaxıda çoxlu mal dövlət topladı, bir neçə gün qaldıqdan sonra böyük qənimətlə Şəkiyə qayıtdı.

Məhəmmədhəsən xan nəinki Şəkinin müstəqilliyini qaytardı ,hətta bəzi ətraf yerləri də öz nüfuz dairəsinə cəlb edə bildi. O, 1790-cı ildə Şirvan ilə ittifaq bağladı, Əhməd xanı Şirvandan çıxartdı. Şirvan xanlarının hakimiyyətini bərpa etdi.

Hələ bu hadisədən xeyli əvvəl, Məhəmmədhəsən xan doğma qardaşı Fətəlidən ehtiyat edərək onu kor etmişdi. O biri qardaşı Səlim xan Məhəmmədhəsən xanın bu hərəkətlərindən qorxub bir neçə Şəki vilayətinin bəylərindən özünə tərəfdaşlar yığıb Car vilayətinə getmişdir. Səlim xan Carlılardan və Avarlardan ibarət bir qoşun toplayıb Məhəmmədhəsən xanın üzərinə Şəkiyə tərəf hərəkət edir, Məhəmmədhəsən xan öz növbəsində Şəkidən qoşunla ona qarşı hərəkət edir. Onlar bir-biri ilə Göynük kəndində görüşürlər və döyüş başlayır. Məhəmmədhəsənin ordusu məğlub olur və Şəkiyə qayıdır . Səlim xan da ordusu ilə onun dalınca Şəkiyə gəlir. Məhəmmədhəsən xan Şəkidən Ağdaşa gedir, orada Terkeş kəndində dayanır. Beləliklə, iki qardaşın qoşunları arasında baş vermiş döyüşdə Məhəmmədhəsən xan məğlub oldu. Şah Qacarın hərbi rəislərindən biri olan Mustafa xan Xaçmaz mahalının Terkeş kəndinə qaçdı. Öz hakimiyyətini

itirmiş Məhəmmədhəsən xan Ağa Məhəmməd Şah Qacarın gözündən düşdü. Bu təsadüfi deyildi. Şah Qacara,onun hakimiyyətini Azərbaycanda saxlayan adam lazım idi. Ağa Məhəmməd Şah Qacar hətta Məhəmmədhəsən xanın xəyanət etməyindən şübhələnməyə başladı. Sərdar Mustafa xan Ağa Məhəmməd Şahdan Məhəmmədhəsən xanı kor edib Təbrizə göndərmək əmrini aldı və bu sərəncam yerinə yetirildi.

Şəkidə hakimiyyəti ələ almış Səlim xan öz qardaşı Məhəmmədhəsən xanın yeddi azyaşlı oğlanlarını qətl etdi .

1797-ci ildə Ağa Məhəmməd Şah Qacar 2-ci dəfə Azərbaycana gəldi. O, kor etdiyi Şəkili Məəhəmmədhəsən xanı da özüylə gətirmişdi. Qacar, Məhəmmədhəsən xanı Muğanda saxlayaraq Şuşa qalasına hücum etdi. Şuşa camaatı Ağa Məhəmməd Şah Qacara müqavimət göstərə bilmədi. Qarabağ xanı İbrahim xəlil Cara qaçdı. Qacar Şuşanı tutdu. Ancaq çox keçmədi ki, O saray əyanları tərəfindən öldürüldü.

Qeyd edək ki, hələ 1800-cü ildə Şəki hakimi Məhəmmədhəsən xan rus qoşunlarının baş komandanı Knorrinqə məktub göndərərək, Rusiyanın himayəsini qəbul etmək istədiyini bildirmişdir.

Knorrinqi Məhəmmədhəsən xana yazmışdı ki, çar şübhəsiz onun xahişinə əməl edəcəkdir. Lakin, cavab verdi ki, bir başa çarın özünə müraciət etsəniz yaxşıdır. Bu dövrdə Rusiyanın köməyinə meyl göstərən Şamaxı hakimi Mustafa xanda Şəki xanını müdafiə edirdi. Məhəmmədhəsən xanın Rusiya ilə əlaqə saxlaması Qacar nəslindən olan Fətəli şah hakimiyyətini ciddi narahat etdiyindən Məhəmmədhəsən xanı taxtdan salmaq məqsədi ilə 1802-ci ilin ortalarında Şah oğlu Pirqulu xanın başçılığı altında kiçik qoşun dəstəsi göndərdi. Həmin dəstə İrəvan xanlığında ilişib qaldı və məqsədinə çatmadı .

Məhəmmədhəsən xan Rusiya meyilliliyini davam etdirərək

Carlılara və Dağıstan feodalına yazırdı:

“Mənim əzizlərim. Sizin məktubunuzu aldım və məzmunu ilə tanış oldum. Rusiya rəisləri ilə sülh yaratmaq sizin üçün də, bizim üçün də xeyirlidir.Siz onların yanına adamlarınızı göndərin və onlarla barışın,  ancaq siz öz işinizdə yalnız ehtiyatlı olmağa çalışmayın, danışıqlarda sülh bağlayana qədər möhkəm olun, mən də əlimdən gələni edəcəyəm. 1803-cü ildə Fətəli şah böyük qoşun ilə İrəvana yaxınlaşdı. Fətəli xanın qoşununun Zaqafqaziyaya gəlməsi xəbəri həm də Sisianovun Gəncəni tutduğu zaman göstərdiyi qəddarlıq (Cavad xanın arvadı Məhəmmədhəsən xanın bacısı idi) ilə əlaqədər Məhəmmədhəsən xan artıq Qacar hökumətinə meyl etməyə başlamışdı.

1805-ci ildə, Səlim xan Şamaxı xanı Mustafa xanın köməyi ilə qardaşı Məhəmmədhəsən xanı devirmək və təkrarən Şəki xanı olmaq fikrinə düşür. Mustafa xan isə Səlim xanın təklifindən öz məqsədi üçün istifadə etmək istəyirdi. Rus polkovniki Karyagin tərəfindən 1805-ci ilin əvvəllərində tərtib edilmiş raporta yazılanlar:

Mustafa xan guya Səlim xanın xahişini yerinə yetirirmiş kimi, Şirvandan topladığı  ordusu ilə Şəki xanlığının sərhədlərinə doğru hərəkət edir. Məhəmmədhəsən xan da Şəki ordusunu götürüb vuruşmaq əzmiylə əvvəl Mustafa xanın qarşısına vuruşmağa, gedib,sonra, vuruşmaq fikrindən vaz keçib, ordusunu buraxıb və özünü Mustafa xana təslim edib. Mustafa xan Məhəmmədhəsən xanı əsir kimi Şamaxıya göndərir, Səlim xana isə deyir ki ona inanmır, bu şərtlə onu Şəkidə xan edə bilər ki, oğlunu və qızını əvvəlcə "əmanət" kimi ona versin. Səlim xan  Mustafa xanın tələbini yerinə yetirir. Amma Mustafa xan  istəyirmiş ki, Şəki xanlığını özü ələ keçirsin. Buna görə də öz naiblərini gizlincə Nuxa şəhərinə göndərir ki şəhəri idarə etsinlər və Məhəmmədhəsən xanın adından onun bütün xəzinəsini tələb etsinlər. Səlim

xan aldadıldığını bilən kimi, naiblərin göndərilməsi barədə Nuxadakı kor qardaşı Fətəli ağaya gizli xəbər ötürə bilir. Nuxa adamları ayağa qalxıb Mustafa xanın naiblərini qovaraq Fətəli ağanı müvəqqəti xan seçirlər. Mustafa xan şəkililərin seçimi ilə razılaşmağa məcbur olur.

O, yeni Şəki xanı seçilmiş Fətəli xana məktub yazaraq oğlunu "əmanət" kimi Şamaxıya göndərəcəyi təqdirdə onu Şəki xanı kimi tanıyacağını bildirir. Fətəli xan oğlunu Mustafa xanın yanına göndərir. Bundan sonra Mustafa xan Səlim xana onu Şəkidə xan edəcəyi barədə verdiyi vədindən imtina edərək bildirir ki, əvəzində ona Şirvanda yaxşı bir mahal verə bilər. Səlim xan əvvəlcə bu təkliflə razılaşır, lakin Mustafa xanın yanından ayrılan kimi, birbaşa Nuxaya gedərək hamı tərəfindən, o cümlədən qardaşı Fətəli xan tərəfindən Şəki xanı kimi qəbul olunur.

# SƏLIM XAN



*(1795-1797 )*

Şəki xanı-Hüseyn xanın oğlu.

Mənbələrdə Səlim xanın hakimiyyətə gəlişinə qədərki dövrü haqqında demək olar ki heç bir məlumat yoxdur. Bircə o məlumdur ki, Səlim xan qardaşı Məhəmmədhəsən xanın onu "vəzifəsiz" saxlamasını və digər qardaşı Fətəli xanın gözlərini çıxartdırmasını gördükdən sonra Şəki vilayətinin bəylərindən özünə tərəfdarlar yığaraq, 1795-ci illin mart ayında Şəkidən Cara qaçmışdır. Qardaşını devirmək üçün orada özünə qoşun toplamışdı. 1795-cı ilin son aylarında isə qardaşı Məhəmmədhəsən xanın Şəki qoşunu ilə Muğanda (orada qışlayan Ağa Məhəmməd şah Qacarın sərəncamında) olmasından istifadə edərək Səlim xanın başçılıq etdiyi Carlılar və Avarlardan ibarət qoşunu ilə Şəkiyə doğru hərəkət edir. Məhəmmədhəsən xan bunu bilən kimi Ağa Məhəmməd şah Qacardan da əlavə qoşun götürərək Səlim xanı qovmaq üçün Şəkiyə qayıdır. İki qardaş arasında ən şiddətli döyüş Göynük kəndi yaxınlığında baş verir, Məhəmmədhəsən xan məğlub olub geri çəkilir. Məhəmmədhəsən xan isə Nuxaya qayıdır, sonra o Xaçmaz mahalının Tərkeş kəndində onu gözləyən Dəvəli Mustafa xan Qacar adlı şah sərkərdəsinin yanında şahın yanına gedir, o isə sifarişinə uyğun olaraq, onun gözlərini çıxartdırır və özünü isə dustaq edib Təbrizə göndərir. Məhəmmədhəsən xana qarşı belə pis münasibətin səbəbi güman ki, onun tərəfində Göynükdə vuruşmuş Qacar ordusundan ölən və yaralananların çox olması səbəb olub.

Səlim xanın Birinci hakimiyyət dövrü

Məhəmmədhəsən xanın kor edilməsi və Təbrizə göndərilməsi, onunla hakimiyyət davası edən qardaşı Səlim xanın Şəkidə xan olması üçün göydəndüşmə bir fürsət idi. Əlbəttə ki, Səlim xan bu imkandan yararlandı və hakimiyyətə yiyələndi.

1796-cı ilin əvvəllərində Ağa Məhəmməd şah Qacar Təbrizə çəkildi. Əvəzində isə Cənubi Qafqaza şimaldan General Zubovun başçılığı altında rus qoşunları yeridildi. Ruslar Xəzərsahili əraziləri tutduqdan sonra Gəncəyə doğru hərəkət etdilər. Rus hərbi düşərgəsinə gəlmiş Səlim xanın nümayəndəsi, Səlim xanın xahişini Rus komandanlığına çatdırır. O, Şəkiyə məsul şəxsi göndərilməsini və Səlim xanın, həmin şəxsin qarşısında, xalqla birlikdə Rusiyaya sədaqət andı içməsini istəyir. General Zubovun Rus çarı II Yekaterinaya göndərdiyi 5 avqust tarixli məktubundan məlum olur ki, tezliklə o, Səlim xanın xahişini yerinə yetirmişdir. Səlim xan isə Sədaqət andı mətnini imzalamışdı.

Lakin az müddət sonra – 1796-cı ilin sonlarında, imperatriçə II Yekaterina vəfat etdi, onun yerinə taxta çıxan I Pavel isə beynəlxalq vəziyyətlə əlaqədar olaraq rus qoşunlarını Cənubi Qafqazdan geri çağırdı. 1797-ci ildə, Ağa Məhəmməd şah Qacar ikinci dəfə Cənubi Qafqaza yürüşə başladı. O, 1-ci yürüşü zamanı kor etdirdiyi sabiq Şəki xanı Məhəmmədhəsən xanı da özü ilə götürmüşdü. Məhəmmədhəsən xanı Muğanda saxlayaraq özü isə Şuşaya getmişdir. Məlum olduğu kimi, iyun ayında, Ağa Məhəmməd şah Şuşa qalasında öz adamlarının sui-qəsdi nəticəsində öldürüldü.

Şamaxı xanı Mustafa xan xanlığının ərazisini genişləndirmək üçün Məhəmmədhəsən xandan istifadə edir. O, böyük qoşunla Şəki xanlığının üzərinə hücum edir. Ona müqavimət göstərə bilməyən Səlim xan Qarabağdakı qohumu İbrahimxəlil xanın yanına qaçır

Səlim xanın təkrarən hakimiyyətə gəlməsi üçün siyasi

mübarizəsi

1801-ci ildə Gürcüstan Rusiya tərəfindən işğal olundu. Rusların Cənubi Qafqazda nüfuzunu gündən-günə artmağa başladı. 1804-cü ilin əvvəlində Gəncə xanlığı işğal edildikdən sonra isə Şəki xanlığı qərbdən rus hakimiyyəti altında olan ərazilərlə əhatə olundu.

Belə bir şəraitdə Səlim xan Şəkidə bir daha hakimiyyətə gəlmək üçün rusların dəstəyindən istifadə etmək istəyirdi. O, bu məqsədlə Rusiya qoşunlarının Gürcüstandakı baş komandanı Knyaz Sisianova məktublar yazdı. İlk məktubu imzasız olduğu üçün Knyaz Sisianov onu cavablandırmağı özünə yaraşdırmır, cavab yazmağı  polkovnik Karyaginin öhdəsinə buraxdı. Məktubda ona məsləhət görmüşdü ki, "əgər nəyəsə nail olmaq istəyirsə, yaxşı olar ki Tiflisə gəlsin". Lakin Səlim xan Tiflisə getmədi, əvəzində dəstək üçün Şamaxı xanı Mustafa xana müraciət etdi . Mustafa xan Səlim xanın xahişini yerinə yetirirmiş kimi, Şirvan ordusu ilə Şəki xanlığının sərhədlərinə doğru hərəkət edir. Məhəmmədhəsən xan da Şəki xanlığının ordusunu götürüb vuruşmaq əzmiylə əvvəl Mustafa xanın qarşısına çıxır, lakin sonra vuruşmaq fikrindən daşınıb ordusunu buraxır və özünü Mustafa xana təslim edir. Mustafa xan Məhəmmədhəsən xanı əsir kimi Şamaxıya göndərir, Səlim xana isə deyir ki ona inanmır, bu şərtlə onu Şəkidə xan edə bilər ki, oğlunu və qızını əvvəlcə "əmanət" kimi ona göndərsin. Səlim xan Mustafa xanın tələbini yerinə yetirir. Amma Mustafa xan Şəki xanlığını özü ələ keçirmək istəyirdi və buna görə də, öz naiblərini gizlincə Nuxa şəhərinə göndərir ki, şəhəri idarə etsinlər və Məhəmmədhəsən xanın adından onun bütün xəzinəsini ələ keçirsinlər.

Səlim xan aldandığını başa düşən kimi, naiblərin göndərilməsi barədə Şəkidəki kor qardaşı Fətəli ağaya gizli xəbər ötürür . Şəkidə xanın adamları ayağa qalxıb Mustafa xanın naiblərini

qovurlar və Fətəli ağanı müvəqqəti xan seçirlər. Mustafa xan şəkililərin seçimi ilə razılaşmağa məcbur olur və yeni Şəki xanı seçilmiş Fətəli xana məktub yazıb oğlunu "əmanət" kimi Şamaxıya göndərəcəyi təqdirdə onu Şəki xanı kimi tanıyacağını bildirir. Fətəli xan oğlunu Mustafa xanın yanına göndərir. Mustafa xan Səlim xana onu Şəkidə xan edəcəyi barədə verdiyi vədindən imtina edib, əvəzində ona Şirvanda yaxşı bir mahal verə bilər. Səlim xan əvvəlcə bu təkliflə razılaşır, lakin Mustafa xanın yanından ayrılan kimi, birbaşa Şəkiyə gedir və hamı tərəfindən, o cümlədən qardaşı Fətəli xan tərəfindən Şəki xanı kimi qəbul olunur.

Səlim xanın Şəkidə xan olması ruslar tərəfindən sevinclə qarşılanmışdı, ruslar Səlim xanın hakimiyyətdə qalması üçün ona dəstək nümayiş etdirdilər. Məsələn, Səlim xanın Şəkidə 2-ci dəfə xan olmasından az sonra Şamaxı xanı Mustafa xan Şəkiyə hücum edəndə, Səlim xan rusların hərbi yardımından istifadə etmişdi. Knyaz Sisianov Səlim xana yazdığı 19 mart 1805-ci il tarixli məktubunda Səlim xanın sərəncamına Elizavetpoldakı rus ordusundan 2 topla 300 nəfərin göndərilməsi barədə göstəriş verdiyini, növbəti, 3 aprel tarixli məktubunda isə həmin hərbi yardımın nəticəsi olaraq, Mustafa xanın Şəki torpağında məğlubiyyətə uğramasını qeyd etmişdir.

Şəki xanlığının Rusiyanın tərkibinə keçməsi barədə Kürəkçay traktatını (beynəlxalq müqavilə) imzalaması

26 may 1805-ci il tarixdə Knyaz Sisianovun Kürəkçay çayı sahilində qurduğu düşərgədə Qarabağ xanı İbrahim xan Qarabağ xanlığının Rusiya İmperiyası tərkibinə keçməsi barədə Kürəkçay traktatına imza atdı. İbrahim xan Səlim xanın həm qayınatası, həm də bacısının əri idi. O da yaxın qohumu İbrahim xandan sonra Knyaz Sisianovun düşərgəsinə getdi və 2 iyun 1805-ci il tarixdə 2-ci Kürəkçay traktatını — Şəki xanlığının Rusiya İm-

periyası tərkibinə keçməsi barədə sənədi imzaladı.

22 iyun 1805-ci ildə isə rus çarı I Aleksandr Səlim xanın adına fərman verərək, Kürəkçay traktatını təsdiqlədi . Şəki xanlığının Rusiya İmperiyasının tərkibinə keçməsinin rəmzi olaraq, ona Rusiyanın gerbli bayrağı ilə bir qılınc göndərdi. İbrahim xan kimi, Səlim xana da rus ordusunun general-leytenantı rütbəsi verildi.

Əvəzində Rusiya xanlığının irsi idarəçiliyini tanıdığını bildirir, məhkəmə işlərini, cəza vermək və vergi toplamaq hüququnu xanın ixtiyarında saxlayırdı. Xana öz evində daimi saxlamaq üçün üzərində Rusiyanın gerbi olan bayraq və qılınc bağışlanırdı.

Iyun ayının 12-də, Şahzadə Abbas Mirzənin başçılığı altında 20 minlik ordu Şuşa qalasına yaxınlaşmışdı. Qaladakı rus qoşununun komandanlığı İbrahim xanın Təbrizə şaha meyl etməsindən şübhələnərək, onu ailə üzvləri və qulluqçuları ilə birlikdə qətlə yetirdilər. İbrahim xanın arvadlarından biri olan Səlim xanın bacısı da həmin qətliamda öldürüldü. Rusların törətdikləri bu qətliamın və bacısının öldürülməsini bilən Səlim xanın reaksiyası isə sərt və qəti oldu: O, dərhal Şəkidəki rus qoşunlarının öz xanlığının ərazisindən çıxarılması qərarını verdi.

Səlim xan İbrahim xanın öldürülməsindən xəbərdar olan kimi, mayor Parfyonovun yanına adam göndərib, təcili öz yanına gəlməsini istəyir. Səlim xanın göndərdiyi adam Parfyonova deyir ki, xan onunla təcili görüşmək istəyir.Şahzadə Abbas Mirzənin onun xanlığına yaxınlaşması barədə ciddi bir məlumat alıb və niyyəti də budur ki, ruslarla öz qoşununu birləşdirib sərhəddə doğru  düşməni qarşılamağa getsin. Parfyonov Səlim xanın dəvətini qəbul edir. Bir adütant və 15 nəfər mühafizəçi kazak ilə birlikdə səhər tezdən düşərgəni tərk edir. Şəkiyə 7 verst qalanda, Səlim xanın 3 min nəfərlik hərbi ordusu ilə qarşılaşır. Qarşılaşdığı bu mənzərə onu Şahzadə Abbas Mirzənin yaxınlaş-

ması barədə şayiənin doğru olmasına daha da inandırır və heç nədən şübhələnmədən Səlim xanın hərbi düşərgəsinə gedir. Onu burada xanın məmurlarından biri qarşılayır, onunla müxtəlif məsələlər barədə 4 saat söhbət etdikdən sonra, adyütantı ilə birlikdə öz çadırına dəvət edir. Özü isə onların gəlişi barədə xana məlumat vermək adı ilə çıxıb gedir. 1 saatdan sonra 100 nəfər silahlı şəkili onun mühafizəçi kazaklarına qəfildən hücum edirlər. Kazakları qılıncdan keçirirlər, bir hissəsini isə tərksilah edirlər. Şəkililər kazakların paltarlarını cırırlar, onları bir alt paltarında saxlayıb əllərini arxadan bağlayırlar və atlarını da götürürlər. Eyni vaxtda 6 nəfər əlində sıyrılmış xəncərlə Parfyonovun olduğu çadıra soxulur, onu da yerə yıxıb ağzını bağlayaraq, bütün qiymətli əşyalarını və pullarını götürürlər, əllərini arxadan bağlayıb, belə bir vəziyyətdə, piyada, qova-qova və güclü mühafizə altında Nuxa qalasına aparırlar. Lakin bir-neçə saat Nuxa qalasında zindanda saxladıqdan sonra yenidən həmin yerə - Səlim xanın düşərgəsinə gətirirlər və burada axşam ona bildirirlər ki, onları azad edirlər, bu şərtlə ki, başçılıq etdiyi dəstəni Şəki xanlığı ərazisindən çıxartsın.

Səhər rus hərbi düşərgəsi şəkililərin qoşunu tərəfindən mühasirəyə alınır və  xanlığın ərazisindən qovulurlar.

Oktyabrın sonunda rus general-mayoru Pyotr Nebolsin böyük bir hərbi qüvvə ilə Şəki xanlığının ərazisinə daxil oldu. Qoşunun şəxsi heyəti 26 zabitdən və aşağı rütbəli 886 nəfərdən ibarət idi və onların istifadələrində 5 top vardı. Bundan başqa, mayor Prosvirkin Sevastopol polkundan 235 nəfərlə və 2 topla Mingəçevir keçidində, həmçinin Tiflis polkunun mayoru Tokarev qarnizondan 875 nəfərlə Yelisavetpolda (Gəncə) dəstək üçün hazır vəziyyətdə durmuşdu.

Ən şiddətli döyüş noyabrın 3-də (Yuli təqvimi ilə oktyabrın 22-də) Şəkinin 2 verstliyində baş verir. 8 min nəfər şəkili, (on-

ların içində ləzgilər də vardı) dörd bir tərəfdən ruslara hücum edir. Döyüş səhər saat 8-dən axşam saat 7-yə qədər davam edir. Bu döyüşdə rusların əlinə keçmiş qənimətlərin içində xanlığın altı bayrağı da olmuşdu.Ruslar gecəni Şəkinin 1 verstliyində keçirirlər və səhər 4 noyabr tarixində, döyüşü davam etdirib Şəkini tuturlar. Səlim xan dağa qaçır.

Nuxa qalası Səlim xanın iqamətgahı idi və 4 noyabr 1805-ci il tarixdə ruslar tərəfindən doyüş yolu ilə tutulmuşdu.

Şəhər ruslar tərəfindən tutularkən, burada əvvəl onların özlərindən başqa kimsə gözə dəymirdi. Dağlara qalxmış əhalinin Səlim xan tərəfindən daha da uzaqlara deportasiya edlilməsinin qarşısının vaxtında alınması və dağlardakı adamların öz evlərinə qaytarılması üçün general Nebolsin mayor Solovyovun başçılığı altında 300 nəfərlik bir dəstəni 2 topla tez-tələsik dağlara göndərdi. Adamlar tezliklə dağlardan düşüb öz evlərinə qayıtdılar, şəhərdə və ətraf kəndlərdə həyat öz əvvəlki axarında davam etməyə başladı.

Səlim xanın yaxınları isə şaiyə buraxmışdılar ki, guya o, bəzi bəylərlə birlikdə Arazın o biri tayına  Ərdəbilə qaçıb. Amma ruslar dəqiqləşdirə bilirlər ki, o, qohumu Şamaxı xanı Mustafa xanın yanında gizlənir. Ruslar Mustafa xana məktub yazıb tələb edirlər ki, Səlim xanı onlara təslim etsin. Mustafa xan isə öz növbəsində ruslara cavab yazır ki, Səlim xan onun ərazisini az müddət əvvəl tərk etmişdir. Sonra ruslar öyrənirlər ki Səlim xan Göynük kəndindədir. Ona imkan verirlər ki, ailəsi və yaxınları ilə birlikdə Kəldək kəndinə köçsün.

General Nebolsin Şəki xanlığının idarəsini müvəqqəti olaraq Fətəli xan və Məmməd ağaya tapşırmışdı. Əhali bu seçimdən razı idi, lakin bir çoxları Səlim xanın qayıdacağından ehtiyat edirdilər və həmin səbəbdən də xan üsul-idarəsinin tamamilə ləğv edilməsini istəyirdilər. Ona görə ruslar Səlim xanı bütün imtiya-

zlarından, o cümlədən general-leytenant rütbəsindən də məhrum etdilər ki, camaat onun bir daha xan olmayacağına əmin olsun. Səlim xan isə Təbrizə getdi.

Səlim xanın həyatının son 20 ili

Səlim xan hakimiyyətini geri qaytarmaq üçün bir neçə dəfə Təbrizdən silahlı dəstə ilə Şəkiyə yürüş etmiş, lakin bu cəhdləri uğursuz olmuşdu.O, 1818-ci ildə Cənubi Azərbaycanda Ərdəbilin Meşgin mahalında yaşayırdı .1819-cu ildə isə Səlim xan Türkiyəyə Ərzurum paşalığının ərazisinə köçür və yaşayır. Səlim xan 12 aprel 1826-cı il tarixdə Osmanlı İmperiyasının ərazisindəki Kir şəhərində vəfat edir və orada dəfn olunur.

Səlim xanın oğullarından biri Süleyman xan 1827-ci ildə Azərbaycana qayıdaraq Rusiyanın himayəsini qəbul etmişdir.Gənc xandan öz məqsədləri üçün istifadə etməyə çalışan Rusiya imperiyası ona 600 manat təqaüd təyin etmişdi. 1338-ci ildə Varşavada əla xidmətinə görə polk komandirinin müavini təyin olunmuşdu.1841-ci ildə isə əlahəzrət imperatora öz təşəkkürünü bildirmək üçün Sankt-Peterburqa gedən deputat qrupunun tərkibinə daxil edilmişdi.

**1844-cü ildə** Süleyman xan ailə məsələləri ilə əlaqədar Təbrizə getmişdi. Bundan şübhələnən Rusiya onu Qarabağda yaşayan qohumlarını Təbrizə köçürmək və qarışıqlıq yaratmaqda günahlandırmışdı.Süleyman xan hərbi xidmətdən qovulmuş və ona rus imperiyasının sərhədlərinə qayıtmaq qadağan edilmişdi.Lakin onun Təbrizdə də qalmasından qorxan ruslar Süleyman xanı Təbrizdəki rus konsulluğuna çağıraraq həbs etmiş,əvvəlcə Tiflisə gətirmiş,buradan isə Voronejə sürgün etmişdi.1846-cı ildə sürgündən geri qayıdan Süleyman xan yenidən vətənə dönmüş,hərbi xidmətə götürülmüş və dağlılara qarşı keçirilən hərbi əməliyyatlarda fərqləndiyi üçün təqaüdü yenidən bərpa edilmişdi.

## FƏTƏLI XAN

Fətəli xan- Şəki xanı Hüseyn xanın ikinci oğludur. Məhəmmədhəsən xanın qardaşı olmuş,Fətəli xanın gözlərini Şəki xanı qardaşı Məhəmmədhəsən çıxartdırmışdır.

Səlim xan 1805-ci ildə Şamaxı xanı Mustafa xanı yanında olan müddətdə 1-2 gün ərzində Şəki xanı olmuşdur. Fətəli xanın oğlu Kərim ağa Şəkixanovun yazdığına görə onun atası "iki-üç ay" xan olmuşdur .

Kərim Ağa Fateh atası Fətəli xanın sarayında xüsusi təhsil alaraq ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Babası Məhəmməd Hüseyn xan Müştaq kimi o da şeirlər yazmışdır. "Fateh" təxəllüsü ilə yazdığı şeirləri ilə ürəkləri fəth etməyi bacarmışdır.

Fətəli xan Şəki xanlığının siyasi həyatında bir daha 1806-cı ilin noyabrında ( amma yenə də cəmi 1 ay) əsas şəxslərdən biri olmuşdur. Belə ki, 1806-cı ilin 4 noyabrında rus qoşunları Nuxanı tutduqdan sonra əhalinin xahişinə uyğun olaraq xanlığın idarəsi Fətəli xan ilə Məmməd adlı bir bəydən ibarət ikinəfərlik şuraya verilmişdi. Lakin Cənubi Qafqazdakı rus qoşunlarının Tiflisdə oturan baş komandanı Qraf Qudoviç dekabr ayında Tiflisdə öz yanında olan keçmiş Xoy xanı Cəfərquluya Şəki xanı olmağı təklif etmiş və onu Şəki xanı təyin etmişdir.

Bəzi mənbələrə, o cümlədən, Fətəli xanın oğlu Kərim ağa Şəkixanovun yazdığına görə, 1806-cı ilin 4 noyabrında rus qoşunları Şəkini tutduqdan sonra Cəfərqulu xanın Şəki xanı təyin edilməsinədək olan müddətdə, Fətəli xan Şəki xanı olmuşdur?!. Amma yuxarıda qeyd edildiyi kimi, bu doğru deyil, Fətəli xan 1806-cı ilin noyabr ayından həmin il dekabrın ortalarına qədər yalnız idarə şurasının iki üzvündən biri idi. Hətta o vaxt Cənubi Qafqazdakı rus qoşunlarının Tiflisdə oturan baş komandanı Qraf

Qudoviç Şəki xanlığındakı rus generalı Nebolsinə məsləhət görmüşdür ki, şuraya daha 2 bəyi əlavə etsin. Lakin general Nebolsin cavabında buna ehtiyac olmadığını bildirmişdir. Məlumat vermişdir ki, aparıcı bəylərin hamısı Səlim xanın qohumlarıdır. Ona görə də onları şuraya yaxın buraxmaq olmaz. Fətəli xan isə həm Məhəmmədhəsən xanın və həm də Səlim xanın qardaşı olsa da, hər ikisindən zəhləsi gedir. Birincisi onu kor etdirmiş, ikincisi isə xan ola-ola onun gündəlik yeməyini belə könülsüz vermişdir.

## CƏFƏRQULU XAN XOYSKI

Cəfərqulu xan Cənubi Azərbaycanın Xoy şəhərində anadan olmuşdur. Bir müddət sonra Cəfərqulu xanın 300 nəfərlə ova getməsindən istifadə edən Fətəli şah Xoya qoşun göndərib oğlunu, arvadını və qardaşını girov götürdü. Cəfərqulu xan İrəvana getdi. Lakin tezliklə, vəliəhd Abbas Mirzə ordusunun oraya üz tutduğunu eşidib həmin şəhəri də tərk etməyə məcbur oldu.

1804-cü ildə ruslar İrəvanı ələ keçirdikləri vaxt Cəfərqulu xan 200 nəfərlə onların qərargahına gəlib sədaqət andı içdi. Əvəzində general-leytenant rütbəsi və Çar Aleksandrın adından qiymətli hədiyyələriylə mükafatlandırıldı. 1806-cı ilin axırlarında isə ruslar tərəfindən Şəkinin xanı olmaq Cəfərqulu xana təklif olundu. ( bu ölkənin yerli xan sülaləsinə mənsub şəxslərdən artıq heç birisinin səmimiyyətinə inanmadıqlarına görə!)

Qraf Qudoviç Şəkiyə kimi xan təyin etmək barədə bir aydan çox fikirləşdi və nəhayət, dekabr ayında, Tiflisdə yanında olan keçmiş Xoy xanı Cəfərqulu xana Şəki xanı olmağı təklif etdi. Cəfərqulu xan Qraf Qudoviçin təklifini məmnuniyyətlə qəbul edərək Şəki xanı oldu.

Çar Aleksandrın 10 dekabr 1806-cı il tarixli fərmanı ilə onu rəsmi şəkildə Şəki xanı təyin etdi.

Cəfərqulu xan hələ 1802-ci ildə, Şəki xanı Məhəmmədhəsən xanla müttəfiqlik nümayiş etdirmişdi. Onun yeni təyinatı ilə əlaqədar isə 10 minə yaxın tərəfdarı, rəiyyət və qohum-əqrəbası Şəki xanlığı ərazisində məskunlaşdı.

Şəkinin Səlim xana tərəfdar olan bəyləri Cəfərqulu xanın Şəki xanı təyin olunmasının əleyhinə çıxdılar. Hətta toqquşmalar baş verdi və bu toqquşmalarda bir neçə rus əsgəri öldürüldü .Dinc dayanmayan Səlim xan Cənubi Azərbaycandan Şəkiyə öz adamlarını göndərir. Onlar Şəki camaatı arasında izah işləri

aparırdı. Onlar belə məlumat yayırdılar ki, Fətəli xana 12000-lik qoşun ayrılmışdır. O da gəlib Şəkini tutacaqdır. Bu şayiə Rusiya komandanlığını narahat etdi və baş komandan general-mayor Nebolsinə göstəriş verdi ki, ”Şəkidə olan Kabardin rotalarına kömək üçün Troitsk müşketyor alayının bir batalyonu göndərilsin”. Adları çəkilən rotaların komandirlərinə 1808-ci ilin iyulunda yazılan raportda xəbər verildi ki, Səlim xanın qohumu Məhəmməd bəy 13 nəfərlə Şəkiyə gəlmişdir. Beş yüz nəfər Səlim xan tərəfdarları ona qoşulmuşdur. Onların əleyhinə Cəfərqulu xana İsmayılın başçılığı altında 90 əsgər və 400 kazak göndərilmişdir. Onlar Səlim xanın tərəfdarlarını təqib etmiş, dağıtmış və 40 nəfər əsir götürmüşlər.

Qudoviçsə tərəfindən Cəfərqulu xana yazılan məktubda əhalini tərk-silah etməyi zəruri hesab edir, ara sakitləşənə qədər Şəkidə üç rota hərbi qüvvə saxlamağı, bundan əlavə Şəki bəylərindən və inanılmış adamlardan 500 nəfərlik silahlı dəstə düzəltməyi lazım bilirdi.

Buna baxmayaraq , Aşağı və Baş Göynük kəndlərinin əha- lisi üsyan etdi və Cəfərqulu xana tabe olmayacağını bildirdi. Sonralar baş verən üsyanlarda Göynük mahalının azadlıqsevən əhalisi həmişə öndə getmişdir. Molla Mustafa Şeyxzadənin başçılığı ilə 1930-cu il üsyanında isə üsyançıların paytaxtı olmuşdur. Başqa kəndlərdə də narazılıq artdı. Şəkidə olan Kabardin atıcı alayının 3 rotası, Cəfərqulu xanın dəstəsi və İlisu sultanının 1000 nəfər dəstəsi üsyanı silah gücünə yatırdı. Ələ keçmiş 40 nəfər üsyançıya amansız divan tutularaq öldürüldü. Əhalinin bu çıxışı obyektiv olaraq Çarizmin müstəmləkə siyasətinə qarşı və ona canla-başla qulluq edən yerli feodal hakimlərə qarşı yönəlmişdir. 1807-ci ilin sonuna yaxın Cəfərqulu xana qarşı müvəffəqiyyətsiz sui-qəsd oldu . Çar hökuməti əhalini qorxutmaq üçün Şəkiyə əlavə bir batalyon da göndərdi.

1804-1813-cü illər birinci Rusiya-Cənubi Azərbaycan müharibəsi zamanı rus qoşunlarına qoşulan Cəfərqulu xan Dünbili imperator I Aleksandr tərəfindən bahalı brilyantla bəzədilmiş qızıl medal və qızıl lələklə təltif edilmişdi.

Rus ordusunun general-leytenantı rütbəsinə layiq görülən Cəfərqulu xan ömrünün sonuna qədər imperiyanın sadiq nökəri olmuşdur.Yerli xalqa, onun adət-ənənələrinə tamamilə yad olan Cəfərqulu xan Rusiyanın bütün göstərişlərini can-başla yerinə yetirirdi. Xanlığın ərazisində çarizmin müstəmləkəçilik siyasətinə qarşı çevrilmiş üsyanları xüsusi amansızlıqla yatırır,üsyançıları cəzalandırır, Sibirə sürgün etdirirdi.

Cəfərqulu xanın xislətinə yaxşı bələd olan general Tormasov dağlı tayfalarını Rusiyadan asılı vəziyyətə salmaq üçün onun xəyanətkar əməllərindən məharətlə istifadə edirdi.Bu məqsədlə o Cəfərqulu xandan tələb edirdi ki, Rusiyaya tabe olmayana qədər dağlılara Şəki xanlığına məxsus otlaqlardan istifadə etməyi və xanlıqla ticarəti qadağan etsin.

Cəfərqulu xan 8 ilə yaxın Şəki xanı olduqdan sonra 22 avqust 1814-cü ildə isitmə (qızdırma) xəstəliyindən ölmüşdür.

1814-cü ildə Cəfərqulu xanın vəfatından sonra Şəki xanlığını onun oğlu İsmayıl xan idarə etmişdi. Şəki xanlığı 1819-cu ildə ləğv edilmişdi. Dünbili soyundan, əşirətindən olmasına baxmayaraq, övladları Xoyski soyadını qəbul etdilər.

Cəfərqulu xan  Şəkiyə xan təyin edildikdən sonra Xoydan 1000 erməni ailəsini Şəki xanlığının ərazisinə köçürtmüşdü. Onları Şəkidə və müxtəlif kəndlərdə yerləşdirmişdir. Şəhərin mərkəzində yaşayan 76 erməni ailəsi Xoy erməniləri idi. Yerli əhali onların yaşadığı ərazini ”ermənikənd”adlandırırdı.

Əkinçiliklə məşğul olan bu erməni ailələri yerli əhalini evindən çıxararaq onlara məxsus olan əmlakı mənimsəyir, özbaşınalıqlar törədirdilər.Xanlığın mərkəzinə gətirilmiş ermənilər isə

quldurluq edir,talançılıqla məşğul olur,əhalini soyur və incidirdilər.

Rusiya imperiyası Xoy ermənilərini xanlığın ərazisində saxlamaqda maraqlı idi.Ona görə ki,məhz Rusiya işğalından dərhal sonra Qacar dövlətindən və Turkiyədən Qafqaza,o cümlədən Azərbaycana ermənilərin kütləvi köçürülməsinə və yerləşdirilməsinə başlamışdı.Rusiya İsmayıl xana Xoy ailələrini saxlamaq üçün boş olan torpaqlarda onlara yer ayrılmasını və yerli əhalinin qüvvəsi ilə evlərin tikilməsini tapşırır və bu iş üçün lazım olan bütün şəraitin yaradılmasını isə öz üzərinə götürürdü.

**1824-cü ildə** Şəki əyalətinin aşağıdakı kəndlərində Cəfərqulu xan tərəfindən gətirilən erməni ailələrinin sayı belə idi.

| | Kəndlərin adı | Ailə sayı | Ailə üzvlərinin sayı |
|---|---|---|---|
| 1 | Axpelikənd | 83 | 500 |
| 2 | Göybulaq | 134 | 642 |
| 3 | Cəfərabad | 100 | 375 |
| 4 | Daşbulaq | 156 | 630 |
| 5 | Aydınbulaq | 31 | 111 |
| 6 | Xanabad | 12 | 40 |
| 7 | Qayabaşı | 40 | |
| **Cəmi** | | **556** | **2306** |

# İSMAYIL XAN XOYSKI

İsmayıl xan atası Cəfərqulu xanın ölümündən sonra Şəkidə hakimiyyətə başladı və çar Aleksandrın 22 may (Yuli təqvimi ilə: 10 may) 1815-ci il tarixli fərmanı ilə rəsmi şəkildə Şəki xanı kimi təsdiqləndi.

Bu mərasimdə Rus çarının nümayəndəsi Ptişşev iştirak edirdi. Ptişşev İsmayıl xana Şəkidə yaşayan ermənilərə xüsusi qayğı ilə yanaşmağı tapşırır,onlarla ədalətli rəftar edilməsini,müsəlmanlardan fərqli olaraq vergilərlə çox yüklənməməsini,öz dinlərinə sərbəst şəkildə ibadət etmələrinə şərait yaradılmasını tələb edirdi.

İsmayıl xanın Şəki xanı elan edilməsi xalqın kəskin narazılığı ilə qarşılandı.1814-cü ildə Şəkidə yeni xana qarşı üsyan başladı.Lakin üsyan yatırıldı,onun iştirakçılarına divan tutuldu.Şəkidə sakitlik yaradıldı.Bu isə yalnız zahiri xarakter daşıyırdı.Xalq İsmayıl xanın və onun adamlarının özbaşnalığına artıq dözmək istəmirdi. Yerli əhali başsızdır,bəylər arasında isə ixtilaf hökm sürürdü.

V.Q.Madatov Şəki xanlığında peyda olur.Qafqazda rus silahının köməyi ilə amansız vəhşiliklər,xüsusi qəddarlıq törədən V.Q.Madatovun Şəkiyə gəlməsi təsadüfi deyildi.Məhz onun xanlığın ərazisində görünməsindən bir həftə sonra İsmayıl xanın ölümü çox böyük şübhələr yaratdı .

Lakin İsmayıl xan, rus hakimiyyət dairələrinin ümidlərini doğrultmamışdı. Yüksək çinli rus məmurlarının öz aralarındakı raportlarında İsmayıl xanı hətta "великий дурак"(böyük axmaq) da adlandırmışdılar. Nəhayət, İsmayıl xan xəstələndi və bir həftəlik yataq vəziyyətindən sonra 5 avqust (Yuli təqvimi ilə: 24 iyul) 1819-cu ildə öldü. Belə bir fürsət gözləyən ruslar isə onun oğul varisinin olmamasını bəhanə edərək, 1819-cu il iyulun 31-də Şəkidə xanlıq üsul-idarəsini ləğv etdi.Ərazi Şəki əyaləti ad-

landırıldı.Mayor Fon Disterlo Şəki komendantı təyin edildi.Şəkidə komendant üsul-idarəsi yaradıldı.Komendant üsul idarəsi xalqın vəziyyətini daha da ağırlaşdırdı.

Şamaxı xanı Mustafa xan o vaxt iddia etmişdir ki İsmayıl xanı ruslar öldürüblər. Ruslar isə öz növbələrində xanın, bacısı Sara bəyim tərəfindən zəhərlənməsindən şübhələndiklərini bildirirdilər.

Ismayıl xanın vəfatından sonra Xoy ailələrinin vəziyyəti xeyli pisləşdi.Onların quldurluğu,oğruluğu və həyasızlığından cana gəlmiş yerli əhali hər an xoylulara divan tutmağa hazır idi.Hətta İsmayıl xanın vəfatının ilk günlərində xoyluların qisasından qorxan xan ailəsi və yaxın adamları qaladan kənara çıxmır,kişilər çadraya bürünüb gəzirdilər.Rusiya imperiyası da şəhərdə yaşayan və xalqı təngə gətirən xoy ailələrinin ərazidə saxlanmasını artıq məqsədəuyğun hesab etmirdi.Ona görə ki, özgə hesabına yaşıyan xoylulara nifrət o qədər güclü idi ki, bu, xanlıqda böyük çaxnaşmalara və sonu bilinməyən hadisələrə gətirib çıxara bilərdi.Ona görə də xanlığın ləvğ edilməsindən dərhal sonra Rusiya Xoy ailələrinin ərazidən çıxarılması işi ilə məşğul olmağa başladı.

Şəki xanlığının ləğv edilməsindən az sonra, ruslar mərhum İsmayıl xanın qohum-əqrəbasının bir qisminə illik təqaüd kəsdilər. Məsələn, "Kiçik ağa" ləğəbi ilə tanınan əmisi oğlu Kəlbəli bəyə əvvəl 1300, sonra isə 2300; Kəlbəli bəyin anası Səltənət bəyimə 1200 manat və s. Lakin bununla yanaşı, həm də onlara Şəkini tərk etmək "məsləhət" görülmüşdür.

## ŞƏKI XANLIĞININ PULU – ÇULLUQ

İsmayıl xanın dövründə Şəki xanlığında pul islahatı keçirilmişdi. Lakin 1819-cu ilə aid sənəddən məlum olur ki



dövriyyədə əsasən Məhəmmədhəsən xanın pulları işlənib (Şəki xanlığının ləğv edilməsindən xeyli sonra da Məhəmmədhəsən xanın pulları dövriyyədə qalıb!). 1819-



cu ilə aid sənəddə göstərilir ki, 1 gümüş rus manatı "чулук" adlanan 13 köhnə, yaxud İsmayıl xanın 8 yeni Şəki abbasısına və 20 mis qəpiyə (8 manat 20 qəpik) barabər idi. Bazara uyğun olaraq məzənnə dəyişirdi, 1819-cu ildə 1 rus çervonuna 38 köhnə abbası verirdilər. Köhnə abbası, daha doğrusu çülük isə 20 qəpik mis pul qiymətində idi. İsmayıl xanın yeni abbasıları ilə isə 1 rus çervonuna 25 və 10 qəpik mis pul (25 manat 10 qəpik) verirdilər.

# HÜSEYN XAN

Hüseyn xan —Müstəqil Şəki xanlığında hakimiyyətdə olmuş ən sonuncu - XI xan. 1795-1797 və 1805-1806-cı illərdə Şəki xanı olmuş Səlim xanın oğludur.

Şahzadə Abbas Mirzə Şimali Azərbaycanın Rusiya tərəfindən işğal olunması ilə barışmaq istəmir, yeni müharibəyə hazırlaşırdı. Bu işdə Böyük Britaniya ona yaxından kömək edirdi. 1826-ci ildə şahzadə Abbas Mirzə müharibə elan etmədən öz qoşunları ilə Şimali Azərbaycana daxil oldu. Şahın qoşunları Qarabağı tutaraq Şuşa qalasını mühasirəyə aldılar. Eyni vaxtda hakimiyyətini bərpa etmək istəyən keçmiş xanlar da Azərbaycana gəldilər. Qafqaz baş komandan general Yermolovun Çara göndərdiyi məktublardan aydın olur ki , Şahzadə Abbas mirzənin qoşunlarının hücumlarından istifadə edən keçmiş Azərbaycan xanlıqlarının əhalisinin bir qismi də çar Rusiyasının işğalçı üsul-idarəsinə qarşı üsyan etdi. Bu üsyana səbəb çarizmin milli-müstəmləkə siyasəti ilə yanaşı, keçmiş xanlıqların yerinə təyin olunmuş komendantlarını, çar məmurlarının, çarizmə xidmət edən yerli feodalların öz başınalığı ,zorakılığı ilə bağlı idi.

1826-cı ilin 8 avqust tarixində ruslar keçmiş Şəki xanlığı ərazisini tərk etməyə məcbur oldular. Səbəb Qacar dövlətinin şahzadəsi Abbas Mirzənin böyük bir ordu ilə bura yaxınlaşması idi.28 iyul (indiki təqvimlə: 9 avqust) tarixdə Şahın qoşunu bizim (ruslar) tərəfindən boşaldılmış Gəncəyə girdilər və qalanı tutdular. Şahın bayrağı yenə də köhnə qalanın başında göründü... Gəncənin tutulması ilə eyni vaxtda, çoxdan ölmüş Səlim xanın oğlu Hüseyn xan Şəkiyə, Mustafa xan Şirvana, Şeyxəli xanın oğlu Qubaya, Hüseynqulu xan (Sisianovun qatili) Bakıya, Mirhəsən xan isə Lənkərana gəldi. 3 gün sonra Səlim xanın oğlanlarından biri - Hüseyn xan, Şəkiyə gəlib Şəki xanlığını

bərpa etdi və özü Şəki xanı oldu. Abbas Mirzə də Şəkiyə gəlib çıxmışdı. Şəkidə şahın adından sikkə zərb edilməsinə başlanıldı.

Sikkələrin üzərində yazılıb:

“Zərb noxu” (yəni Nuxada zərb olunub)

Şəki vilayəti Şahzadə Abbas Mirzə tərəfindən zəbt edilmişdi. Orada bir Hüseyn xan - Şəki xan xanədanının son nümayəndəsi oldu. Hüseynin atası Səlim, rus təbəəliyinə könüllü keçmiş, Qudoviç zamanında Təbrizə qaçmışdı və orada (əslində Türkiyədə) ölmüşdü. Ölkəsi o zaman (Səlim xandan sonra) Xoydan gəlmiş başqa nəslin əlinə keçmişdi və onlardan sonuncunun (İsmayıl xanın) ölümündən sonra - Yermolovun dövründə, adi rus əyalətinə çevrildi. Güman edilirdi ki xalq Hüseyni öz köhnə xanlarının davamçısı kimi qəbul edəcəkdir. Buna görə Qacar hökuməti ona qoşun vermişdi və tələb etmişdi ki, xalqı (ruslara qarşı) ayağa qaldırsın. Amma onların seçimi uğursuz oldu. Hüseyn həqiqətən Şəkini tutdu, oradakı iki rus rotası isə döyüşsüz Kaxetiyaya çəkildi, - bununla da onun fəaliyyəti başa çatmış oldu. O, Nuxadakı öz sarayının zərli otaqlarında oturaraq sakit həyat tərzi keçirdi.. Şəkililərin yaddaşında Hüseyn xan qətiyyətsiz və tənbəl bir adam kimi qalmışdır. Bu barədə lətifələr dildən-dilə dolaşır. Abbas Mirzə ondan tələb etmişdi ki, carlılarla birləşib Kaxetiyaya hücum etsin. Hüseyn isə cavab vermişdi ki, şahzadənin (Şahzadə Abbas Mirzənin) koməyini gözləyir və heç yerə getmədi. Şəki vilayəti müvəqqəti olaraq Rusiyadan ayrılmışdırsa da, onunla Qacar hökuməti arasında siyasi münasibətlər formalaşmadı.

Abbas Mirzənin Gəncə yaxınlığında ruslar tərəfindən məğlub edilməsi və onun 30 sentyabrda Arazı keçib Təbrizə geri çəkilməsi nəticəsində hərbi dəstəkdən məhrum olan Hüseyn xanın xanlıq dövrü çox çəkmədi.

Ruslar Abbas Mirzənin Təbrizə geri çəkilməsindən heç 1 ay

keçməmiş, əllərindən çıxmış bütün əraziləri təkrarən öz hakimiyyətləri altına ala bildilər. Onlar 17 oktyabr tarixində köhnə Şamaxıya daxil oldular  Mustafa xan da qaçdı. Yalnız Şəkidə rus hakimiyyəti hələ bərpa edilməmişdi.

Şəkidə rus hakimiyyətinin bərpa edilməsi və Hüseyn xanın hakimiyyətinə son qoyulması üçün hərəkət edən rus ordusunun başında, Qafqazdakı rus qoşunlarının baş komandanı general Yermolov durdu. Rus hərb tarixçisi N.F.Dubrovinin yazdığına görə:

Yermolov böyük bir ordu və 18 topla 29 oktyabr tarixdə Alazan çayını keçmiş və 31 oktyabr tarixdə Şəki şəhərinə daxil olmuşdu. Rus ordusunun gəlməsini görən xan və yanındakılar Təbrizə doğru getdilər. Elə getdilər ki, onları təqib etmək üçün göndərilmiş kazaklar onlara çata bilmədilər. Hakimiyyət dəyişikliklərindən bezmiş sadə xalq rusları sevinclə qarşıladı. Ancaq bəylərin əksəriyyəti ilə xanla birlikdə qaçmışdılar.

**Hüseyn xanın qardaşları**

"Şəki xanlarının nəsil şəcərəsi"ndə həm də qeyd edilmişdir ki, Hüseyn xanın qardaşı Hacı xan nə vaxtsa Cənubi Azərbaycanda Kirmanşahın qubernatoru olmuşdur. Sonralar həmin şəhərin yaxınlığındakı Kerend kəndinin adamları tərəfindən öldürülmüşdür. Hüseyn xanın digər qardaşı Süleyman xan isə rus ordusunda xidmət etmiş, Varşavada vuruşmuş və polkovnik rütbəsinə qədər yüksəlmişdir. O haqqda yuxarıda ətraflı məlumat verilmişdir.

Puşkinin dostu, General Rayevski 1826-cı il 25 oktyabr tarixli məktubunda Şəkinin əsrarəngiz mənzərəsinə heyran olaraq yazırdı:  “Mən Şəki xanlığının paytaxtı Şəkidən iki keçidlik məsafədəki düşərgədəyəm. Mən bu diyarı böyük heyranlıqla gəzirəm, bizim düşərgə  nar, yulqun, çinar meşəsində yerləşir… Şəki çox gözəldir, bu böyük masştabda Baxçasaray idi”.

# MÜSTƏQİL ŞƏKİ XANLIĞI



# ŞƏKI BAYRAQLARI VƏ GERBI

Rus general-mayoru Nebolsinin başçılıq etdiyi dəstənin ələ keçirdiyi qənimətlər içərisində xanlığın altı bayrağı da olmuşdur. Onlardan üçü (inv. sayları 451, 452, 455) hazırda Azərbaycan Milli Tarixi Muzeyində saxlanılır.

451 №-li inventar altında saxlanılan, ölçülərinə görə Şəki xanlığına məxsus bayraqların ən böyüyü olan bayraq (245 x 237 sm), beşbucaqlı formasındadır. Moruq rəngli orta hissəsi sarı ipək saplarla və güləbətinlə işlənmiş ornamentlərlə örtülmüşdür. Bayraq qumaşı xara (zərxara) parçadandır. Bayrağın kənarlarına yaşıl xara parçadan enli haşiyə salınmışdır. Ortada, güləbətin saplarla işlənmiş şaquli istiqamətli xətlər arasında, sarı ipək saplarla cərgə-cərgə səkkizguşə və altıguşə ulduzlar, həndəsi qab fiqurları çəkilmiş, onların arasında isə, dəyirmi, rombvarı və üçbucağa oxşar kiçik fiqurlar salınmışdır.

Bayrağın yaşıl xaradan olan haşiyəsi üzərində sarı ipək saplarla şahmat qaydasında səkkizguşə ulduzlar çəkilmişdir.

Eyni təsvirlər bayrağın astar tərəfində də mövcuddur. Bayrağın parça hissəsinin bəzi yerləri zədəlidir. Açıq-qəhvəyi boya ilə rənglənmiş bayraq sapı (uzunluğu 289 sm, kəsikdə diametri 3,8 sm) bir çox yerlərdə çatlamışdır. Dəmir ucluq (uzunluğu 52 sm) üç hissədən ibarətdir. Konusvari borunun üst tərəfində qabarıq kəmərlik qoyulmuş, başına içi boş "alma" taxılmışdır. "Alma"nın üst hissəsinə dəmirdən dördtilli süngü keçirilmişdir.

Milli Azərbaycan Tarixi Muzeyində 452 №-li inventar altında saxlanılan düzbucaqlı üçbucaq formasında olan bayrağın (ölçüləri 143 x 105 x 93,5 sm) üz və astar tərəfləri müxtəlif növ parçalardan tikilmiş, 1926-cı ildə bərpa zamanı üz astardan ayrılmışdır. "Qafqaz Hərbi Tarix Muzeyi üzrə bələdçi" kitabında

verilmiş qısa məlumata görə, məğlub edildikdən sonra xan adından məhrum edilmiş şəkili Səlim xana mənsub olan bu döyüş bayrağı, yuxarıda qeyd edildiyi kimi, 1806-cı ildə baş verən hücum zamanı düşmənin əlinə keçmişdi. Yenə həmin mənbəyə görə, bayraq 1606-cı ildə hindistanlı Hacı Hüseyn tərəfindən hazırlanmış, Nadir şahın Hindistan yürüşündə əldə etdiyi qənimətlərdən olmuşdur.

Bayraqlardan biri vaxtilə Nadir şahın bayrağı olub, lakin Nadir şahdan 100 il əvvəl Hindistanda hazırlanmışdır.

Tarixən məlumdur ki, Nadir şahın bir qədər əvvəl Şəki valisi təyin etdiyi Hacı Çələbi Şəki vilayətini müstəqil xanlıq, özünü isə xan elan etmişdi. Yalnız uzun müddət (1744-1746) davam edən qanlı döyüşlərdən sonra "Gələsən-görəsən" qalasında mühasirəyə alınmış Hacı Çələbi Nadir şah hakimiyyətini tanıdığını bildirdi. Nadir şaha məxsus bayraq elə həmin dövrdən Şəki xanlığının bayraqlarından biri oldu...

Bayrağın üz tərəfində sarıya çalan açıq qəhvəyi (bej) tirmə parçanın yerliyində cərgə ilə butalar salınmışdır. Qırmızı çiçək və yaşıl yarpaqlardan tərtib edilmiş butaların bir cərgəsi sola, digəri isə sağa tərəfdir. Bayrağın açıq qəhvəyi (bej) rəngli saya parçadan olan astar hissəsinin üzərində əvvəldən olan sanskrit yazılarla yanaşı, sonradan ərəb və fars dillərində əlavələr edilmiş, Quranın müxtəlif surələrindən ayələr, eləcə də həmin ayələrin başlanğıcında mənası, məqsəd və mahiyyəti bu gün də alimlər üçün anlaşılmaz qalan, "Allahın sirri" hesab edilən bir və ya bir neçə hərf verilmişdir ( mim, ha, mim, dəl; dəl, mim, ha və s.). Bayraq qumaşı üzərindəki yazılar onu üç hissəyə - ortada yerləşən böyük kvadrata və kənarlarda yerləşən iki düzbucağa bölür. Böyük kvadrat hər birində Quran ayələrindən ayrı-ayrı sözlər olan kiçik kvadrat xanalara (100 x 100) bölünüb. Böyük kvadratın aşağı haşiyələrində və bütövlükdə bayrağın kə-

narlarında da Quran ayələri verilmişdir. Düzbucaqlı üçbucaqlarda da içərisində Quran yazıları olan kvadrat xanalar, müxtəlif ayə və kiçik surələr yerləşdirilmiş, Allahın epitetləri qeyd edilmiş, sağ düzbucaqlıda, həmçinin, döyüşdə qələbəyə inam və ümid yaradan Quran ayəsi "Kömək Allahdandır və yaxın qələbə" - verilmişdir.

## ŞƏKI XANLIĞININ BAYRAQLARI




Bayrağın üz tərəfində ərəb əlifbasında qeydə alınmışdır: "Böyük sultan, ən böyük xaqan, insanların başlarının ağası Nadir şah, Allah onun hakimiyyətini əbədi etsin, 1155/1742-43-cü il".




Bayraq sapı (uzunluğu 297 sm, kəsikdə diametri 3,8 sm) qara və yaşıl rənglərə boyanmışdır. Mis ucluq (uzunluğu 29 sm) üç hissədən ibarətdir. Konusvari borunun başına əzilmiş kürə formasında olan "alma" taxılmışdır. Üst hissə ortası qabarıq, yarpaq formasında kəsilmiş içi boş ucluqdan ibarətdir. Bütün ucluq qızıl suyuna salınmışdır. Yarpağın uzunluğu 26 sm, eni 16 sm, qalınlığı 16 sm-dir.

Düzbucaqlı üçbucaq formasında ikiqat ipək parçadan əl ilə tikilmiş bayrağın (ölçüləri 224 x 178 x 137sm) zamanın təsirindən çox solmuş naxışlı çəhrayı qanovuzdan olan bir üzündə mavi və qızılı saplarla gül budağı üstündə oturmuş və dimdik-dimdiyə dayanmış quş və balıq təsvirləri toxunmuşdur (453 №-li inventar altında saxlanılır). Bayrağın göy xara ipəkdən olan o biri üzünə, qızılı ipək saplarla toxunmuş uzunsov yarpaqvari damaların içinə qızılı və yaşıl saplarla gül ornamenti salın-

mışdır. Bayrağın iki tərəfdən kənarlarına saçaq çevrilmiş, nazik zərxara köbə üzərində quş, dovşan, gül və yarpaq təsvirlərindən ibarət ornament salınmış, köbənin qırağına güləbətin saplardan saçağı olan ensiz qızılı lent tikilmişdir. Qumaşın bayraq ağacına taxılması üçün tikilmiş üst sapı qara, alt sapı qəhvəyi rəngdə olan nazik ipək (liberti) torbacıq zamanın təsiri ilə demək olar tamam üzülərək sap halına düşmüşdür.

Bayraq ağacının sapı (uzunluğu 228 sm, kəsikdə diametri 3,6 sm -dir) qara boya ilə örtülmüşdür. Qızıl suyuna salınmış üç hissəli mis ucluq (uzunluğu 52 sm, eni 12 sm) konusvari borudan, ona taxılmış içi boş "alma"dan və "alma"nın üst hissəsinə birləşdirilmiş ortası qabarıq, kənarları qırçınlı içi boş yarpaqdan ibarətdir.

## ŞƏKI XANLIĞININ GERBI



1.Tac-hakimiyyət rəmzidir.

2.Qadın şir- təhlükə yaranarsa qadın əlində qılınc müdafiəyə hazır olar.Aslanın erkəyi-dişisi olmaz.

3Quyruğunda əjdaha olması daxildə hakimiyyət üçün gələn təhlükəli düşməndi.

4.Şirin ayaqlarının altında balıq olması ,balığın sürüşkənliyini yəni hakimiyyətin gəldi-gedər olmasını göstərir.

5.Qadın başı-Qadının öz gözəlliyi ilə qarşısındakı insandan istifadə edə bilər.

## ŞƏKI ÜSYANLARI

Üsyan - Köhnə ictimai quruluşu yixib yenisini qurmaq və azadlığa nail olmaq məqsədilə hakim siniflərə qarşı kütləvi silahlı və silahsız çıxış.

Ümumiyyətlə,Şəki tarixən həm olduqca sakit, həm də təlatümlü şəhərdir,burada olan üsyanlar mahiyyətinə görə başqa xanlıqlarda qeydə alınmamışdır.

Həzrəti Osman xilafətinin vaxtında Azərbaycan üsyan etdi və vergilərin verməkdən imtina etdilər.Azərbaycana əlavə ordu göndərib üsyanları yatırtdılar.

Ziya Bunyadovun Azərbaycan vıı-ıx əsrlərdə kitabinda yazilib:

Dərbənd "tarixində" verilən məlumata görə 205 (820)-ci ildə, xəlifə Məmun tərəfindən Azərbaycan və Arran hakimi vəzifəsinə təyin edilən Xalid ibn Yəzid ibn Məzyəd öz iqamətgahı Bərdəyə gedərkən, yolda Şəki əhalisinin üsyanını yatırmalı olmuşdu. Mənbə bildirir: " Xalid onlarla vuruşmağa girişdi və onların Xalidə gecə vaxtı hücüm etdiklərinə baxmayaraq, qalib gəldi və Şəki üsyanı yatırıldı.

Azərbaycanda Şəki xanlığının ərazisində hakim sinifə,vergi və mükəlləfiyyətlərin (Yerinə yetirilməsi məcburi olan borc, vəzifə) ağırlığına məmurların zülümünə qarşı bəzi Şəki üsyanları haqqında:

## 1743-CÜ IL HACI ÇƏLƏBI ÜSYANI

**XVIII yüzilliyin 40-cı illərində** Azərbaycanda Nadir Əfşar dövlətinin vaxtında xalq azadlıq hərəkatının gedişində ilk müstəqil Azərbaycanda Şəki xanlığı da, bu guşəsində yaranır.

Öz mənafeləri naminə bir-birilə didişən xanların aciz hala

saldıqları və qüdrətli dövlətlərin yağlı tikəsinə çevrilməkdə olan Azərbaycanı birləşdirib qüdrətli və vahid dövlətə çevirmək kimi nurlu ideyanın doğulduğu məkanlardan biri də məhz Şəki,həmin ideyanın banisi isə Azərbaycanın qəhrəman oğullarından biri olan Hacı Çələbi xan idi. Lakin el qeyrəti çəkən,cəsurluğuna,hökmdar qətiyyəti və tədbirliliyinə,döyüşlərdə göstərdiyi şəxsi igidliyinə görə başqa Azərbaycan hakimlərindən fərqlənən Hacı Çələbi də yaxınlaşan Rusiya işğalı ərəfəsində Azərbaycan xanlıqlarını birləşdirmək planını həyata keçirməyə çox çalışmasına baxmayaraq, buna nail ola bilmədi. Çox təəssüf ki,Azərbaycanın digər xanları öz mənafellərini ümummilli dəyərlərdən üstün tutaraq , ona qarşı birləşərək bu ideyanı həyata keçirməyə qoymadı.

## 1807-CI IL GÖYNÜK ÜSYANI

**XIX yüzilliyin** əvvəllərində xalq azadlıq mübarizəsinin ən şanlı səhifələrindən biri Şəkinin Baş Göynük kəndində yazılmışdı.Baş Göynük Şəki xanlığının ən böyük mahallarından biri idi.1824-cü il siyahıya alınmasına görə burada 3433 nəfər əhali yaşayırdı.Şimali Qafqaza gedən dağ cığırları bu kəndin ərazisindən keçirdi.Ona görə də başlanan üsyan işğalçıları vahiməyə salmış,onları dərhal ciddi tədbirlər görməyə məcbur etmişdi.Şəkidə yerləşdirilmiş Kabardin-müşketyor polkunun mayoru Qrekovun Qafqazdakı rus qonşularının baş komandanı qraf Qudoviçə göndərdiyi 48 nömrəli raportda bu üsyan haqqında maraqlı məlumat var.

Üsyan **1807-ci il aprelin 28-də** başladı.Baş Göynük və Aşağı Göynük kəndlərini əhatə edən üsyana qısa müddətdə yaxınlıqdakı Burç kəndi də qoşuldu .Üsyana Baş Göynük kənd sakini sultan Murad başçılıq edirdi.Göynük əhalisi bütünlüklə yaşayış yerini tərk edərək, Burç kəndi yaxınlığındakı dərədə düşərgə

yaratdı.Üsyançılar Şəki xanı Cəfərqulu xanın göstərişlərinə tabe olmaqdan boyun qaçırdı. Bu, əslində Rusiya hakimiyyətini tanımaqdan imtina etmək idi.Üsyanın getdikcə genişlənməsi və digər ərazilərə yayılması təhlükəsi gündən-günə artırdı.Üsyançılar Şirvan xanı Mustafa xanla da əlaqə yaratdılar.Şırvan xanı üsyançılara möhkəm dayanmağı və Cəfərqulu xana tabe olmamağa çağırdı.Əvəzində isə o yaxın vaxtlarda üsyançılara hərbi qüvvə ilə yardım edəcəyini vəd etdi.

Üsyanın getdikcə genişlənməsi qorxusu işğalçıları öz qüvvəllərini səfərbərliyə almağa vadar etdi.Mayor Qrekov özü ilə 100 nəfər əsgər və hərbi sursat götürərək üsyançıların üzərinə yeridi.Cəfərqulu xanla İlisu sultanının 1000 nəfərlik birləşmiş hərbi qüvvələri onlara qoşuldu.Üsyançılarla birləşmiş qüvvəllər arasında qanlı döyüş başladı.Qeyri-bərabər döyüşdə güclü müqavimətlə üzləşən rus işğalçıları toplardan istifadə edərək çaxnaşma yaratdılar.Top atəşi üsyançıların sırasını dağıtdı.Pərakəndə düşən əhali dağlara çəkildi.Üsyançılar möhkəm dayanaraq Mustafa xandan vəd olunan köməyi gözləyirdi.Lakin gözlənilən köməyi almaq mümkün olmadı. Üç gün davam edən şiddətli döyüşdən sonra qüvvələri tükənən üsyançılar təslim oldular. Üsyan başçısı sultan Murad öz ailəsi ilə birlikdə dağlara qaçdı və yalnız bir neçə gündən sonra çətinliklə ələ keçirildi.Üsyan yatırıldıqdan sonra kənd əhalisi öz yaşayış yerinə qaytarıldı və rus qoşunlarının təzyiqi altında Cəfərqulu xana,Rusiya taxt-tacına sadiq qalacaqlarına and içdi.Sultan Murad isə Şəkiyə gətirilərək qalaya salındı.Sonralar sultan Murad öz igidliyi sayəsində qaladan qaçmış,Cara gedərək bu ərazidə müstəmləkə əsarətinə qarşı mübarizəni davam etdirmişdi.

**1807-ci il** Göynük üsyanının yatırılmasına baxmayaraq, onun böyük tarixi əhəmiyyəti var idi.Bu üsyandan sonra azadlıq mübarizəsi yeni qüvvə ilə genişləndi.Üsyan xalqın işğalçılara

qarşı apardığı qəhrəmanlıq mübarizəsinin şanlı simvoluna çevrildi.

## 1808-CI IL ŞƏKI  ÜSYANI

**1808-ci ilin** əvvəlində Şəki xanlığında azadlıq mübarizəsi yeni vüsət aldı. Bu mübarizənin başında öz vətənini tərk edib Təbrizə qaçmaq məcburiyyətdində qalan Səlim xan dayanırdı.

Əslində Səlim xan öz dövrünün cəsur və ağıllı dövlət başçısı idi.Məhz qətiyyəti və igidliyi sayəsində xanlığı ələ keçirən Səlim xan mövcud vəziyyəti düzgün qiymətləndirərək, siyasi və hərbi qüvvələr arasında manevr etməyi bacarırdı.

Xanlığın idarəçiliyindən kənarlaşdırılan Səlim xan ömrünün sonuna qədər çarizmə,müstəmləkə siyasətinə və əsarətinə qarşı qətiyyətlə mübarizə aparmışdı.Onun adı ruslar üçün həmişə təhlükə və qorxu yaradırdı.Rus hərbiçiləri bütün yazışmalarında Səlim xanın gah bir,gah da digər ərazilərdə görünməsini çox böyük təlaş və vahimə ilə bir-birinə çatdırırdılar.Sonralar onun oğulları bu mübarizəni davam etdirmiş,itirdikləri mülkiyyət hüquqlarını özlərinə qaytarmağa cəhd göstərmişdilər.

**1808-ci ilin iyununda** Səlim xan Şəkinin bir sıra nüfuzlu bəylərinə məktub göndərdi.O məktubunda bildirirdi ki,tezliklə böyük qoşunla Şəkiyə gələcək,işğalçıları qılıncdan keçirəcək,Cəfərqulu xanı isə Şəkidən qovacaqdır.Səlim xan əhalini qanlı və amansız işğal rejiminə qarşı çıxışlara təhrik edir,hücüm ərəfəsində bütün qüvvələrin səfərbərliyə alınmasını zəruri hesab edirdi.

Səlim xanın məktubundan xəbər tutan Cəfərqulu xan öz qoşunu ilə dərhal müxtəlif ərazilərə getdi.O Səlim xanla əməkdaşlıq edən bəyləri,onların yaxın qohumlarını girov götürərək Şəki qalasına saldı.

**1808-ci ilin iyununda** Səlim xan böyük qoşunu ilə Kürə yaxınlaşdı.Kür sahilindəki kəndlərin əhalisi Səlim xana qoşuldu.Bütün qüvvələri səfərbərliyə alan Səlim xan Şəkiyə hücuma hazırlaşdı.Bu xəbəri eşidən Cəfərqulu xan dərhal öz qoşunu ilə Kür sahilinə gəldi.General-mayor **Nibolsinin** və polkovnik **Lisaneviçin** başçılığı altında olan 600 piyada və 1 top Cəfərqulu xana köməyə göndərildi.Qafqazdakı rus qoşunlarının baş komandanı qraf Qudoviç Cəfərqulu xana göndərdiyi təlimatda Səlim xanı diri tutmağı və bu işdə əlindən gələni əsirgəməməyi tapşırırdı.

Cəfərqulu xanın getməsindən istifadə edən şəhər əhalisi qiyam qaldıraraq, Səlim xanın tərəfdarlarına qoşuldu.Bu zaman Səlim xanın məmuru Məmməd bəy 500 nəfərlik qoşunla Nuxa qalasının 50 verstliyinə gəlib çatdı.Kür sahilində böyük hərbi qüvvə ilə qarşılaşmaqdan vaz keçən Səlim xan Təbrizə qayıtdı.Bu isə Cəfərqulu xana Şəkidə başlamış qiyamı asanlıqla yatırmağa imkan verdi.Cəfərqulu xan 900 nəfərlik rus hərbi qüvvə ilə üsyançıların üzərinə yeridi.Məmməd bəyin qüvvələri geri oturduldu.Üsyan məğlub oldu.Cəfərqulu xan üsyançılara qanlı divan tutdu.40 nəfər üsyançı həbs edilərək qalaya salındı.Üsyana qoşulan bəylər isə cəzalandırılmaq üçün ciddi nəzarət altında Tiflisə göndərildi.Onlar burada Rusiya qanunları ilə mühakimə edilərək Sibirə sürgün edildi.

## 1814-CÜ IL ŞƏKI ÜSYANI

**1807-ci il** Göynük üsyani yatırıldıqdan sonra da Şəkidə mövcud üsul-idarəyə qarşı xalqın ümumi narazılığına son qoymaq mümkün olmadı.**1814-cü il noyabrın 8-də** Qafqazdakı rus qoşunlarının baş komandanı general **N.F.Rtişşevin** imperatora göndərdiyi raportdan aydın olur ki,Cəfərqulu xanın ölümündən

sonra Şəkiyə yeni xanın-İsmayıl xanın təyin edilməsi yerli əhalinin kəskin müqaviməti ilə qarşılandı.Cəfərqulu xanın sağlığında Rusiyaya sədaqəti ilə diqqəti cəlb edən və buna görə də xanın varisi kimi tanınan İsmayıl xanın Şəki xanı elan edilməsi Şəkidə üsyanın başlamasına səbəb oldu.Yerli əhali yaxşı başa düşürdü ki,İsmayıl xan da öz atası Cəfərqulu xan kimi Rusiyanın müstəmləkə siyasətini can-başla yerinə yetirəcək.

Yeni xanın hakimiyyətini rəsmi şəkildə elan etmək üçün general-mayor **Axverdov** Şəkiyə gəldi.Bu xəbəri eşidən xalq qalanın ətrafına yığılaraq öz narazılığını bildirdi.Xalq Rusiyadan asılı olmaq istəmir və İsmayıl xanın hakimiyyətini tanımayacaqlarını bildirirdilər.Başlanan üsyana əhəmiyyətsiz yanaşan Axverdov mahalları idarə edən bəylərin və məliklərin yığıncağında İsmayıl xanı Şəki xanı elan edərək bu ərazidən Şirvan xanlığına getdi.Məqsəd vaxtı ilə Cəfərqulu xanla-Şirvan xanlığı arasında yaranmış ümümi narazılığa son qoymaq və yeni xanla-İsmayıl xanla Mustafa xan arasında Rus imperiyasının mənafeyi naminə xoş münasibət yaratmaq idi.General mayor Axverdovun getməsindən sonra xalqın ümumi narazılığı daha da artdı.Üsyan genişlənərək yaxın kəndlərə və xanın iqamətgahına yayıldı.Üsyançılar Rusiyapərəst İsmayıl xanın divanının bağlanmasını tələb edir və yeni xanın hakimiyyətini tanımayacaqlarını bildirirdilər.

Üsyanın getdikcə genişlənməsi təhlükəsi Nuxada yerləşdirilmiş Sevastopol piyada polkunun kapitanı **Denibekovu** cəld bir sıra tədbirlər həyata keçirməyə məcbur etdi.O,İsmayıl xanın və Şəkinin bir sıra nüfuzlu bəylərinin məsləhəti ilə üsyan başçıları ilə danışığa girdi.Lakin kapitan Denibekov aparılan danışıqlara və verdiyi sözə xəyanət edərək danışığa gələn 4 nəfər üsyan başçısının həbs olunması haqda əmr verdi.Öz tərcüməçisini 2 nəfər kazakla üsyançıların yanına göndərən

Denibekov onlara evlərinə dağılışmağı məsləhət gördü,əks halda silahlı divan tutulacağı ilə hədələdi.

Üsyançılar şəhər ətrafına çəkildi və möhkəmlənməyə başladı.Kapitan Denibekov üsyançıların güclənməsinə yol verməmək üçün vaxt itirmədən özü ilə 70 əsgər və bir top götürərək qaladan çıxıb üsyançıların üzərinə yeridi.Silahsız xalq müqavimət göstərməyin çətin olduğunu görərək öz yaşayış yerinə qayıtdı:Şəkidə üsyan əhval-ruhiyəsini isə uzun müddət yatırmaq mümkün olmadı.

Məhz bu qorxu Şəki qalasında yerləşdirilmiş qarnizonun yeni hərbi qüvvələr hesabına möhkəmləndirilməsinə səbəb oldu.Vəziyyətin ağırlığını görən general-mayor Axverdov yenidən Şirvan xanlığından Şəkiyə qayıtmağa məcbur oldu. O general H.F.Rtişşevə göndərdiyi məlumatda artıq sakitliyin yaranması haqqında xəbər verirdi.

Şəkidə yaranmış sakitlik isə yalnız zahiri xarakter daşıyırdı.Mübarizəni axıra qədər davam etdirmək istəyən 250 nəfər Çar ərazisindən keçərək Kaxetiya vasitəsilə Tiflisə,general H.F.Rtişşevin yanına getdi. Bundan xəbər tutan general üsyançıları şəhərə buraxmamaq haqqında əmr verdi.H.F.Rtişşev tərəfindən üsyançıların yanına göndərilən Gürcüstan qubernatoru general-mayor Simonoviç və Tiflisin hərbi komendantı 16 nəfərlə Tiflisə qayıtdı.Onlaran əsasən üsyan başçıları və Şəki xanlığında əhalinin daha çox inandığı,hörmət etdiyi din xadimləri idi.-General-mayor H.F.Rtişşev nəinki üsyan başçılarının şikayətinə qulaq asdı,hətta hiylə ilə onları hərbi məhkəməyə verdi.Üsyançıların bir hissəsi Sibirə və Orenburqa sürgün edildi,bir hissəsinə kötəklə döyülmə cəzası verildi,qalanları isə cəzalandırmaq üçün İsmayıl xanın ixtiyarına göndərildi.

**1814-cü il** üsyanı yatırıldı.Təpədən-dırnağadək silahlanmış rus ordusuna qarşı müqavimət göstərmək olduqca çətin idi.Buna

baxmayaraq xalq yadelli əsarətinə-işğalçılara qarşı öz qəzəb və nifrətini bildirməkdən çəkinmirdi.Şəki xanlığına yeni hərbi qüvvələr gətirilir,üsyan baş verməməsi üçün tədbirlər görüldü.

Çıxışlar işğalçılarla yanaşı çarizmə canla-başla qulluq edən yerli feodalların özbaşınalığına və zorakılığı əleyhinə də çevrilmişdi.

## 1826-CI IL ŞƏKI ÜSYANI

**1826-cı ildə** Şəki əhalisi yenidən üsyan qalxdı. Qorxuya düşən Rusiya öz qoşunlarını şəhərdən çıxarmaq məcburiyyətində qaldı.Səlim xanın oğlu Huseyn xan yaranmış vəziyyətdən istifadə edərək xanlığı ələ keçirdi.Lakin **1826-cı ilin** sonunda rus qoşunlarının qələbəsindən sonra hakimiyyəti əldə saxlaya bilməyən Hüseyn xan Təbrizə getdi.Şəkidəki rus hərbi qüvvələri artırıldı.**1827-ci ildə** bəylərin əksəriyyəti Təbrizə getmək məcburiyyətində qaldı.Onlara məxsus olan əmlak isə Rusiyanın dövlət xəzinəsinin ixtiyarına keçdi.

## 1838-CI IL ŞƏKI ÜSYANI

**1819-cu ildə** Şəki xanlığı ləğv edildi.Şəkidə komendant üsul-idarəsi yaradıldı.Şəki əyalətinin idarəçiliyi hərbi dairə rəisinə tabe olan komendanta tapşırıldı.Komendantların özbaşınalığı,zorakılığın geniş yayılması əhalinin vəziyyətini tamamilə ağırlaşdırdı.Xanlıq zamanı mövcud olan vergi və mükəlləfiyyətlərlə yanaşı yeni vergilər tətbiq edildi.

Çıxılmaz vəziyyətə düşən xalq çıxış yolunu yenə silaha əl atmaqda gördü.

**1838-ci il** Şəki üsyanı **XIX əsrin I yarısında** şimal-qərbi Azərbaycanda baş verən ən böyük üsyanlardan biri idi.Bu

üsyanın xarakterik xüsusiyyəti ondan ibarət idi ki,müstəmləkəçilik əsarətinə qarşı çevrilmiş bu azadlıq mübarizəsində Şəki əhalisi ilə yanaşı dağlı tayfaları da iştirak edirdi.

Mənbələrin verdiyi məlumata görə üsyana Təbrizdə vəfat edən Şəki xanı Hüseyn xanın oğlu Məmməd bəy başçılıq edirdi.**1837-ci ildə** öz vətəninə qayıdan Məmməd bəy tərəfdarları ilə birlikdə müstəmləkə əsarətinə qarşı mübarizəyə başladı.Lakin tezliklə həbs olunaraq hərbi məhkəməyə verildi.**1838-ci ilin avqustun 8-də** o,həbsxanadan qaçaraq Quba mahalının yuxarı hissəsində gizləndi.

1838-ci ilin avqustunda Quba mahalının yuxarı hissəsində 5 minədək atlı və piyada toplayan Məmməd bəy Rutuldan olan Ağa bəylə birlikdə Şəki üzərində hücuma hazırlaşmağa başladı.

Avqustun 30-da çoxsaylı dağlı qoşunu Xaçmaz mahalı yaxınlığında dağı aşaraq Şəki əyalətinə girdi.400 evdən ibarət Xaçmaz kəndinin sakinləri dağlılara qoşuldu.Mahal naibinin kənd əhalisindən yaxınlaşan dağlı qoşununa qarşı müqavimət göstərmək üçün dəstə toplamaq cəhdi baş tutmadı.

Məmməd bəy Şəki əhalisinə göndərdiyi müraciətdə bildirdi ki,o şəkililəri öz dindaşları və dostları hesab edir.Onlara qarşı heç bir pis niyyəti yoxdur.Yürüşdə əsas məqsəd onlarl xristianların zülmündən azad etmək,bütün işğalçıları məhv etməkdir.

Məmməd bəyin bu müraciəti Şəkidə üsyanın başlaması üçün bir işarə oldu.

Şəki komendantı podpolkovnik Minçenko yaxınlaşan təhlükəni dəf etmək üçün silahlı əhali toplamağa başladı.Lakin tələb olunan 1000 nəfər yerinə cəmi 200 atlı yığıldı.Çətinliklə yığılan bu silahlı dəstə Vartaşın kəndinə gəldi.Onlar isə nəinki müqavimət göstərdilər,hətta mahal naibini hədələyərək onun bu ərazidən çıxmağını tələb etdilər.Qısa müddətdə bu üsyan bütün Şəki əyalətini bürüdü.

**Avqustun 31-də** köməyə gələn dağlı qoşunu sürətlə hərəkət edərək demək olar ki,heç bir müqavimətə rast gəlmədən Şəkiyə yaxınlaşdılar.Şəki komendantı kömək üçün Nijeqorodsk draqun polkunun komandiri C.D.Bezobrazova müraciət etdi.Çar quyuları istehkamından Şəkiyə top artileriyası ilə birlikdə 2 diviziya və Zaqatala qalasından 2 rota göndərildi.Bu hərbi qüvvəyə İlisu sultanının yüzədək atlısı da qoşuldu.

Polkovnik C.D.Bezobrazov Şəkiyə gələn zaman üsyançılarla birləşməyə cəhd göstərən dağlı qoşunu artıq şəhərə yaxınlaşmışdı.Qışlaq adlanan ərazidə köməyə gələn dağlı qoşunu ilə,Şəkidə yerləşdirilmiş rus qoşunu arasında şiddətli döyüş başladı.Şəhər yarğanlar və sıx bağlarla əhatə olunduğu üçün az saylı qoşunla üsyançılara qarşı vuruşmaq və şəhəri əldə saxlamaq çətinlik yaradırdı.Ona görə də polk Bezobrazov öhdəsində olan az saylı qoşunla şəhərdən 4 verst aralı olan Qışlaq ərazisində həlledici döyüşə girməyi qərara aldı.Nijeqorodsk draqun polkunun kapitanı knyaz Çavçavedze milis dəstələri ilə birlikdə Qışlaq və Zəyzid yolu ilə hərəkətə başladı.Bu dəstəni Gürcüstan xətt batalyonunun 2 rotasından təşkil edilmiş kalon müşayiət edirdi.

Zəyzid kəndi yaxınlığında milis dəstələri ilə üsyançılar arasında atışma başladı.Piyada qoşunlarına başçılıq edən polkovnik Bezobrazov milis dəstələrinə kömək etmək üçün Zəyzid yoluna çıxdığı an üsyançılar onların üstünə atıldı.Lakin piyadalar süngü zərbələri ilə bu kütləni geri oturtdu və qaçmağa məcbur etdi.

Üsyançıların digər hissəsi isə Qışlaq yolunda dayanan rotaya hücum edərək burada olan bir topu ələ keçirməyə cəhd göstərdilər.Bu döyüşdən sonra Məmməd bəy Şəkiyə yaxın olan yüksəklikləri ələ keçirərək şəhərə daxil oldu.Qısa müddətdə üsyançılar şəhərin bütün şimal hissəsini ələ keçirdi.Ələ keçirilən yerlərdə öz mövqelərini möhkəmləndirmək istəyən üsyançılarla

ruslar arasında şiddətli atışma baş verdi.Polkovnik Bezobrazovun həyata keçirdiyi bir sıra tədbirlər nəticəsində köməyə gələn dağlıların hücumu dayandırılsa da,onlar hər dəfə böyük səylə öz hücumlarını yenidən bərpa edir və güclü müqavimət göstərirdilər.Döyüş zamanı hər iki tərəf ağır itki verdi.

Tezliklə üsyançılar qaladan 15 sajen aralıda yerləşən karvansaranı,ona yaxın olan bütün tikililəri və bağları ələ keçirdilər.Şəhərdə olan 320 nəfərlik rus qarnizonu qalada gizləndi.Qalanın bir hissəsini dağıdan üsyançılar komendant idarəsini,əyalət xəzinəsini ələ keçirdilər.Karvansaradakı tacirlər və şəhərdə yaşayan ermənilər qaçıb qalada gizləndi.Burada onlar silahlandırıldı və qalanı müdafiə edən rus əskərlərinə qoşuldu.

Müstəmləkə əsarətinə qarşı ayağa qalxan xalqın apardığı azadlıq mübarizəsi işğalçıları qorxuya saldı.Bu mübarizə Qafqaz xalqlarının öz azadlığı uğrunda birgə apardıqları qəhrəmanlıq mübarizəsinin şanlı səhifəsi idi.Köməyə gələn dağlı qoşunu ilə birləşən üsyançıların əlbir mübarizəsi istilaçılara amansız zərbə vurdu.

Polkovnik Bezobrozov üsyanı yatırmaq,əhalini sakitləşdirmək və dağlıları şəhərdən qovmaq üçün qətiyyətli hərbi əməliyyat keçirməyi qərara aldı.Lakin Şəkinin tanınmış adamları öz evlərinin,tut və meyvə bağlarının məhv olacağından ehtiyat edərək bu hücumun bir qədər dayandırılmasını xahiş edirdi.Polkovnik Miçikovun təklifinə əsasən karvansaraları yandırmaq qərara alındı.Bu iş qalada qaçıb gizlənən gürcü taciri İsaak Kuzinova tapşırıldı.O kəndirlə qaladan enərək əlində tutduğu yanan məşəli tez-tələsik karvansaranın damına atdı.Üsyançılar yanan karvansaranı söndürməyə çalışdılar.Bu zaman ruslar onlara atəş açdı.

Sentyabrın 2-də üsyançılar bütün evlərdən nərdivanları yığaraq qalaya hücuma hazırlaşmağa başladı.Onlar qalanın lap

yaxınlığına gələrək güclü atəş açdılar.Sentyabrın 2-də bütün gecə atışma davam etdi.Polkovnik Bezobrazovun göstərişi ilə üsyançıların qalaya atəş açdıqları evlər yandırıldı.Səhərə yaxın atışma səngidi.Köməyə gələn Tiflis jeger polkunun batalyonu ilə birləşən polkovnik Bezobrazovun hərbi qüvvələri xeyli artdı.

Sentyabrın 3-də üsyançıların köməyinə gələn dağlı qoşunu şəhəri tərk etməyə başladı.Rus qoşunu şəhərə daxil oldu.Üsyan amansızlıqla yatırıldı.Geri çəkilən dağlı qoşununu təqib edəb rus əsgərləri onların bir neçəsini əsir götürdü. Üsyan başçısı Məmməd bəy isə yenidən İrana qayıtdı.

Üsyan yatırıldıqdan sonra Şəkidə kütləvi həbslər başladı.Varlıların bir çoxu öz əmlaklarını qoyaraq şəhərdən qaçdı.100 nəfər həbs olundu.

**1838-ci il** hadisəsi həmin ilin Qafqazda baş verən hadisələr içərisində işğalçıları qorxuya salan ən dəhşətli hadisə idi.Sakitliyi bərpa etmək üçün Tiflis jeger polkunun bir batalyonu və 6 topla birlikdə 2 draqun diviziyası bir müddət Şəkidə saxlandı.

## 1849-CU IL NUXA ÜSYANI

1849-cu il üsyanına səbəb sənətkarlardan ağır vergilərin toplanması, şəhərə gələn qonaqları və əsgərləri yerləşdirməyə,ərzaqla təmin etməyə və əmlaklarının 8%-i həcmində pulla mənzil vergisi verməyə məcbur edilməsi oldu.Beş yüz nəfərdən artıq şəhər yoxsul və sənətkarı polis idarəsini mühasirəyə aldı.Şəkiyə gəlmiş qubernatorun əhalini sakitləşdirmək cəhdi baş tutmadı.Sənətkarlar mənzil vergisi ödəməkdən imtina etdilər.Üsyan silah gücünə yatırıldı.Şəki üsyanının məğlubiyyətinin əsas səbəbi üsyanın məhəlli xarekter daşıması və üsyançılar arasında birliyin zəifliyi olmuşdu.

# 1930-CU IL NUXA ÜSYANI



ÜSYAN ZAMANI QƏTLƏ YETIRILƏNLƏR

Əziz oxucular, XX əsrin 30-cu illərində bolşevizmin yaratdığı zülmət səltənətində yarasa tək qaranlıqda yaşamaqdansa, mərdanə ölümə üstünlük verən ata-babalarımızın əməlləri, şəxsiyyətləri uzun müddət təhrif və yalan kölgəsi altında gizlədilib onları həyatda olduqları kimi yox, sovet rejimi qurucularının ideloji və siyasi təsvirlərinə uyğun şəkildə təqdim edilmişlər.

Bolşevik rejiminin inzibati metodlara, ağır vergi sisteminə əsaslanan iqtisadi siyasəti Şəki sənətkarlığını, manufaktura təsərrüfatını iflasa uğratmış, elə bu səbəbdən də əhalinin güzəranı olduqca ağırlaşmışdı. Üsyan ərəfəsində Şəkidə sosial-iqtisadi və mənəvi-psixoloji durum olduqca gərgin idi. Hakimiyyət qurumları «düşmən ünsürlərlə» mübarizə şüarı altında xalqın maddi və mənəvi həyatına qarşı zorakılığı gündəlik davranış normasına çevirmişdilər. “Mübariz allahsızlar cəmiyyəti”nin üzvləri tərəfindən yüz illərin sınağından çıxmış gözəl adət-ənənələr, milli və dini dəyərlər hörmətsiz münasibətə məruz qalırdı. 1920-ci ildən başlayaraq yalnız doğma vətən torpağına deyil, həm də xalqın maddi və mənəvi dünyasına, həyat və düşüncə tərzinə qarşı yönələn təcavüz 1930-cu ildə Şəkidə yüksələn üsyanın başlıca səbəbləri idi.

Şəkinin Göynük mahalında Rus bolşeviziminin antimilli siyasətinə qarşı asi çıxan qüvvələr toplaşaraq 1930-cu il aprelin 12-dən 13-nə keçən gecə dərhal üsyan etmək haqqında qərar qəbul etmişlər.

Üsyançıların rəhbəri Molla Mustafa Şeyəczadə camaat

qarşısında çıxış edərək bildirir ki, artıq Sovet hökuməti mövcud deyil. Bu hökumət indi nə Petroqradda, nə Moskvada, nə də Bakıda fəaliyyət göstərmir. Namuslu və nüfuzlu insanların torpaqlarını və qiymətli əşyalarını mənimsəyərək onların hesabına yaşamaq istəyən, özlərini bolşevik adlandıran bu müftəxorların aqibəti şərəfsiz ölüm olacaqdır. Allah tərəfindən lənətləndirilən bu işə kim kömək edibsə, onlar da haqlı qisasdan yaxa qurtara bilməyəcəkdir.

Böyük əksəriyyəti süvarilərdən ibarət olan yaxşı silahlanmış 200 nəfər üsyançı 1930-cu il aprelin 13-də Göynük (şimal-qərb) və Zəyzid-Bideyiz (cənub-şərq) istiqamətlərindən şəhərə hücum etdilər. Hücum üçün əsas obyektlər həbsxana, rayon partiya komitənin və poçtun binaları seçilmişdi.

Ölkənin 8 rayonunu əhatə edən hərəkatın mərkəzi Baş Göynük kəndi idi. (Haşiyə: Göynük qədim türk tayfalarından birinin adı olmuşdur. Anadoluda və Cənubi Qafqazda ta qədimdən eyni adlı yaşayış məntəqələrinin mövcud olması bu ərazilərin türk arealı olduğunu bir daha təsdiqləyir.)

Aprelin 12-dən 13-nə keçən gecə üsyan başlayır. Şəki əyalətinin rayon mərkəzi üsyançıların əlinə keçir. Sağ qalan kommunistlər poçt idarəsində gizlənir və oradan Bakıya xəbər göndərirlər. 2 gündən sonra Mir Cəfər Bağırovun rəhbərliyi ilə ruslardan ibarət zirehli avtomobillərlə silahlanmış ordu şəhəri mühasirəyə alır. Qan su yerinə axıdılır. Son ölüm-dirim döyüşündə üsyançıların bir qismi həlak olur, bir qismi isə dağlara çəkilir.

1930-cu ildə Şəkidə baş vermiş üsyan yalnız iqtisadi və siyasi hüquqsuzluğa qarşı deyil, həm də əsasında allahsızlıq dayanan mənəviyyatsızlığa qarşı xalqın yüksələn etiraz hərəkatı idi.

1930-cu il Şəki üsyanının başında Baş Şabalıd kəndinin sakini, savadlı, iti zəkaya və poetik ilhama malik olan Molla

Mustafa Şeyxzadə dururdu. Onun babası Şeyx Əhməd saflığı, dini dəyərlərə sonsuz məhəbbəti, hörmət və ehtiramı ilə el-obanın gözündə övliya səviyyəsinə yüksəlmişdi. Xalq tərəfindən Şeyx Əhmədin qəbri üzərində ucaldılmış məqbərə yerli əhalinin bu insana olan ehtiramının təzahürü idi. Az sonra həmin qəbir-məqbərə Qafqaz miqyaslı ziyarətgaha çevrildi.

Üsyançıların demək olar ki, bütün dövlət idarələrində öz adamları var idi.

Üsyançılar çətinlik çəkmədən Şəkini alıb, axşama yaxın poçt binası istisna olmaqla bütün idarə və müəssisələr üzərində öz nəzarətlərini qura bilmişdilər.

Poçt binasının ətrafında da dramatik hadisələr baş verirdi. Rabitə şəbəkəsinin rəisi İvan Çudov, raykom katibi Riza Babayev, «Nuxa fəhləsi» qəzetinin redaktoru Məmmədsam Məmmədov və digər fəal kommunistlər Leskovun başçılığı ilə teleqraf xəttinin mühafizəsi üçün Yevlaxdan göndərilən bir qrup əsgərin himayəsinə sığınmışdılar. Onlar Şəkiyə varid olarkən şəhərin üsyançıların əlində olmasından bixəbər idilər. Ona görə də maşını birbaşa İcraiyyə Komitəsinin binasına doğru sürmüşdülər. Bu binanı artıq üsyançılar qərargaha çevirmişdilər. İcraiyyə Komitəsinin yaxınlığında güclü atışma olur. Əsgərlərdən Bəşirov və Varlamov döyüşdə öldürülürlər. Dəstənin qalan üzvləri isə avtomobillə mühasirəni yarıb çıxa bilirlər və poçt binasına daxil ola bilirlər.

Deyilənlərə görə rabitə şəbəkəsinin üsyançıların əlinə keçəcəyi təqdirdə bütün Şəki əhalisinin ata-baba yurdundan sürgün ediləcəyi labüd olacaqdı.

Üsyançılara qarşı yeridilən hərbi hissələrə Şəki şəhərində, Baş Göynük, Aşağı Göynük, Zəyzid, Bideyiz və digər kəndlərdə inadlı müqavimət göstərildi.

Şəki şəhərinə daxil olan hərbi qüvvələr, el arasında «gimcə» adlanan qəbiristanlığın yaxınlığında müqavimətlə üzləşdilər. İn-

diki «Sülh» (Güyümlər) meydanı ərazisində isə M.C.Bağırovun olduğu zirehli avtomobil güclü atəş altına düşür və sürücü öldürülür. Onun özünü isə hadisə yerinə yaxın evlərdən birinin sahibi Sitarə qarı gizlədərək labüd ölümün pəncəsindən xilas edir.

Üsyançıların qüvvələri ilə hökumət qoşunları arasında istər hərbi texnika, istərsə də canlı qüvvə baxımından müqayisə edilməz dərəcədə fərq olduğundan, üsyançıların Şəkini uzun müddət əllərində saxlamasını mümkünsüz edirdi. Bu səbəbdən üsyançılar şəhəri tərk etdilər. Lakin onlar ətraf kəndlərdə və dağ yamaclarında mövqe tutaraq mübarizəni partizan müharibəsi formasında davam etdirdilər. Hətta bir sıra yaşayış məntəqələri yenidən onların nəzarəti altında keçmişdi. Ümumiyyətlə, az-çox diqqət çəkən silahlı toqquşmalar may ayının 12-nə kimi davam etdi.

Üsyan yatırıldıqdan sonra asmaq-kəsmək xislətinə sadiq qalan bolşevik rejimi əhalinin gözünü qorxutmaq üçün kütləvi terror və repressiyalar tətbiq etdi. Sözdə övladın ataya cavabdeh olmadığını iddia edən Stalin üsul-idarəsi əslində ərə görə arvadı, qardaşa görə qardaşı amansızcasına cəzalandırırdı.

Şəkinin Baş Göynük kəndində olmuş gerçək bir əhvalat həmin problemin ciddiliyindən xəbər verirdi.

Molla Mustafa üsyan yatırıldıqdan sonra bir müddət gizli şəkildə Tiflis yaxınlığındakı Soğanlıq kəndində yaşamışdır.

Molla Mustafa həbs olunmuş və qapalı məhkəmə vasitəsi ilə 10 il müddətinə azadlıqdan məhrum edilərək Ağ dənizdəki Solovetsk adasına  sürgünə göndərilmişdir.Hələ Sovet hökumətinin mövcudluğunun ilk illərində Leninin göstərişi ilə uzaq Ağ dənizdəki Solovetsk adasında ölüm düşərgəsi yaradılmışdı. Oradan sağ-salamat can qurtarmaq möcüzə hesab edilirdi.

O buradan ölümünə 7 ay qalmış, daha dəqiq desək 1937-ci il may ayının 25-də Şəkinin Baş Göynük kəndinə, əmisi oğlu Məm-

məd Səadətdin oğlu Şeyxzadənin adına məktub yazmışdır. Həmin məktubu oxuyarkən gözlərimiz önündə incə duyğularla yaşayan, kövrək qəlbli, qohumcanlı bir insanın surəti canlanır. Məktubu olduğu kimi, diqqətinizə çatdırırıq:

“Mənim əzizlərim, qəlbən sevib hörmət bəslədiyim əmi oğlanlarım Məmmədə və Məcidə.

Əvvəla, öz doğmalarına illərlə Vətən həsrəti çəkən talesizlik fəqirinin kövrəlmiş ürəyinin dərinliyində çoxdan qövr eləyən və sısqa bulaq kimi çağlayan salamımı yetirin.

Sonrası, əgər oğlunuzun və əmioğlu Balakişinin əhvalını xəbər alsanız, Şükür Allaha, bugünkü günəcən sağ-salamatıq. Gecə-gündüz bədbəxtlik girdabına düşmüş əmi oğlanlarıma görə dua edirəm. Sizinlə - ciyərparalarımla görüşməyi çox istəyirəm və ümid edirəm ki, yaxınlarda hökumətin ədalət qanunu mənə bəraət verər və sizi doyunca görə bilərəm.

Əzizlərim, elə düşünməyin ki, mən sizi unutmuşam. Allaha and olsun ki, bir dəqiqəm olmayıb sizi arzulamayım, amma nə eləyəsən, dustaq həyatını... Yalnız ayda bir dəfə Nuxaya yaza və sizi salamlaya bilərəm.

Bununla ikinci məktubdur yazıram, bilmirəm əvvəlki sizə yetişib, ya yox. Bəlkə siz mənə yazmağa qorxursunuz? Elə isə Anaya deyin, o, mənə məktub almağınızı yazar, bu da məni sakitləşdirər və bilərəm ki, məktubum mehriban əzizlərimə yetişib. Bircə çatdırın ki, necə yaşayırsınız, sizin və oradakıların gün-güzəranı nə təhərdir.

Arzulayıram ki, heç nəyin fikrini çəkməyəsiniz, Allah qoysa qayıdaram, sizi damət kimi bağrımın başına qoyaram, özünüz də şir balaları kimi layiqli yerinizi tutar, hökumətin ədalətli qanununun köməyilə ürəyinizdən keçənlərə çatarsınız.

Daha nə yazım? Mənim yerimə anam əvəzi Şirin bacıya baş çəkin, onun müqəddəs əllərindən öpün, oğlu Balakişidən ona

salam yetirin, bir də bacım Fatmaya, onun uşaqlarına Mədinə və Şəfqət bacılarına, qardaşlarım Əhmədin və Mahmudun ailələrinə salam deyin. Sevimli qardaşoğlunu ağzından öpün. Hidayətə, Vahidə qayıdıb gəlibsə Vəliyulla bəyə, xala uşaqlarına və məni soruşan bütün dost-doğmalara salam. Sizin intizarlı gözlərinizi və dodaqlarınızı öpürəm. Hələlik, xudahafiz. Sizin bəxtsiz əmi oğlunuz Mustafa Şeyxzadə. 25.V.1937.

Məqsədinə çatanacan arzulayacaqsan ki, vaxt gələr, qardaş özünü yetirər. Mənim ünvanım: Popovostrov poçt şöbəsi. DİXK8-ci Solovetsk şöbəsi. Solovetsk adası.

Şeyxzadə Mustafa Məmməd oğlu.” Məktubdaki bu fikirə (hökumətin ədalətli qanununun köməyilə ürəyinizdən keçənlərə çatarsınız.) diqqət yetirək.Bu deyilənlər 53 ildən sonra həyata keçirildi. Azərbaycanda müstəqil dövlət yaradıldı.

# ALEKSANDR DÜMANIN ŞƏKIYƏ SƏFƏRI

**Bu kitabı Fransız dilindən tərcümə edən hörmətli alimimiz Qəzənfər Paşayevə minnətdarlığımızı bildiririk.**

Burada "Aleksandr Dümanın Qafqaza səfəri" əsərindən Şəkiyə aid olan hissəsinin qısaldılmış məzmunu verilmişdir.

Aleksandr Düma (ata) dünya şöhrəti qazanmış böyük Fransız yazıçısıdır.

A.Düma 1858-ci ilin 2-ci yarısında 1859-cu ilin əvvəllərinə qədər Rusiyada və Azərbaycanda olmuşdur. O Azərbaycanda olanda xalqımız, adət-ənənələrimiz, gördükləri və qarşılaşdıqları haqqında təəssüratını yazmışdır. Bu da əziz oxucuları maraqlandıra bilər.

Düz gündüz saat 12-də, əvvəlcədən qərara alındığı kimi,Şamaxı şəhər komendantı və onun ailəsi ilə vidalaşdıq.Şamaxıdan bizi Nuxaya qədər müşayiət etmək üçün o, ən çəsur yasobuylu Nurmat-Matın başçılığı ilə 12 nəfərlik bir dəstə ayırmışdı.

Camaat arasında söhbət gedirdi ki, ləzgilər arana eniblər, mal-qaranı və adamları oğurlayıb, dağlara aparırlar. Odur ki, Nurmat-Matın məsuliyyəti daha da artırdı. Bizim təhlükəsizliyimizə o, başı ilə çavabdeh idi.

Saat yarım içində ov edəcəyimiz yerlə Şamaxı arasındakı iyirmi kilometrlik yolu qət etdik. Biz oranı hələ uzaqdan tanımışdıq. Cünki orada bizi Mahmud bəyin adamlarından daha ikisi gözləyirdi. Onların yanında üç ov tulası və bizim istifadəmiz üçün iki  əlavə at vardı. Faytonlardan yerə tökülüşdük. Bütün yol boyu mən dovşanların oynaşdıqlarını görmüşdüm. Odur ki, yerə düşən kimi özümü sıx kol-kosun içinə verdim və mənim üçün atı hazır saxlayan azərbaycanlıdan xahiş etdim ki, dalımca gəlsin. Moyne də mənim kimi etdi. Heç yüz metr getməmişdik ki, adama

bir dovşan vurduq. Bundan başqa mən bir qırqovul uçurtmuşdum, onun kolluğa düşməyini gözləyirdim.

Bir azdan qırqovul uzaqda yerə endi. Mən ata minib ovçuları şahinlərlə ova dəvət etdim. Ovçular tez bizim yanımıza gəldilər. Onlara qırqovul düşən səmti göstərdim. Tulaların başını açıb buraxdıq və həmin səmtə tərəf getməyə başladıq.

Mənim göstərdiyim yerə gəlib çatanda başqa bir aləmlə qarşılaşdıq. Ətrafımızda dəstə-dəstə kəklik və qırqovul uçuşurdu. Biz onları izlədik. İki yüz addım atmamış artıq quş şahinimin caynağında idi. Onu diri-diri tutmaq üçün özümü lap vaxtında çatdırmışdım. Bu gözəl bir qırqovul idi, təkcə başından-bircə yerdən yarası vardı.

Bizim şahingəzdirən öz dəri çantasından bir tikə qanlı ət çıxarıb, mukafat olaraq quşa verdi. Heç şübhəsiz ki, quşu bu adam uçurtmuşdu.

Qəribə bir hadisənin şahidi olduq:

Bizə tərəf uçan qırqovulu haqlamaqda olan şahin birdən güllə kimi kolluğa endi. Başımı qaldıranda bir göz qırpımında baş verən bu hadisənin səbəbi aydınlaşdı. Yüz metr aralıda böyük bir qartal səmada qıy vururdu.

Şahinin dalınça qaçdım və onu çox böyük çətinlikdən sonra tapa bildim. Özünü sıx kolluğa soxmuş quşun bütün bədəni qorxudan əsim-əsim əsirdi... Cidd-cəhdinə baxmayaraq, onu gizləndiyi yerdən ehmalca dartıb çıxartdım. Heyvancığazın ayaqları elə tutulmuşdu ki, nə çiynimdə, nə də əlimdə dayana bilirdi.Lakin onun qorxusu əbəs yerə idi. Qartal artıq uzaqlaşmış və səma göz işlədikcə bomboş idi. Elə bu vaxt ovçu da gəlib çıxdı. O, quşcuğazı mənim əlimdən alıb, sığallayaraq curətləndirməyə başladı. Amma onun yenidən ov dalınca uçması o gün mümkün deyildi.

Ya burada qalıb yola çıxmalı, ya da Nuxaya gedib Tarkanovun

malikanəsində gecələməli idik. Mən gedib Nuxada gecələməyi təklif etdim. Çox gec olduğuna baxmayaraq, faytonçulara göstəriş verdim ki, yolumuza davam edib, birbaşa polkovnik Tarkanovun malikanəsinə gedək.

Xeyli yol gedəndən sonra ətrafı hasarlı, işıqları söndürülmüş, darvazası bağlı olan bir binanın qarşısında dayandıq. Bu qonaqpərvərlik əlaməti deyildi.

Faytonçu gəldiyimizi bildirmək və gecələyəcəyimiz açarlarını almaq üçün içəri keçdi. Mənim adımı deməyi qadağan etmişdi. Ehtiyat edirdim ki, knyazın evində gecənin bu vaxtı narahat olarlar.

Faytonçu knyazın qulluqçusu ilə qayıtdı. Qulluqçu yatmayıbmış. Onun sifətində əsl gecə gözətçisinin əlamətləri vardı. Tamam yaraqlı-yasaqlı idi. Sol böyründən qılınc və xəncər, sağ tərəfindən tapanca asılmışdı. O, bizdən nəyə ehtiyacımız olduğunu soruşdu. Acından qarnımız fit çaldığından üçümüz də birdən cavab verdik. O, yemək dalınca getdi.

Bu vaxt ərzində biz beş-altı gözdən ibarət olan təzə mənzilimizi gəzdik. Bu otaqlarda iki dayaq üstünə qoyulmuş üç taxtadan başqa heç bir mebel yox idi. Bunun əvəzində divarlarda çoxlu rəflər vardı. Mən birinci dəfə idi ki, evlərdə belə memarlıq üslubuna rast gəlirdim.

Nuxada olan bir həkim haqqında söz düşərkən Dandre mənə bu memarlıq üslubu haqqında məlumat vermişdi. O, danışırdı ki, güya həkim xəstəxanadan qayıdanda bu rəflərə baş çəkər və onların hərəsindən bir stəkan pühş götürüb içərmiş. Bədbəxtlikdən bizim rəflərin heç birində punşa bənzər bir şey gözə dəymirdi.

Üçümüz də oturacağa oxşar çarpayılardan birinin üstündə əyləşdik və gözləməyə başladıq. Özümüzə söz verdik ki, səhər tezdən knyaza baş çəkən kimi çıxıb gedəcəyik. Qulluqçu və ya nökər (bu iki ifadə arasında böyük fərq var) əlində quru balıq,

ət xörəyi, şərab və araq içəri daxil oldu. Soyuqdan əsə-əsə yeməyə girişdik və eyni zamanda gündüzdən doğranmış, yanmaq bilməyən yaş odunları peçə doldurduq. Hansı vəziyyətdə olursa-olsun, o yerə ki, insan ayaq qoydu, bütün çətinliklər baş alıb gedir.

Bu vaxt ərzində samavar da öz nöbəsində qaynayır, isti nəfəslə otağımızı isindirir, boş və kimsəsiz otaqlar get –gedə canlanırdı. Aclığı, yorğunluğu və soyuğu yaxşı yemək-içmək istirahət,hərarət əvəz edəndə adamın əhvali-ruhiyyəsi həmişə yaxşılaşır. Deyib-gülməyə, zarafata keçdik.

Çay... bu qaynar içki növünü Azərbaycanda hamı içir. Və elə bil bu, ancaq şimal xalqlarının bədən üzvlərinin yorğunluğunu çıxarmaq və onların kalorisini artırmaq məqsədi ilə şərqdən buralara gətirilmişdir. Çay bizim fiziki və ümumi övqatımıza çox gözəl təsir göstərdi. Bizdən aslı olmayaraq “ah!ah!eh!eh!” nidalarını təkrar etməyə başladıq, bu, insanın daxilində gələn elə səslərdir ki, onları adam ancaq özünü sakit və şən his edəndə tələffüz edir.

-Ah!.. nə canıma yayıldı! hərə öz otağına daxil olub, çarpayılar üstündə yun yorğanları, divar rəflərində şamları və eyni zamanda sobaların xırda ağızlığından yayılan işıq və istiliyi görəndə hər şey gözəlləşdi. Yalnız bundan sonra xəyalımızda buraya gələrkən qaranlıqlar arasında sezə bildiyimiz –sıx yaşıllıqlara qərq olmuş binalar, hər iki tərəfi gözəl ağaclarla əhatə olunmuş yolların ətrafında şırıltı ilə axan sular canlandı.

Mən çəkinmədən dedim:

-Hər halda Nuxa gözəl yer olmalıdır.

-Bəli, yay vaxtı, -deyə Moyne cavab verdi.

Bu soyuğa davamsız olan adamın etirazı idi, həm də o, mənzərə ustası kimi danışırdı. Moyne Peterburqdan çıxandan sonra üç-dörd dəfə qızdırmaya tutulmuşdu. Buna görə də yol

boyu uçsuz-bucaqsız yaşıllıqları görə bilmədiyinə heyfislənir, təəssüf hissi keçirirdi. Bunu ona bağışlamaq olardı.

Belə bivaxt, gecənin bir aləmində gəlməyimizə baxmayaraq, bizə hər cür qayğıkeşlik və qonaqpərvərlik göstərmiş qulluqçu otağa girib hər şeyin qaydasında olub-olmadığını soruşdu.

-Hər şey əladı, -deyə mən cavab verdim. –Biz burada özmüzü Mahmud bəyin sarayında olduğumuz kimi hiss edirik.

- Bircə rəqqasələrimiz catmır, -Moyne zarafatla əlavə etdi.

Biz ürəkdən güldük və öz otağımıza getdik. Moyne ilə Kalino ən böyük otağda, mən isə nisbətən balaca otağda yatdım.

Ay yenicə doğmuşdu. Onun zərif nuru otağımın pəncərələrini işiqlandırdı. Evin dörd tərəfi böyük eyvanla əhatə olunmuşdu. Çalışıb bir şey görmək və səhər yoldaşlarıma danışmaq üçün eyvana çıxdım.

Hər şeydən əvvəl nəzərimi cəlb edən və məni bərk təəccübləndirən pəncərələrimin altında gəzən gözətçi oldu. O burada nə edirdi? Yoxsa, bizim şeyləri gözləyirdi. Çünki bütün şeylərimiz içəri yığışdırılmışdır. Bu, mənim rütbəmə görə də ola bilməzdi. Doğrudur, mənim padorojnim mənə general imtiyazı verdi, ancaq Nuxada mənim padorojnim hec kəs görməyib. Özözümdən soruşdum: “yəni mən dusdağam, həpisdəyəm?” Bu da həqiqətdən çox uzaq idi. Suallar qəlbimi deşə-deşə otağıma qayıtdım. İşığı söndürüb otağıma uzandım. Nə vaxt yuxuya getdiyimdən xəbərim olmadı. Birdən xoruz səsinə yuxudan ayıldım. Əgər xoruzun səsi çox yaxından gəlməsəydi, buna qeyri-adi bir şey kimi baxmazdım. Mənə elə gəldi ki, Xoruz çarpayımın başı söykənən divardakı rəfə soxulub. Diqqətlə otağın hər tərəfinə baxdım.

Müqəddəs Pyerin başına gətirdiklərini mənim də başıma gətirməyə ixtiyarı olmayan bu zəhlətökən qonşunu zor-xoş qovub çıxarmaq üçün ayın işığında otağa mümkünü qədər diqqətlə

baxdım. Otaq bomboş idi.

Əgər bu rəflərin yerində şkaf olsaydı, elə fikirləşərdim ki, yoldaşlarımdan biri xoruz gizlətməklə mənimlə zarafat etmək istəmişdir. Lakin bu mülahizəm həqiqətdən uzaq idi.

Elə bu vaxt xoruz yenidən banladı. Səs ölçüyəgəlməz bir məsafədə əks-səda verib, yox oldu.

Səs bayırdan gəlirdi. Özü də elə bil ki, xoruz lap pəncərəmin altında idi.

Bəlkə sonsuzluğun dərinliyində itən bu qışqırıq mənim keşikçimin öz vəzifə borcunu yerinə  yetirmək üçün verdiyi möhkəm sınaq imtahanı idi? Bəlkə bu səs onun yoldaşlarının cavabı idi ki, onlar xoruzu sayıqlıq simvolu hesab etdiklərindən, biri-birinə onun səsilə xəbərdarlıq edirdilər?

Mənim mülahizələrimin hər biri yavaş-yavaş  mümkün ola bilən ehtimaldan uzaqlaşırdı. Artıq xülya ümmanında üzürdüm, yəni ağlıma gələni uydururdum.

İnsan həyatında elə anlar, elə dəqiqələr, elə hallar olur ki, adam heç bir şeyi öz həqiqi cildində görə bilmir. Bax, mən də hal-hazırda belə anlardan, belə dəqiqələrdən birini keçirirdim. Bu dəfə məsələnin axırına çıxmaq qərarına gəldim. Belə yatmaqdansa, heç olmasa, bu mülahizələri aydınlaşdırmaq məqsədilə yataqdan qalxdım, geyinib eyvana çıxdım.

Kürkə bürünmüş, papağını qulaqlarının dibinə qədər basmış keşikçi ağaca söykənmişdi. Lakin bu adam xoruzu təqlid edənə qətiyyən oxşamırdı.

Bundan başqa bu mahnı mənim yatdığım yerin yuxarısından eşidilirdi. Başımı qaldırıb binaya söykənmiş ağaça baxanda bütün sirlər mənə aydın oldu.

Gur və qalın səsi olan müğənni özünün bütün "hərəmləri" ilə birlikdə bu ağacın budağında yatır, daha doğrusu, keşik çəkirdi. Ürəyimdə özümlə zarafat etdim; "deyəsən Nuxada hələlik toyuq

damı "icad" olunmayıb, ona görə də hər bir xoruz binanın yanındakı baxçanın evlərə yaxın olan ağaclarından birini seçir və öz toyuqları ilə çıxıb orada yatır, bir də səhər açılanda oradan düşürlər."

Müqəddəs Martən küçəsinin və müqəddəs Döni şəhər ətrafının sakinləri faytonların səsinə adət etdikləri kimi, Nuxalılar da məni yuxudan oyadan bu səsə yəqin ki, alışıblar. Mən də bu yolu seçib yenidən yerimə girdim.

Belə bir qərar qəbul etdiyim üçünmü, yoxsa nədənsə, deyə bilmərəm, bir daha xoruzların səsini eşitmədim. Bir də gözlərimi səhər açdım. Elə o saat da  yataqdan qalxdım.

Burada su problem deyil. Bulaqlardan nə qədər desən su axır. Lakin Moskvadan çıxandan sonra bu gözəl nemətin,suyun olmaması üzündən yataq otağları adamda nifrət hissi oyadırdı. Moskvadan Potiyə qədər, bir neçə evi çıxmaq şərti ilə, məni ən çox yoran, həmişə ən çox məyus edən, hövsələdən çıxaran, canımı boğazıma yığan su problemi idi.

Bizim mədəniyyətimizdən tamamilə bixəbər olan Rusiyanı , əlbəttə, bir neçə böyük şəhərlər müstəsna olmaqla, haçansa mənim kimi səyahət etmək fikrinə düşəcək oxucularımın mənim çəkdiklərimi çəkməməsi üçün yuxarıda indicə dediklərimə bir daha qayıdacağam.

İspaniyada olarkən ispanca lüğətim vardı. Mətbəxlərdə axtarıb tapmadığım şiş sözünü oradan axtarıb tapdım. Bu bir həqiqətdir ki, mətbəxlərdə mən söz deyil, şey axtarırdım. Rus dilində isə lüğətim yox idi. Odur ki, ləyən sözünü dili biləndən öyrəndim. Əgər səyahət zamanı sizə ağırlıq etməzsə, mütləq ləyən götürün.

Mən ondan birini səyahət zamanı şahzadə Tümen gildə görmüşdüm. Aftafa-ləyən gümüşdən idi. Onları gizlədikləri yerdən çıxarıb, böyük qayğıkeşliklə stolumun üstünə qoydular. Lakin aftafanın suyu yox idi, axşam yatmaq ərəfəsində onlardan su

istədim, özlərini elə göstərdilər ki, güya başa düşmürlər. Ertəsi gün səhər-səhər israr etdim, bir kalmık aftafanı götürüb onu Volqa çayından doldurmağa getdi. On dəqiqədən sonra düz bir aftafa suyum vardı. Bacardıqca suya qənaət edirdim ki, o uç-dörd dəfə dörd- beş yüz metrlik yolu gedib-gəlməsin.

Bunu sırğa edib qulağınızdan asın: Rusiyada su yalnız və yalnız çaylarda olur. Moskvanı və Peterburqu müstəsna sayıram, yetmiş iki qolu, üç, dörd, beş kilometr eni, üç min altı yüz kilometr uzunluğu olan məşhur Volqa çayı haqqında nə desəm, yaxşıca yadda saxlayın. Bu çox aldadıcı çaydı. Heç kəs lilə batıb boğulmaq qorxusundan gecə onu keçməyə cürət etmir. Suyun dərinliyini hər saniyə ölçmək lazımdır, onun yetmiş iki qolunun hec biri ilə Həştərxandan Xəzər dənizinə qədər altı yüz ton su tutumu olan gəmi gedib çıxa bilməz.

Rusiya düzənlikdən başqa bir şey deyildir. Ola bilsin ki, ruslar torpaqla insanları qarışıq salırlar. Yəqin deyəcəklər ki, mən nə qədər nankor bir adamam ki, məni çox böyük bir mehribanlıqla qarşılayan bir xalq haqqında bu cür danışıram. Belə düşünənlərə cavab verərdim ki, məni hörmətlə qarşılayan ölkə deyil, insanlar oldu. Mən onun üçün Rusiyaya yox, ruslara minnətdaram!

Biz o şərəfli adamları qeyd etmək istəyirik ki, onlar bizim burda sadaladığımız həqiqəti bütün dərinliyi ilə başa düşür, tərbiyənin, təmizliyin, rahatlığın əlifbasını öyrənmək ehtiyacı üzündən öz təhsillərini xaricidə almağa gedirlər. Yəqin ki, bütün poçt məntəqələrində iki taxta divan, bir stol, iki kətil və bir saat, eyni zamanda bir ləyən və içi su ilə dolu aftafa qoymaq üçün Rus dövləti əmr vermiş olsaydı, bu ona çox baha başa gəlməzdi. Beş və ya altı il sonra buraya əl-üz dəsmalı qoymaq da yadlarına düşərdi. Birdən birə çox şey tələb etmək də lazım deyil. Nə isə...

Bir həqiqəti söyləməliyəm ki, öz vəzifəsini vicdanla yerinə yetirən qulluqçu axşam saat on birdə olduğu kimi, səhər saat al-

tıda bircə işarə ilə qəşəng formalı, lakin güclə dörd və ya beş stəkan su tutan mis qabı götürüb su gətirməyə getdi. Bundan istifadə etmək üçün sadəcə olaraq əlini bu qaba uzadıb, işarə edirsən, qulluqçu suyu əlinizə tökür və siz yuyunursuz. Əgər yaylığınız varsa, əllərinizi öz yaylığınızla silirsiniz, yoxdursa, onda gözləyirsiniz, öz-özünə təbii sürətdə quruyur. Siz məndən soruşa bilərsiniz ki, bəs üznüzü yuyanda neçə edirsiniz?

Baxın, görün, yerli camaat-sadə adamlar bunu necə edir. Onlar suyu ağızlarına doldurur, oradan əllərinə tökür, sonra isə üzlərini yuyurlar. Bu minvalla su ağızlarından qurtarana kimi beləcə üzlərini yuyurlar. Silinməyə gəldikdə isə, onlar bunun fikrini çəkmirlər, hava onların üzünü qurudur. Bax yerli camaat belə edir.

Mənim elə bir fransız oxucum olmaz ki, onun çarpayısının başında dolabca olmasın. Təəsüf ki, buna Rusiyada təsadüf edilmir.

Deyəsən, mətləbdən uzaqlaşdıq. Mən Nuxa haqqında burada gördüklərim haqqında hər şeyi danışmasam, ən azı ədalətsizlik olar.

Qulluqçu dedi ki, knyaz Tarkanov biz gələn zaman onu oyatmadığı üçün və gecənin canişinliyinin binasında keçirdiyimiz üçün təəssüflənir. O istəyir  ki, elə bu dəqiqə bizim şeylər onlara daşınsın və onun iqamətgahında qalaq. Polkovnik bizi səhər yeməynə dəvət edirdi.

Knyaz Tarkanovun iqamətgahı hökümət evinin qarşısında idi. Bizim oraya yığışmağımız çətin uzun çəkmədi. Əvvəl özümüz getdik, şeyləri aparmağı isə qulluqçulara həvalə etmişdilər.

Knyaz Tarkanovun imarətinin darvazası qəribə idi. Yaxşı müdafiə olunmaq üçün çəpəki qurulmuş bu böyük darvazanın ortasındakı bala qapıdan yalnız bircə adam keçə bilərdi. Bu, hər hansı bir naqəfil hücumdan ehtiyat üçün belə düzəldilmişdi. Böyük darvaza əzəmətli çinarların əhatə etdiyi geniş bir həyətə

açılırdı. Ağacların hər birinin altında yəhərli, yüyənli cilovunu gəmirən döyüşə hazır vəziyyətdə iki və ya üç at vardı. İyirmiyə yaxın başı şiş papaqlı, çiyni yapıncılı, xəncər qılınc və tapancalı əsgər atların arasında o,tərəf bu tərəfə gedib –gəlirdi. Dəstənin başçısı ortaboylu, lakin möhkəm bədənli qırx yaşlarında bir kişi idi. O, əyninə çərkəzi çuxa geymiş, belinə xəncər bağlamış, 10-12 yaşlı bir uşaqla söhbət edirdi. Uşaq çox suyuşirin idi. Məni görən kimi düz üstümə yeridi.

- Siz Aleksandr Dümasınız, elə deyilmi? – Uşaq səlis fransız dilində mənə müraciət etdi.

-Bəli, - deyə cavab verdim. – Siz isə İvan Tarkanovsunuz, elə deyilmi?

Baqrationun təsvir etdiyi əlamətlərə görə mən onu görən kimi tanıdım. O, yasovulların başçısına tərəf dönüb onunla tez-tez nə isə danışdı.

-Knyaz, soruşa bilərəmmi ki, bu zabitə nə deyirsiniz? Əlbəttə, mən ona dedim ki, sizi eşitdiyim əlamətlərinizə görə o saat tanıdım. Bu gün səhər tezdən bizə xəbər verəndə ki, evində səyahətçilər var, mən atama dedim: bu mütləq Aleksandr Düma olmalıdır. Sizin gəlməyinizin bizə qabaqcadan xəbər vermişdilər. Lakin çox ləngidiyiniz üçün qorxduq ki, yəqin Yelzavetpol yolu ilə çıxıb gedibsiniz. -Sonra isə evlərinə tərəf dönərək: -Ata, ata!- deyə rus polkovniki forması geyinmiş, möhkəm bədənli, əlli yaşlarında olan bir kişiyə müraciətlə qışqırdı: -Atacan! Aleksandr Düma gəlib!

Zabit başı ilə işarə edib, həyətə düşən pilləkənlərə tərəf gəlməyə başladı. İvan sevinçindən əllərini göyə qaldırıb, bir-birinə vura-vura, tullana-tullana atasının qabağına qaçdı:

-Gördün, mən sənə deyirdim ki, bu, Aleksandr Dümadır! Bu odur: o, səkkiz gün bizimlə bir yerdə olacaq. Uşaq bu axırıncı sözləri mənə tərcümə etdi. Mən gülümsədim:

-Biz bu axşam yola düşürük və ya ən gec sabah səhər, -deyə ona cavab verdim.

-Əgər mümkünsə, bu axşam, -Deyə Moyne dilləndi. –Əvvala, biz sizi bu axşam yola düşməyə qoymayacayıq, sorası da istəməzdik ki, sizin başınıza yolda bir hadisə gəlsin. Sabahın söhbətinə isə hələ sabah baxarıq.

Mən gənc oğlanın atasını salamladım. O, rusca xoş sözlər dedi. Uşaq:

-Mənim atam fransızca bilmir, -dedi. –Lakin mən sizin dilmancınız olacağam. Atam deyir ki, siz bizim evimizə çox xoş gəlmisiniz. Mən də ona cavab verdim ki, siz onun qonaqpərvərlik iltifatını qəbul edirsiniz. Deyirlər, sizin çox gözəl silahlarınız var. Mən silahları cox sevirəm. Siz onları mənə göstərəcəksiniz, elə deyilmi?

-Çox böyük məmnuniyyətlə, mənim knyazım.

-Gedək, yuxarı qalxaq. Atam deyir ki, çay dəmlənib, bizi gözləyir.

Biz pilləkənin yanına çatdıq, pilləkənin sağında və solunda açıq aynəbənd vardı.

-Bax, bu otaq sizin adamlar üçün hazırlanıb. Sizinki isə oradadır. Sizi narahat etməsin deyə şeylərinizi üçüncü bir otağa yığacaqlar. Buyurun, siz keçin, mənim atam heç vaxt sizdən qabağa keçməz.

Mən piləkənlərlə eyvana çıxdım. Otağın qapısını acmaq üçün üşaq bizdən qabağa qaçdı. Bizi salamlayaraq dedi: -Siz öz evinizdəsiniz! Bütün bunları burada, Parisdən çox-çox üzaqlarda, Şirvan torpağında anadan olmuş, öz doğma ölkəsindən heç vaxt kənara ayaq basmamış, təsəvvürə gəlməz dərəcədə səlis fransız dilində bülbül kimi ötən, cümlə və ifadələrini izləyə bilmədiyim bir uşağın dilindən eşidirdim - buna heyran qalmışdım. Bu, həqiqətən də bu bir möcüzə idi.

Biz üstündə samovar buğlanan bir stolun arxasında əyləşdik, çay stəkanlarımızı əlimizə götürən kimi, yadıma düşdü ki, Rusiyada və eyni zamanda Rusiyadan asılı olan bütün ölkələrdə çay stəkanlarda  icilir, fincanlarda isə ançaq qadınlar çay içə bilərlər.Çay içməyə başlayarkən mən knyaza öz təşəkkürümü bildirib,ədəb-ərkan xatirinə ona bir neçə sual verdim. Ağzımdan söz və ifadələr çıxar-çıxmaz, uşaq onları adamı heyran edən bir cəldliklə tərcümə edirdi. Elə bil o, bütün ömrü boyu dilmanc işləmişdi.

Birdən yadıma gecə keşikçisi düşdü. İvana üz tutdum:- yaxşı yadıma düşdü.- Bu geçə bizim qapının ağzında keşikçi ona görəmi qoyulmuşdu ki, birdən çıxıb gedərik? – Xeyr! - deyə gənc oğlan gülümsədi.- (Mən onu artıq uşaq adlandırmağa çürət etmirəm) Xeyir, bu sizin əminamanlığınız üçün idi.Həm də bizə xəbərdarlıq etmişdilər ki,ləzgilər Nuxanın ipək fabrikinə basqın etmək istəyirlər və onu əlavə etmişdilər ki, məni... –Axı,kim xəbərdarlıq etmişdi?-bizim çasuslar.Onların bizim aramızda çasusları olduğu kimi,bizimkilər də onların arasındadır. –Bəs sonra?- Məsələnin ardı ilə maraqlandım.- dedilər ki, onlar məni də oğurlamaq niyyətindədirlər.Cunki atam onlara cox pisliklər etmişdir. Atam öz əli ilə onlardan 30 nəfərinin başını kəsmişdir. İyirmi ikincisinin başı kəsiləndən sonra imperator Nikolay atama bir üzük göndərib.Ata, üzüyünü göstər, çənab Düma da görsün.

Polkovnik gülümsəyərək ayağa qalxdı və cıxdı. Ağzından süd iyi gələn gənç oğlünün əmrini yerinə yetirdiyi ücün bu zəhmli qoca şir  özünü cox xoşbəxt hiss edirdi. –Neçə yəni? Bü quldurlar sənidəmi oğürlamaq istəyirlər, əziz knyaz?

-Belə görünür, -deyə uşaq çavab verdi. –Eh! Başqasının günahına görə bu gözəl başı kəsməkmi olar?.

Mən üşağın boynunu quçaqlayaraq, onu bağrıma basdım. Bu

barədə düşünərkən,əsməyə başladım.

-Ah! Mənim başımı kəsmək?! Yox, onlar o qədər də axmaq deyillər. Böyük məbləğdə pulu daha üstün tuturlar. Atamın məni nə qədər sevdiyini yaxşı bilirlər. Bilirlər ki, əgər məni aparsalar, atam dəridən-dırnaqdan çıxacaq, öz paltarının axırıncı düyməsini satmalı olsa belə, məni onlardan alacaq. Bundan başqa, ləzgilər adamın başını kəsmirlər, bunu ancaq çeçenlər edirlər.

-Bəs ləzgilər nə edirlər?-deyə maratla soruşdum.

-Adamın sağ əlini kəsirlər.

-Belə də. Bəs bu kəsdikləri əlləri neynirlər, axı?

-Öz qapılarına mıxlayırlar. Kimin ki, qapısının üstündə daha çox əl var, deməli, o öz aulunda tanınmış adamdır.

Polkovnik əlində üzük içəri daxil oldu. Bu, ortasında imperatorun nişanı olan dörd çox qiymətli yaqutun birləşməsindən ibarət qiymətli bir üzük idi.

-Mən də üç baş kəsəndə, atam onu mənə verəcəyini vəd edib.

-Əzizim, siz səbr edin, iyirmi iki baş kəsəndən sonra, hökmdar Aleksandra yazarsınız! O da sizə Nikolayın atanıza göndərdiyi üzükdən göndərər. Bir ailədə iki hökmdar üzüyü olar.

-Eh! Kim bilir, - deyə İvan əvvəlki laqeydliklə dilləndi.- Kim bilir... Görəsən mən də bu şərəfə nail olacağammı? Bu məsələ günü-gündən çətinləşir, kəndlərin çoxu döyüşsüz təslim olur. Görünür, mən elə üç başla kifayətlənəcəyəm.

- Baş kəsməsəniz olmazmı?

- Kim baş kəsməyir ki?

- Məsələn, mən, əziz knyaz.

- Siz bu ölkədən deyilsiniz, bunu sizə aid etmək olmaz.

Siz həyətə girəndə mənim kiminlə danışdığımı gördünüzmü? Bax, o, on bir baş kəsib və belə hesab edir ki, əgər bizim casuslar bizi aldatmamışsa, iki-üç günə burada on ikinci başı da kəsəcəkdir. Onun da müqəddəs Georgi xaç ordeni var. Bir gün

gələcək, mənim də müqəddəs Georgi xaç ordenim olacaq!

Bu sözləri deyərkən uşağın gözləri alov saçdı. Bu balaca knyazın yanında, hər an quldurlar tərəfindən oğurlanmaq qorxusu altında dünyada ən ağır bir şey olan baş kəsməkdən danışmaq nə qədər doğrudur?

Bu yaşda olan bizim uşaqlar isə adi və qayğısız oyunbazlardırlar. Onlara deyəndə ki, xortdan gəldi, o saat qaçıb analarına qısılırlar.

Bu bir həqiqətdir ki, burada bu yaşda uşaqların belinə xəncər bağlayırlar. Bizdə isə çörəyi kəsib uşaqların boşqabının yanına qoyur, bıçağı götürürlər ki, uşaqlar toxunmasınlar.

Mən knyaz Melikovun oğlunun başında özündən yekə ağ papaq, əynində gözəl çərkəzi çuxa, sinəsində patronlarla dolu qatar, belində almaz kimi iti xəncər olduğunu öz gözlərimlə görmüşdüm. O, hələ lap uşaq idi. Lakın xəncərinin ağzını göstərmək üçün onu qınından çıxarırdı. O, adını qürurla çəkdiyi məşhur usta Murtazalın üstündə möhürü olan xənçər gəzdirirdi.

Fransız qadını hələ "ata", ana" sözünü güclə deyən bir körpənin əlində bu cür silah görsəydi, huşunu itirərdi.

Knyaz Melikov isə gülümsəyir və ona hamıdan əvvəl deyirdi:

-Göstər xəncərini, Jorqi.

Odur ki, bu uşaqlar on yaşında olanda özlərini kişi kimi aparırlar.

Mən yenə ləzgilərin üstünə qayıdıram. Bu əlkəsmə məsələsi mənim üçün yeni bir şey idi. Knyaz mənə dedi ki, Nuxada sağ əli kəsilmiş 12–dən çox adam var. "Min bir gecə nağılları"nda üç korun üçünün də sağ gözü olmadığı kimi, bunların da sağ əli yoxdur.

Ləzgilər Şilda kəndinə basqın edərkən kəndin başçısı Dodayevin evinə soxulurlar. Bu adamın Jefrem Sukyazov adlı bir erməni katibi varmış. Döyüşün şiddətli yerində o xilas olmaq

arzusu ilə özünü ölülüyə vürüb yerə yıxılır. Ləzgilərdən biri ona ilişir və onun sol qolunu kəsir. Erməni qorxusundan cınqırını da çıxarmır. Ləzgi çölə çıxarkən səhvini başa düşür, sol əli kəsdiyi üçün xəcalət çəkir. Qayıdıb onun sağ əlini də kəsir.

Səhər yeməyindən sonra gənc knyazdan soruşdum ki, mənə şəhəri və bazarı göstərə bilərmi? O, bircə baxışla atasından icazə istədi. Ata da başı ilə ona razılıq işarəsi verdi. Hiss olunurdu ki, onlar bir-birinin ürəyindən keçəni bir baxışla oxuyurlar.

Lakin ata gənc knyazın əsas keşikçisi Nikolaya əmr etdi ki, bizi müşayiət etsin. Nikoloydan başqa  dörd qulluqçu da kəmərlərini bərkidir, xəncər bağlayıb, papaqlarını başlarına basdılar və bizi müşayiət etməyə hazır dayandılar.

Balaca knyaz xəncərdən əlavə bir tapança götürdü və hər şeyin qaydasında olub-olmadığını yoxlayıb, onu belinə bağladı.

On iki –on beş yasovul başçıları Bədridze ilə öz aralarında bir neçə kəlmə danışdılar. Bədridze knyaz Tarkanova dedi ki, heç bir təhlükə ola bilməz. O, öz adamları ilə iki gün Nuxanın ətrafındakı meşələrdə pusquda durmuş, heç bir şey görməmişdi. Bundan başqa ,adamın ağlına gəlirdi ki, ləzgilər günün günorta çağı on iki-on dörd min əhalisi olan bir şəhərə basqın etsinlər.

Biz şəhərə çıxdıq. On addım qabaqda Nikolay, onun dalınca biz –İvan, Moyne, Kalino və mən gedirdik. Dəstəmiz, göstərdiyim kimi, dörd qulluqçunun əlavə olunması ilə möhkəmləndirilmişdi. Hər hansı bir təsadüfə qarşı dörd tərəfdən öz adamlarımızla əhatə olunmuşduq.

Təhlükəzliyimizi təmin edən bu strateji imkanımız bütün şəhəri istədiyimiz kimi gəzməyə şərait yaradırdı. İki-üç saata hər tərəfini gəzmək mümkün deyil, bu şəhər çox səfalıdır. Şəhərin mərkəzi və ticarət nöqtələri olan küçələrlə yanaşı, hər bir evin füsünkar həyətyani baxçası, ağaçları, özünün bulağı vardı. Bu bulaqların çoxu həyətlərin sıx yaşıl çəpərlərindən kənara çıxaraq

yolu keçib, köpüklənə-köpüklənə axıb gedirdi.

Polkovnik Tarkanovun iqamətgahı şəhərin kənarında olduğundan, biz mərkəzi küçəyə gəlib çatana qədər xeyli yol qət etdik. Küçənin ortası ilə çınqıllı kiçik bir çay axırdı. Çayın bir sahilində evlər, o biri sahilində isə dükanlar cərgə ilə düzülmüşdü. Mağazaların önü seyrəngah idi. Küçənin hər iki tərəfindən ucalan ağaclar biri-birinə qovuşaraq köpüklənən suyun üzərində həm ürək oxşayan kölgəlik əmələ gətirmiş, həm də dağın ətəyində şairanə bir mənzərə yaratmışdı. Adamlar çayın bu sahilindən o sahilinə taxta körpülərlə və ya kökü bu sahildə, başı isə o biri sahildə yerlə birləşən ağac gövdələrinin üstündən keçirdilər. Bir az aralıda başı buludlara dəyən, şairanə və səfalı dağlar elə gözəl mənzərələr yaradırdı ki, bu mənzərələri sözlə ifadə etməkdə çətinlik çəkirəm. Ucsuz –bucaqsız sahəsinə görə bir balaca qızlara bənzəyən belə ecazkar mənzərəli yeri mən heç vaxt görməmişəm.

Nəhayət, biz heç bir faytonun heç vaxt kecmədiyi, birdənbirə sola burulan cığırla yoxuşa qalxdıq və dağın döşündəki bazara çatdıq. Orada insan əlindən tərpənmək olmurdu. Elə belə gəzən kim, alan kim, satan kim. Bir basabas vardı ki, gəl görəsən. İynə atsaydın, yerə düşməzdi.

Küçənin hər iki tərəfini əhatə edən dükanlardakı tacirlərdən başqa, kasıb, lakin Şərq axar-baxarlığı ilə seçilən balaca dükanlarda hərə yalnız və yalnız bir şey satırdı. Bəziləri xəncər, bəziləri tapanca və Quba silahları, digərləri Şamaxı xalıları, ipək və s. satırdılar. Bu sehrkar tacirlərin arasında heybələri arvadlarının toxuduqları və qalın parca ilə dolu olan ləzgilər də gəzirdilər. Açıq sarı və ya sarımtıl rəngdə olan mahud kol- kosa davamlı olduğundan və uzun zaman dağılmadığından Qafqazda çox işlənirdi.

Bu parçadan adi adam üçün bir çərkəzi çuxa və bir şalvar

çıxır, keyfiyyətindən asılı olaraq ona altı manatdan on iki manata qədər qiymət qoyulur, yumşağlığına baxmayaraq, bu parça suyu keçirmir və çitdən çox yun parçaya oxşayır, ona mahud deyirdilər.

Mən bu parçadan ikisini aldım. Bəlkə bizim Lubye və Elböfun təcrübəli tacirləri onların sirrini öyrənməklə, bir şeyə nail ola bildilər. Asanlıqla əldə olunan bu ucuz malların müqabilində sakitcə, məğrur oturub, alıcı gözləyən tacirlər elə şeylər düzəldirlər ki, onları satmaq üçün heç bir səy göstərmirlər. Adama məhəl qoymayan bu tacirlər özlərini elə göstərirlər ki, guya mallarını satmaya da bilərlər. "Malım budur! Xoşunuza gəlir, buyurun, pulunu verin, alın, götürmürsünüz, xoş gəldiniz. Mən sizsiz də keçinə bilərəm və istəsəm heç satmaram. Açaram dükanımın ağzını, oturaram içində, odlayaram qəlyanımı, tüstüsünü havaya buraxa-buraxa gəlib-gedənlərə tamaşa edərəm."

Mən deyənləri adamın düz gözünün içinə demirlər. Lakin butun bunlar sanki sözbəsöz onların üzündə yazılıb. Orada nə desən duzəldirlər. Bazarda can dərmanı desən, onu da satırlar. Görduyum külli miqdarda bazarların icərisində ücü mənim ən cox xoşüma gəlib və mən Tiflisin bazarını da mustəsna etmirəm. Bunlardan biri Dərbənd, biri Bakı və biri də Nuxa bazarıdır. Mən deyəndə ki, orada hər şey istehsal edir və nə desən satırlar, bunu belə başa düşmək lazımdır: Yəni orada nə desən duzəldir və onu hec vaxt avropalaşa bilməyəcək Şərq bazarlarına məxsus bir qayda-qanunla xırıd edirlər.

Orada cürbəcür xalılar, silahlar, yəhərlər, patronlar, üstündə yazı olan şəkillər, balınclar, süfrələr, papaqlar,çərkəzi çuxalar, dağlı səndəllərindən tutmuş korçu uzunboğaz tumaş çəkmələrinə qədər hər cür başmaqlar düzəldir və satırlar. Orada növbənöv üzüklər, qolbağlar, bir, iki və üç sira qızıl azərbaycanlı pulu düzülmüş boyunbağılar, bizim qaraçı artistlərinin həsəd apara

biləcəkləri və hətta Şamaxı rəqqasəsi, gözəlləri üçün paltar,baş örtükləri, sırğalar, yaxasında qızıl və ya gümüşdən meyvə şəkilləri toxunmuş koftalar düzəldilir və satılır. Belə koftalar burda çox dəbdədir. Bütün bunlar göz qamaşdırır, işıq saçır, adama gəl-gəl deyir. Səs-küydən qulaq tutulur. Dalaşan kim, qırmanc vuran kim, qışqıran, qorxuzan, söyüşən kim,biri-birinə uzaqdan salam-məleyk deyən, əlini sinəsində çarpazlayaraq salamlaşan, qucaqlaşan kim, sövdələşən, mübahisə edən, höcətləşən, and içən kim və s.

Bir baxın, görün nə gözəl yəhərdi! Əgər onlardan alacaqsınızsa, elə buradan alın. Başqa yerlərdə yəhər bahadır, burada daha ucuz qiymətə ala bilərsiniz.

Mən 24 manata iki bəzəkli yəhər aldım. Bunları Fransada 200 franka və ya heç ala bilməzdik.

Elə bu vaxt əynində çərkəzi çuxa,keçmiş qəşəng bir zabit bizim yanımıza gəldi. O, İvana bir neçə tərifli söz dedi. Balaca knyaz mən tərəfə döndü və onu mənə təqdim etdi:

-Məhəmməd xandır.

Bu, mənə onun haqqında hələ heç nə demirdi. Mən salam verdim. Çavan zabitin müqəddəs Georgi xaç ordeni və çox gözəl silahı vardı. Müqəddəs Georgi xaç ordenini hər adama hər hansı bir təsadüf və ya kiminsə məsləhəti ilə vermirlər.

-Siz mənə deyəcəksinizmi, bu Məhəmməd xan kimdir, knyaz?-deyə mən İvana müraciət etdim.

-Əlbəttə, elə bu saat.

O bir neçə kəlmə Məhəmməd xanla nə barədəsə danışdı. Belə başa düşdüm ki, ona mənim silahlarım haqqında nəsə deyirdi. Sonra o mənim yanıma gəldi. Məhəmməd xan da onun dalınca.

-Mənim silahlarım barədə danışırdınız, elə deyilmi?

-Bəli, onun bu silahları istehsal edən firmalar haqqında məlumatı var. Hörmətli bir adamdır. İcazə verərsinizmi, o sizin

silahlara baxsın?

-Böyük məmnuniyyətlə.

-İndi isə qulaq asın, sizə deyim bu Məhəmməd xan kimdir. Hər şeydən əvvəl, bu adam Nuxanın axırıncı xanının nəvəsidir. İşdir, əgər bu şəhər və bütün əyalət rusların olmasaydı, onunku olmalı idi. Ona ayrıca mülk verilmişdir. O, mayordur... Bu rütbəni öz ləyaqəti ilə almışdır. Bu, məşhur Daniyel bəyin bacısı oğludur.

O, yalnız 1828-ci ildən rus dövlətinin ixtiyarında olan, bizim baxacağımız Xan sarayında anadan olmuşdur. Mən Məhəmməd xanın qəlbindəki köhnə qəmli xatirələri təzələməmək xatirinə gənc knyaza təklif etdik ki, saraya baxmağı başqa vaxta saxlayaq. İvan mənim dediklərimi ona çatdırdı. Məhəmməd xan baş əyərək dedi:

-Böyük imperatorluğun ixtiyarına keçəndən sonra mən orada olmuşam.

Biz yolumuza davam etdik. Xan sarayı, şəhərin ən yüksək bir nöqtəsində, başqa tarixi binalardan fərqli olaraq müasir memarlıq üslubunda tikilmişdir.1792-ci ildə Məhəmmədhəsən xanın tikdirdiyi Xan sarayı valehedici və insana gəl-gəl deyən bir imarətdir. Onun əsasını bu sülalənin ən hörmətli və məşhur adamı Hacı Çələbi xan qoymuşdur. 1735-ci ildən 1740-cı ilə qədər o, Nadir şaha qarşı çox döyüşlərdə iştirak etmiş, bütün Şirvanı azad etmiş, Tiflisə qədər gedib cıxmışdı.

Çar ordusu 1828-ci ildə Nuxanı tutanda Xan sarayı dağıdılmışdı. Xan sarayı elə füsünkar gözəlliyə malik abidədir ki, yalnız memar fırçası onun necə birləşdirildiyi məlum olmayan saysız-hesabsız şəbəkə və naxışlarını yenidən canlandıra bilər. Doğrudur, adlı-sanlı adamların, knyazların burada gecələməsi üçün Xan sarayı bərpa olunmağa başlamış, lakin bərpa işləri yalnız birinci mərtəbədə aparılmışdır. Bu füsünkar sənət abidəsinin tam bərpasını davam etdirmək əvəzinə, onu başlı-başına bu-

raxmışlar. Nuxanın çox da böyük olmayan Xan sarayından ayrılanda, ürəyimdən istər-istəməz bir fikir keçdi: "Xudaya,sən özün bu gözəl və tarixi abidəni yadellilərdən qoru!"

Biz polkovnik Tarkanovun malikanəsinə dönmək üçün ya şəhərin ətrafına dolanmalı, ya da yenidən bazardan keçməli idik. Başqa yol yox idi. Biz gəldiyimiz rahat yolla qayıtdıq. Məhəmməd xan bizi knyaz Tarkanovun evinə qədər ötürdu. Axı, İvan mənim silahlarım haqqında ona demişdi. O da fikrində yəqin ki, elə bu barədə düşünürmüş. Odur ki, gəlib evə çatanda elə birinci soruşduğu bu oldu.

Yeni və maraqlı fikir mübadiləsinə səbəb olan silahları gətirdilər. Gənc knyazda bizim uçurdub göydə vurma qaydaları haqqında təsəvvur yaratmaq üçün tüfəngimi götürüb havaya bir qəpiklik atdım və onu qırma ilə beş altı yerdən vurdum.İvan bunu bir təsadüf saydı, məndən təkrar atmağı xahiş etdi. Bu dəfə mən iki dənə bir qəpiklik götürüb, hər ikisini birdən havaya ataraq, iki atəşlə onların ikisini də vurdum.

Məsum uşaq çaş-baş qalmışdı. O,az qala inanmışdı ki, mənim silahım Astolf qılıncı kimi sehrlidir və hədəfi düz vurmaq onu atandan deyil, tüfəngin özündən asılıdır. O, dil boğaza salmadan elə hey təkrar edirdi:

-Mənim də belə silahım olacaqmı? Mənim də sizinki kimi tüfəngim olacaqmı?

-Bəli, əziz knyaz, sakit olun,- gülərək ona cavab verdim. Bu Məhəmməd xanı ürəkləndirdi. O, İvanı yanına çağırdı və yavaşca ona bir neçə söz dedi. İvan mənim yanıma qayıtdı.

-Məhəmməd xan çox istərdi ki, onun bir cüt tapançası olsun, özü də Devim firmasının tapançasından. O soruşur ki, bunu necə əldə edə bilər?

-Bu çox asan bir şeydir, əziz knyaz. Məhəmməd xan mənə yalnız arzusunu bildirsin, mən onları ona göndərərəm.

Məhəmməd xan mənə yaxınlaşdı və məni narahat etdiyi üçün üzr istədi. Sonra o, məndən soruşdu ki, bir çüt Devim tapançası neçəyə başa gələr? Dedim ki, bu barədə heç narahat olmasın, çünki, bu mənim işimdir. Təki onlar gəlib sizə çatsın. Elə ki, fransız tapançalarını aldız, onda mənə bir Qafqaz silahı göndərərsiniz. O hörmət əlaməti olaraq baş əydi və qılıncını belindən açdı, tapancasını çıxartdı və onların hər ikisini mənə təqdim etdi, eyni zamanda, hələ bir üzr də istədi ki, xəncəri verə bilmir, çünki kiminsə yadigarıdır. Bu mübadilə o qədər qiymətli idi ki, razılaşa bilmirdim. Lakin İvan mənə dedi ki, əgər onları götürməsəm, Məhəmməd xanın ürəyinə dəymiş olaram. Mən də öz növbəmdə baş əyib qılıncı və tapancanı götürdüm.

Bu silahların hər ikisi çox zövq ilə düzəldilmişdi. Bundan əlavə qılınc hər yerdə tanınırdı. Onu belimə bağlayan dəqiqədən Tiflisə qədər yol uzunu, onu görən azərbaycanlı zabitlər dönüb baxmağa məcbur olurdular. Qılıncın belə məşhurluğu onun sahibinin böyük hörmətinə dəlalət edirmiş.

Bizə Şəkidə bir bayram axşamı qoç döyüşlü,Azərbaycan rəqsli,güləşli və s. bir qonaqlıq təşkil etdilər.

-Mən sizə tamamilə azərbaycanlısayağı bir qəbul düzəltmişəm, -deyə o, sözünü bitirdi.

Biz bu gələnlərin ləzgilərdən təzə bir xəbər gətirdiyindən şübhələndiyimizə görə daha danışmadıq.

Bədridze də gəlib çıxdı. Təhər-tövründən görünürdü ki, onun kefi kökdü və elə hey əllərini ovuşdururdu. O, knyaz Tarkanovla qonşu otağa keçdi Polkovnik tək qayıdıb gəldi. Bədrize isə otağın eyvana açılan başqa bir qapısından çıxıb getmişdi.

Stoldan qalxıb qəhvə içmək üçün eyvana keçdik. Həyətin ortasında –yanında nəhəng qonur qoç olan bir kişi dayanmışdı. Onun ətrafında isə polkovnikin sanki qonur qoçu döyüşə çağıran qara qoçu hərrənirdi.

Azərbaycanlıların bayramı qoç döyüşü ilə başlanacaqdır.

Atasının sirrini açan İvan bizə xəbər verdi ki, axşam qoç döyüşündən sonra Azərbaycan milli rəqsləri və güləş olmalıdır. Bütün bunlardan sonra isə içəridə rəqs olacaq. Bu rəqsə şəhərin ən məşhur rəqqasları dəvət olunublar. Onlar "Ləzgihəngi" oynayacaqlar.

Qonaqlar yavaş-yavaş gəlməyə başlamışdılar. Yaxında olanlar piyada, bir neçə nəfər faytonla, beş altı adam isə atla gəldi. Onlar Knyaz Tarkanovun iqamətgahından çox da uzaqda yaşamırdılar. Lakin şərqlilər mümkün qədər ancaq atla gəzirlər.

Bütün kişi və qadın qonaqlar adətləri üzrə salamlaşır və gedgedə teatr qalereyasını xatırladan eyvanda öz yerlərini tuturdular.

Axşam saat altıya yaxın artıq hamı yığışmışdı. Daha sonra qırx nəfər polis də gəldi. Bunlar hər axşam knyaz Tarkanovun iqamətgahını, onun həyət qapısını qoruyan keşikçilər idilər. Keşikçilər təyin olundu. Qalan polislər isə yanında qoç olan adamın ətrafında dövrə vurdular. Tamaşaçılardan xahiş etdilər ki, geri dursunlar, qoçların döyüşü üçün yer qalsın. Uşaqlar başlarını polislərin qıclarının arasından çıxararaq, qoçlara baxırdılar.

Tamaşanın başlanmasına işarə edildi və qoçları meydana çəkdilər. Gənc Knyazın şəxsi keşikçisi onu heç vaxt tək qoymayan bütün gecəni qapısının ağzında yatan səhərdən axşama kimi onu gözdən qoymayan Nikolay qara qoçun buynuzundan tutub qonur qoçun on addımlığına –yaxın bir məsafəyə itələdi.

Öz növbəsində qonur qoçun sahibi qoçunu tumarlayıb-sığalladı. Boynunu qucaqlayıb onu qara qoçun bərabərinə gətirdi.

Bu yerdə hər iki qoçu adamların qışqırığı, hay-küyü qızışdırmağa başladı. Əslində onların heç birinin bu adamların görməyinə ehtiyacı yox idi. Onların hər ikisi azad olar-olmaz iki düşmən suvari kimi bir-birinə cumdular. Onların kəllə-kəlləyə gələndə

şaqqıltıdan qulaq tutulurdu. Bu səsin əks-sədası bütün həyəti başına götürmüşdü. Qoçlar bir müddət dal ayaqlarını bərk-bərk yerə basıb bir-birinə güc gələrək, rəqibini geri çəkilməyə məcbur etmək istəyirdilər. Onları aralayıb yenidən buraxdılar. Qoçlar yenə də güllə kimi biri-birinin üstünə cumdular, dəhşətli və cingiltili zərbələr qulaq batırıcı idi. Bu dəfəki zərbədən sonra qonur qoçun qulağının yanında qan göründü. Bir daha onları aralamadılar. Hiss olunurdu ki, qara qoç rəqibini üstələyib. Belə də oldu. Bir az sonra qonur qoç döyüşdən yayındı. Qara qoç qalib gəldiyinə elə bil özü də heyran idi. Başını yuxarı tutub, fınxıra – fınxıra meydanda dövrə vururdu, qonur qoçun qulaqları sallanmışdı. Hamı qonur qoçun sahibinə lağ edib gülürdü. Qonur qoçun qulaqlarının sallanması tamaşaçılara yaxşı heç bir şey vəd etmirdi.

Biz eyvanda dayanmışdıq . Ordan həyətdə baş verən hər şey çox gözəl görünürdü. Həyət elə hey adamla dolurdu. Tamaşaya gələnlərin içərisində yanında üç dəvəsi olan bir dəvəçi də vardı.

Dəvələr, heç şübhəsiz, karvansaraya gəldiklərini yəqin edib, boyunlarını uzadaraq yatmış onların sahibi dəvələrdən birinin belinə çıxmış, pulsuz tamaşaya baxmaq üçün ozunə ən gözəl yer seçmişdi.

Yol keçən başqa atlılar həyətə daxil olmuş, Knyazı salamladıqdan sonra elə atın üstündəcə tamaşanı yaxşı görmək üçün üzəngidə ayaq üstə duraraq boyunlarını qabağa uzatmışdılar.

Azərbaycanlı qadınlar öz dördkünc çarşablarında, erməni qadınları öz uzun, ağ paltarlarında ayaq üstə heykəl kimi sakitcə dayanmışlar, orada yüzdən çox tamaşaçı olardı. Elə bil onların hamısı buraya qalibi ruhlandırmaq, məğluba lağ etmək üçün yığışmışlar. Mən qalib deyəndə qara qoçu nəzərdə tuturam. Qonur qoç qələbədən çox uzaqda idi. Düzü, onun yerinə başqa bir qoç olsaydı, qulaqlarını daha pis sallayardı. Məğlubiyyətin

dadını, az da olsa, hiss etdiyindən, sahibi onu camaatın hay-küyü içərisində çox çətinliklə saxlayırdı. Sanki onun ürəyinə dammışdı ki, artıq hamı onun qələbəsinə şübhə edir.

Əvvəllkindən daha dəhşətli döyüş başlandı. Qonur qoç aldığı zərbədən dal ayaqları üstə qıvrıldı və yenidən özünü düzəldib, bir addım geri çəkildi. Artıq qara qoçun üstünlüyü açıq- aydın hiss olunurdu. İndi qonur qoçun başı da aşağı əyilmişdi.

Qara qoç rəqibinə özünü düzəltməyə imkan vermir, amansızcasına onun üstünə cumur,arxadan, başından və haradan gəldi vurduğu hər zərbə ilə onu yıxırdı.

İnamını itirmiş yazıq qonur qoç artıq özünü ayaq üstə saxlaya bilmirdi. O hara gəldi qaçıb canını qurtarmaq istəyirdi. Lakin dairə vuran camaatın arasından özünə yol aça bilmirdi. Buna qara qoçun özü də imkan vermirdi. Qara qoç onun dalınca qaçır, bütün tamaşacılar isə alqışlarla onu ruhlandırırdı.

Beləliklə, döyüşə və ya sadəcə olaraq, qalibin qonur qoçu hara gəldi qovmasına tamaşa edən camaat artıq həyəti bürüməkdə olan qaranlıqda qaynaşırdı.

Nəhayət, qonur qoç qaçıb özünü bir arabanın altına soxdu. Tamamilə basılmış yazıq heyvan öz rəqibindən aman diləyirdi. Elə bu vaxt uzaqdan nağara və zurna səsi eşidildi. Camaatın arasına sakitlik çokdü. Musiqi sədalarının getdikcə yaxınlaşdığına əmin olduqdan sonra hamı küçə qapısına tərəf qaçmağa başladı. Bir anın içində həyət tamam boşaldı.

Lakin bir az keçmiş həyətə çox adam doldu. Qapının ağzında iki məşəlçi göründü. Onların arxasınca dörd musiqiçi, daha iki məşəlçi və üç rəqqas gəlirdi. İnsan axını həyəti başına götürmüşdü. Onlar təkcə bayaq qoç döyüşünə tamaşa edənlər deyildir. Onlara həm də şəhərin bütün küçələrindən keçib, knyazın evinə qədər rəqqasları izləyən, onların dalınca tökülüşüb gələn adamlar da əlavə olunmuşdu. Elə bil bütün Nuxa əhli buraya gəlmişdi.

Rəqqaslar düz eyvana qədər gəlib knyazı salamladılar. Adamlar “ura” qışqıraraq dairə vurdular. Məşəlçilərin dördü də elə yer seçdilər ki, rəqs edənlərin oynadıqları meydançanı daha yaxşı işıqlandıra bilsinlər.

Rəqqaslardan ikisi əllərində toppuza oxşar qısa, ağır şeylər tutmuşlar. Üçünçüsü isə əlindəki yarımçevrəyə bənzər, dəmir həlqələrlə bəzənmiş qavalı titrədərək çalğıçıları müşayiət edirdi. Musiqiçilərdən ikisi nağara, ikisi isə zurna çalırdı. Deyəndə ki, iki musiqici zurna çalırdı, mən səhv edirəm, düzdü, hər ikisi çalırdı, lakin növbə ilə çalırdılar. Bu tipli musiqi alətində çalmaq cox yorucu olur. Axı bunun üçün içəridən nəfəs almağı bacarmaq lazımdır. Azərbaycanlıların sinəsi nə qədər möhkəm olsa da, nəfəsləri çatmadığından, onlar zurna çalarkən biri-birinə əvəz etməyə məcbur olurdular.

Musiqi sədaları altında get-gedə qızışan rəqs birdən yaxın məsafədə eşidilən qızğın atışma səsinə dayandırıldı.

Rəqqaslar dayandılar, zurna çalanların nəfəsi kəsildi, nağara çalanların əlləri havada qaldı. Polislər silahlara cumdular. Yasovullar hazır dayanmış atların belinə sıçradılar. Həyətdəki bütün tamaşaçılar isə sualedici nəzərlərlə biri-birinin üzünə baxırdılar.

-Elə bir şey yoxdur, camaat, elə bir şey yoxdur! –deyə knyaz Tarkanov ucadan dedi-narahat olmayın Bədridzenin işidir. Öz adamları ilə məşq edir, onları düz atmağı öyrədir, başlayın, rəqsə başlayın!-olmaya bunlar ləzgilərdi? – deyə mən İvandan soruşdum.

-Ola bilər, lakin bir halda ki, Bədridze ordadır, deməli, narahat olmağa dəyməz, - sonra isə öz növbəsində o da çalğıcı və rəqqaslara bir neçə söz dedi. Zurna çalanlar öz zurnalarını püləməyə, nağaraçılar nağaralarını döyəcləməyə, rəqqaslar rəqs etməyə başladılar.

Yavaş –yavaş hərə öz yerini tutdu. Ara-sıra tüfəng səsləri eşidilsə də heç kəs buna əhəmiyyət vermədi.

Həqiqətən də, rəqs çox gözəl idi. Bu  qədər maraqlı olması onu göstərir ki, rəqqaslar çox məşq etmişdilər.

Əllərində ağırlıq daşı tutmuş iki nəfər bir dairənin iki tərəfində, qavalçalan isə ortada dayanmışdı. Onlar bacarıqla və çəldliklə hərəkət edirdilər. Onları bizim Şan-Elizə çöllərindəki toppuzlarını başlarının üstündə fırladanlara, bir əlindən digərinə ayaqlarının arasından keçirən ağac oynadanlarla müqayisə etmək olmaz. Üçüncü rəqqas qavalın dəmir həlqəciklərini cingildədərək musiqini gücləndirir, eyni zamanda füsünkar musiqinin müşayəti ilə çox qəribə hərəkətlər edirdi.

Çalğıçılar bir- birini əvəz edir, zurnanı elə məharətlə çalırdılar ki, musiqi rəqqasların qüvvəsini birə-beş artır və onları insanın edə bilməyəcəyindən daha artıq hərəkətlər etməyə ruhlandırır. Bu hərəkətlərə bizim aramızda ən bacarıqlı adam iki-üç dəqiqə güclə davam gətirər, bunlar isə on beş dəqiqədən çox oynayırdılar. Mən deyə bilmərəm ki, bu vərdiş və ya çeviklikdir. Bir onu bilirəm ki, rəqqasların heç biri yorulana oxşamırdı. Nahayət, musiqiçilər də, rəqqaslar da  dayandılar.

Bundan sonra pəhləvanlar məharətlərini göstərdilər. Bu dala, qabağa gedilən hərəkətlərdən ibarət idi. Onlar daşlarla oynayırdılar. Hərəkətlərin yerinə yetirilməsində qollar ümumiyyətlə, ayaqlardan daha çox rol oynayır.

Rəqsdən sonra  güləş başladı. Rəqqaslardan ikisi üst paltarların çıxartdı. Əyinlərində enli  şalvardan başqa heç nə qalmadı. Onlar knyaz Tarkanovu salamladılar və əllərini toza batırıb ovxalamağa başladılar. Sonra isə biri-birinin üstünə cummaq istəyən iki vəhşi heyvan kimi qarşı –qarşıya dayandılar.

Güləş, ümumiyyətlə, bütün tamaşaların ən sadəsidir. Kim heç vaxt arxası yerə dəyməmiş Matves və Rabasonu görmüşsə,

deməli, Azərbaycan pəhləvanlarını da görmüşdür. Elə təsəvvür etsin ki, elə Krotonlu Alsidamas və Milonu da görmüşdür.

Əgər bir hadisə baş verməsəydi, bu tamaşa bəlkə də yadda qalmazdı. Bu, silahsız-filansız mübarizə bizə o qədər də maraqlı gəlmirdi. Güləşin lap qızğın çağında, camaatın gərginliklə irəli cumaraq, güləşçilərə baxmaq üçün başlarını qabağa uzatdığı bir vaxtda, birdən həyətin dərinliyindən, qaranlığın içərisində bir adam gəldiyini gördük. O, yaxınlaşdıqca həyətin hər tərəfinə şam və məşəllərdən yayılan işıqda birbaş da ayırd etmək olurdu. Bədənsiz irəliləyən bu baş tək-tənha camaata yaxınlaşırdı. Sanki o da bu tamaşaya baxmaq, ondan ləzzət almaq istəyirdi.

Yeni gələn adam gətirdiyi "qəniməti" unudaraq irəli əyilib güləşənlərə baxmaq istəyəndə onun üzünə işıq düşdü, indi artıq hər şeyi açıq-aydın gördük. O, tamam qana bələnmişdi, əlində isə ağzı əyilmiş, gözləri açıq, ağacın bir ucuna taxılmış, təzəcə kəsilmiş bir insan başı tutmuşdur. Kəlləsinin qırxıqlığından bildik ki, bu ləzgi başıdır. Başının ortasında böyük bir kəsik vardı.

Moyne hec bir şey demədən mənə bir dürtmə vurub, başı göstərdi.

- Lənət şeytana, mən onu yaxşı görürəm, - deyə astadan ona çavab verdim.

Mən də öz növbəmdə gənc knyazın əlinə toxundum.

-Bü nədir belə?- sorüşdüm.

-A-a-a!- deyə o, cavab verdi.- Bu Bədridzenin bizə qulluqçusu Həlimlə göndərdiyi içazə vərəqəsidir.- Bu bir necə kəlmə deyilib qurtarana kimi, artıq hamı başı görmüşdü. Qadınlar bir addım dala çəkilmiş, kişilər isə bir addım qabağa yerimişdilər.

-Bərəkallah, Həlim!-Knyaz Tarkanov Azərbaycan dilində ucadan dedi.- Siz bizə nə gətirmisiniz , mənim balam?

Həlim başı qaldırıb tən ortaya gəldi:

-Bu, həmin o ləzgi quldurlarının başçısının başıdır. Bunu Bədridze sizə göndərib. Özü gələ bilmədiyi üçün üzr istəyir. Lakin o, bir azdan burada olacaq. Orada hava çox isti idi. Ona görə də o köynəyini dəyişməyə getdi.

Gənc knyaz:

-Mən sizə demirdimmi ki, o, on ikinci başı kəsməyi çox da gecikdirməyəcək,- dedi.

-O, aldığı ağır zərbədən keçinəndən sonra, başını mən kəsdiyim üçün Bədridze onu mənə vermişdir, -Həlim sözünə davam etdi. –Knyaz, indi siz on manatı ancaq mənə verməlisiz.

-Çox yaxşı, çox da pakizə, elə bil ki, sən onu bu axşamlıq mənə borc vermisən,- deyə knyaz çavab verdi.-Lakin götür, o başı elə yerdə gizlət ki, itlər onu yeməsinlər. Onu sabah bazarda numayış etdirmək lazımdır.

Həlim:- Baş üstə -deyib, balkona çıxan pilləkənlərdə gözdən itdi. Bir azdan onu eyvanda gördük. O, başı aparıb gizlətmişdi.

Tezliklə Bədridze özü də səliqəli geyimdə gəlib çıxdı.

Ləzgilər onun qurduğu tələyə düşmüşdülər. Nəticədə qaçaqların başçısı da daxil olmaqla, üç ləzgi öldürülmüşdü. Onların başçısını Bədridze bir xəncər zərbəsi ilə öldürmüşdü. Zərbə onun başını ikiyə bölmüşdü. Başçılarının öldürüldüyünü görən ləzgilər dağlara tərəf qaçmağa üz qoymuşdular.

Knyaz Tarkanov deyilənlərə diqqətlə qulaq asaraq: -çox gözəl, onlar bu axşam daha bizi narahat etməyəcək. İndi də gəlin salona gedək. Guman edirəm ki, "Ləzgihəngi" rəqsi Aleksandr Düma cənablarının xoşuna gələcəkdir-dedi.

Bir azdan rəqs başlandı. "Ləzgihəngi" rəqsini doğrudan da gözəl ifa etdilər. Bayram axşamı pis təəssürat bağışlamadı.

Əvvəldə dediyimiz kimi Nuxa olduqca cazibədar , adamı heyran qoyan bir şəhərdir. Daha doğrusu, bura bütövlükdə istirahət yeridir.Aprel ayından başlayaraq oktyabra kimi burada 12

mindən 60 minə qədər adam yaşayır.

Görəsən, onun sərin kölgəliklərində dincəlmək, adamın ruhunu oxşayan bulaqlarının başında oturmaq xoşbəxtliyi kimə nəsib olacaq?

Nuxanın əsas ticarətini ipək təşkil edir. Onun bir fabriki var. O, toxuculuq fabriki deyil, əyrici fabrikidir. Bu fabrik hər il altı milyonluq xammal ixrac edir. Şəhərin evlərini kölgələrə qərq edən gözəl ağacların bir hissəsi tut ağaclarıdır. Onların atlas kimi yarpaqları ölkənin var-dövlətini təşkil edən milyardlarla barama qurdlarını yemləyir.

İtaliyanın cənubunda Pyemon və Milan vilayətlərinin barama qurdlarının dörddə üç hissəsi epidemiya nəticəsində məhv olduğundan. Bir il üç ay bundan əvvəl, iki-üç italiyalı tacir Nuxaya barama qurdlarının toxumundan almağa gəliblər. Lakin Nuxada bu toxumu satmaqdan imtina ediblər. Bu, rəqabətlə əlaqədar idi. Belə olan halda, onlar ləzgilərin yanına getməyə məcbur olmuşlar.

Demək olar, bütün Qafqaz dillərinin hamısında danışa bilən, Tiflis Teatrının bədii tərtibatçısı Ferati adlı bir cavan bu çətin vəzifəni öz üzərinə götürür. O, dağlılar kimi geyinib-keçinir, iki yüz min qızıl və gümüş pul götürüb yola düşür.

Ləzgilər heç kəsə baş əymədikləri kimi, qızıl və gümüşdən başqa heç bir şeyə məhəl qoymur, kağız pulu isə heç pul saymırlar.

Onun sövdası baş tutur və italiyalılar nəinki kifayət qədər barama toxumu ilə Qafqazı tərk edir, həm də Avropada düşdükləri zərərin də əvəzini çıxırlar.

Nuxaya öz toxuduqları müxtəlif geyim, parça, ipək və öz qoyunlarını satmağa gətirən itaətkar ləzgilərin içərisinə asanlıqla soxula bilən qeyri-itaətkar ləzgilər də gəlirlər. Onların içərisində yaylaqlardan və dağlardan gələn adamlar o saat tanınırlar.

Qeyri-itaətkar ləzgilər buraya yol kəsməyə, oğurluq etməyə, araya nifaq salmağa, qol kəsməyə və yaxud bəzən də şəhərə basqın etməyə, bizim şahidi olduğumuz kimi hadisələr törətməyə gəlirlər.

Səhəri gün ləzgilərin başcısının başı bazarda "nümayiş "etdirilirdi. Nuxa meydanında nümayiş etdirilən bu baş bir il ərzində kəsilmiş beşinci baş idi.

Bədbəxtlikdən ləzgilər müsəlmandır və buna görə də qəzavuqədərə, taleyə inanırlar. Sizin fikrinizcə, kəsilmiş bir baş bu cür taleyə inanan adamlara necə təsir göstərə bilər?

-Taleyin yazısı belə imiş!-deyirlər və bununla da hər şey qurtarıb gedir.

Səhəri gün biz bazarı gəzməyə çıxanda, camaat axşam kəsilmiş başa, demək olar ki, heç nəzər də salmırdı.

Bu , oğlunun təhlükəsizliyi üçün Tarkanovun ləzgilərə verdiyi dərsdi.

Doğrudan da bizim gördüyümüz kimi, süni sürətdə təşkil edilən böyük dava-dalaş, vaxtında görünməmiş basabas zamanı güclü bir kişi İvanı qəflətən götürüb atın üstünə qoyar və dördnala çaparaq çıxıb gedə bilər.

Uşağın qiyməti yüz min manatdır və ləzgi qaçaqları yüz min manatlıq bir şey üçün həyatlarını təhlükə altına qoyurlar . Nə isə...

Nuxa küçələrindəki balaca dükanların içərisində cızbız satılan dükanları az qala unutmuşdum. Bunlar bir növ bizim qızardılmış kartof satan ticarət nöqtələrinə bənzəyirlər.

Yaxşı olar ki, onu evdə bişirəsən. (Mən qızardılmış kartofu nəzərdə tuturam). Lakin nə qədər səylə hazırlasan da, bu heç vaxt təzə körpünün üstündə satılan kartofun dadını vermir.

Bax ,Nuxanın küçələrində satılan cizbiz da belədir. Bu zəhrimar cızbızın gözəl iyi və dadı var. Mən nə qədər çalışdım, özümü

saxlaya bilmədim və knyazdan xahiş etdim ki, ondan yeməyə mənə icazə versin .

Ey Nuxadan keçən səyyahlar, açıq havada dayanıb mütləq cızbız yeyin! Umumiyyəltə, Qafqazda adam o qədər də yaxşı yeyə bilmir. Lakin mən sizə məsləhət görürəm: belə təsadüfü əldən verməyin, mütləq cızbız yeyin!

Eh! Hayıf ki, Potidə bu sətirləri yazan zaman mənim yanımda Nuxadakı ətçi dükanının dalında, yöndəmsiz bir otaqdakı çox ləzzətli cızbız yox idi. Əgər olsaydı, görün mən necə bayram edərdim!

Artıq qərara almışdım ki, biz günorta saat birdə yola düşək . Biz istəsək də, həmin gün Tiflisə cata bilməzdik. Bir-iki dayanacaq yol gedib, səhərisi gün Tiflisə catmaq üçün axırıncı dayanacaqda –Sarskoye Kolotzedə də yata bilərdik. Buna bizim hələ vaxtımız vardı. Bazarı və şəhəri xeyli gəzdik. Elə bil ürəyimizə dammışdı ki, daha Nuxadan gözəl bir yer görə bilməyəcəyik.

Bazardan stolun üstü üçün süfrə və ya xalça almaq istədim, İvan buna imkan vermədi.

-Atam sizin üçün onun əlasını alıb,- dedi.

Bilirdim ki, bazardan qayıdandan sonra məni çox gözəl bir xalça gözləyir. Doğrudan da çarpayımın üstündə həddindən artıq gözəl bir xalça və onun yanında tayı-bərabəri olmayan bir Azərbaycan tüfəngi vardı.

Tamamilə ispanların əksinə olaraq, qafqazlılar bir şeyi təklif edəndə, bilin ki,onlara heç cür etiraz edə bilməzsiniz. Etiraz etmək, onları təhqir etmək deməkdir.

Mümkün olsaydı da, mən knyaz Tarkanovun verdiyi xalça və silahı qaytarmaq fikrində olmazdım. Çünki bu təmiz ürəklə bağışlanan töhfə idi.

Biz nahar etdik. Heyf ki, vaxt sürətlə ötüb keçirdi. Saat on iki

idi. Biz saat birdə yola düşməli idik. Knyaz bizi bir gün də saxlamaq üçün nələr təklif etmir, nələr vəd etmirdi. Lakin gördüklərimiz də kifayət idi. İndi Peterburq və Moskva haqqında təəssuratımız artıq maraqsız idi.

Knyaz Tarkanovun nahar məclisi eyni zamanda vida məclisi idi. Bu haqda düşündükcə, bikef olurdum. Ancaq nə edəsən ki, vaxt çatmışdı.

Ağır dəqiqələr gəlib çatmışdı. Mən hər iki əlimi balaca knyaza uzatdım. O, göz yaşları içində boğulurdu. Atası ona baxır və halına acıyırdı.

-Mən bir tərəfə gedəndə o, heç mənim üçün bu qədər ağlamır, - dedi.

-Mən bunu çox yaxşı başa düşürəm,- uşaq dilləndi. –Səni... mən bilirəm ki, səni yenə də görəcəyəm, sən məni heç vaxt tərk etməyəcəksən! Lakin cənab Düma...

Göz yaşları onu boğdu, sözünü tamamlamağa qoymadı. Mən öz oğlum kimi onu qucağıma götürüb, bağrıma basdım. Ah! Yazıq uşaq, görəsən mən səni bir də görəcəyəmmi ?Onda mən yenə səni bağrıma basıb, bərk-bərk qucaqlayardım. Sonra biz knyaz Tarkanov, Bədridze və başqaları ilə qucaqlaşıb ayrıldıq və faytona minib yola düşdük.

Vətəndən uzaqlarda gəzdiyim çox uzun müddətdə cəmisi iki dəfə ayrılıq dəqiqələrində ağır sarsıntı keçirmişəm.

Keçirdiyim bu iki sarsıntılı ayrılıq dəqiqələrindən biri xatirimdə dərin iz buraxan, mənim əziz, balaca dostumun payına düşür. Biz gözdən itənə qədər biri-birimizə əl elədik. Mən bir müddət yol gedə-gedə yeni tanışlar haqqında düşündüm .

Nuxadan knyaz Tarkanovun bir tüfəngini və bir xalçasını, Məhəmməd xanın bir qılıncını və bir tapancasını, bir xurcun və bir çarpayı örtüyü aparırdım .

Nəhayət, mən Bədridzenin şalvarını və gənc həkimin

toqqasını aparırdım. Bu axırıncıların haqqında sizə danışmaq istəyirəm, çünki çox maraqlıdır. Bizdə bədxərc adam haqqında deyirlər:"O şalvarınıda bağışlayardı". Lakin bu məcazi mənada deyilir. Mənim bildiymə görə, fransız olan müqəddəs Marten öz paltosunun yarısını bir kasıba verdiyi üçün müqəddəsləşdirilmişdir. Bu o qədər böyük səxavət olmadığı halda fırça ustaları onu paltoda geyinmiş kimi təqdim edirlər. Fransızların məcazi mənada işlətdikləri bu misal,Nuxada öz həqiqi mənasını tapır. Mən artıq demişəm ki, Nuxada iki parca mahudu almışdım. Nəzərdə tutmuşdum ki, bu mahudlardan Fransaya gedib çatandan sonra, özümə şalvar tikdirəcəyəm.

Çərkəzi çuxa və başmaq haqqında narahat olmurdum. Çünki Baqration mənə söz vermişdi ki, onları alıb Tiflisə göndərəcək. Lakin biz onunla şalvar haqqında danışmamışdıq.

Axı heç bir modeli olmayan bir şalvarı Parisdə necə tikdirə bilərəm?

Bu fikir məni narahat edirdi.

-Bədridzedən xahiş edin, icazə versin, onun şalvarına baxım, -deyə İvana müraciət etdim . –Fransaya qayıdandan sonra özümə belə bir şalvar tikdirmək istəyirəm. Elə bunun üçün də baxmalıyam görüm, yadda saxlaya bilərəmmi ki, onu necə tikiblər?

Balaca knyaz mənim fikrimi Bədridzeyə çatdırdı. O saat Bədridze şalvarının qayışını açdı. Sağ ayağının üstə qalxıb, sol ayağını çıxartdı, sol ayağının üstə qalxıb şalvarın sağ ayağını tamamilə çıxartdı. Sonra isə yəhərin üstündən götürüb onu mənə təqdim etdi.

Mən çox təəcüblə onun hərəkətlərini izləyirdim.

-Axı, o, nə etmək istəyir?- deyə gənc knyazdan soruºdum.

-Onu sizə bağışlayır.

-O, öz şalvarını mənə bağışlayır?

-Bəli, siz onu görməyi arzu etdiniz.

-Mən ona ancaq baxmaq istəyirdim.

-Madam ki, o təklif edir, götürün.

-Canım, yox, bu ola bilməz. Mənim knyazım, mən onun şalvarını götürə bilmərəm.

-Başa düşün. Əgər şalvarı götürməsəniz, siz onun xətrinə çox bərk dəyə bilərsiniz.

-Xeyr, bu mümkün olan iş deyil, mən onun şalvarının götürə bilmərəm.

Bədridze öz çərkəzi çuxasını yenidən bərkitmiş və onu öz yəhərinin üstünə salaraq qılçalarını gizlətmişdi. Sonra o, mübahisəyə müdaxilə edib, nəsə dedi.

-O nə deyir?-soruşdum.

-O deyir ki, bu tamamilə təzə şalvardır, arvadı tikdiribdir. Bu gün səhər birinci dəfədir ki, əyninə geyib. Bircə onun fikrini çəkir ki, kəməri köhnədir.

-Əşi, siz nə danışırsınız! Bunun fikrini çəkməyə dəyməz- deyə cavan həkim dilləndi,-mənimki təptəzədir, özü də bazardan dünən almışam.

-Götürün, götürün! Siz onu incidirsiniz! –deyə İvan mənə müraciət etdi. Doğrudan da, Bədridzenin sir-sifəti dəyişmişdi.

-Aman, Allah! –Mən öz-özümə qışqırdım. –Axı, başa düşün, o , şalvarsız buradan Nuxaya qayıda bilməz.

-Bu uzunboğaz çəkmələrdə və bu çərkəzi çuxanın altında kim onun qıçların görə bilər, axı?!-knyaz dedi.

-Mən yenə etiraz edirdim.

-Yəqin mən onu geydiyim üçün cənab Düma götürmək istəmir,- Bədridze dərindən köksünü ötürərək dilləndi. –Cənab Dümaya deyin ki, bizdə dostun piyaləsindən badə içmək xoşbəxtlikdir.

-Yaxşı, olsun, -deyə mən razılaşdım. –Mən sənin piyaləndə badə içəcəyəm.

Bax, beləcə, Bədridzenin şalvarını və gənc həkimin kəmərini götürüb yola düşdüm.

Ancaq mən onu geyinmək istəyəndə dar oldu. Bədridzenin piyaləsindən “badəni” mənim əvəzimə Kalino içdi.

Biz Nuxadan uzaqlaşdıqca onun görünüşü daha da gözəlləşir və bütün füsünkarlığı ilə gözümüzün qabağında canlanırdı. Bərqərar olduğu Qafqaz sıra dağlarının dilbər bir güşəsinə qısılmış Nuxa , onu yaşıllığa qərq edən, qoynunda gizlədən ağacların arasından güclə görünürdü.

Zirvəsi qarla örtülmüş bu dağların əzəmətli və adamı heyran edən görünüşü vardı. Qafqaz sıra dağlarının tayı-bərabəri olmayan Alazan vadisi ilə irəliləyirdik. Bir məntəqədə dayandıq. Buradan Nuxa o qədər gözəl görünürdü ki, Moyne dayanıb onun mənzərəsini çəkdi. Həmin tablo hal-hazırda Qafqaz canişini Baryatinskidədir.

**Bu kitabı oxuduğunuza görə çox sağ olun**

**Allah-Təala sizə yar olsun!**

## İSTIFADƏ OLUNAN ƏDƏBIYYATLAR:


1. Türkün qızıl kitabı Bakı-1992
2. Azərbaycan tarixi üzrə qaynaqlar Bakı-1989
3. Qədim Şərq tarixi Bakı-1993
4. Qızılbaşlar tarixi Bakı-1993
5. Müxtəsər Azərbaycan tarixi Bakı-1992
6. 100 böyük türk Bakı-1991
7. Böyük hun imperiyası, 1 kitab Bakı-1992
8. Böyük hun imperiyası, 2 kitab Bakı-1992
9. Azərbaycan tarixi Bakı-1994
10. Oğuz səltənəti Bakı-1992
11. Azərbaycan Atabəylər dövləti 1136-1225 Bakı-1985
12. Qədim Azərbaycan Bakı-1989
13. Qədim türklər Bakı-1993
14. İblis xislətli erməni Bakı-2009
15. Şəki Bakı-1988
16. Ömür kitabı- Sabir Rüstəmxanlı Bakı-1988
17. Oljas Süleymanov AZ-YA Bakı-1993
18. Nadir şah Tehran-2010
19. Nadir şah Bakı-2008
20. Təhmasib şah Bakı-2009
21. Ölüm mələyi Bakı-2012
22. Çingiz xan Bakı-1983
23. Orxon-yenisey abidələri Bakı-1993
24. Əmir Teymurun vəsiyyətləri Bakı-2012
25. Sənin ulu baban Bakı-1989
26. Xacə şah Bakı-1994
27. Səfəvilər Güntay Gəncalp Bakı-2012
28. Azərbaycan VII-IX əsrlərdə. Ziya Bünyadov Bakı-1989
29.Cavanşir Davud Nəsib Bakı-2000

30.Şimal-Qərbi Azərbaycan Bakı-1999
31. Тюрки и Армяне Вашингтон-1989
32. Полын Половецкого поля Москва-2007
33. Огуз-Наме Баку-1987
34.48 Законов власти Москва-2002
35.Şəki Xanlığı Bakı-1997
37.Şəki Xanlığının tarixindən Bakı-1993
38. Qafqaz səfəri Bakı-1985
39. Avesta Bakı-1995
40.Atropatena tarixinin oçerki Bakı-1989
41.Османская империя Москва-2006
42.Şərq və Qərb əbədi əlaqəmiz Bakı-2008

## MİNNƏTDARLIQ

“Tariximizdən bir vərəq“ kitabının işıq üzü görməsində dəyərli təkliflər verənlərə, yaxından köməklik göstərənlərə dərin minnətdarlığımı bildirir, səmimi təşəkkürümü və xeyir-dualarımı çatdırıram.

Dadlı milli xörəklərimizlə məni bu yolda ruhlandıran həyat yoldaşım Mahirə xanıma, bu kitabın ərsəyə gəlməsində əziyyəti keçən oğlum Vahidə, qızım Sevdaya, tariximizi dərindən bilən nəvəm Vüsaləyə, böyük əməyi olan nəvəm İlkinə, onun anası Vəfaya, kompüter işlərində etdiyi köməyə görə nəvəm Yeganəyə, nəhayət şirin sözləri ilə “Baba, get kitabını yaz” deyən balaca nəvələrim Rəfiyəyə və Nəzifəyə, onların anası - mənim gəlinim Rivayə öz səmimi təşəkkürümü çatdırıram.

Yaradanın müqəddəs əli həmişə üstünüzdə olsun.

Kitabın yazılmasında, redaktə edilməsində xüsusi köməyi olmuş, öz səmimi töhvəsini əsirgəməyən, ön sözün müəllifi qardaşım oğlu Süleymana böyük minnətdarlıq payı düşür, çox sağ olsun!

Əlyazmaların kompüterdə çapa və dizaynla nəşr olunmasında əməyi olan: Abbasa, Həmidəyə, Rüfətə, Zaura, İlhama və nəşriyyat əməkdaşlarına minnətdarlığımı bildirirəm.

Uca ulu Allah-təala öz mərhəmətini Sizdən əsirgəməsin.

***Müəllifdən***

## *İçərisindəkilər*

Giriş ............................................................................3
Ön söz ..........................................................................9
Türk dövlətləri..............................................................18
Oğuz xan ......................................................................27
Mete ............................................................................30
Tomris xatun ................................................................36
Atropat .........................................................................41
Atilla.............................................................................44
Cavanşir.......................................................................53
Babək ...........................................................................61
Osman Qazi .................................................................66
Atabəy Şəmsəddin Eldəniz..........................................69
Qazan xan....................................................................74
Çingiz xan ....................................................................78
Əmir Teymur ................................................................93
Fatih Sultan Mehmet...................................................100
Babur şah ..................................................................105
Yara Yusif ...................................................................108
Uzun Həsən ................................................................110
Sultan Səlim................................................................119
Şah İsmayıl Xətai.........................................................127
Sultan Süleyman Qanuni............................................139
Barbaros ....................................................................143
I Təhmasib şah............................................................145
I Abbas şah ................................................................151
Nadir şah ....................................................................156
Qacar şah ...................................................................169
Şəki xanları .................................................................181
Şəki üsyanları..............................................................251
A. Dümanın Şəkiyə səfəri............................................269
İstifadə olunan ədəbiyyatlar........................................304
Minnətdarlıq ...............................................................306

# Nadir Alı oğlu ƏHMƏDOV



1940-cı ildə Şəkidə anadan olmuşdur. 1957-ci ildə Şəki şəhər 10 saylı orta məktəbini ,1960-ci ildə Bakı Rabitə Texnikumunu. 1965-cı ildə Odessa Rabitə İnstitunu bitirmişdi. 1960-85-ci illərdə Bakı Telefon Şəbəkəsində montyordan rəisə qədər ucalmışdır 1968-1970-ci illərdə hərbi xidmətdə olmuşdur.1985- 1997-ci illərdə Azərbaycan Respublikası rabitə nazirinin müavini, 1997-2004-cü illərdə Azərbaycan Respublikasının rabitə naziri olmuşdur.

Qarabağ müharibəsi veteranıdır.

O beş texniki məlumat-təlimat və 3 tarixi kitablarının müəllifidir.

Dövlət və ictimai işlərdəki xidmətlərinə görə "Şərəf nişanı" orderi ilə təltiv olunmuş SSRİ Rabitə Nazirliyinin "Rabitə ustası" adına, Respublikanın "Əməkdar Rabitəçi" fəxri adına, MBD Dövlətlərinin Assambleyasının qızıl medala və xüsusi diploma layiq görülmüşdür.

ABŞ-ın Bioqrafiyalar İstitutunun dünyada apardığı sorğuya əsasən "2001-ci" ilin adamı seçilmişdir. 2002-ci ildə ABŞ-da aparılan sorğuya əsasən "Dünyanın qabaqcıl ziyalıları" tituluna layiq görülmüşdür. 2003-cü il dünya xalqlarının ömürlük senatoru seçilmişdir.

2005-ci ildə Ümumdünya Sülh Federasiyasının Sülh Elçisi seçilmişdir.

KİV və Sosial Araşdırmalar Mərkəzi tərəfindən "İlin ən iş güzar dövlət məmuru", "İlin Naziri" və s. adlara layiq görülmüşdür.

1979-87-ci illərdə Bakı şəhər Xalq Deputatları Sovetinə deputat seçilmişdir.

Abşeron rayonunun və Mingəçevir şəhərinin fəxri vətəndaşıdır.

Evlidir, 3 övladı, 5 nəvəsi və bir nəticəsi var.

# ~~XÜSUSİ QEYDLƏR~~

## *XÜSUSİ QEYDLƏR*

# ~~XÜSUSİ QEYDLƏR~~

~~ghgh~~